NAİLƏ QILICOVA
(DƏRYA QILIC)

Cinayət və məhəbbət

Nailə Qılıcova (Dərya Qılıc). Cinayət və məhəbbət.

ÖN SÖZ

Ənənəvi roman üslubunda yazılmış “ Cinayət və məhəbbət “ əsəri Qılıcova Nailə Bahadur (Dərya Qılıc) qızının sayca yeddinci kitabıdır. Əsər janrına görə əxlaqi -tərbiyəvi xarakterli məişət romanıdır. Mövzusu ətrafımızda baş verən hadisələridən götürülmüş olan romanda təbii təsvir, şirin müəllif təhkiyyəsi ehtiva olunmuşdur. Güclü müəllif təhkiyyəsi, süjet və kompazisiya xüsusiyyətlərinin ənənəviliyi oxucunu öz dünyasından ayırıb əsərin cazibədar orbitinə sala bilir. Əsər sanki oxucunu mənən zənginləşdirmək missyasını daşıyır. Əsərin qəhrəmanı Ayaz adlı bir gəncdir. Bütün hadisələr onun uşaqlıq dövründən başlayaraq cərəyan edir. Ayaz böyüyüb boya - başa çatdığı ailə təmizlik , saflıq simvolu olsa da , Fərrux obrazını yaratmaqla müəllif çəmiyyətimizin mənfur ünsürlərini də göstərmişdir. Uşaqlığında hədsiz dərəcədə dəcəl olan Ayaz yeniyetmə çağında Fərruxun toruna düşüb , günahsız bir qızın zindana atılmağına səbəb olsa da , tezliklə səhvini başa düşüb günahını boynuna almaq üçün məhkəməyə getməli olur. Hər şey bundan sonra başlayır. Ayaz dəlicəsinə Səmaya aşiq olur. Əsər boyu məhəbbət motivləri tərənnüm olur. Nailə xanım əsərində insanlığı təbliğ etməyə çalışıb . Ata anasını itirmiş dörd yetim uşağa arxa kömək çıxan qonşuların saf əməllərini göstərməklə yanaşı , Mina ilə Fərid kimi acgöz, fırıldaqçı, başqasının var dövlətinə göz dikən obrazları da yaratmaqla oxucularına yaxşı ilə pisin əməllərini göstərmək istəmişdir. Müəllif mifik hadisələri qabarıq şəkildə göstərməsə də İnsanda ədalətin qalıb gələcəyinə bir inam yaratmışdır. Pisliyin, amansızlığın gözə görünməz bir qüvvə tərəfindən cəzalandığını yazmaqla işanlarda yalnız xoş əməllər görmək istəmişdir. Roman zəngin dramatik hadisələrlə zəngindir. Müəllif

bilərəkdən oxucusunu intizarda qoyaraq əsərin iştirakçısına çevirə bilmişdir.

Kitabda beş hekayə də yer almışdır. Müxtəlif məzmunlarda yazılmış hekayələr hər biri ayrı ayrılıqda maraqlı məna kəsb edir. " İntihar " hekayəsi müasir dövrümüzün bəlasına çevrilmiş xəyanətdən bəhs edir. Yeniyetmə gənc oğlan atasının xəyanətini təkcə anasına olan xəyanət kimi deyil , həm də övladlarına olan xəyanət kimi qəbul edib , intihar edir.

"Rafiqin səfəri" hekayəsi vətənpərvərlik ruhunda yazılıb, torpağa bağlılıq və vətən sevgisi tərənnüm edir . Digər üç hekayə yumor hissi ilə yazılıb .

Kitabda olan həm roman, həm də hekayələr sadə və oxunaqlı dildə yazılmışdı. Ümidvaram ki, müəllifin " Cinayət və məhəbbət " adlandırdığı bu kitabı da " Qəmli səadət " , " Cəhənnəmə gedən yol " , " Dağlardan gələn səda ", " Bir qapılı iki məhlə ", " İtkin arzular " , " Tale yolları" kitabları kimi çox saylı oxucu kütləsinin marağına səbəb olub , onların tərəfindən sevilib rəğbət qazanacaq. Müəllifə yeni - yeni yaradıcılıq uğurları arzulayıram.

. Mətanət Saraçı (Həsənova)
Filologiya Üzrə Fəlsəfə
Doktoru Bakı Dövlət Universiteti Klassik Azərbaycan
Ədəbiyyatı Kafedrasının dosenti AYB- nn üzvü

ROMAN
Cinayət və Məhəbbət

Ağlım kəsəndən bəri günüm danlanmaqla keçirdi. Hərdənbir ömrü qısa olan tərifli günlərimi xatırlayıb məyus olurdum. O da ibtidai siniflərə təsadüf edirdi. Dördüncü sinifdən sonra beş aldığım yadıma gəlmir. Yuxarı siniflərə qalxdıqca isə heç dörd aldığımı da xatırlamıram. Üçü də atamın xətrinə yazırdılar.Anam yazıq axşamlar köynəyimin düymələrini tikirdi.Elə bil and içmişdim ki, hər gün dava edib düymələri qıracam.Hər səhər evdən səliqəli geyimdə çıxsam da , evə düyməsiz köynəkdə, ayağım corabsız, üz -gözüm cırıq-cırıq dönürdüm. Corabımı heç olmasa cibimdə tapanda anam sevinirdi. Yazıq arvad bazara gedəndə ilk əvvəl düymə ilə corab alırdı ki, sabah məni məktəbə yola sala bilsin. Törətdiyim əməllər bitib tükənmək bilmirdi. Hər gün qapımızı bir şikayətçi döyürdü. Kiminin uşağını döyürdüm, kiminin velosipedini qırırdım. Böyük mağazaların şüşələrini daşla vurub qırırdım. Düzdür, atam şüşəni alıb sınmış qapı pəncərələri təmir etdirirdi. axırıncı dəfə kişi bunun üstündə mənə bir sillə vurdu. Sən demə qonşular mənim oğurluq etmək məqsədi ilə şüşələri qırdığımı deyirlərmiş. Oğurluq etmək mənim heç vaxt ağlıma gəlmirdi.Buna heç marağım da yox idi. Elə bil ki, məni danladıqca , haqqımda ağır sözlər danışdıqca qızışırdım. Sanki həmin sözlərə layiq olmağa çalışırdım. Mənə elə gəlirdi ki, sakit həyat tərzi keçirsəm onda mən Ayaz deyil bir başqa oğlan olardım. Başqası olmaq istəmirdim. Mən bu dəli Ayazı çox sevirdim. Bir dəfə atam qəzetlərin birindən kiçik məlumat oxuyub anama danışırdı. O , deyirdi ki, sən demə heç bir millətin nitq hissəsində xuliqan sözü yox imiş. Bu söz Hol-

landiyadan olan Huliqan adlı bir oğlanın adından götürülüb. Bu oğlan bizim Ayaz ağılda biri imiş. O qədər şuluq imiş ki, hamı onu nümunə göstərib Hulaqan kimi deyərmiş. Beləliklə, zaman keçdikcə bu söz Huliqandan Xuliqana keçməklə nitq hissəsində məna kəsb etməyə başlayıb. Bu sözlərdən sonra atam Huliqanın törətdiyi bir neçə macəradan danışdı. Həmin gündən Huliqana qibtə etməyə başladım .Niyə oğlanın adı dillərdə dastan olub, tarixdə qalmışdı? Gərək məni də onun kimi hər yerdə tanısınlar, -deyə düşündüm. Sözün əsl mənasında dərdə düşmüşdüm. Oğlanı özümə qəhrəman seçmişdim. Onun haqqında o qədər düşünmüşdüm ki, mənə elə gəlirdi ki, onu görmüşəm. Daha doğrusu sanki iki nəfər idik. Nə hərəkət etsəm onunla birlikdə edirdim. Elə ona görə də heç vaxt heç nədən qorxmurdum. Axı biz iki nəfər idik. Yaylarda rayonumuza da gedirdik, Novxanıdakı bağımızda da qalırdıq. Demək olar ki, yavaş - yavaş istəyimə çatmağa başlamışdım. Belə ki, əməlli başlı məhşurlaşmışdım. Hər yerdə mənim gözümdə qorxu olmamağından danışırdılar.

Bu il də yay yenicə girən kimi rayona getdik. Əvvəla ona görə ki, atam yayın ilk günlərini rayonda keçirməyi xoşlayırdı. Təbiət vurğunu olan atam dağları , meşələri ilin bu vaxtı gəzməyi sevirdi. Həm də rayonda atamın çox hörmətli , nüfuzlu bir dostu oğluna toy edirdi. O, atamın ailəliklə bu toyda iştirak etməyini istəmişdi. Anam məni toya aparmaq istəmirdi. Yazıq qadın : "Sən allah , Vaqif , başımıza iş açma deyib, təkid edirdi. Qoy gedək toydan ləzzət alaq , istirahət edək. Nə vaxtdır rayonumuzda toyda olmamışıq. Rəfiqələrimlə, qohum , qonşularla görüşəçəm. Ayaz anamgildə qalsın, Fidanı aparıb gedək. Atam anamın sözünü ağzında qoyub, Ayaz da gedəcək, - dedi. Anam inad edib: Ayaz getsə mən getməyəçəm,- desə də atamın hirsləndiyini görüb məni də toya getmək üçün hazırlaşdırdı. Çox sevindim . Nənəmgil mənə dərıxdırıcı gəlirdi. Toy sahibi hörmətli adam olduğu üçün, toy da

çox təntənəli toy idi. Mən ömrümdə görmədiyim bir yerə düşmüşdüm. Atam kənd təsərrüfatı nazirliyinin məsul işçisi olsa da bizim üç gözdən ibarət mənə görə qəşəng , bəzəkli mənzilimiz var idi. Bu evi görəndən sonra evimizin daxma olduğunu düşündüm. Kənardan baxanda torta bənzəyən ev az qala bizim mənzilimiz yerləşən bina boyada idi. Həyətdə iki mərtəbəli çardaq var idi. İçərisi xalça ilə döşənmişdi. Pilləkənlərə də ensiz xalça salmışdılar. İkinci mərtəbədə böyük - böyük pəncərələr var idi. Hansılar ki şadlıq evində olduğu kimi tül və məxmər pərdələr asılmışdı. Masaların üzərinə ağappaq süfrələr salınmışdı. Hətta masaların ətrafına qoyulmuş stulların da üstünə ağ örtük salınmışdı. Hər tərəf gül - çiçək və şarlarla bəzədilmişdi. Bir sözlə bura mənlik bir yer deyildi. Ikinci mərtəbəyə qalxanda atamla anamın üzərində yaranan gərginlik gözümdən yayınmadı. Bu dəfə onlara mənə görə deyil içəridəki təntənəyə görə sıxılırdılar. Bizi səmimi qarşılayıb başdakı masalardan birinə keçirdilər. Demək olar ki , yarım saat ərzində bütün masalar doldu. Oturmağa bir dənə olsun boş stul qalmadı. Bayaqdan canımı dişimə tutub zorla oturmuşdum. Bizim masaya yaxınlaşıb atamla qucaqlaşıb görüşən kişinin oturmağa yeri olmadığını görüb qalxıb stulumu ona verdim. Atam mənim hərəkətimdən çox sevinsə də anam narahat oldu. Yazıq qadının gözü dörd oldu. O, gözü ilə mənə baxıb döyükməyə başladı. Az qalırdı ki, yerindən qalxıb stulunu mənə versin, çünki mənim gözdən itib getməyimi istəmirdi. Mənə isə elə bu lazım idi .Bir göz qırpımında pilləkənlərlə aşağı düşdüm. Həyətdə boş- boş avaralanmağa başladım. Lakin nə qədər boylansam da, özüm yaşda kimisə tapa bilmədim. Hamı iş başında idi. Bir az bəylə gəlinin gəlişi başımı qatdı. Gəlinin paltarının ətəyindən tutan balaca qızlar əsl mələyə bənzəyirdilər. Qarşıda gələn nisbətən böyük qızın əlində gül ləçəkləri olan səbət var idi. O , ləçəkləri ovcuna alıb bəylə gəlinin ayaqları altına səpirdi. Gül səpilmiş xalça-

nın üstü ilə irəliləyən bəylə gəlinə baxıb onların xəyal olduğunu düşünürdüm .Hər ikisi sanki xalçanın üstü ilə deyil, buludların üstündə yeriyirdilər. Bu bəlkə də mənə belə görünürdü .Oğlanın görkəmində bir məğrurluq olsa da, qız ağlamağa hazırlaşan uşağa bənzəyirdi. Onların bu təntənəli gəlişindən sonra darvazanın ağzından çardağa qədər salınmış xalçaları tələm tələsik yığışdırıb iş güc dalınca qaçmağa başladılar. Ağ xələtli oğlanlar restoranda olduğu kimi dalbadal düzülüb yuxarıya yeməklər daşıyırdılar. Ucu - bucağı olmayan böyük bağçanı gəzməyə başladım. Sıra ilə səliqəli əkilmiş meyvə ağacları yetişmiş və kal meyvələrlə dolu idi. İstədiyim meyvələrdən yığıb yeyəndən sonra nəhayət məni çox sevindirən nəhəng iti gördüm. Onu dəmir tordan olan bir yerə salmışdılar. Damı da taxtadan deyil daşdan tikilmişdi. Bir sözlə, bu az qala eşşək boyda olan böyük qorxunc itin sahibinin evi kimi böyük evi və məhləsi var idi. Mən onun toruna yaxınlaşanda əsəbləşib qorxunc səs çıxartsa da bir başa ona yaxınlaşdığımı görüb susdu . Sonra isə köhnə tanışlar kimi qucaqlaşıb oynamağa başladıq. Doyunca oynayandan sonra iti atama göstərmək fikrinə düşdüm. Elə o məqsədlə onun zəncirini açıb əlimə aldım. Birlikdə evə tərəf daha doğrusu təntənəli , şahanə çardağa tərəf getməyə başladıq. Əlimdə itin zənciri ilə gəldiyimi görən aşbazlar , çayçılar, nə bilim quluq edənlər hamısı yoxa çıxdı. İki özüm boyda itlə birlikdə pilləkənlərlə yuxarı qalxdım. Biz pilləkənin başında peyda olanda musiqiçilər musiqini kəsdi. Dərhal içəridən qışqırıq səsi qalxdı. Ortada oynayanlar baş tərəfə çəkildilər. Atam ayağa durub qışqırırdı:

- Düş aşağı, iti apar yerinə sal.

İtin içəridə yaratdığı vahimədən lap xoşum gəldi. Təəccüblüsü o idi ki, ev sahibi özü də mənə yaxın gələ bilmirdi. Kişinin gözü kəlləsinə çıxmışdı. O, aşağıya doğru baxıb ,Cabo deyib bağırırdı. İtlə birlikdə masaların arası ilə üzü yuxarıya

doğru gedirdim. Kişilər özünü saxlaya bilsələr də it yanına çatanda qadınların çoxu dəli kimi qışqırırdı. Beş on dəqiqədən sonra yekəpər , gənc bir oğlan özünü mənim üstümə saldı . Onun sacının dibindən su tökülürdü. İtin zəncirini əlimdən alıb onu çəkə - çəkə aşağıya apardı. İtə mənimlə çox xoş idi. Çünki Çabo deyilən o oğlanla mırıldaya -mırıldaya gedirdi. Anam ayağa qalxıb məni və bacımı götürüb toy evini tərk etdi. O, kağız kimi ağarmışdı. Evə çatan kimi hönkürüb ağlamağa başladı. Mənə atam cəmi bir sillə vurmuşdu,amma anam həmişə məni kötəkləyirdi. İndi isə o məni yox özünü döyürdü. Dedim Vaqifə ki, qoy bu rədd olub evdə qalsın . biabır olduq. Anam danışıb - danışıb susdu. Atam toydan qayıdanda yenidən başladı. Bu dəfə atam ona qoşulmadı. Anamı ən çox yandıran toydan yarımçıq qayıtmağı idi. Əmim əmməli başlı sərxoş olsa da gülməkdən ölürdü. Həvəslə mənim itlə içəridə peyda olmağımı təsvir edib qəşş edirdi. Atamın da gülməyi tutsa da özünü zorla saxlayırdı. Dəqiq bilirdim ki, onun da gülməyi tuturdu. Qaşlarını çatan kişi nəhayət dillənib əmimə dedi:

_ Ay Ramiz , o boyda iti haradan tapıblar? Mən hələ indiyə qədər bu yekəliyində it görməmişəm.

Əmim yenidən qəhqəhə çəkib dedi :

- Haradan alır alsın , Ayaz ona başa saldı ki, sənin itin bir zibil deyil.

Anam hirslənib yenidən deyinməyə başladı. Mən bacarınca gözə görünməməyə çalışdım. Təkcə o gecə deyil bir- iki gün atamdanda gen gəzdim. Rayonda qəhrəmana çevrilmişdim . Hamı məndən danışırdı. Bizdən bir həftə sonra Arif əmimgil də rayona gəldilər. Söhbət Arif əmimə hələ Bakıda çatıbmış. Kişi inanmırmış. Bu uşağı danışa - danışa dəli edəçəklər - deyib söylənirmiş. Kişi hadisəni eşidəndə gözləri yaşarana qədər güldü. Bu söhbətlərdən həzz ala bilməmiş Bakıya qayıtdıq . Atamdan kənar gəzsəm də etdiyim hərəkətə görə

özümdən razı olduğumu başa düşürdü. Bakıya gələndə yolda mən tərəfə baxmadan dedi:

- Bəxtəvər başına , Səidə, oğlun it otara bildiyi üçün qurur duyur. Xalqın uşaqlarının ağlı , yaxşı oxumağı , tərbiyəsi dillərə dastandır. Mənim oğlum da rayonumuzda it otarmağı ilə məşhurlaşıb.

Anam himə bənd imiş kimi açıldı nə açıldı.

- And içirəm , Vaqif, mən daha Bakıda darıxıb ölsəm də rayona gələn deyiləm. Xəcalətimdən ölüb yerə girdim. Gözümün önündən getmir sənin toyun içində bağırmağın. Deyirsən düş aşağı, bu bəy atasını dinləmək əvəzinə masaların arasında gəzir. Heç elə bil səni eşitmirdi.

Aman allah anam bu hadisəyə görə nə qədər deyinsə də sakitləşə bilmədi. Hələ üstəlik qabaqkı illərə də qayıtdı. Babam rəhmətə gedəndə cəmi beş yaşım var idi. Eysan vermək üçün alıb tövləyə bağladıqları dananı açandan sonra haylayıb damdan cıxartmışdım. Dana da hürküb qaçanda çadırı ayaqlayıb uçurmuşdu. Yaralanıb edən olmasa da babamın dəfn mərasimi qəribə bir tərzdə keçmişdi. Anam döymək istəyəndə Ramiz əmim məni qucağına alıb bağa qaçıb. Bağdan anama sarı qışqırıb demişəm ki, babam mənə velosiped almağa söz vermişdi, niyə almayıb öldü? Sözümü eşidənlər qəhqəhə çəkib güləndə atamın çox açığı tutub. İndi anam hadisəni yada salanda atam yenə hirslənib deyindi. Atamla anamın sonra nə danışdıqlarını eşitmədim. Həmişəki kimi danlaq motivləri altında yuxuya getdim. Gözümü Kürdəmirin yeməkxanasına düşəndə açdım. Anam məni silkələyib: Dur, özünü Kürdəmirlilərə də göstər,- dedi. Çox acdığım üçün yemək mərasimi sakit keçdi.

Bir həftədən sonra bağa köçdük. Mənə elə gəlir ki, məçarə törətmək üçün rayon Bakıdan daha yaxşıdır. Çünki orada mənimlə maraqlanan adam daha çox idi. Bir maraqlı iş görən kimi qohum qonşu bir yerə toplaşan kimi Vaqifin oğlun-

dan xəbərin varmı deyib , həvəslə məndən danışırdı. Bakıda məşhurlaşmaq elə də asan deyildi. Əslində bağda mənim üçün maraqlı iş lap çox idi. Çox heyf ki, fəaliyyətimi nümayiş etdirmək üçün ailəmizdən başqa heç kim yox idi. Bacımla işim yox idi. Ona yalnız yaxşılıq etməyə çalışırdım. Hətta anam onu döymək ,danlamaq istəyəndə mən qızı qucağıma alıb qaçırdım. Əlbəttə atamla anamı da Fidandan az sevmirdim. Amma nədənsə onları hirsləndirirdim. Ən çox məni yandıran Zirəddin idi. Mən onu heç nə ilə təəccübləndirə bilmirdim. Üç - dörd ildən artıq idi ki, Zirəddin bizim bağda qalırdı. Atamın uzaq qohumu idi. Bir qızı götürüb qaçıb atamın üstünə gəlibmiş. Deyilənə görə Zirəddinlə Gülər hələ orta məktəbdə oxuyandan bir - birini sevirmiş. Lakin valideynləri bu izdivaca razı olmadığı üçün qoşulub atamın üstünə gəliblər. Atam da onları bizim bağda yerləşdirib. Zirəddini işlə təmin elətdirib. Mən elə ağlım kəsəndən onları bağda görmüşdüm. Hətta balaca vaxtı elə bilirdim bura onların bağıdır. Çünki Zirəddin həyətdə saldığı bostana atam keçməyə icazə vermirdi. Qəribə olsa da atamın zənbillərlə alıb gətirdiyi pomidor, xiyar , qarğıdalı qalırdı bir kənarda mən Zirəddinin bostanını talan eyləyirdim. Anam mənim hərəkətimdən xəcalət çəkirdi. Ona görə atamın alıb gətirdiyi tərəvəzi , meyvəni aşsüzənə doldurub aparıb Gülərin masasının üstünə qoyurdu. Geri dönəndə bu dəfə mənə deyil Gülərə söylənirdi :Bah , bir Allahın sağolunu da demir. Qız özünü elə aparır, guya Ayaz demiş , buralar bunun atasınındı Hər dəfə də bunun üstündə atamla dalaşmalı olurdu. Atam hirslənib: Sən də elə Ayaz ağıldasan, - deyirdi. Anam isə sözündən dönməyib düz dediyini söyləyirdi:

-Adamın bir abrı olar da uşaq iki xiyar qopardıb , Gülər xanımın xətrinə dəyib . Elə bil atasının torpağıdır əkib becərdiyi.

Atam anamın deyinməyini eşidib deyirdi:

- Səidə, sən allah bəsdir. Sən o torpaqda bir şey əkib becərənsən?

Beləliklə atamla anamın arasına dava salıb rahatlaşırdım. Atam hər işə gedəndə məni Zirəddinə tapşırıb , gözün Ayazın üstündə olsun desə də hər dəfə Zirəddinin atama verdiyi cavab məni yandırıb tökürdü. O, mənim sakit , ağıllı olduğumu söyləyirdi. Atam müəmmalı şəkildə gülümsəyib əlini yuxarı qaldırıb gözlərini yumurdu.Bu sənə inanıram demək idi. Mən isə gecə - gündüz çalışıb Zirəddini sözün əsil mənasında dəli etmək istəyirdim. Bu gün atamın uca dirəklərin üstündə qoydurduğu su cənin üstünə qalxmışdım. Ora elə yüksək idi ki, dəniz görünürdü. Anamı cəlb etmək üçün qəribə səslər çıxardırdım. Anam məni görən kimi qışqırıb haray salmağa başladı. Çəmi beş dəqiqədən sonra Zirəddinin cənin üstündə qalxdığını gördüm. O, elə qalxıb oturmuşdu ki , sanki burada qorxulu ya da ki , maraqlı heç nə yox idi. O, cənin üstündə oturub ayaqlarını aşağı sallayıb məni də yanına çağırdı. Mən Zirəddini qorxutduğumu zənn etsəm də o , mən tərəfə baxmadan üzü dənizə tərəf oturmuşdu. Elə həmin vəziyyətdə məni səsləyib: Gəl burada otur, - dedi . Buradan dəniz yaxşı görünür. Bir az kənara çəkilib yanında mənə yer etdi. Gəlib onun yanında oturdum . Doğrudan da dəniz yaxşı görünürdü Çəmi beş on dəqiqədən sonra Zirəddin ayağa qalxıb : Eh , bura da nə var əə,- dedi. İstidən adamın başı bişir. Elə bildim bir maraqlı yer tapmısan. Mən düşürəm , sən özün bilərsən deyib bir göz qırpımında cənin üstündən düşüb getdi. Bir sözlə Zirəddin mənim bu hərəkətimi heçə döndərdi. Halbuki gündə bir neçə dəfə cənin üstünə çıxıb anamı qışqırdaçağımı düşünürdüm. Zirəddinin məni gözləmədən düşüb getməsi cənə olan marağım daha da öldürdü. Gülərlə anam da mənim düşməyimi gözləmədən otağa keçmişdilər. O, düşən kimi mən də düşüb evə getdim.

Yayın orta ayı idi . Havalar çox isti keçirdi. Anam səhərdən axşama kimi mürəbbə bişirir, şəhərdən gətirdiyi xalça - palazı, yorğan -döşəyi yuyurdu. Düzdür bütün bu işləri görməkdə anama Məsmə xala kömək edirdi. Daha doğrusu anam ona kömək edirdi. Balaca boylu arıq qadın hər il yorğan döşəyi , xalça palazı yuyurdu. O, bu işlərin ustası idi, özü də bununla fəxr edirdi. Səhər işə başlayandan gedənə qədər özünü tərifləyirdi. Anam atama gileylənib : Bunun əlindən ölmüşəm , insan özünü nə qədər tərifləyər?- deyirdi. Atam hər dəfə ona tərəf çıxıb: Düz deyir də, - deyirdi. Onsuz bir yay qışa hazırlıq edə bilmirsən. Hər işi ona gördürüb özünü də bəyənmirsən. Bu gün hovuzun başında oturub yenicə söhbətə başlayan Məsmə xalaya Bəsdir də , anamın sənin əlindən başı xarab olub - deyə bağırdığıma görə anam məni həyətdən qovub çölə çıxartmışdı. Bu iş lap xoşuma gəldi . Evimizin qabağından su kanalı axırdı. Anam mənim orda çimməyimə razı olmurdu. Suyu çox sevirdim, dəniz evimizdən xeyli aralıda idi. Eyvanımızdan baxanda görünməyinə baxmayaraq, ora piyada gedib çıxana qədər adamın nəfəsi kəsilirdi. Yenə getmək yaxşı idi . Çünki gedən kimi dənizə girirdin . Qayıdanda onsuz da dənizdə çimib yorulmuş adamın nəfəsi kəsilirdi. Ona görə də dənizə yalnız atamla gedə bilirdim. Kanalda çimməyə icazəm yox idi. İndi qovulmuş olsam da sevinirdim. Özünü suya atdım. Su sərin idi. Sərinlik bədənimə yayıldıqca ləzzət edirdi. Xeyli çiməndən sonra su ilanı tutdum. Bu ilan mən gördüklərim su ilanlarının hamısından böyük idi. Az qala bir metrə qədər olan ilanın boğazından tutub qapıya yaxınlaşıb çiynimlə itələdim. Qapı arxadan bağlı idi. İçəriyə keçmək həvəsi ilə alışıb yanırdım. Çünki əlimdə ilan var idi. Hasarın dörd yanı boyu fırlanmağa başladım. Çox hündür olan hasara dırmaşmaq elə də çətin olmadı. Bir pişik çevikliyi ilə hasara qalxıb sürüşüb həyətdə yerə düşdüm. Gün günorta olduğu üçün hava lap qızmışdı . Anam gözə dəymirdi. Məsmə

arvad əncir ağacının altında yorğan sırıyırdı. Boğazından tutduğum ilanı aparıb ehmalca yorğanın üstünə buraxdım. İlan əlimdən çıxan kimi yorğanın üstündən qıvrılıb düşdü. Cəld yerimdən irəli atılıb onu yenidən tutdum. Arvad üzü o tərəfə oturduğu üçün məni görmürdü. Bu dəfə ilanı ehmalca sininin altına soxdum. Kənarda dayanıb diqqətlə baxıb ilanın çıxmadığına əmin olandan sonra evə keçdim. Aradan heç on dəqiqə keçməmiş Məsmə arvadın səsi həyətlə bir oldu. Arvad barbar bağırırdı. Səsə anam , Zirəddin, Gülər, hətta Fidan da həyətə çıxmışdı. Onun nə dediyini heç kim başa düşmürdü. O, isə qışqırıb sinini göstərirdi. Zirəddin irəli keçib sinini qaldırdı. Üstündən sini götürülən kimi orada qıvrılıb yatan ilanı görəndə qadınlar Məsmə arvaddan da bərk qışqırdılar. ilan yenə də sivişib getmək istəyirdi ki, Zirəddin atılıb onu tutdu. Qorxmayın , qorxmayın ,- dedi. Su ilanıdır, zəhərli deyil. Anam arxaya doğru baxıb gözü ilə məni axtarırdı. Mən özümü görməməzliyə vursam da artıq gec idi. Anam Məsmə arvadın yanına qoyduğu yun çubuğunu götürüb üstümə cumdu. Mən bir göz qırpımında qaçıb oradan uşaqlaşdım. Hasarın üstünə qalxıb çöl tərəfə hoppandım. Amma hay - küydən xoşum gəlmişdi. Öz -özümə gülürdüm. Məsmə arvadın qəribə görünüşü gözümün önündən, çıxartdığı səs isə qulağımdan getmirdi. Gah da Gülərlə anamı xatırlayıb gülürdüm. Atam evə dönəndə heç nəyi boynuma almaq istəmirdim. Anam çox qorxduğunu , dərhal şəhərə qayıtmaq üçün yığışdığını görəndə ilanı mən kanaldan tutub gətirdiyimi boynuma almalı oldum. Yoxsa anam bağda ilan olduğu üçün yığışıb şəhərə qayıtmaq istəyirdi. Atam bu sözü eşidən kimi məni danlamaqdan vaz keçib tərifləməyə başladı. Kişi mənin düz danışan olduğumu deyirdi. Elə bil ilanı kanaldan tutub gətirən mən deyildim. Böyük iş görüb günahımı boynuma almışdım. Sonralar başa düşdüm ki, yazıq atam məni tərifləmək üçün iynə ulduzundan gələn işıq qədər nur axtarmış. Halbuki belə bir şeyi tapmaq

qeyri mümkün idi. Həmin gündən sonra atamın tapşırığı ilə Zirəddin hara getsə məni də özü ilə aparırdı. Bir də ki, mənimlə böyük adam kimi danışırdı. Hər səhər qalxıb dənizə gedirdik. Zirəddinlə birlikdə çimməndən sonra qumun üstünə uzanırdıq . O , məni gözündən yayınmağa qoymurdu . Bunun üçün də yaxşı bir çarə tapmışdı. Belə ki ,mənə söhbət edirdi. Mənim beşinci sinifdə oxumağıma baxmayaraq Zirəddin mənə elə şeylər danışırdı ki, təəccüb edirdim. Düzdür , bu söhbətlərin içərisində tərbiyəsiz heç nə yox idi. Sadəcə məni kimi başdan xarabın birinə belə ciddi söhbətlər qəribə gəlirdi. İlk günlər hövsələm daralıb hirslənirdim. O, mənə atasının qonşu kənddən bir qıza aşıq olmağından ,onu dəlicəsinə sevməyindən danışırdı. Hövsələm elə daralırdı ki, az qala Zirəddinin atasına da, onun sevdiyi qıza da ürəkdən söymək istəyirdim. Məni ən çox da təəccübləndirən oğlanın yana-yana danışması idi. Sanki qızı sevən atası deyil , Zirəddinin özü idi. birdənbirə onun alovlu nitqini kəsib soruşdum:

- Sən öz ananı sevmirsən?

O, dayanıb gözünü döyə- döyə üzümə baxıb dedi:

- Niyə sevmirəm ,əə?

- Nə bilim ? Elə danışırsan adama elə gəlir ki ,o, qızdan ötəri sən özün ölürsən, - dedim . Zirəddin uzun müddət susandan sonra :Ay axmaq, əvvəla indi o qadının əlli yaşı var. İkincisi həmin qadın Gülərin anasıdır,- dedi. elə ona görə də nə Gülərin atası nə də ki, mənim atam bizim ailə qurmağımıza izin vermədilər. Həmin səbəbdən mən didərgin düşdüm .Bundan sonra o, söhbətini yarımçıq kəsib evə dönməyə hazırlaşdı. Mən qalxıb onunla getsəm də İndi bayaqkı söhbətin arxasını dinləmək istəyirdim. O, isə ağzına su almış kimi lal dinməz gedirdi. Biz evə çatanda atam da işdən gəlmişdi. O, nədənsə bizi gözləmədən manqal qoymuşdu. Atam , demək olar ki, iş bacaran deyildi. Odun yarmaq , manqal yandırmaq , kabab bişirmək onun əlindən gələn iş deyildi. Belə işlərin

hamısı Zirəddinə, ya da atamın sürücüsünə aid idi. Atam bizi görüb sevindi. Ay kişi , gəl çıx ,- dedi. Qonaqlarım var Atam gözucu mənə baxıb , üstü örtülü eyhamla Zirəddinə təşəkkür etdi. Mən dərhal təzə xəyala düşdüm. Fikrim qonaqların yanında idi. Onların özləri ilə uşaq da gətirəçəyinə ümid edirdim. Atamla - anamla əldən ayaqdan gedirdi. Əllərində stol gah əncir ağacının altına , gah da ki, evin qabağındakı çardağın altına gəlirdilər. Məhəllənin həyətinə kölgə lap axşam tərəfi düşürdü. Qonaqlar isə deyəsən tez gəlməli idi. Gələn qonağın kimsə hörmətli biri olduğunu anlayırdım . Atam hər şeyin yaxşı olmağına çalışırdı. O, gah anama, gah Zirəddinə, gah da ki Gülərə qışqırırdı. Arada bir mənə də sınayıcı bir nəzər salırdı. Sanki uzun -uzadı baxışı ilə bax, ha artıq əksik hərəkət etmə ,- demək istəyirdi. Mən isə öz aləmimdə idim. Fəaliyyətimi göstərə bilmək üçün düzələcək səhnəni gözləyirdim. Nəhayət qonaqlar gəldi. Cəmi üç nəfər idilər. İki sanballı kişi, bir də hədsiz dərəcədə bəzənmiş qadın darvazadan İçəri girdi. Bir dəqiqədən sonra görkəmi ilə mənə çox təəccüblü görünən , təxminən mənimlə yaşıd, kök bir oğlan da gəldi. Gözündə qalın bir eynək olan oğlan az qala sürünə - sürünə gəlib valideyinlərinin yanında dayandı. Atamgil qonaqları təntənə ilə qarşılayıb masaya dəvət etdilər. Qonaqlar oturan kimi masaya çay və yemək gəldi. Zirəddin şişləri manqala düzdü. Kababın ləzzətli qoxusu həyətə yayılan kimi masa ətrafında canlanma artdı. Mənim bütün fikirlərim yadımdan çıxmışdı. Oğlana təəccüb edirdim. Çünki belə yaraşıqlı ata - ananın uşaqdan çox donuza oxşayan övladına mat qalmışdım. Onu yeməkdən başqa heç nə maraqlandırmırdı. Sanki gözünü yeməkdən çəkməkdən qorxurdu. Uça boylu , gicgahında ağarmış sacları sifətinə qəribə mülayim görkəm verən kişi də, qısa sarı saclı, qəşəng qadın da ona baxıb xəcalət çəkdiyi kənardan bilinirdi. Oğlan isə öz işində idi. Ətrafa baxmadan başını boşqabdan qaldırmırdı. Üstəlik də fısıldayır-

dı. Qadın oğlana baxıb tamamı ilə iştahası küsdü. Kişi qadının hirsləndiyini görüb, nə isə bir xoş söz demək istəyirdi. Bir necə sözdən sonra çarə tapıb həvəslə danışıb, adı Tural olan oğlanı tərifləməyə başladı. Onun əlacı olmağından , fitri istedadından ,bütün sınaqlardan yüksək bal topladığını söylədi. Bu mövzu doğrudan da yaranmış gərginliyi aradan götürdü. Mən bu ağılsız donuzun əlaçı , ağıllı olmağına inana bilmirdim. Düşünürdüm ki ,bu küt gözlərin sahibində ağıl, baş nə gəzir? Lakin qonaqlar cuşa gəlmişdi. Dayanmadan Turalı tərifləyirdilər. Bir anlıq atamla anamın üzünə baxanda qibtə etdiklərini hiss etdim . Bu mənə çox pis təsir etdi. Hirsimdən nə edəcəyimi bilmirdim. Yəni doğrudanmı bu küt məndən yaxşı idi? Qonaqların üçü də durmadan Turalın nailiyyətlərini sadalayırdı. Bir - birinə aman vermədən ayrı -ayrı fənlərdən topladığı balları söyləyirdilər. Tərif atdıqca nifrətim də artırdı. Bəlkə də yaxşı xarici görünüşü olan başqa bir oğlanın haqqında belə danışsalar , hirslənməzdim. Hələ mən də ona qibtə edə bilərdim. İndi isə yöndəmsiz ,donuza oxşayan oğlanın tərifini qəbul edə bilmirdim.Bu böyük günah sahibini götəkləmək üçün səbirsizlənirdim. Həm də onu dəli etmək üçün bir yol fikirləşirdim. Acgöz donuz isə masadan ayrılmaq istəmirdi. Bitib qurtarmayan yemək mərasiminin bitməyini gözləməkdən gözümün kökü saralmışdı.Bir-iki dəfə masaya yaxınlaşıb :Gəl gedək oynayaq, - dedim. O isə eynəyin altından küt gözlərini üzünə dikib susurdu.Bayaqdan arıq uzun daşbaş kişinin oğlanın dayısı olduğunu anlamışdım. Kişi təkidlə Turalı masadan ayırıb mənə qoşmaq istəsə də atamla - anam oğlanın mənə yaxınlaşmağını istəmirdi. Hər ikisi narahatlıq keçirdiyi gözümdən yayınmasa da fikrimdən daşınmaq istəmirdim. Ürəyimdə maraqlı maçarə tapmışdım. Nəhayət kişilər masadan ayrılıb nərd oynamaq üçün kiçik bir masanın çəkib işığın altına qoydular. Bir azdan kişilər öz aləmində idilər. Qadınların da başı söhbətə elə qarışmışdı ki, gözləri ətrafda heç nəyi görmür-

dü. Bir sözlə əsil məqam idi. Atamın dolabın gözündə saxladığı tir tüfəngini götürüb atəş açmaq üçün hazır vəziyyətə salandan sonra görünməsin deyə azacıq maili halda divanın dalında gizlətdim. Turalı yanıma salıb qonaq otağına gətirdim. Əvvəlcə əylənmək istəyirdim, lakin mənim ortaya nələr isə tökdüyümü görən oğlan ,Bunlar bizim nəyimizə lazımdır?- dedi. Mən çoxdan belə şeylərlə əylənmirəm. Böyük oğlanlarıq, uşaq zad deyilik ki? Gəl sual -cavab eyləyək. Sən hansı fənni istəyirsən , elə ondan da başlayaq Qıp – qırmızı qızardım. Özümü təhqir olunmuş hiss edirdim. Onu da yaxşı bilirdim ki, onun bir sualına cavab verə bilməyəçəm. Hirsimdən dil dodağımı gəmirirdim. Özümü toplamamış gombul sualları yağdırmağa başladı. Dərhal da mənim sualları bilmədiyimi başa düşdü. Onun küt sifətində yaranan özündən razılıq əlaməti məni cin atına mindirdi. Bir göz qırpımında yerimdən qalxıb tir tüfəngini götürdüm. Turalın demək olar ki, bir tükü də tərpənmədi. Sakit bir tərzdə: Suallaşmaq istəmirsən ?- dedi. Yox, - deməsəm də özümü tüfənglə məşğul kimi göstərib savab vermədim. Tüfəng əlimdə xalçanın üstündə oturdum. Guya nəyə isə diqqətlə baxırammış kimi vəziyyət alıb Turalın budunu nişan aldım. Onun isə ağna bir şey gəlmədiyi üçün sakit tərzdə mənə baxırdı. Axır ki, qurdalanmağım uzun çəkmədi. Tətiyi çəkib nişan aldığım nahiyəyə atəş açdım. Bir anın içərisində qırma Turalın budunu yaraladığı üçün qan axmağa başladı. Mənim gözlədiyimin əksinə olaraq o, ufuldasa da çığırıb, bağırıb ağlamadı . Əli ilə budunun aşağı hissəsindən tutub alçaqdan inildəməyə başladı. Səsə qabaqda atamla anam, arxadan isə qonaqlar və Zirəddinlə Gülər içəri girdilər. Anamla atamın rəngində qan qalmamışdı. Qonaqlar da səs qaldırmaq istəyəndə Tural məni daha da təəccübləndirdi. Qəsdən etmədi, mənə göstərmək istəyirdi, əlində açıldı, - dedi. Düzdür , bu sözə hər kim inansa da atamla anam qətiyyən inanmadı. Amma heç kimin mənlik halı yox idi. Özlərinin Turalım üstünə atmış-

dılar. Beş dəqiqədən sonra məhlədə Zirəddinlə məndən başqa heç kim qalmamışdı. Onlar Turalı götürüb getmişdilər. Gülər uşağını və bacımı götürüb yatmağa getmişdi. Zirəddin həmişəki kimi məni danlayacaq bir söz demədi.

Atamla anam qayıdanda artıq gecənin yarısı idi. Həqiqətən çox məyus idim. Turalın qorxmaz görkəmi ,bilə - bilə məni müdafiə etməyi, ən vacibi də ağlayıb sızlamamağı məni pərt etmişdi. İndi onu yox özümü fərsiz hesab edirdim. Anam içəri girən kimi deyinməyə başladı:

- Sən bunu qəsdən etmişdin. Heç utanmırsan ? Evə gələn uşağı vurub qanına bulayırsan. Atanı qonaqların yanında rüsvay etdiyin cəhənnəm zəif, xəstə uşağa yazığın gəlmədi?

Atam anamın sözünü ağzında qoyub bağırdı:

- Zəif , xəstə sənin uşağındır . O uşaq bilikli, zehinli olmağı ilə bərabər həm də dözümlü və mərd oğlandır. Amma sənin oğlun başsız, biliksiz , üstəlik də ağılsızdır.

Anam dərhal susub ağlamağa başladı. Mən isə ömrümdə birinci dəfə atama haqq qazandırdım Turalın sadəcə xarici görünüşü pis idi. Özü isə məndən qat -qat artıq idi. Günəşli , dənizli , hay- küylü yay tətili başa çatdı. Yığışıb şəhərdəki evimizə qayıtdıq. Anam bağdan köçdüyümüz üçün sevinsə də atamla mən darıxırdıq. Hər səhər yuxudan oyanan kimi ilk əvvəl gah sakit - sakit dalğalanan, gah da ki, kəhər at kimi kişnəyib şaha qalxan dənizi xatırlayırdım. Axşam düşən kimi atamla birlikdə küləfirəngidə uzanamağımız üçün darıxırdım.Qızmar yay günündən sonra əsən xəfif külək ləzzət verirdi. Atam çay içə- içə üzü dənizə baxırdı. Uzaqdan yanan fənər görünürdü. Bəzən dəniz elə sakit olurdu , mənə elə gəlirdi ki, ayın dənizin üstünə saldığı nurun işığı ilə addımlayıb hara isə uzaqlara getmək olar. Gündüzlər şuluqluq edib ata - anamı hirsləndirəndə nədənsə dənizə baxanda peşman olurdum. Günün yarısına qədər dəniz haqqında düşünsəm də, biz şəhərə köçən gündən meyvələri dəyib saralmış , ağzından

sapsarı bal kimi şirə tökülən əncir ağacları üçün, salxımları kəhrəba kimi saralmış üzüm tənəkləri üçün darıxırdım. Düşünürdüm ki, Zirəddin indi orada kef edir. Düzdür hər şənbə günü o, böyük bir zənbil gətirib gəlirdi. Lakin bu hazır yığılıb gəlmiş meyvələr mənə xoş gəlmirdi. Enli yaşıl yarpaqların arasından saralan əncirləri öz əllərimlə yığanda daha dadlı olurdu.Həftədə bir dəfə bəzən isə iki həftədən bir istirahət günlərində özümüz bağa gedirdik. Zirəddinlə Gülərin qurutmaq üçün uzun stolların uzünə az qala bir -bir düzdükləri əncirlərin qurumağa başlayanlarını seçib yeyirdim. Amma istər istəməz daha bağda çox qalmaq istəmirdik. Necə deyirlər bağ mövsümü doğurdanda qurtarırdı. Küləyin qabağına qatıb o tərəf ,bu tərəfə apardığı sarı yarpaqların şaqqıltısı adamın zəhləsini aparırdı. Sentyabr qurtaran kimi isə havada yaranan sazaq bağı daha da gözdən salırdı.

Atam ciddi- cəhdlə məni oxumağa cəlb etməyə çalışırdı. Kişi dəridən qabıqdan çıxıb şəhərin ən məşhur müəllimləri ilə danışıb məni məşğələyə qoydu. Dərsdən çıxan kimi qapı - qapı gəzməli idim. Atam mənim üçün pulu daha çox ödəyib mənimlə daha çox məşğul olmaqlarını xahiş etmişdi. İlk günlər atamın xahişi ilə dərslərdə bir təhər otursam da son günlər müəllimləri hövsələdən çıxardıb dəli edirdim. Birtəhər bir ay başa çatana qədər dözdüm, ikinci ay başlayanda ilk əvvəl Tofiq müəllimə müraciət etdim. Çünki ən çox ondan və onun öyrətdiyi riyaziyyat fənnindən zəhləm gedirdi. Tofiq müəllimə bu gündən sonra məşğələyə gəlməyəcəyimi bildirdim. Kişi mənim üzümə etinasız baxıb qapını üzümə örtmək istəyirdi ki, fikrimi başa çatdırdım:

- Mən məşğələyə gəlməsəm də hər ay sizin pulunuzu gətirib verəcəm. amma sizdən xahiş edirəm atama heç nə deməyin

Tofiq müəllim bayaqkı sakit tərzdə məni dinləyib qapını üzümə örtdü. Bu mənim çox xoşuma gəldi. Kişinin mənim

şərtimlə razılaşdığına inandım. Məşğələni tərk edib veyillənməyə başladım . Sanki üstümdən dağ götürülmüşdü. Ağlıma belə bir fikir gəldiyi üçün sevinirdim. Xeyli boş- boş gəzəndən sonra axşam evə döndüm. Qapıdan içəri girən kimi mərəkə qopdu nə qopdu. Tofiq müəllim zəng edib sözlərimi atama çatdırıbmış. Anam başını yekə bir ağ dəsmalla bağlamışdı. Atam sözünü çox uzatmadan bir iki kəlmə ilə deyib, qəzet oxumağa başlasa da anam susmaq bilmirdi:

- Sən atanın düşmənisən? O, pulu yerdən yığmır , zəhmətlə qazanır. Çalışır ki, səni oxudub adam etsin. Sənin onun zəhmətinə verdiyin qiymətə bax. Haram olsun sənin kimi oğula.

Anam danışıb - danışıb ağlamağa başladı. O qədər danışıb ağladı ki, nəhayət atam qəzeti bir kənara atıb onu sakitləşdirməyə çalışdı. Bir şeyə təəccüb edirdim ki, nə yaxşı məni kötəkləmirlər. Mənim belə bir oğlum olsa onu yaxşıca çırpardım. İllər ötsə də bir şey dəyişmirdi. Daha mənə müəllim zad tutmasalar da bir təhər oxuyub yuxarı siniflərə çatmışdım. Lap aşağı sinifdə olduğu kimi iki - üç almırdım. Çünki böyüdükcə qızların yanında iki almağa utanırdım. Daha doğrusu özümə yaraşdırmırdım. Yaddaşım yaxşı idi. Əslində çox yox , azacıq zəhmət çəksəm əlacı da ola bilərdim. Hər halda əlacı olmasam da pis də oxumurdum. Atamın mənə olan qeyri adi məhəbbəti mənim karıma gəlmirdi. Əksinə onun mənə bağlılığı hər dəfə bir qələtimin üstünü açırdı. Belə ki, bir - iki gün bundan əvvəl qarajdan atamın təzə aldığı maşını götürüb gəzməyə çıxmışdım. Birdən birə tində bir maşınla burun - buruna gəldik. Az qala paramparça olurduq ki, qarşıdakı maşının sürücüsü böyük səriştəliklə maşınını kənara çəkə bildi. Günah məndə imiş maşını öz yolumla sürmək əvəzinə əks istiqamətdə sürüb onun qarşısına çıxmışam. Sürücü maşından düşüb məni danladı. Yolu səhv sürdüyümü,- dedi. Sonra atamı tanıyıb , mənə aparıb maşını

yerinə qoymağımı tapşırdı. Əks təqdirdə zəng edib hər şeyi atama söyləyəçəyini ,-dedi . Doğrusu özüm də qorxmuşdum. Kişinin dediyinə görə rəngimdə qan qalmamışdı. Maşını gətirib qaraja qoydum. Bu bəladan da belə qurtardım deyib sevinə - sevinə çölə çıxmaq istəyirdim ki, atamla üzbəüz gəldik. Təəccübdən donub yerimdə qaldım . Kişinin dili - dodağı əsirdi. Tələsidiyindən pijama ilə aşağı düşmüşdü. Halbuki atam elə şeyləri xoşlamırdı. Günorta evə nahara gəlibmiş. Bir qismət yemək yeyəndən sonra gözünə yuxu gedib. Çəmi beş dəqiqədən sonra yuxudan oyanıb , yerindən dik atılıb. Ayaz maşını vurdu ,- deyə bağırmağa başlayıb. Anamın :Ay kişi, yıxıl yat, Ayaz dərsdədir- deməyinə də əhəmiyyət vermədən ev paltarında aşağı düşür. Rəngi kətan kimi ağarmış atamı görəndə buradan təsadüfən keçdiyimi söyləsəm də kişi məni dinləmədən içəri keçdi. Maşınına heçnə olmadığını görsə də əlini kapotun üstünə qoydu. Maşın qapqaynar idi. O. mühərrikin indicə söndüyünü anlayıb üzümə baxdı . Deməyə sözüm yox idi , hər şey göz önündə idi. Atam əlini ürəyinin üstünə qoyub divara söykəndi. Onun ağarmış sifətinə baxıb qorxmağa başladım. Lakin kişi yenə də məni intizarda qoymayıb: Axırıncı dəfə olsun - dedi. O gecə atamla anam çoxlu dərman içdilər. Bildiyimə görə mənim az qala maşını vuracağımı eşidiblərmiş , amma nədənsə heç biri deyinmədi.

Bütün bu hərəkətlərimə rəğmən bacımı sevdiyim üçün onunla işim yox idi. Əlbəttə ata anamı da çox sevirdim . Bacıma qarşı duyduğum hiss bam - başqa idi. Bilmirəm bu fikir haradan başıma dolmuşdu. Tək onu bilirdim ki, Fidana yazığım gəlirdi. Bu qızın sanki dünyadan xəbəri yox idi. Nə olur olsun mən onun idealı idim. Atamla anam məni danlayıb bacına da pis örnək olduğumu söyləsələr də o, mənə həmişə müqəddəs bir varlıq kimi baxırdı. Hər kəlməbaşı məndən sübut gətirirdi. Hər kəsi hətta anamı da mənimlə hədələyirdi. Ayaz sözünü elə tələffüz edirdi ki, sanki dünyanın ən ağıllı , ən ba-

carıqlı adamından danışır. Yəqin ki, mən elə ona görə də özümdən asılı olmayaq ona xoş rəftar göstərirdim. Fidanın yanında əli qolu bağlı qula çevrilirdim. Bir onu bilirdim ki, Fidanın yolunda canımdan keçməyə hazır idim . Böyüdükcə Fidanın qəhrəmanına çevrilirdim.

Artıq yuxarı siniflərə çatmışdım. Lakin bu illər ərzində düz əmməli dərs oxumasam da nədənsə eyni ilə Fidan kimi məni qonşular qohumlar da sevirdilər. Ayaz yaxşı oğlandır- , deyirdilər . Bir az şuluqdur, böyüyəndə o da keçib gedəcək. Mən də böyüyüb yaxşı oğlan olacağım günü gözləyirdim. Bir dəfə heç nəyin üstündə az qala biabır olmuşdum. Söz düşən kimi Ayaz yaxşı oğlandır deyirdilər. Bu dəfə doğrudan da günahım yox idi. Dostum Elmanın yolunda atam kömək əlini uzatmasa oğru damğasını alıb, əlli ayaqlı həbsə düşəcəkdim. Əslində Elman dostum zad deyildi. Amma məndə bir xüsusiyyət var idi. Bir dəfə üzünü gördüyüm adama dostumdur deyirdim. Bununla da fəxr edirdim. Elmanı məhləmizdə cəmi iki dəfə görmüşdüm. Futbol oynayanda qarşı komandanın heyətində qapıçı idi.

Elmana görə başım bəlaya saldığım gün qonşumuz Elnur ilə aşağı məhlədə yaşayan bir oğlanı hərbi qulluğa yolla salmağa getmişdik. Görüşümüz uğurlu keçdi. Şər qarışına qədər yeyib içib , əyləndik. Elnur yaxşı gitara çalıb oxuyurdu. Bu gün də lap cuşa gəlmişdi.Hamı kimi mən də oxuyurdum. Bir sözlə, gözəl bir gün keçirdik. Şər qarışanda birlikdə evə döndük. Döndük deyəndə əslində dönə bilmədik. Kefimiz kök halda bazarın qabağını ötüb , parka girdik. Hər yer qaranlıq olsa da park işıqlı idi. Kənarlarda qoyulmuş skamyalarda adam az olsa da oturanlar var idi. Amma bu heyvərələrin haradan çıxdığını Elnuru bilmirəm , mən görmədim. Sanki birdən birə göydən yerə enmişdilər. Lap qabaqda gələn hacıleyləyə oxşayan arıq uzun oğlan bir başa üstümüzə gəlib haradan gəlirsiniz?- sözünü elə dedi ki, mən bu qəribə məxluqun

Elnurun qohumu olduğunu zənn edib bir az kənara çəkildim. Elnur dodağının altında mızıldayıb qohumumuzu hərbi qulluğa yola saldığımızı söylədi. Bu sözü eşidən qəribə görkəmli oğlanların kefi lap duruldu .Eybəcər sarı saqqallı irəli gəlib dedi:

- Lap yaxşı, biz də hərbiyə uşaq salırıq. Bizim uşaq sizin oğlandan pis uşaqdır? Onun üçün çalıb oxumusan, lap yaxşı, İndi də gitaranı çal biz dinləyək. Elnur daha gecdir evə dönməliyəm, dediyini zorla eşitdim. Qəhqəhə səsləri qulağımı batırdı. Hacıleylək gülməkdən nəfəsi kəsilə - kəsilə: Daha de ki, ana uşağıyam də- dedi. Elnurun üzünə baxanda elə indicə anladım ki, bu adamları tanımır. Onun sifəti ağappaq olmuşdu. Dodaqları titrəyirdi. O, məndən az qala üç dörd yaş böyük idi. Onun üzündəki ifadə məni qorxuya salmadı, əksinə , məndə ikrah hissi oyatdı . Yaxına gəlib gitaranı Elnurun əlindən alıb:O, çalmağı bacarmır , gitara mənimdir, - dedim. Elnur sanki mənim yalan danişdığımı bilmirmiş kimi gitaranı mənə uzatdı. Gitaranı əlimə alan kimi:Sən get,- dedim. Mən çalıb oxuyası oldum. Elnurun neçə yoxa çıxdığına təəccüb etdim. Amma o, artıq yox idi. Oğlanlar razı halda feyzyab olmağa hazırlaşırdı ki, Elnurun gözdən itdiyinə əmin olan kimi gitaranı var qüvvəmlə düz hacıleyləyin başına çırpdım. Onu vuracağım ağlına gəlmədiyi üçün sərbəst dayanan oğlan zərbədən müvazimətini itirib səndələdi.O,özünə gələnə qədər gitaranı dalbadal o biri iki oğlanın başına çırpdım. Bir göz qırpımında oradan qaçıb uzaqlaşdım. Başqa vaxt olsa hərəkətimdən həzz alardım . İndi isə çox məyus olmuşdum. Gitara ortadan iki bölünmüşdü. Əlimdə qalan gitaranın qulpunu da ağacların arasına atmışdım. Arxamca qacan gicbəsərlər bir az qaçıb dayandılar. Qarşıdakı şüşə bazarı deyilən yerdə bir az dayanıb arxaya baxdım, heç kim yox idi. Nəfəsini dərib hər ehtimala qarşı daldey yerlərlə qaçıb məhəlləmizə gəldim. Elnur blokun qarşısında dayanıb məni gözləyirdi. Daha doğrusu gi-

taranı gözləyirdi. Məni əliboş görüb təəccüb etdi. Dil dodağı əsə -əsə : Gitara hanı?- dedi. Onu mənim neçə qurtulduğum maraqlandırmırdı. “ Mən anama nə deyəçəm ? - deyirdi. Və bu sözü durmadan təkrar edirdi. Əgər Elnura yazığım gəlməsəydi, onu yaxşıca kötəkləyərdim. Məndə ona qarşı həm nifrət hissi var idi, həmdə qeyri adi dərəcədə yazığım gəlirdi. Gitaranı sabah gətirəcəyimi deyib oradan uzaqlaşdım.

Yol boyu gitaranı haradan alacağımı düşünürdüm. Uzun narahatlıqdan sonra bu hadisəni olduğu kimi atama danışmaq qərarına gəldim. Atamın gitaranı alıb qaytaracağına əmin idim. Çünki Elnurun atası rəhmətə getmişdi. Anası kiçik bir qəzet köşkündə işləyirdi. Bu fikir məni bir az sakitləşdirdi. Atamı günahsız olduğuma inandırmaq üçün sözlər axtarırdım. Təəssüf ki , gedib evə çata bilmədim. Həmin gün məni xəta hərləyirmiş. Binamızın başında Elmanla üzbəüz gəldim. Bunun haradan çıxdığını düşünməyə macal tapmamış o, əlindəki telefonları ovcuma basıb : Ayaz, qurban olum, bunları gizlət. Sənə sonra hər şeyi danışaçam - dedi. Lakin nə o , sözünü bitirə bildi, nə də ki, mən nə baş verdiyini düşünə bilmədim. Cəmi beş dəqiqənin içində bizi həbs etdilər. Polislərin haradan peyda olduğunu görmədim. Gözümü açanda özümü polis idarəsində gördüm. Bura idarə yox cəhənnəm imiş. Çox qəribə ağır abu havası idi. Mən burada işləyənlərin də bədbəxt olduğunu düşünürdüm. Masanın arxasında oturan eynəkli kişinin üzündən zəhər yağırdı. Nə qədər mənim heç bir günahım olmadığını söyləsəm də qulaq asan olmadı. Kəskinliklə telefonları haradan ,necə oğurladığımı sorurdular . Eynəkli, qaraqabaq kişi qarşına qoyduğu kağızı isə bir ucdan yazıb doldurdu. Çırpınıb- çırpınıb susmuşdum. Bir azdan telefonları oğurladığıma özüm inanırdım. Bilmirdim vaxt keçir, yoxsa zaman dayanıb. Zamanı bilmirəm, amma mənim ürəyim dayanırdı. Doğrudan da bir günah sahibi olsam mənə belə pis təsir etməzdi. Üşüyürdüm, divarlardan gələn soyuq kabus ki-

mi idi. Başımı qaldıranda mənə elə gəlirdi ki, divar boyu ilanlar sürünür. Və onları kürəyimdə hiss edirdim. Yazı işləri başa çatan kimi arıq bir oğlan gəlib bizi başqa otağa keçirdi. Mən bizi indicə buraxaçaqlarını düşünsəm də belə bir şey yox idi. Bir - iki saatdan sonra başımı qollarımın üstünə qoyub mürgüləyirdim .Qulağıma atamın səsi gəlirdi. Elə bilirdim ki, yuxu görürəm. Başımı qaldıranda gözlərim atamın gözünə sataşdı. Mənə elə gəldi ki, bayaq divarlarda , kürəyimdə sürünüb gəzən ilanlar atamın gözünə giriblər . Çünki mənə baxan atam deyil , qara ilanlar idi. Qonşumuz Fərrux müəllimdə atamın yanında idi. Bir şeyə təəccüb etdim, Fərrux müəllim sevinirdi. Həmişə üzündən zəhər yağan kişinin kefi ala buludda idi. Onları görən kimi yenə də and aman etdim. Mənim bu işdən xəbərim olmadığını dedim . Hətta Elmanın üstünə cumub boğazından yapışdım. Dillən də,- dedim. Niyə ağzına su alıb durmusan? Elman dodağının altında nə isə mızıldandı. Onun nə dediyini heç özü də başa düşmürdü. Atam qolumdan tutub məni Elmanın boğazından zorla qopartdı. O, sanki məni yuxudan oyadırmış kimi bərk - bərk silkələyib bir kənara atdı. Ürəyim az qalırdı ki ağzımdan çıxsın. Atamın buradan çıxıb gedəçəyini düşünəndə nəfəsim kəsilirdi. Zaman yenə də dayanmışdı. Ortaya ölü bir sükut çökmüşdü. Həmişə cizgi filmindəki kor siçana oxşatdığım Fərrux müəllimin birinci dəfə idi ki, gözünü görürdüm. Bu kök, yekəpər nataraz kişi həmişə gözünə qara eynək taxırdı. Təkcə mən yox heç kim onu eynəksiz görməmişdi. Onu da deyim ki, Fərrux müəllimi təkcə bizim binada deyil, heç məhəllədə də sevən yox idi. Nəinki sevib sevməmək hamı ona nifrət edirdi. Bu insan bir adama salam vermirdi. Adamların yanından elə keçirdi ki, sanki gözü ayağının altını görmürdü. Doğrudan da kənardan elə görünürdü. Onsuz da uca boyu olan Fərrux müəllim başını bir az da yuxarı tutduğu üçün nə binanın sakinləri , nə də ki məhlədən

olan bir kimsə kişiyə salam verə bilmirdi. Təxminən iki ay bundan əvvəl atam Fərrux müəllimə ürəkdən gülüb deyirdi:

- Paho, nəhayət Fərruxun domba gözlərini görmək mənə nəsib oldu.

Anamın hədsiz təəccübləndiyini görən atam cavab verib dedi ki, ay qız Arifin yeni vəzifəsindən və rütbəsinin artdığından xəbər tutub. Elə ona görə də eynəyini də çıxarıb mənimlə hallaşdı. Anam ağzını burub : İndi də sən onun salamını almayaydın ,- dedi. Fərruxun hədəqəsindən çıxmış domba gözlərinə baxıb atamın həmin gün onun haqqında dediklərini xatırlayırdım:

-Qoy rədd olsun , gözünün də bağlamaqda kişi haqlıdır, gözündən nə yuvanın quşu olduğu bilinir. Doğrudan da kişinin gözlərindən kin damırdı. Görəsən bu kimə belə nifrət deyə düşünürdüm.

Atam dinib danışmasa da Fərrux müəllim dil boğaza qoymurdu. Guya ki mənim günahımdan atamın xətrinə keçirdi.Mən yenə də günahsız olduğumu demək istəyəndə, Atam qətiyyətlə: Batır səsini ,- dedi.

Yazı işi yenidən başladı . Sanki əsər yazırdılar. Nəhayət uzun bir çək çevirdən sonra bizi evə buraxdılar. Elman isə orada qaldı.

Yol boyu atam heç nə danışmadı . Durmadan and içib aman edirdim. Elnurla getdiyimi, parkdakı davanı danışdım. Gitaranı sındırdığımı deməyə üzüm gəlmirdi. Amma indi hər şeyi düz ,olduğu kimi danışmağa çalışırdım. Atamın səsini çıxartmadığını görüb əyilib üzünə baxdım. Dəhşətə gəldim, kişi sanki ölmüşdü. Yeriyən cəsəd idi. Xəcalət çəkirdim, əslində mat qalmışdım. Axı heç bir günahım yox idi. Evə çatanda gecənin yarısı idi. Anam qapının önündə ayaq üstə durub bizi gözləyirdi. O , məni görən kimi deyinməyə başladı. Susmaq bilmədən danışırdı. Mən bayaqdan nə günahın sahibi olduğumu düşünürdüm. İndi anam bunu mənə başa saldı . Başladı nə başladı:

- Bəs deyilmi , heç utanmırsan , niyə dərs oxumaq əvəzinə avaralanırsan? Sənin hərbi qulluğa gedənin yanında nə işin var? Əslində sənin başını qaşımağa vaxtın olmamalıdır. Qarşıda səni ali məktəbə qəbul olmaq üçün imtahan gözləyir.

Atam orada mənə qışqırdığı tərzdə: Bəsdir - dedi. Anam susub masaya çay , çörək düzdü. Mən hələ indiyə qədər belə dadlı yemək yeyib , ləzzətli çay içməmişdim. Evimiz də mənə işıqlı, isti ,hüzurlu gəlirdi . Səhər yerimdən duran kimi Elmanı axtarmağa başladım .O , evdə yox idi. Demək olar ki, bir necə gün onu axtarmalı oldum. Nəhayət onunla təsadüfən rastlaşım. Belə məlum oldu ki, məndən gizlənirmiş. Gizlənib gizlənmədiyini dəqiq bilməsəm də Elmanı yaxşıca kötəklədim. Ürəyim soyuyana qədər yerə yıxıb ayaqladım.Həmin gün Fidanın mənə baxanda üzündə yaranan ifadəni unuda bilmirdim.Yazıq qızın ağlamağı gəlirdi. Gözündə qəzəb, kin, nifrət ən asası isə yazığı gəlmək ifadəsi var idi. Qız bir iki gün üzümə baxa bilmədi. Dəfələrlə onun qarşısında oturub bu işdə heç bir günahım olmadığını söyləsəm də qızı çox gec inandıra bildim. Atamı deyə bilmərəm anam mənim sözlərimə inanmadığına tam əmin idim. Çünki bütün günü məni güdür, haralarda olduğumu bilmək istəyirdi. Məktəbi bitirənə qədər dava dalaşsız ötüşsəm də universitetə qəbul ola bilmədim. Evdə hamı məyus olsa da atam məni tanışlıq ilə də olsa oxudaçağına söz verirdi. Anamın ağlaması atamı əsəbləşdirirdi. Sən nə gözləyirdin? - deyirdi. Sənin oğlun avara - avara küçələrdə gəzib, sonra da universitetə qəbul olacaqdı?

Doğrudan da avara - avara gəzməkdən bezmişdim. Bir də sinif yoldaşlarımın dərsə getdiklərini görəndə qaçıb gizlənirdim. Əslində onların da mənimlə gün keçirməyə vaxtları olmurdu. Dərsdən sonra da kitabxanaya , ya da dil kurslarına gedirdilər. Bəzən mənə elə gəlirdi ki, onlar mənim telefon əhvalatımı eşidiblər. Düzdür məktəbi bitirənə qədər bu barədə heç kim xəbər tutmamışdı. Düşünürdüm ki, yəqin indilərdə

eşidiblər. Çox xəcalət cəkirdim. Nə isə , bir sözlə ,mən hamıdan gen qaçmağa başlamışdım. Həyatımı dəyişmək haqqında düşünürdüm. Oxuyacam , deyirdim. Doğrudan da aşağı siniflərdən başlamışdım. Bir -bir kitablarımı tapıb gətirib oxuyurdum. Sən saydığını say , gör fələk nə sayır?- deyib atalar. Fələk həyatımı elə dəyişdi ki, tək başqaları deyil, özüm də mat qaldım. Atam mənim haqqımda su sənəyi suda sınar, gec- tez Ayaz başını bir bəlaya soxacaq , deyirdi həmişə. Bilmirəm bəlamı məni tapdı? Yoxsa mən özümmü onu axtarırdım. Qarlı, çovğunlu qışın yerini xoş ətirli , gülü çiçəkli, paxlava şəkərburalı , çərşənbəli , manqallı , tonqallı , səmənili bahar tutmuşdu. Cərşənbənin biri səkkiz martla üst- istə düşmüşdü. Atam bizi bağa aparmışdı. Kabab çəkdik, tonqal yandırdıq, Zirəddinlə lopa düzəldib atdıq. Yaxşı gün keçirdik. Hava ləzzət edirdi . Evə dönmək istəməsək də atamla anam səhər işə getməli idi. Həm də anam durmadan gedək şəhərdəki evində işıqlarını yandıraq deyirdi. Evə çatanda şər qarışmışdı. Anamgil yuxarı qalxsalar da mən içəri girmək istəmirdim. Həm gəldiyim mühitdən sonra ev məni darıxdırırdı. Həm də ki, başqa günlərdən fərqli olaraq indi həyətdə adam çox idi. Bloka girməzdən əvvəl anam sümüyünə dammış kimi dönüb üzümə baxdı. O,danışmasa da mən anamın nə demək istədiyini anlayırdım. Uşaqlar məhəllənin düz ortasında böyük tonqal hazırlamışdılar. Yandırmaq üçün havanın qaralmağını gözləyirdilər. Tonqalın kənarına getmədim , çünki orada mən yaşda kimsə yox idi. Anam demiş hamısı kiçik uşaqlar idi. Bilirdim ki, bir azdan məhəllə dostlarımla dolacaq . Yenicə ağaca söykənib durmuşdum ki, Fərrux müəllimin maşını düz yanımda saxladı. Kişi həmişəki kimi arxa oturacaqda oturmuşdu. Yenə də gözündə eynək var idi. Hava onsuz da qaralmışdı. Anamın sözü yadıma düşdü. İldırım eynəyinin üstünə düşmüş gözünün görünməyindən qorxur Bu sözü yüz dəfə eşitmiş olsam da indi gülməyim tuturdu. Elə bu vaxt sürücünün səsi məni fikirdən ayırdı:

_ Fərrux müəllimin sənə sözü var.

Təəccüblə pəncərədən içəri baxdım. Fərrux eynəyini çıxarıb mənə baxırdı. Onun sifətində o gecədəki təbəssüm var idi . Nədənsə ətim ürpəşdi. Kişi pəncərəni açıb: Gəl maşında otur, səndən bir xahişim var, -dedi. Qulağıma inanmadım . Bu boyda Fərrux müəllimin məndən nə xahişi ola bilərdi? Bu haqda düşünə bilməmiş özümü maşında oturmuş gördüm. Kişi qapını açan kimi maşına minmişdim. Fərrux müəllim məni şirin dillə dilləndirib hal -əhval tutdu. Universitetə qəbul olmadığım üçün təəssüf etdiyini bildirdi. Sonra onun mənə çox inanıb güvəndiyini söylədi. Mənim çox ağıllı , zirəng və çevik olduğumdan ağız dolusu danışıb, bunları mənim məşqçimdən eşitdiyini də açıqladı.Zöhrab müəllimin məndən razı olduğunu bilirdim. Amma bütün bunları Fərrux müəllimə nə məqsədlə danışdığını anlamadım. Kişinin mənim haqqımda danışdıqlarına nəinki təəccüb etdim, onun məndən yaratdığı qəhrəmana özüm də mat qalmışdım. Belə çıxırdı ki, nəinki bizim məhəllədə heç bizim şəhərdə mənim kimi sözü düz, ağzı bütöv, qoçaq, cəld və etibar ediləsi bir oğlan yox idi. Başa düşürdüm ki, Fərrux müəllim mənə nə isə bir tapşırıq verəcək. Başımda bütün fikirlər bir - birinə qarışmışdı. Nə deyəçəyimi düşünürdüm. Bu tapşırığın nə barədə olacağını araşdırmağa çalışırdım. Fərrux müəllimin bir oğlu , bir qızı var idi. Hər ikisi məndən böyük idi. Yenə məndən kiçik olsalar nə isə düşünmək olardı. Özü də qonşular hər nə qədər bu kişiyə və arvadına nifrət edib, haqqlarında ağızlarına gələni danışsalar da , bu iki gəncdən yalnız xoş sözlər danışırdılar. Salatın xanım deyilən kök qadından hamının zəhləsi gedirdi. Dünya dağılsa da əlini uzadıb maşının qapısını özü açıb düşməzdi. Mütləq sürücü gəlib maşının qapısını açmalı idi ki, qadın ya maşına minsin , ya da ki, düşsün. Onsuz da evdən çox az çıxan qadının gedişi - gəlişi qonşuların arasında maraqlı mübahisəyə çevrilirdi. Yazıq qadın gələn dəfə evdən çıxana qə-

dər qınaq mərkəzi olurdu. Saçından başlayıb , ayaqqabısında qurtarırdılar. Hərdən atam deyirdi: Nəzir verin ki, Fərruxla Salatın bizim qonşuluqda yaşayır, yoxsa siz nə edərdiniz? Murad uca boylu yaraşıqlı oğlan idi. Deyilənə görə universitetin hüquq fakültəsində oxuyurdu . Bütün qonşular, hətta atam da ondan çox razı idi. Anam hər onu görəndə maşallah deyirdi. Afaq isə zahiri görünüşcə çirkin olsa da , çox sadə və utancaq bir qız idi. Fikrim hər tərəfi gəzib dolansa da bir şey düşünə bilmirdim . Odur ki, bütün fikirlərimi və variantlarımı bir kənara atıb, bu kişinin axırda nə deyəcəyini gözləyirdim,. O, isə durmadan məni tərifləyirdi. Onun yaratdığı bu qəhrəman oğlandan mənim özümün də xoşum gəlməyə başlamışdı. Nəhayət ürəyim darıxmağa başladı , sual dolu gözlərimi onun üzünə dikdim. Fərrux müəllim sözünü yekunlaşdırandan sonra diqqətlə üzümə baxıb dedi:

-Bu sözlər öz aramızda qalacaq, əgər sənə güvənə bilsəm fikrimi söyləyərdim.

Çox tərəddüt etsəm də dodağımın altında mızıldadım. Nə dediyimi özüm də anlamırdım . Axı nə deyə bilərdim , heç nə başa düşmürdüm. Söhbət nədən getdiyini anlaya bilmirdim. Nəhayət kişi mənə söz verdirdi ki, sirr yalnız ikimizin arasında qalacaq . Birinci dəfə başımı qaldırıb sürücünün yerində olmadığını gördüm. Nə vaxt maşından düşdüyünü hiss etməmişdim. Fərrux müəllim uzun bir hekayə danışmağa başladı. Çox halal adam olduğundan , xalqın malını göz bəbəyi kimi qoruduğundan, bu yolda can qoyduğundan ,hədsiz fədakarlığından və sairə. Nəhayət əvvəl məni , sonra da özünü doyunca tərifləyəndən sonra keçdi mətləbə. Doğrusu mən bu işdən bir şey anlamadım. Amma Fərrux müəllimə bu işi yerinə yetirəçəyimə və o barədə heç kimə bir kəlmə də olsa danışmayacağıma söz verdim. Söhbət ondan gedirdi ki, məhəllənin düz ortasında yerləşən kiçik çörək köşkündə axşam yığılan pulları götürüb yoxa çıxmalı idim. Və bu işi elə gör-

məli idim ki, məni heç kim görməməli idi. Guya ki bu iş satıçıların səhlənkarlığını onlara sübut etmək üçün idi. Fərrux müəllim mənim sayəmdə onları tənbeh edib, daha da məsuliyyətli olmaqlarına nail olacaqdı. Fərrux müəllim mənə iki üç gün vaxt verdi. Və sonda nə vaxt , nə zaman lazım olsa onun yanına gəlmək icazəm olduğunu,- dedi. Evə lap gec döndüm . Odla su arasında qalmışdım. Atama deməmiş nə isə belə iş görməyin nə demək olduğunu anlamağa çalışırdım. Kişiyə də söz vermişdim. Bir o qədər tərifdən, inamdan , etimaddan sonra başqa cür hərəkət etməyi də özümə sığışdıra bilmirdim. Bəzən də bura da nə var ki, deyə düşünürdüm. Kişi polis rəisi idi. Hökumət insanların taleyini ona etibar edib. Yəqin ki, bu da onun tərbiyə üsuludur, deyə düşünürdüm. Pulu satıcıya qaytarıb bir daha səhlənkarlıq etməyin deyəcək. Hər halda nə düşünürəm düşünüm ürəyimdə bir narahatlıq var idi. O, narahatlıqla bərabər daxilimdən bir hiss gəlirdi. Nə baş verəcəyinin fərqinə varmadan Fərrux müəllimin tapşırığını yerinə yetir! Və bu hiss saatbasaat deyil, hər dəqiqə , hər saniyə artırdı.

Fərrux müəllimin tapşırığını yerinə yetirdim. Onun dediyi kimi etdim. Nə satıcı məni gördü , nə də mən onu. Sanki belə bir imkanı Allah verdi. Mən köşkün yanından keçəndə ağ xələtli bir adamın üzü arxa divara tərəf dayandığını görüb , bir dəqiqənin içində içəri keçib pulları siyirmə qarışıq götürüb , yoxa çıxdım. Bunun neçə baş verdiyinə özüm də inanmırdım. Hər şey bir göz qırpımında baş vermişdi. Nədənsə iki hiss məni boğurdu. Həm tez özümü Fərrux müəllimin yanına çatdırıb bu xoş xəbəri ona çatdırmaq istəyirdim. Və bu an kişiyə haqq qazandırırdım. Bax, düz deyir, deyə düşünürdüm. Deməli Fərrux müəllim haqlıdır, səhlənkardırlar. Işlərinə məsuliyyətsiz yanaşırlar. Lakin bu xəbəri çatdırmağın sevincini yaşamamış qəlbim kədərlə , narahatçılıqla dolurdu. Bu bir soyğunçuluqdur deyə düşünürdüm. Hətta arada bir an qayta-

rıb pulu yerinə qoymaq haqqında da düşünürdüm. Siyirməni nədənsə ata bilmədim. Onun da Fərrux müəllimə lazım olacağını düşündüm. Hətta bu fikir lap xoşuma gəldi. Maddi sübutdur , dedim. Evdə heç kimin olmadığını bildiyim üçün evə gəldim . Anamgil qonaq getmişdilər. Pulu götürüb siyirməni eyvandakı şkafın arxasına soxdum. Onu oradan məndən başqa heç kim götürə bilməzdi. Pul üç yüz on yeddi manat idi. Son manatına kimi bir salfetin arasına büküb Fərrux müəllimin yanına getdim. Kişi məni sakit qəbul edib belə olacağına inanırdım ,dedi. Sonra əsib coşub dövlətin malına xor baxırlar, elə bilirlər dədələrinin malıdır və sairə.. uzun bir məruzə etdi. Sakit oturub onu dinləsəm də içimdəki fırtına tələtümdə idi. Heç bir qərara gələ bilmirdim. Hər nə düşünsəm də artıq gec olduğunu da anlayırdım. Fərrux müəllim sözünü bitirəndən sonra ayağa qalxıb əlini şəstlə mənim kürəyimə vurub: Afərin - , dedi. Oğulsan oğul, səni seçməkdə yanılmamışam. Kağıza bükülü olan pulu ona uzatdım. O, mənə yaxınlaşıb gülümsündü. Gözünə baxanda kişinin hədsiz sevindiyi gözümdən yayınmadı. Görəsən bu kişinin bu qədər sevinməyinə səbəb nədir deyə fikrə getdim. O, kök bədənin çevik bir hərəkətlə fırladıb yerinə qayıtdı. Kresloda oturub yayxandı. Pulu sən apar, istədiyin kimi xərclə, onu mən ödəyəcəm ,- dedi. Dəhşətə gəldim. Bir anın içində başımdan sanki bir vedrə su tökdülər. Siz nə danışırsınız ? dedim. Fərrux müəllim bu dəfə qəhqəhə çəkdi. Ay bala, narahat olma, nə olub? - dedi. Biz sənin lə dostuq , apar pulu saxla, lazım olanda çağıraçam. Nə edəçəyimi , nə düşünəcəyimi bilməsəm də arxaya çəkilməyə başladım. Əvvəl pulu orada atıb qaçmaq istədim . Lakin birdən birə nə düşündümsə pulu da götürüb evə gəldim. Atamla anam nədənsə danışıb gülürdülər . Mən bəlkə də onların çoxdan bəri belə xoş günlərini görməmişdim. Anam məni görən kimi yemək gətirdi. Boğazım tikilmişdi. Elə bil ki dünyaları yemişdim. Hətta yeməyə baxanda ürəyim bulandı.

Nə baş verdiyini başa düşmür, atama da heç nə danışa bilmirdim. Yeməyi qarşıma qoyub dimdələndim. Sonra yuxum gəldiyini bəhanə edib otağıma keçdim. Onsuz da gözümə yuxu getmirdi. Yataqda çevrilə- çevrilə qalmışdım. Nəhayət atamın xorultusu gələn kimi pulu götürüb eyvana çıxdım .Pulu da siyirmənin yanında gizlətdim. Əlimi ilan kimi yandıran pulu gizlədəndən sonra bir az sakitləşdim.

Səhər yuxudan oyananda ürəyimin bulanması daha da artmışdı. Bir-iki gün halım pis olsa da yavaş -yavaş özümə gəlməyə başladım. Daha doğrusu özüm özümü inandırırdım ki, düz iş görmüşəm . Aradan bir aya yaxın bir vaxt ötürdü. Fərrux müəllimdən heç bir xəbər ətər yox idi. Təntənəli , maraqlı novruz bayramı ötüb getmişdi. Hələlik havada bahar nəfəsi duyulmurdu. Şırhaşır yağış yağmasa da havanın qaş qabağı açılmırdı. Bu gün də hava çiskinli , dumanlı idi. Bir sözlə havanın da könlü mənim könlüm kimi açılmaq bilmirdi. Özümü sakitləşdirsəm də ürəyimin dərinliyində dərd məni öldürürdü. Neçə vaxtdan bəri özümdə aclıq hiss etmirdim. Bu gün doğrudan da açmışdım. Anam buğlama bişirmişdi. Yeməyin xoş ətri gəldilkcə iştaham daha da artırdı. Anam mənə yemək gətirirdi. Amma neçə gətirdi? Hər şey yadından çıxırdı. Ağlım kəsəndən bəri anam mənə yeməyi böyük həvəslə gətirib. Çünki mən çox da iştahası olan uşaq deyildim. Odur ki, o həmişə məni yedizdirməyə çalışırdı. Başımı qaldırıb anamın üzünə baxdım, ağlamışdı. Təəccüb etdim. Dərhal yadıma eyvana gizlətdiklərim düşdü. Ürəyim az qaldı ağzımda çıxsın. Ana, nə olub , niyə ağlamısan ?- dedim. Anam himə bənd imiş kimi açıldı nə açıldı:

- Görüm Fərruxun hamıdan gizlətdiyi gözləri kor olsun.

Dəhşətə gəldim , başımın tükləri biz - biz durdu. Gözümü anamın ağzına dirəyib nə deyəçəyini gözləyirdim. Onsuz da fikirləşməkdən bezmişdim. Hər gün pullar haqqında atama danışmaq istəyirdim. Hər dəfə də dönə -dönə söz verdiyimi xatır-

layıb susurdum. Indi hər şeyi danışaçağımı düşündüm. Anamın gözünün içinə baxıb vəziyyətin nə yerdə olduğunu dərk etməyə çalışaraq xırıltılı səslə: Nə olub? dedim. Aldığım cavab məni dəhşətə gətirdi. Anam dedi:

- Kor qalmış Fərruxun gözü rəhmətlik Turab müəllimin qızına düşüb. Qıza ismarınç edib. Onunla görüşməyini istəyib pul , qızıl , mal təklif edib. Qızın razı olmadığını görəndə yazıq uşağı həbs etdirib. Guya ki mağazadan üç yüz yeddi manat pul əksik gəlir. Turab müəllimlə Zivər avtomobil qəzasında rəhmətə gedəndən sonra qonşular atandan xahiş edib, Səmanı ora işə götürtmüşdülər , həyətimizdəki çörək mağazasına . Yazıq körpə heç orta məktəbi bitirməyib.

Bütün vücudum əsdi. Yeməyi kənara itələyib: Ana, sən nədən daşırsan, məni bir düz əməlli başa sal görüm nə olub?- dedim. Anam düz qarşımda oturub yenidən başladı:

Qonşumuz Səmanın valideynləri dünyasını dəyişəndən sonra uşaqlar başsız qaldılar . Evin böyük uşağı bu qız idi. Qalan iki oğlan və iki yaşında bir qız uşağı kimsəsiz qalmışdı. Onlara yardım etmək məqsədi ilə qonşular Səmanın günortadan sonra çörək mağazasına işə düzəlmək qərarına gəldilər. Yazıq uşaq yaxşı da oxuyur. Bütün məhəllə sözü bir yerə qoyub, onu mağazada çox saxlamırdı. Çörək gələn kimi tez satıb evə gedirdi. Hər nə idi heç olmasa günə bir çörək aparırdı yetimlərə. Bu iblis Fərrux da belə bir yetim , kimsəsiz qızdan xəbər tutan kimi qıza göz tikir. Qızı ələ ala bilmək üçün nələrə əl atıb , nələr vəd edib , kül baş hər gün minnətçi göndərirmiş. Nəhayət onu yola gətirə bilmədiyi üçün uşağa şər atdırıb həbs etdirib. Atan minnətə getdi, əksik gələn pulu toplayıb ödəyərik dedi. Heç yaxın da qoymayıb. Daş atıb başını daşın altına tutub ki, olmaz ,dövlətin pulunu yeyib. Deyirlər qızı saclarını qırxdıracağı ilə hədələyir. Anam bunu deyib yenə də kövrəldi.

Dünya başıma fırlandı. Mən o, qonşuları tanımırdım. Amma onların faciəvi halda həlak olduqları günü xatırlayırdım. Bütün günü evimizdə söhbət yetim , kimsəsiz qalan uşaqlardan gedirdi. Deyilənə görə uşaqların yaxın qohumları yox idi. Adını indi eşitdiyim həmin bu qız ağlayıb bacılarını və qardaşını uşaq evinə verməyə qoymamışdı. Uzun müddət o qızı düşünmüşdüm . Hətta onlara kömək etmək haqqında da düşünürdüm, Bunu xatırlayanda yanıb yaxıldım. Yaxşı da kömək etdim , deyə düşündüm, yumruqlarımı elə düyünləmişdim ki , az qalırdı biləyimin damarı partlayıb qan yerə tökülsün. Xəcalətimdən ölürdüm , yer yarılsa yerə girərdim.Bayaqdan hər şeyi anama söyləyəcəyimi düşünsəm də indi bu sözü ağzıma belə ala bilmədim. Anam nələrsə danışırdı:

- Köpək oğlu, dünya dərə bəylik deyil . Qudurmuşun havasını bir alan tapılar. Vaqif Arıfin yanına gedəcəyini , hər yerə şikayət edəcəyini deyirdi. Allah qoysa o , köpəyin dərsini verən biri tapılar.

Arif əmimə bir az güvəndim . O, yüksək vəzifə sahibi olmağı ilə yanaşı çox ədalətli adam idi. Heç vaxt belə haqsızlığı götürməzdi. Təsəvvür edirdim ki, bu xəbərə neçə münasibət göstərər. Arif əmimi düşündükcə sakitləşmək istəyirdim bacarmırdım. Anam danışırdı , söyürdü, qarğış edirdi. Mən onun nə danışdığını düz əməlli eşitməsəm də özümün nə düşündüyümü yaxşı bilirdim. Onu mən susduraçam deyib , dönə - dönə təkrar edirdim. Ona nifrət edirdim, kinim aşıb daşırdı. Anam deyinib -deyinib otaqdan çıxdı. O, qapıdan çıxanda: Ayın beşində məhkəmədir,-dedi. O günə kimi bir şey edə bilməsək qızı həbs edəçəklər. Uşağın həyatı puç olacaq .Əgər Səma həbs olunsa o, qızla heç kim ailə qurmayacaq .

Nə günə düşmüşdüm, bunu dillə təsvir etmək mümkün deyildi. Sanki bütün dərimə istiot tökülmüşdü, yanırdım. Özümü dünyanın ən axmaq adamı hiss edirdim. Mənə bu qədər tərif söyləyə - söyləyə axmaq yerinə qoymuşdular. Bunu kimə

danışsam mənim nə qədər ağılsız odluğuma təəccüb etməyəcəkdi, gülməkdən ürəyi gedəçəkdi. Odur ki, Fərrux müəllimi öldürüb bu sirri də özümlə birlikdə qəbirə aparmaq qərarına gəldim. Fikrimdən dönmək məqsədim yox idi. Qərarım qəti idi. O gündən sonra gözümə yuxu getmədi. Gecə gündüz Fərruxu necə, harada, nə zaman öldürəçəyimi düşünürdüm. Demək olar ki, yemək yemirdim. Lap acından öləndə ağzıma nə isə atırdım. Anam gündə bir xəbərlə gəlirdi. Sözünün başında da sonun da Fərruxa qarğış edirdi. (Mənim daha ona müəllim deməyə dilim gəlmirdi) Səma həbs olandan bəri uşaqlara qonşular baxırdı. Növbə ilə onlara yemək bişirib aparırdılar. Anam yenə də onlardan gəlirdi. Təzə xəbərlə gəmişdi. Məhəlləmizdə Fira deyilən bir qadın var idi. Haqqında nalayıq söz söhbət gəzirdi. Bununla yanaşı məhəllədə yaxşı hörməti var idi. Çünki dar ayaqda hamının harayına çatırdı. Xəstələnənə dərman , eytiyaçı olana çörək alırdı. Qəribə o idi ki, Firanı görəndə hamı onu tərifləyib haqqında xoş sözlər danışırdı. Xüsusiyyətindən tutmuş paltarına , sacının rənginə , ayaqqabısına, bir sözlə, hər şeyinə tərif deyirdilər. Ayağını bircə addım kənara qoyan kimi nalayiq sözlər başlayırdı, nə başlayırdı. Biri deyirdi: geyindiyi paltara bax, sacına bax . Qalan qadınlar da birinci danışanın sözünü ağzında qoyub , bir birinə aman vermədən Firəngizi asıb kəsirdi. Bir sözlə məhəlləmizdə ən çox tərif eşidib, pislənən qadın Fira idi. Səmanın həbsindən sonra bütün günü uşaqların əsas işini görən də Firəngiz idi. Anamın dediyinə görə dünən Fərruxun evinə gedib, qızın başına açdığı işləri arvadına danışıb. Lakin qadın Firanı dinləyəndən sonra : Mən ona təsir edə bilmərəm,- deyib. Bu sözü sən deməmisən mən də eşitməmişəm. Amma Fərruxun arvadına bu sözləri Firadan başqa heç kim gedib deməyə risk etməzdi. Bunun da heç bir xeyri olmasa da bəzilərinin ürəyinə arxayınlıq gəldi. Qoy o, da bilsin ərinin əməlini, - deyib Firaya haqq qazandırırdılr.

Mən düşünüb daşınana qədər, məhkəmə günü çatdı. Axşamdan evdə hamının qanı qara idi. Atam ora -bura əl atıb bir iş görə bilməmişdi. Anam uşaqları yedizdirib evə qayıdandan bəri Fərruxa qarğış edirdi. Bayaqdan bir kəlmə olsun söz danışmayan atam, anama: Bəsdir, az qarğış elə ,- dedi. Bədniyyabətini bizim evə tökmə. Sonra isə Turab müəllimin qarasınca deyinməyə başladı:Ay bədbəxtin oğlu , özün yetimxanada böyümüsən, bəs arvadı niyə yetimxanadan alırsan. Heç olmasa birinizin qohumunuz olardı, uşaqlarınza kömək edərdi. Anam da atama qoşulub deyinməyə başladı. Və sonda nə olur olsun uşaqları yetimlər evinə verməyə razı olmayacayıq , - dedi. Sanki, öləçəklərini bilirlərmiş kimi hər ikisi ayrı ayrılıqda bütün qonşuların yanında qorxuruq ki, uşaqlarımız da bizim ikim yetimxanada böyüyərlər deyiblərmiş .

Anam daha başqa sözlər danışırdı. Arada atamın da səsi gəlirdi. Arada bir başqa mövzudan danışsalar da , hərlənib fırlanıb Səmanın yanına gəlirdilər. Anam uşaqların ərkəsöyün olduğunu söyləyirdi: Hər yeməyi yemirlər, hər şeylə razılaşmırlar. Yazıqlar heç düşdükləri vəziyyəti də düz əməlli anlamırlar. Elə bil ki, Turabla Zivər gəlib bunların nazını çəkəcək . Atam anamın sözünü ağzında qoyub : Bir ay deyil uşaqlara yadım edirsiniz, artıq deyinməyə başlamısan. Onların yetim olduqlarını anlatmağa çalışmayın. Həyatın enişli -yoxuşlu yolları hər şeyi onlara başa salacaq . Turab həmişə deyirdi ki, Vaqif, istəmirəm uşaqlarım çətinlik çəksinlər. Biz ağır günlər keçirmişik. Ona görə çalışıram ki, gecə gündüz işləyim balalarım yaxşı gün görsünlər. Eybi yoxdur, əziyyət çəkərəm , onların xoş günlərindən kam alaram. Yaxşı saxlayırdı balalarını. Uşaqların hələ də o hava başından getməyib. Kim nə edir etsin onlara valideyinin yerini verə bilməyəçək. Yetim olduğlarını tezliklə anlayacaqlar. Necə ki, artıq Səma anladı. Atam uzun müddəd susub yenidən , bəlkə də pulu doğrudan da qız xərcləyib,- dedi.

Atam nə dediyini artıq eşitmirdim. Pulu bəlkə də qız xərcləyib sözünü tez- tez təkrar edirdim. Artıq Fərruxu neçə oldürəçəyimi qət etmişdim. Onu açıq aşkar maşından düşən yerdə, hər kəsin gözünün önündə, bıçaqla vurub öldürmək haqqında düşünürdüm. Bu işi səhərki məhkəmədən sonra icra edəçəyimi qərara aldım.

Ac -susuz otağıma keçdim. Paltarlı yatağa uzandım. Yata bilməyəcəyimi düşünsəm də, dərhal yuxuya getdim. Səhər mən yuxudan oyananda atamla anam işə getmişdi. Başımdan sanki daş asılmışdı. Heç nə düşünə bilmirdim. Hətta bir an nə baş verdiyini xatırlamırdım. Əl - üzümü yuyub mətbəxə keçdim. Anam hər şeyi süfrəyə düzmüşdü. Yağ, pendir , bal , yumurta və öz bişirdiyi şirin çörəklər. Çaydanın altını yandırıb , kefsiz- kefsiz yumurta soymağa başladım. Bu mənim evimizdə yediyim sonuncu səhər yeməyi idi. Lakin onu da yeyə bilmədim . **B**irdənbirə atamın məhkəmə saat on ikidə olacaq dediyini xatırlayıb yerimdən dik atıldım. Bir başa eyvandakı şkafın üstünə qalxdım. Oradakı pul bağlamasını da siyirməni də götürdüm. Ağlıma gələn bu fikir məni sevindirirdi. Tələm tələsik əlimdəki pulu və siyirməni bir kağız torbaya qoyub evdən çıxdım. Məhkəmənin ünvanını bilirdim. Bir nəfəsə özümü məhkəmənin həyətinə saldım ,sevinirdim. Nədənsə indiyə qədər bu fikir ağlıma gəlməmişdi. Qapıda dayanan polislər mənə içəri keçməyimə mane olmaq istəsələr də bacarmadılar. Onlar gözünü açana qədər mən artıq içəridə idim. Arxamca içəriyə keçən polislər ağzını açmağa macal tapmamış; Möhtərəm hakim, mənim törədilən bu cinayətə aid sübut və dəlilim var, -dedim. Saclarına azca dən düşmüş yaraşıqlı və çox zəhmli hakim polislərə çölə çıxmaq işarəsi etdi. Gözümü hərləyib zala baxdım . Oturanların çoxunu tanıyırdım . Demək olar ki , hamısı qonşular idi. Bir an həyəcanlanıb tərləsəm də özümü ələ aldım. Daxilimdən bir qüvvə məni mətin olmağa səsləyirdi. Hakim mənə əli ilə irəli gəlməyə işarə etdi. İrəli keçib

əlimdəki bağlamanı açmağa çalışdım. İcəriyə ölü sükut çökmüşdü. Hamı maraqla mənim nə edəcəyimi gözləyirdi. Əllərim titrəyə-titrəyə kağız torbanı açıb icərisindəki siyirməni və pulu çıxardıb əlimə aldım. Sonra onları hər kəsin görə biləcəyi bir tərzdə yuxarı qaldırıb: Pulu siyirmə qarışıq mən götürmüşdüm, - dedim. Zaldan dəhşətli bir uğultu səsi qalxdı. Səs qulağıma düşdü və demək olar ki, uzun müddət həmin uğultu qulağımda qaldı. Bayaqdan bəri tam soyuq və etinasız dayanan hakim başını qabağa uzadıb dəhşətli bir nəzərlə mənə baxırdı. O , zalda yaranan səs küyü kəsmək üçün əlindəki çəkici bir neçə dəfə masaya vurdu. Sonra mənə tərəf çevrilib: Danış görək nə olub ? - dedi. Fərruxun adını çəkmədən hər şeyi danışdım. Çörək almağa gedəndə bir an üzü divara dayanan qızla zarafat etmək üçün pulu daxıl qarışıq götürüb qaçdığımı söylədim. Zalda yenidən uğultu qopdu. Hakim yenidən çəkicini masaya döyməli oldu. Yerdən çürbəçür səslər gəlirdi. Qulaqlarım alışıb yanırdı. Lakin hər keçən an içimə sakitlik gətirirdi. Yalanımı elə qurdum ki, guya bütün bunları qızdan xoşum gəldiyi üçün etmişəm. Və bir an qızı tanımadığımı düşünüb boylanmağa başladım. Gözüm müttəhimlər kürsüsündə oturan qıza sataşanda donub yerimdə qaldım. Az qalırdı nəfəsim kəsilsin, mənə elə gəlirdi ki orada oturan qız deyil , nazlı bir mələkdir. Gözümü qızdan çəkə bilmirdim. Qızın üzündə sual ifadəsi yaransa da mən tərəfə baxmırdı. İri ala gözlərini harasa uzaqlara dikmişdi. Gözünün içində halqalanıb qalmış yaş gözünü daha böyük göstərirdi. Sarışın saçları allanmış ağ , gözəl sifətini daha da gözəlləşdirirdi. Həyəcandan titrəyən ətli dodaqlarının arasından muncuq kimi düzülmüş ağ dişləri görünürdü. Bir an düşündüm ki, heç vaxt belə gözəllikl ə rastlaşmamışam. Ürəyimdə Fərruxa söyürdüm, nifrət edirdim. Yaşca onun öz qızından az qala dörd beş yaş kiçik olan bu qıza necə göz dikə bilirdi. Səma yaşda olub bu yolu seçən o qədər qız var idi ki, niyə gedib özünə onlardan birini

tapmırdı? Hansı vicdanla belə bir qızının həyatını puç etmək istəyir. Hakim mənə nələrsə sual verirdi. Mən isə bayaqkı vəziyyətdə qalmışdım. Bu fikrin ağlıma gəldiyinə görə allaha yalvarırdım . Halbuki mən Səmaya həbs cəzası kəsilən kimi o, murdarı öldürmək haqqında düşünürdüm. Hakim daha ucadan səslənəndə sanki yuxudan ayıldım. Gözümü gözəl qızdan zorla çəkib onun sualına cavab verdim:

-Cənab hakim, bayaqdan bir necə dəfə təkrar etmişəm . Mən Səma ilə zarafat etmək , daha doğrusu onu qorxudub narahat etmək istəyirdim. Lakin pulu aparandan sonra gördüyüm bu işin zarafat deyil , əsl oğurluq olduğunu anladım. Pulu qaytarmaq üçün çarə axtarsam da bir şey edə bilmədim . Gördüyüm işin belə nəticə ilə qurtaracağı ağlıma gəlmirdi. Pulun cəmi beş altı manat olacağını düşünürdüm. Götürdüyüm pulun qəpiyinə də əl vurmamışam.

Zalda yenidən uğultu qopdu. Ara qarışsa da bir azdan mənim əllərimi qandalladılar. Səmanı zaminə buraxsalar da, azad etdilər. Gözəl qız oturduğu yerdən qalxan kimi qonşular onu araya aldılar. Qızı qucaqlayıb öpənlərin arasından mənə dua edənlər olsa da qarğış edənlər də az deyildi. Kök bir qadın deyirdi:

- Yalansa başın batsın, Fərruxun maşınında oturub təlim alan sən deyildin?

Sarışın bir qadın iki əlli mənə qaramat ata – ata deyirdi:

- Dəlinin də dəli sevgisi olar.

Bütün bunlarla yanaşı adamların arasından mənə dua edib , xoş sözlər deyənlər də var idi:

- Allah can sağlığı versin. Yenə də mərd oğlandır. Sağ olsun, son anda qızı xilas etdi. Artıq heç nə eşitmirdim. Səslər bir - birinə qarışmışdı. Xoşbəxt idim. Gözəl mələyi xilas etmişdim. Bu fikir indiyə qədər niyə ağlıma gəlməmişdi? Bir tək onu bilirdim ki, həbs olunmağıma məyus olmurdum, gözümdə heç bir qorxu hissi yox idi. Səma hakimlərin qərarını

dəyişəçəyindən qorxurmuş kimi onu əhatə edən adamların arasından çıxıb getməyə can atırdı. O ,adamların sırasını yarıb qapıya tərəf dartındı. Mən gözümü demək olar ki, ondan çəkmirdim. Səma qapıya çatıb ayaq saxladı. Gözünü fırladıb ürkək ceyran kimi mənə baxıb qapıdan çıxdı. Uzun müddət , bəlkə də uzun illər onun gözündəki ifadəni xatırlayıb , nə demək istədiyini anlamağa çalışırdım. Bəzən mənə minnətdarlıq etdiyini düşünsəm də, əksər hallarda nifrət yağdırdığını zənn edirdim.

Anamın gecə ilə heç səhər açılmamış yanıma gələcəyini zənn etsəm də, həbsxanaya yanıma atam tək gəlmişdi. Kişi çaşıb qalmışdı ,neçə deyərlər matı -qutu qurumuşdu. Sual dolu gözlərini üzümə dikib təəccüblə baxırdı. O, məndən hər şey gözləyirdi, amma bu hadisəyə çox təəccüb edirdi. Evimizdə günlərlə bu mövzuda söhbət getmişdi .Və mən hər şeyi bu qulaqlarımla eşitdiyim halda neçə susmuşdum? Kişinin təkcə gözləri deyil, yana doğru açılmış qolları, başına qısılmış çiyinləri, bir sözlə, bütün vücudu sual işarəsinə dönmüşdü. Birinci dəfə atama yazığım gəldi. Kişi sınmışdı. Amma mən onun suallarına düz əmməli cavab verə bilmədim . Çünki, Fərruxun adını çəkmək fikrim yox idi. Belə allanıb tora düşdüyümü özümə də etiraf etməyə utanırdım. Ona görə nə isə bir şey uydurmalı idim. Bir necə gündən sonra məhkəmə olacaqdı. O zaman etdiyim hərəkətə görə məhkəmə qarşısında cavab verməli idim. Amma lap çox cəza alsam da Fərruxun adını çəkməyəçəydim. Onunla haqq hesabım qiyamətə də qalsa qisasımı ondan alacaqdım.

Həbsxana cəhənnəm olsa da mənə cənnət kimi gəlirdi. Sən demə insanın vicdanın həbsindənsə özünün həbs olunması yaxşı imiş. O, qız həbsxanada olanda vicdan əzabı məni öldürürdü. Onun bunun ümidinə qalan körpələrin dərdi bir yana qalsın. Mənim sayəmdə murdar Fərrux bu qıza cəza kəsdirib, sonra da onun həyatını məhv edəçəkdi. Anamın dediyinə

görə Səma təklifini qəbul etməyəndə ,ilk əvvəl qızılın, pulun miqdarını artırıbmış. Lakin qız onların heç birini qəbul etməyəndə ona evlənmək təklifi edibmiş. Əclaf qızından iki üç yaş kiçik olan qızla evlənmək fikrinə düşübmüş. Hətta bu təklifi özü tərəfindən böyük qəhrəmanlıq kimi qələmə verirmiş. Bütün bunları xatırladıqca , həbsxanaya düşməyimdən razı qalmışdım. Onu da bilirdim ki, Fərrux daha Səmaya yaxın gələ bilməyəçəkdi.

Atam mənə vəkil tutmuşdu. Hər nə olur olsun sözümün üstündə durub Səma ilə zarafat etdiyimi deyib durdum. Nədənsə vəkil də mənim sözümə inanmasa da fikrimin üstündə durmağıma etiraz etmədi. Hər ötən gün Fərruxun ya gələcəyini , ya da ki , kimdənsə ismarınç edəçəyini gözləyirdim. Lakin o gözə görünmədi. Heç kimdən də xəbər filan göndərmədi.

Məhkəmə günü də gəlib yetişdi. İlk cinayətim olduğunu, törətdiyim cinayəti etiraf etdiyimi və oğurlanmış məbləği qəpiyinə qədər ödədiyim üçün mənə bir il altı ay cəza verdilər. Həmin gün atamla anamın görkəmi dəhşətli idi. Elə bil hər ikisini qaynar suya salıb, çıxardıb buzlu suya salmışdılar. Çünki həm tərləmişdilər, həm də titrədikləri hiss olunurdu. Məhkəmə zalından az qala sürünə - sürünə çıxan valıdeynlərmin arxasınca baxıb düşünürdüm , bu gün mənim yerimdə burada , müttəhimlər kürsüsündə Səma otura bilirdi. O, Səma ki, onu bu məhkəmə zalında ağlaya - ağlaya , titrəyə - titrəyə gözləyən ata anası yox idi. Və onu bu günki gündən sonra nələr gözlədiyini bir allah bilirdi. Halbuki bu yer onun deyil mənim idi ki, öz yerimdə oturub layiqli cəzamı almışdım.

Lakin hər nə qədər özümdən razı olsam da heç kimə , heç özümə etiraf etmədiyim hisslər məni sıxırdı. Belə ki, darıxırdım. Bir il altı ayın bitib qurtaracağına artıq inanmırdım. Günlər ötmürdü. Bura əsl çirkab idi. Bəlkə də yer üzündə məhbus həyatından ağır həyat yoxdur deyə düşünürdüm. Çə-

tinliklərdən başqa məhdudiyyət insanı bezdirirdi. Demək olar ki , burada heç nəyin , nə varlığının, nə də ki ağlının sahibi sən deyilsən. Sən bir heçsən. Bir cinayət törədib illərlə bir heç olaraq yaşamaq istəyirsənsə özünə bu həyatı seç. Bəzən Fərruxa minnətdar olmaq istəyirdim ki, bu kiçik həyat parçasını da mənə göstərdi. Buraya düşənə qədər hər gün Fərruxu öldürmək haqqında düşünsəmdə artıq bu fikrimə son qoymuşdum. Onun cəzasını qoy allah versin deyə düşünürdüm. Əslində bir cinayət işləyib həbsə düşmək özünə caza verməkdir. Bir il altı ayın bitməsini gözləyə bilmirdim. Bəs bir insan həyatına qəsd etsəm uzun illik cəzaya necə tab gətirəcəkdim? O ,murdar məxluqa görə həyatımı məhv etmək fikrində deyildim.

Atam var qüvvəsini işə salıb məni həbsxanadan azad etdirməyə çalışırdı. Bilmirəm o mənə inanırdı ya inanmırdı. Bir tək onu bilirdim ki, mən həbsə düşəndən kişinin yarı canı qalmışdı. Elə bil ki, cəzanı mən yox o çəkirdi. Atam mənimlə bərabər cəza çəkməyi bir yana qalsın həm də xəcalət çəkirdi. Ən azı ayda bir dəfə gəlirdi. Anam mənə təmiz paltar və yemək göndərsə də özü gəlmirdi. Mən onun niyə gəlmədiyini soruşmasamda atam hər dəfə bir bəhanə uydururdu. Bir dəfə onun üzünə maraqla baxdığımı görüb: Anan səndən küsüb ,- dedi. Artıq sual verməyib gözlərimi yerə dikdim. Amma atam getməyə hazırlaşanda dilimi sürüyə - sürüyə: Ata, Elnurun gitarasını al ver,- dedim. Düzdür mən gitaranı Elnuru müdafiə edərkən qırmışdım. Amma burada hər gün onun qırılmış gitaraya neçə baxdığını xatırlayırdım. Az qalırdı hönkür - hönkür ağlasın. Atam nəinki mənə söz vermədi , ümumiyyətlə, sözə əhəmiyyət vermədi. Hətta mənə elə gəldi ki, nə barədə danışdığımı başa düşmədi . Təkrar deməyə də üzüm gəlmədi. Lakin atam gələn dəfə gələndə Elnurun gitarasını aldığını söylədi. İçimə bir rahatlıq çökdü. Nədənsə atama təşəkkür edə bilmədim . Halbuki minnatdarlıq hissimi söyləmək istə-

yirdim. Atam nə qədər canfəşanlıq etsə də bu işə altı aydan sonra nail oldu. Güllü - çiçəkli baharda həbs olmuşdum. Həmin gün mənə elə gəlmişdi ki, baharın ilıq nəfəsini, gülünü , çiçəyini əsən sərin mehini, təravətini mənimlə bərabər həbs ediblər. Yəni bu gözəllikdən tək mən deyil bütün dünya məhrum olub. Necə ki, lap balaca olanda açığım tutan kimi anamgilə deyirdim məni hirsləndirməyin, indicə gözümü yumacam qaranlıqda qalacaqsınız.

Atamın zəhməti boşa getmədi. Altı aydan sonra həbsxanadan azad oldum. Həmin günü ömrümün axırına kimi unutmayaçam. Əlizadə Ayaz Vaqif oğlu, siz azadsınız , sözü durmadan qulağımda səslənirdi. Az qalırdım ki, var səsimlə bağırıb , mənimlə bərabər həbs olunan baharı da azad edin- deyəm. Lakin özüm azad olsam da bahar ilıq nəfəsi , sərin küləyi, gülü - çiçəyi ,təravəti ilə birlikdə ölmüş olduğu üçün onu azad edə bilmədilər. Çünki, mən həbsxanada olanda mənim ömrümün həmin baharı məhv olmuşdu. İndi bahar deyil payız fəsli idi. Mən payızın belə gözəl olduğunu bilmirdim. Doğrudan da bol məhsullu , barlı bəhərli payızın özünə məxsus özəlliyi var idi. Atamın maşınına oturub həsrətlə ətrafa baxırdım. Mənə elə gəlirdi ki payızda yaşıl donunu soyunub rəngli paltar geyinən ağacları ömrümdə görməmişəm Yox, doğrudan da mən bunu müşahidə etməmişdim. Bu rənglərin də öz gözəlliyi var idi. Bəlkə də bu əl - əlvan rəngli yarpaqlar yaşıl rəngdə olduğundan da gözəl görünürü. Maşın həyətimizə girəndə ürəyim sıxıldı. Qonşularla üzbəüz gələçəyimi düşünməmişdim. Hətta bir an mənə elə gəldi ki, qonşular məni görən kimi üstümə gəlib dava edəçəklər. Sənin üzündən xalqın uşağının həyatı məhv olacaqdır, - deyəçəklər. Və bir ağızdan mənə lənətlər yağdıraçaqlar. Bizim məhəllənin adamları , daha doğrusu , qadınları üsyan etməkdə birinci yer tuturdular. Atam həmişə deyirdi : bizim məhəllənin qadınlarına bir hay lazımdır. Atam maşını blokun ağzında saxlayıb güzgüdə mənə baxırdı. Gözləri-

miz bir birinə sataşanda atamın məni başa düşdüyünü anladım. O, mənə uzun uzadı bir baxış baxandan sonra: Düş , narahat olma,- dedi.

Anam məni doğrudan da dindirmirdi. Amma bu necə dindirməmək idi,- bilmirəm ?Əlindən gələni bişirib düşürüb qulluq edirdi. Başıma dolanırdı. Gecələr iki üc dəfə gəlib yorğanımı , yastığımı düzəldirdi. Mən onun necə əziyyət çəkdiyini görürdüm. Evdən çölə çox az çıxırdı. Əslində elə mən də bayıra demək olar ki , çıxmırdım. Atam da mənimlə çox soyuq rəftar edirdi. Onların belə rəftarı məni daha da sındırırdı. Fərruxa qarşı kinimi aşırıb daşırırdı. Özümü zorla əla alırdım. Anamgil danışmırdı. Mənim də soruşmağa üzüm gəlmirdi. Səmagilin haqqında heç nə bilmirdim. Harada idilər, indi neçə dolanırdılar? Uşaqları körpələr evinə verdilərmi? Mənim haqqımda qonşular nə danışırdılar? Ən azı bir həftəmiz belə ötdü. Bir həftədən sonra anam açdı sandığı , tökdü pambığı. Sən demə qonşular bir neçə adamdan ibarət bir komanda yaradıblamış ki, bu ailənin problemini həll etsin. Onlar da bu işi doğrudan da həll ediblər. Belə ki, Turab müəllimin maşınını , qarajını satıb, kiçik bir obyekt alıblar. Birlikdə əl gəzdirib təmir etdikləri bu obyekti hələlik işlədə biləcək bir adam olmadığı üçün kirayə veriblər. Bütün işləri qanun cərcivəsində həll edib, sənədlə qeydiyyatdan keçiriblər. Hər ayın başında pulu Səmaya qonşu qadınlar çatdırmalı idi. Qadınlar isə ilk aylar pulun hara və necə xərçləndiyinə nəzarət etməli idilər. Bütün bu işlərin başında atam dururmuş. Planları da o cızıbmış . Sadəcə olaraq planları həyata keçirmək üçün qonşulardan ibarət bir qrup yaradıb ki, hər şey hər kəsə məlum olsun. Artıq Səma yavaş - yavaş işlərin öhdəsindən özü gədiyi üçün hər kəs çəkilib evinin altına gedibmiş . Qız həm də gecə gündüz oxuyub universitetə hazırlaşmaqla yanaşı ev işlərini görüb, uşaqları böyüdürdü. Anam ondan danışmaqdan doymurdu. Bu bir həftəni necə dözmüşdü ona təəccüb edir-

dim. Eşitdiyim sözlərdən sonra içimə bir rahatlıq çökdü. Təəssüf ki, öz haqqımda deyilənləri eşidəndə ölüb yerə keçdim. Əksəriyyət adam danışdıqlarımın nağıl olduğunu, sadəcə, adicə oğurluq etdiyimi deyirmiş. Anam bu mövzuya keçəndə himə bənd imiş kimi əsib coşmağa başladı. Yazıq qadın az qalırdı havalansın: Nə olsun ki , mən bilirəm ki, sən oğurluq etməzsən. Bu günə nə qədər dəlilik etmisən hamısına dözmüşük. Sən demə görəcəkli günlərimiz var imiş. Oğlumuz sevgisini tarixdə görünməmiş bir üsulla bəyən edib, bizi də özünü də rüsvay etdi. Axı buna kim inanar? Belə də eşq elan etmək olar? Sevdiyi qızı həbsxanaya göndərən oğlan haqqında heç eşidən olub?

Anam susmadan danışırdı. Qulaqlarım batmışdı. Doğrudan mən məhəlləyə necə çıxacağımı düşünürdüm. Bu sualları mənə uşaqlar da verəcəkdi. O zaman nə cavab verəcəkdim Heç evdə bir qıza cavab verə bilmirdim.Mən evə dönən gündən onsuz da səssiz olan Fidanın səsi çıxmırdı. Fidanın özündə də bir küskünlük var idi. Qız mən tərəfə baxa bilmirdi. Anam kimi o da mənə qayğı göstərib qulluğumda dururdu. Bu münasibət mənə qəribə təsir edirdi. Bəzən istəyirdim ki, hönkür- hönkür ağlayım. Beləliklə bir təhər günlərimi başa vururdum.

Aradan xeyli zaman ötmüşdü. Atam işdən evə geç dönmüşdü. Onun gəldiyndən heç birimiz xabər tutmamışdıq. Qapını Fidan açmışdı. Mənə elə gəldi ki, atam gəldiyini qəsdən bildirmək istəmirdi. Çünki anam həmişə kimi yenə də deyinirdi. Onun sözləri isə kişinin ürəyindən tikan çıxardırdı. Anam atamın səsini eşidən kimi sözünü kəsib ona çay, çörək vermək üçün mətbəxə keçdi. Mən anamın bu günki sözlərindən sonra hər şeyi onlara danışmaq qərarına gəldim. Atamın səsini çıxarmadan anamın mənə olnan tənəsini dinləməyi mənə pis təsitr etmişdi. Sözümə haradan , necə başlayaçağımı düşünürdüm. Lakin atamın gətirdiyi xəbər bizi şoka saldı.

Atam içəri girəndə heç bizim söhbətimizi eşitmirmiş. O, həyətə girəndə böyük bir izdihamla rastlaşıb. Maşından düşüb nə baş verdiyini öyrənmək istəyəndə Fərrux müəllimin oğlu Muradın dünyasını dəyişdiyini eşidib dəhşətə gəlib. Atamdan bu sözləri eşidəndə biz də mat qaldıq. Atam gözləri yaşla dolmuş anamın üzünə baxa- baxa: Yazıq uşağa o qədər qarğış tökdülər ki, axırı da belə oldu,- dedi. Anam atamın sözünü ağzında qoyub : Sən allah, mənə söz vurma , qarğış tuturdusa elə Fərruxun özünü tutaydı də. Yazıq uşağın nə günahı var idi. Doğrudan da Murad yaxşı oğlan idi. Bu qalmaqallı məhəllədə hələ bir dəfə onun haqqında bir kəlmə artıq - əksik söz danışan olmamışdı. Uça boylu, nəcib vücudlu, çox yaraşıqlı oğlan idi. Xasiyyəti də yaraşıqlı sifəti, nəcib vücudu kimi gözəl idi. Onun tək bir işi var idi ki, qonşularla az ünsiyyət saxlayırdı. Deyilənə görə buna da səbəb var idi. Universitetin hüquq fəkültəsində əla qiymətlərlə oxuyurdu. Çölə -bayıra çıxmağa vaxt tapa bilmirdi. Onun axırıncı görkəmi gözümün önündən çəkilmirdi. Novruz bayramında onu bloka girəndə görmüşdüm. Açıq qəhvəyi rəng kastyum geyinmiş olsa da , gödəkcəsi , kəməri və ayaqqabısı tünd qəhvəyi rəngdə idi. Boğazına qəribə tərzdə doladığı şərf bu rənglərin zolaqlarından ibarət idi . Mən geyimə həvəskar deyiləm , amma Murad uzun müddət gözümün önündən çəkilmədi. Sanki moda jurnalından gəlmişdi. Düşünürdüm ki, bu libası bir başqası geyinsə belə yaraşıqlı görünə bilməz. Anamgil nə isə danışırdılar. Mən Muradı düşünürdüm. Anamgil Muradın ölüm səbəbinə inanmaq istəmirdilər. Deyilənə görə universitetdə bir fakültədə oxuduğu oğlanların hamısı yeni işə təyin olubmuş . Belə bir əhdləri var imiş ki, hamı işlə təmin olunandan sonra birlikdə yeyib içib, uşaqlığın son gecəsini qeyd etsinlər. Və bundan sonra yeni həyatlarına qədəm bassinlar. Qruplarındakı axırıncı oğlan da işə girmək haqqında sərəncamını alan kimi istirahət gününə qonaqlıq təyin ediblər. Ömründə birinci dəfə

qonaqlıqdan evə gec gələn Murad səhər yuxudan oyanmayıb .Atamın dediyinə görə hərə bir söz danışırmış. Əksəriyyət adam oğlanın zəhərləndiyini , qəsdən öldürüldüyünü söyləyirdi. Bu xəbər hamını sarsıtmışdı. Ən çox da anamı . Atamın dediyi söz onu tutmuşdu. Doğrudan da Muradın ölümündə özünü günahkar görürdü. Arada bir dodağının altında qarğış tutursa elə Fərruxun özünü tutaydı,-deyirdi. Hər kəs kimi mən də məyus olmuşdum. Özümə gələ bilmirdim. Hətta iki gecə gözümə yuxu getmədi. Murad kimi bir oğlanın ölümünə inana bilmirdim. Bu axşam yenə də söhbət onun ölümündən gedirdi. Anam peşimancılıq hissi kecirdiyinə görə ona yazığım gəlirdi. Yazıq qadını tökdüyü qarğışın oğlanın ölümünə səbəb olduğuna inanırdı .Şaiyələr ayaq tutub gəzirdi. Hər kəs Fərruxun əməllərinin qarşısında durduğunu söyləyirdi Mən də necə gündür içimdə qaynatdığım sözü atamgilə demək haqqında düşünürdüm. Bir təhər özümü toplayıb ,mən Səmanı tanımırdım - dedim. Atamla anam söhbətlərini kəsib təəccüblə üzümə baxdılar . Necə yəni tanımırdım ? Bəs demirsən ki, pulu Səmanı qorxutmaq, hirsləndirmək məqsədi ilə aparmışam?

Atamla -anam sual dolu gözlərini üzümə dikmişdi. Mən yenə də təkrar etdim : Səmanı tanımırdım. Anam hirslənib qışqırdı:

-Demək oğurluq edibsən, hə? Mənim ürəyimə dammışdı ki, burada nə isə ayrı iş var.

Fərruxun məni cağırmağından başlayıb hər şeyi danışdım. Atam kətan kimi ağarmışdı. O, uzun bir sükutdan sonra dedi: --O vaxt ki telefon məsələsi də qurma idi. Mən onu hiss edirdim. Gitaranı alıb Elmara verəndə Elmangilə getmişdim. Üzümə baxa bilmirdi , xəcalət çəkirdi. Səni soruşanda əli -ayağı əsirdi.

Həbsxanada olanda mən özüm də bu barədə düşünmüşdüm.Həmin gecə Elman mənə telefonlarını uzadanda onun

üzündə qəribə bir çaşqınlıq var idi.Əgər kimdənsə qaçmış olsa heç olmasa tövşüyərdi.O isə dayanıb döyükürdü.

Atam da anam da dəhşətə gəlmişdi Fərruxun məqsədini anlamağa çalışırdılar. Cürbəcür variantlar söyləyirdilər. Hamısının başı gəlib Səmanı tora salmaqdan keçirdi. Fərrux məhəllənin uşaqlarının arasından mağazadan pulu götürə biləcək birini axtarırmış. Mənim aldanmağım atamı yandırırdı. Anam da arada bir:Neçə olub ki, sən Səmanı görmənisən? – deyirdi. Yalan demədiyimi dönə - dönə təkrar etdim. Qızı ilk dəfə məhkəmə zalında gördüyümü söylədim. Uzun mübahisədən sonra atamgil heç olmasa günahımı boynuma aldığıma görə sağ ol,- dedilər .

Düşündükcə dəhşətə gəlirdim. Anam həmişə deyirdi ki, allah hər şeyi görür. Hər kəs öz işlətdiyi günahın gec ya tez cəzasını alır. Amma Muradın ölümünə görə adamın bu sözü deməyə dili gəlmirdi. Murad bir qarışqanı da incitməzdi. Fərruxun murdar əməllərinə görə niyə cavab verməli idi? Bu gənc yaşında həyatdan niyə nakam getməli idi?

Muradın ölümündən sonra tək bizimkilər deyil məhəllənin qalan sakinləri də süst düşmüşdü. Heç kim Fərruxdan, onun əməllərindən danışmaq istəmirdi. Bir yana baxanda qulağım dinçəlmişdı. Hər gün , hər axşam dinlədiyim bu söhbətlər mənim hövsələmi tarıma çəkilmişdi. Bunların hamısını Səma özü danışırmış . ilk günlər yanına bir qadın gəlib, ona nələrisə vəd edib Fərruxla görüşməyini təklif edəndə, bu sözü sirr olaraq saxlayacağını düşünürmüş. Lakin sonralar qadın israr etməyə başlayıb. Qızdan yalnız yox cavabını eşidəndən sonra hədə qorxuya başlayıb. Fərruxun çox böyük nüfuzundan, əlindən hər şeyin gələ bilməyindən söz açıb, səni həbsxanaya atdırıb illərlə işıq üzünə həsrət qoyacaq,- deyib. Bu sözlərində xeyri olmayanda Səmaya: Özünə yazığın gəlsin,- deyib. Fərrux fikrindən dönən deyil , onun axırıncı təklifi budur ki, əgər belə görüşmək istəmirsə arvadımı boşayıb onunla ailə

quraram. Bu təklifdə boşa keçəndə, qadın indiyə qədər vəd etdiyi pulun, qızılın ,maşının , mənzilin yerində onu çox pis günlər gözlədiyini söyləyib. Və qıza fikirləşmək üçün iki gün vaxt verib. İki gündən sonra əslində mən bunu sənə xəbər verməməliyəm sənə yazığım gəldiyi üçün deyirəm deyib və sonda Fərrux onun mağazasına üyüşdürücü atdırıb üyüşdürücü alverçisi kimi həbsə atdıracağını söyləyib. Sonra qızın üzünə yazığı gəlirmiş kimi baxıb : Heyf sənin bu uzun gözəl saçlarından, - deyib. Orada səndən üyuşdurucunu haradan və kimdən aldığını öyrənmək üçün işgəncə verib döyəcəklər, saçlarını qırxacaqlar. Bu sözlər qızı dəhşətə gətirir. Qorxudan sabaha qədər yata bilmir . Gecə iki -üç dəfə qalxıb güzgüyə baxır ki, saçlarının yerində olub olmadığını görsün. Üyüşdürücü məsələsi lap ağlına batır. Çünki məhəllədə bu söz gəzirdi. Fərruxun üyüşdürücü alverinin başında durduğunu və bəzi xoşu gəlmədiyi uşaqların maşınına , cibinə bu maddəni atdırıb həbs etdirdiyi haqqında söz söhbət gəzirdi. Bundan sonra qız səhər açılar açılmaz işə getməzdən əvvəl bütün bunları üzbəüz yaşayan qonşuya danışıb, ondan yardım istəyib. İki - üç gündən sonra isə bu söhbət bütün məhəlləyə yayılıb. Odur ki, mən xəcalətimdən bayıra çıxa bilmirdim. Mənim Səmanı sevdiyimə inanmayan çox idi. Bəziləri Fərruxla əlbir olub bu işdə ona yardımçı olmağımı düşünürdülər. Məni nəinki qonşuların, Səmanın da, yəqin ki, görməyə gözü yox idi. Hər gün bu mövzu təzələndikcə buna tam əmin olurdum. Nə edəçəyimi hara gizlənəçəyimi özüm də bilmirdim. O, qızla üzbəüz gəlməkdənsə ölməyi üstün tuturdum. Məndə ona qarşı bir ikrah hiss var idi. Ən çox da gözəlliyinə nifrət edirdim. Kürsüdə oturan mələk simasını unutmağa çalışırdım. Nədənsə onun gözəlliyindən açığım gəlirdi. Mənə el gəlirdi ki, onunla üzbəüz gələndə mütləq gözlərimi yumaram.

Bir neçə gündən sonra bu bəlalardan qurtarmaq üçün yaxşı bir vasitə tapdım. Mənə hərbi xidmətə çağırış kağızı gəlmişdi.

Kağızı əlimə alıb xilaskarıma baxan kimi baxırdım. Düzdür , atamla anam bu xəbəri xoş qarışılamadılar. Atam mütləq universitetə qəbul olmağımı istəyirdi. Anam isə mənim hərbi xidmətə getməyimi ümumiyyətlə istəmirdi. O, mənim orada sağ baş gora aparmayaçağımı deyirdi. Onlar öz aralarında nə daşırlar danışsınlar mənim fikrim tezliklə buralardan çıxıb getmək idi. Elə ona görə də həvəslə getmək haqqında düşünürdüm. Atamla anam indi də keçib mətbəxdə dalaşırdı. Anam ağlayırdı. Heç olmasa universiteti bitirib hərbi xidmətə sonra gedərdi,-deyirdi. Anamın bu sözü kişini lap hövsələdən çıxartdı. O, əsəbi bir səslə : Ay qız ,hansı universiteti ?- dedi. Sənin oğlun harada oxuyur? mən eşitməmişəm. Anamın qısıq səsi gəlirdi:

- Vaqif , sənə qurban olum, vətənimizdə müharibə gedir. Gündə torpağa şəhid veririk. Mən demirəm ki mənim oğlum torpaqlarımızın müdafiəsinə qalxmasın. Sadəcə Ayaz çox dəliqanlıdır. Oxusun qurtarsın , sonra da ağılla başla vətənə xidmət etsin. Həm də çox arıqlayıb, zəifləyib. Heç olmasa bir az özünə gəlsin.

Hər gün evimizdə davam edən mübahisələri dinləyə - dinləyə hərbi xidmətə yollandım .Məni yola salanda nə isə bir qonaqlıq filan etməyə nə atamgilin həvəsi var idi, nə də ki, mənim kimi isə görməyə gözüm yox idi.

Avtobus Bakıdan çıxanda doğrudan da mənə elə gəldi ki əsl həbsxanadan bu gün azad olmuşam. Başımı pəncərədən çıxarıb nəfəs alırdım. Bir sözlə, cəhənnəmdən cənnətə gedirdim. Əslində insanlardan qaçıb gizlənsəm də özümdən qaça bilmirdim. Vicdanım da mənimlə bərabər hərbi xidmətə gedirdi və yol boyu da adamlardan gizlənsəm də mənə əziyyət verən xatirələrdən qaca bilmirdim. Səma haqqında düşünməməyə çalışırdım. Mənim üzümdən həbsxanaya düşdüyünü bütün varlığımla unutmaq istəyirdim. Lakin vicdanım sakitləşmək bilmədən o, qızı da qanadlarına alıb mənimlə birlikdə hərbi

hissəmizə aparırdı. Karantin günləri sakitliklə keçdiyi üçün Səma da mənimlə bərabər hərbi təlimlər keçib dərs oxuyurdu. Lakin and içmə mərasimindən sonra qarışıqlığa görə başımdakı fikirləri ürəyimin bir guşəsinə atdım. İlk günlər elə də asan keçmədi. Uşaqlarla yola gedə bilmirdim.Demək olar ki, hər gün dava edirdim. Adicə vanna otağında yuyunma mərasimini bitirənədək iki - üç uşaqla döyüşürdüm. Kiminin qoluma dəydiyini bəhanə edirdim, kiminin çiynimə. Beləliklə vaxt gəlib vədə ötürdü. Anamgil nə göndərsə uşaqlarla bölürdüm. Bəzən elə olurdu ki, evdən gələn yeməklərə əlim də dəymirdi. Ya da özümü nə qədər davadan kənar etməyə çalışsam da mütləq kimə görə isə dalaşmalı olurdum. Sonra elə bil bir vaxt gəldi ki, mən olan yerdə dava dalaş salanlar aradan çıxırdı. Gözümü açanda gördüm hərbi hissədə əmməli başlı hörmətim var. Bir sözlə, ədalət keşikçisi olmuşdum. Hərbi hissəmiz ermənilərlə sərhəd rayonda yerləşirdi. Gecə gündüz keşikdə dayanırdıq. Hər dəfə düşmən tərəf atəş açanda əmrə tabe olmadan sərhətdi keçib düşməni məhv etmək istəyirdim. Hər dəfə də anamın sözünü xatırlayırdım. Anam deyirdi ki, Ayaz hərbi xidmətə ağlı kəsəndə gedər. Yoxsa bu ağılla nə desən törədər. Hər halda ağıllı olmağa çalışırdım.

İsti yay günləri başlamışdı . İstidən nəfəs almaq olmurdu. Gündüzlər qızmar günəşin altı od tutub yanırdı. Gecələr də hava sərinləşmək əvəzinə çox pis bürkü olurdu. Həmin isti yay gecələrinin birində yenə növbədə keşik çəkirdim. Yaxınlıqdakı kolların arasından qulağıma nə isə qəribə bir səs gəldi .Qaranlıqda gözümü diqqətlə kollara dikib durdum. Səs gəlirdi, amma nə səsi olduğunu anlamırdım. Fit səsinə bənzər bir fısıltı idi. Silahımı hazır vəziyyətə salıb gözlədim.Getgedə səs yaxınlaşırdı, Dayan- deyib səsləndim. Lakin fısıltını lap yaxından eşidəndə atəş açdım. Yaxınlaşıb baxanda böyük bir ilanı öldürdüyümü gördüm. Səhər məni komandir danlayıb: Ayaz, bu hərəkətinlə ayıq - sayıq olduğunu göstərmiş ol-

san da əmrsiz atəş açmağa tələsmə, -dedi. Yenə də anamın sözlərini xatırladım. Lakin aradan iki gün keçməmiş əsl canlı ilanlar iri çaplı silahlardan atəş açmağa başladılar. Ermənilərin bu basqını gözlənilməz olsa da qarşısı alındı. Üç gün -üç gecə dəhşətli atışma oldu. Həm onlar həm də biz itki verdik. Ölən oğlanların ikisi də yaxşı oğlan idi. Lakin Turalın ölümü tək məni yox hamını yandırırdı. O,hamıdan fərqlı idi. Onda olan yumor hissi bəlkə də heç kimdə yox idi. Onun ölümünə inana bilmirdim . Uşaqların bəzisi deyirdi ki, elə bilirəm yenə də zarafat edir. Turalla cəmi yarım saat bir yerdə olmaq lazım idi ki, insanın bütün xasiyyətini üzünə oxusun. Hərbi hissəyə əsl hüzn çökmüşdü .Darıxırdım, hər yerdə onu görürdüm, səsi, gülüşü qulağıma gəlirdi. Gündə bir neçə dəfə Turalın qanını yerdə qoymayaçağıma and içirdim. Əşyalarının arasından tapdığımız sevgi məktubunu həmin qızın ünvanına göndərdik. Hansı ki, bu məktubların heç birini sahibinə göndərməmişdi.Məktubları oxuyanda ürəyimdən qara qanlar axırdı. Almaz adlı qıza ünvanladığı sözlər, gələndə özümlə gətirib qəlbimin bir guşəsində gizlətdiyim qızın ətrafında fırlanırdı. Hər cümləsi məni də silkələyirdi. Sanki yatmışdım yuxudan ayılırdım. Mənə elə gəlirdi ki, həmin hisslər elə mənim də daxilimdə imiş. Mənim kimi onlar da yatmışdı indi oyanırdı. Məktubu oxuyanda dərk etdim ki, özümlə gətirib qəlbimdə gizlətdiyim qıza nifrət zad etmirəm, onu dəlicəsinə sevirəm.

Hövsələmi cəmi bir neçə gün basa bildim. Növbəti dəfə keşik çəkəndə yenidən düşmənin hücumuna məruz qaldıq. İri çaplı silahlardan atəş açmağa başlamışdılar. Gülləni yağış kimi yağıdlırırdılar. Qrad , alazan , nurs və başqa silahlarladan açılan atəşlər ətrafı lərzəyə salmışdı. Atəşkəsi qəfildən pozub hücuma kecən düşmən tərəf getgedə qızışırdı. Gözümə heç nə görünmürdü. Qorxmaq ya da ki çanını qorumaq ağlımın ucundan da keçmirdi. Nə olur olsun düşməni susdurmağa ça-

lışırdım. Onu deyim ki, uşaqların hamısı eyni fikirdə idi. Heç kəsin qorxu- ürküsü yox idi. Hamı bir an öncə canından keçməyə hazır idi. Biz var qüvvəmizlə düşmənə cavab veib onu susdurmağa nail olmağa çalışırdıq . Gərginliyin artdığı bir vaxt başımızın üstündən vıyıltı ilə keçən qradın kəndəki evlərin birinin üstünə düşdüyünü gördük. Anındaca evi alov bürüdü. Sanki alov evi deyil məni bürüdü. Başımdan tüstü qalxdı. Orada kimlərinsə yandığını düşünüb mən də həmin ev kimi alovlandım. Həm də bayaqdan bəri bir an olsun gözümün önündən çəkilməyən Turalın səsi qulağıma gəlirdi. O , mənim qanımı yerdən qoymayın,- deyirdi. Bu torpağı düşmənlərdən təmizləyin deyib hayqırırdı. Səngəri tərk eləməyə heç bir icazəm olmağı halda güllələdiyim ilan kimi sürünüb ermənilərin sərhədinə yaxınlaşdım, özümlə götürdüyüm qumbaraları dalbadal onların postuna atmağa başladım.Cəmi bir dəqiqədən sonra qarşı tərəf sükuta qərq oldu. Mən sürünüb irəlilyirdim. Lap yaxınlaşdığım uçun hədəfi susdurmuşdum. Daha bundan sonra heç nəyi xatırlamıram. Huşumu itirməmişdən əvvəl yenə də anamın sözləri qulağımda səslənirdi: Bu hansı ağılla vətənə xidmət edəçək.

Uzun müddətdən sonra gözümü Bakıda hərbi hospitalda açdım. Nə qədər vaxt keçdiyini , nə baş verdiyini xatırlamırdım. Demək olar ki , bütün bədənim sarıqda idi. Əzalarımı hiss etmirdim. Tərpənmək istəyirdim tərpənə bilmirdim. Dəhşətə gəldim , düşünürdüm ki, ayaqlarım yoxdur. Qorxa -qorxa aşağıya baxdım. Deyəsən mən hiss etməsəm də sarıqda nə isə var idi. Gözümü çox da açıq saxlaya bilmirdim. Sanki kirpiklərimdən daş asılmışdı. Birinci gün xatırladığım tək bunlar idi . İki gündən sonra yavaş - yavaş ağlım da özümə gəlirdi. Baş verənləri xatırlamağa çalışırdım. Düşündükcə sağ qalmağıma məəttəl qalırdım. Başıma leysan kimi yağan güllələri sanki indi də görürdüm. Ağlım başıma gəldikcə görəsən necə ilanı məhv etdiyimi düşünürdüm. Heç olmasa Turalın ruhu qar-

şında verdiyim sözə əməl edə bilmişdimmi ? Ona görə bütün ermənilərı məhv etsəydim ürəyim soyumazdı. Bilirdim ki, hərbi tribunala veriləçəm və ən azı töhmət alacam. Sağ salamat öz ayaqlarımın üstündə dura bilsəm nə cəza verirlərsə versinlər,- deyə düşündüm.

Anam ayıldığımı görəndə özündən getdi. Yazıq qadını güc -bəla ilə özünə gətirdilər .Atamın da üzündə qəribə təlaş var idi. Sanki yazıq kişi gözümü qapayacağımdan qorxurdu. Anam özünə gələn kimi mənim danlamağa başladı. O,nələrsə deyib deyinirdi. Anamın nə dediyini anlamırdım , çünki ömrümdə birinci dəfə idi ki, atamı gözü yaşlı görürdüm. Anam danışdıqca onun gözündən yaş yanağı uzunu axıb gedirdi. Atamın üzündən gözümü çəkib anama tərəf baxdım. Sən olmasan mən necə yaşayardım?- deyib təkrarlayırdı. Mən isə onlara baxa- baxa düşünürdüm: Bəs Turalın valideynləri necə yaşayır?. Gülüşü dodağında , arzusu qəlbində, həyat eşqi ilə alışıb yanan Tural nə günahın sahibi idi ki, durduğu yerdə acgöz ermənilərin qurbanına çevrilirdi. Bütün dünyanı rəngli görürdü. Çəkdiyi rəsmləri də solğun rəngdə çəkməyi sevmirdi. Dava dalaşı sevmirdi. Hamıda yaxşılıq, hər şeydə gözəllik axtarırdı.

Ertəsi gün anamgil gələndə Fidan da gəlmişdi. Onu görəndə hədsiz sevindim. Indi də mən anam kimi düşünürdüm , ən çox sevdiyim Fidanı burada qoyub necə gedərdim. Qız mənə sarılıb yenə də kövrəlirdi.

Bir neçə gündən sonra guya özümə gəlirdim, amma ağrılarımı daha çox hiss etməyə başlamışdım. Yerimdən qalxa bilmirdim. Sən demə çanaq sümüyüm qırılıbmış .Bədənimdən beş güllə cıxardıblarımış. Bütün bunlar bir yana bilmirəm bu beynimə haradan dolmuşdu. Mənə elə gəlirdi ki, mən komada olanda yanıma bir qız gəlirdi. İlk günlər bunu özüm uydurduğumu düşünsəm də zaman ötdükcə , sanki dağılan dumanın altından bir qız süjeti canlanırdı. Hətta səsi də qulağıma gəlirdi. Amma sifətini xatırlamırdım. Əslində heç vücudunu da

xatırlamırdım. Sadəcə belə varlığın olmasını düşünürdüm. Bu hiss günbəgün artırdı. O gözə görünməz xəyalım haqqında günlərlə düşünürdüm. Gözüm qapıda qalmışdı. Belə bir adam yox idi. Heç olmasa tibb bacılarının arasında mən xəyal etdiyim kimi bir kimsə yox idi. Nədənsə tibb bacılarına baxanda kəskinliklə: Bu qız deyildi , - deyə düşünürdüm.

Bahar gəlmişdi. Bunu yanıma gələn adamların geyimindən başa düşürdüm. Onların gətirdiyi bahar təravəti məni da çanlandırırdı. Lakin yerimdən durmağa ümidim yox idi. Nə canımda təpər var idi, nə də ki, çanağım bitişmirdi. Amma nə olur olsun ayağa qalxmaq, pəncərəndən gələn yazın gətirdiyi gözəllikləri seyr etmək istəyirdim. Gözüm pəncərədə qalmışdı. Bu gün mənə aydın oldu ki, məqsədim pəncərədən bayıra baxıb ağacların yarpaqladığını, təbiətin gözəlləşməyini, güllərin açılmağını görmək deyil . Mən gözəlliklərin arasında o qızı axtarırdım. Xəyalımın yaratdığı bu varlığın cazibə qüvvəsinə təəccüb edirdim. Atamdan olmasa da anamdan , Fidandan , hətta tibb bacısından o qız haqqında soruşmaq istəyirdim. Lakin ağrıdan ağlımı itirdiyimi zənn edəçəklərini düşünüb susurdum. Aradan bir neçə ay da ötdü. Müalicəmin davamını Türkiyədə etdirmək qərarına gəlmışdılər. Bir an öncə sağalıb ayağa durmaq üçün səbirsizlənsəm də nədənsə buradan getmək istəmirdim. Mənə elə gəlirdi ki, mən xəstəxanadan çıxan kimi qız gəlib məni axtaracaq. Axır günlər bu qızın Səma olduğunu düşünürdüm. Bu fikir ağlıma gələndən kədərlənirdim. Bu mənim beynimin məhsulu olduğuna inanırdım. Yəqin Səma haqqında o qədər düşünmüşəm ki, xəstə vaxtımda da onun varlığını hiss etmişəm, deyə xəyal edirdim. Özümü toplayıb bu barədə tibb bacısına sual vermək haqqında da düşünürdüm. Sonra Zirəddindən soruşmaq qərarına gəldim. Komada olanda bir qızın varlığını hiss edirdim deyəçəkdim, lakin Zirəddin gəlib çıxmaq bilmirdi.

Nəhayət getmək vaxtı gəlib çıxdı. Sənədlərim , əşyalarım hər şey hazır idi . Atamla anamı gözləyirdim.Tibb bacılarının içərisində ən yaşlısı olan Sara xala içəri girib dedi:

- Gedirsən ? Sənə uğur olsun. Amma onu bil ki, burada komadan ayılmağına əsas səbəb həkimlər deyil o qız oldu.

Başımın tükləri biz - biz durdu. Diksindim, demək qız doğrudan da var idi.

Kürəyimin arasından bir gizilti keçdi. Qadının üzünə baxıb: Nə qız? -dedim. Sara gözləmədiyim tərzdə qəhqəhə ilə gülüb dedi:

-Qızın nə qız olduğunu sən yaxşı bilərsən. Mən nə bilim nə qız?. Hər gün gəlib çarpayının qabağına oturub Allaha yalvarıb , göz yası tökən qız.

And aman edib qızın kim olduğunu bilmədiyimi dedim. Amma belə bir yuxu gördüyümü söylədim. Bəs onun sonra neçə olduğunu soruşdum. Sara xala çiynin çəkib dedi:

- Sənin ayıldığını bilən kimi qapıdan dönüb geri qayıtdı. O gündən bu günə onu görmürəm. Tələbə qız idi. ilk günlər bura təcrübəyə gəlirdilər.

Tələbə sözünü eşidəndə qanım qaraldı . Demək o qız Səma deyil ,Səma universitetə qəbul olub oxusaydı anam mənə mütləq deyərdi, - deyə düşündüm. Bu elə belə asan iş deyildi. Fikrim qarışdı, ümidlərim boyunbağı sapı kimi qırılıb dağıldı, muncuqlar palata ilə bir oldu. Dağılmış ümidlərimin arasında nə isə axtarırdım. Muncuq kimi hər küncə yayılmış dənələrə baxdıqca yeni bir şey düşünürdüm.

Bir azdan atamgil gəldi.Sevinirdilər , mənə xəbər gətimişdilər. Mənə töhmət versələr də igidliyə və göstərdiyi rəşadətə görə medalı ilə də təltif etmişdilər.Sən demə mən həmin gün böyük bir qəhrəmanlıq göstərib düşmənin düz atəş mərkəzini söndürmüşəm. Hər nə qədər fikrim o qızın yanında olsa da eşitdiyim xəbərə çox sevindim, həyəçanlanmışdım. Məni xərəyə qoyub düşürməyə hazırlamışdılar ki, Sara xala

bir də içəri keçib özünü mənimlə vidalaşırmış kimi göstərib aşağı əyildi. Ehmalca sağa - sola boylanıb heç kəsin eşitmədiyinə əmin olandan sonra qulağıma: O qız səni çox sevirdi, - dedi. Bu sözlər ürəyimi doğrudan da silkələdi. Gözümü gəzdirib kimi isə görəçəyimə ümid edirdim. Ürəyim titrəsə də bu qızın Səma deyil bir başqası olmağını istəmirdim. Ümumiyyətlə maşına minənə qədər məni maraqlandıran kimsəni görmədim . Əslində mənim hal -hazırdakı vəziyyətimdə kimi isə görmək istəmirdim. Bu gözəl bahar gününü ayaq üstə deyil hərəkətsiz qarşıladığım üçün çox məyus olmuşdum. Ruhu qidalandıran bu xoş havanı ciyərimə çəkdikcə kədərlənirdim.

Elə həmin kədərlə də yola düşdüm. Türkiyədə uzun müddət yatası oldum. Əvvəla əməliyyat olundum .Sonra isə çanağım və ayaqlarıma görə müalicə olurdum. Anamla atam iki dəfə yanıma gəldilər. Qəribədir, atam gələndə işindən - gücündən və qohumlardan danışırdı. Anam isə qonşulardan danışırdı. Elə bil ki and içmişdi , hər kəsdən söz salırdı bir tək Səmadan kəlmə olsun söz açmırdı .Mən onu danışdırmaq üçün bəhanələr axtarırdım və birdən birə ilk dəfə ağlıma gələn fikri söyləyib dedim:

-Ana, sən o vaxt deyirdin ki Fərruxun oğlunu Allah cəza vermək uçun öldürdü. Məni də Allah həmin qıza görə çəzalandırdı. Elə tutduğum işə görə neçə aydır ki, yataqda qalmışam . Ümumiyyətlə bu yataqdan qalxıb -qalxmayaçağım da heç məlum deyil.

Anam mənim sözümdən diksinib dik atıldı. O, belə şeylərdən çox qorxurdu. Amma nədənsə indiyədək bu fikir onun ağlına gəlməmişdi. Arvadın sifəti kətan kimi ağarıb , dili topuq vurmağa başladı. Atam hirsli - hirsli yerindən qalxıb : Bəsdir, -dedi. Sən də anan kimi mollalıq etmə. Söz atamın özünü də tutmuşdu. Kişi otaqda var gəl edirdi. Əlindəki siqareti gah qaytarıb cibinə qoyur, gah da yenidən çıxarıb əlinə alırdı. Kişi o qədər vurnuxdu ki, başım gicəlləndi. Nəhayət

darıxdığına görə çölə çıxdı. Atam qapını örtən kimi üzümü anama tərəf tutub : Ana , uşaqların axırı nə oldu?- dedim. Anam uzun müddət susandan sonra :Ayaz , sən o işi necə görə bildin?- dedi. Sanki yaralarıma kibrit çəkdilər. Sarığın altında dərim yanırdı.Ana , mən bunu bilə -bilə etməmişəm , Fərruxa aldandım. Düzdür, bu sözü özümdə özümə etiraf edəndə xəcalət çəkirəm. Mənim o ailə haqqında heç məlumatım yox idi. Səmanı birinci dəfə orada gördüm. Anam sözümü kəsib :Səma tibb universitetinə qəbul oldu, - dedi. Yenə də bədənimdən bir gizilti keçdi. Başımın tükləri biz - biz durdu. Bəlkə doğrudan da mənim çarpayımın yanında oturub göz yaşı tökən elə Səma imiş ,deyə düşünməyə başladım. Ürəyim çırpınırdı, anamın nə dediyini eşitmirdim. Saçımın dibindən su tökülürdü. Gözümün önündə nə isə çanlandırmağa çalışırdım , lakin heç nə alınmırdı. Çünki mən onu görmürdüm , sadəcə hiss edirdim, səsini duyurdum, nə dediyini anlamırdım. O, ya çox alçaqdan danışırdı, ya da mən ətrafı zəif duyurdum. Amma ağladığını dəqiq hiss edirdim, çünki o ağlayanda mən gözümü açmağa , ona nə isə deməyə çalışırdım. Yenə də Səmanın mənə çox qəribə gələn görkəmini xatırlayırdım. Mənə elə gəlirdi ki, ondan başqa bu görkəmdə qız yoxdur. Düşünürdüm ki, görəsən onu görəndə , ya da haqqında düşünəndə hər kəsin ürəyi çırpınırmı? Mən onu cəmi bir dəfə görmüşdüm. Fikirdən ayılıb anama sual verdim:

- Nə olub deyirsən? fikrim başqa yerdə idi ,səni eşitmirdim.

Anam söhbətinə başdan başladı:

_ Amma yaxşı ki Səmadan xoşun gəldiyini dedin. Deyilənə görə bu sözü eşidəndən sonra Fərrux qızdan əl çəkib. Yazıq uşaq şərəfsiz Fərruxu səninlə hədələyib. Qızın yanına gəlib gedən qadına deyib ki Fərrux məndən əl çəkməsə Ayaz gələndə onu tikə- tikə doğrayacaq.

Lap həyəcanlandım ,özümü zorla toplayıb dedim:

-Səma mənim məhkəmədə dediklərimə inanıb ki?

Anam çiyinlərini çəkib dedi:

İnanıb , inanmayıb bilmirəm bir tək onu bilirəm ki, məhəllədə arvadlar bu haqda yüz məzmunda məhəbbət dastanı söylədilərsə azdır. Haradan çıxardırdılar bu sözləri bilmirəm . Hətta hərdən bir mən özüm də onlara inanırdım. Hər halda doğrudan da Fərruxu sənin o qıza olan məhəbbətin qorxudub.

Anam köksünü ötürüb xeyli susandan sonra dedi:

- Amma bəzi adamlar bizə elə söz deyirdi ki, yeddi qatımızdan keçirdi. Birinci mərtəbədə yaşayan Ərkinaz qabağımı kəsib , bu nağılları başqalarına söyləyin, bütün hamı bilirdi Fərruxun Səmaya göz dikdiyini. Qızı qorxutmaq üçün həbsxanaya saldıraçağı ilə hədələdiyini . Onu da sənin oğlunun vasitəsi ilə həyata keçirdi.

Anamı dinlədikcə kürəyim yanırdı. Xəcalətimdən ürəyim partlayırdı. . Yəqin ki, onun kimi düşünənlər çoxdur deyə düşünürdüm. Bir sözlə mənim uydurma məhəbbətimə inananlar olsa da, Fərruxa işləyib onun tapşırığı ilə cinayət törətdiyimi düşünənlər daha çox imiş. Əsl həqiqət ikinci olsa mən aldandığımı heç kəsə başa sala bilməzdim. Bu adı üzərimdən götürmək üçün mütləq Səmanı sevməliyəm , deyə düşünürdüm ,başımdakı fikir sona yetməmiş özüm özümə təəccüb etdim. Guya mən Səmanı sevmirdim ki? Sevirdim dəlicəsinə. Yolunda ölməyə hazır idim. Bütün varlığıma hakim kəsilmişdi bu qız. Düşünürdüm, bu hadisədən əvvəl Səma ilə rastlaşsam bu yenəmi belə olacaqdı? Bir də ona təəccüb edirdim ki, məhəbbətin özündən əvvəl dastanı yaranmışdı.

Günlərlə, aylarla yataqda anamın danışdığı məhəbbət dastanın içində sürünürdüm. Hər gün onların birini düşünürdüm. Kaş ki , doğrudan da bu sevgi dolu anları yaşamış olaydım , deyə düşünürdüm. Özümdən yenilərini uydururdum. Bəzən isə qolum -qanadım qırılıb yanıma düşürdü. Həkimlərin

sağalıb ayağa duracaqsan deməyinə rəğmən hələlik yerimdən qalxa bilmirdim. Bu məhəbbətin mənimlə bərabər yataqda öləcəyinə inanırdım.

Aradan uzun bir zaman ötdü. Yavaş - yavaş yataqda qalxıb otururdum. Bu sevincimi dillə ifadə edə bilmərəm. Böyük həvəslə ayağa durmağımı gözləyirdim. Nə vaxtsa belə bir deyim eşitmişdim: yeriyəndə ayağını daş əzirsə şükür edin. Mən də yerimək istəyirdim. Lakin otura bilsəm də ayağa dura bilmirdim , nəinki yeriyib addım atmaq. Hər ay keçdikcə gələn aya ümidlə baxırdım . Hətta bəzən özümü öldürmək haqqında düşünürdüm. Amma yenə də nə vaxtsa ayağa durub Səmanı görməyə gedə bilmək ümidi məni həyata bağlayırdı. Əslində bu barədə düşünən kimi ürəyim sıxılırdı. Amma bununla belə ürəyimi sıxan bu hiss məni yaşadırdı.

Doğrudan da yavaş - yavaş addım atmağa başlamışdım . İlk dəfə pəncərənin qarşısında dayanıb çölə baxdığım günü heç vaxt unutmayacam. Sən demə İlin bütün fəsilləri gözəl imiş . Halbuki, bir vaxtlar həbsxanadan çıxanda mənə elə gəlmişdi ki ən gözəl fəsil payızdır. Hər fəslin öz gözəlliyi var imiş.Qış yeni girmişdi. Havada bir çiskinlik var idi. Günəş buludların arxasında gizlənmişdi. Lakin zəif də olsa havada şüaların parıltısı sezilirdi. İnsanların geyimindən bilinirdi ki, çiskinlik daha üstünlük təşkil edir. Kimi papağını gözünün üstünə basmışdı, kimi isə şərfi boğazına dolamışdı. Bir də ki , onların yerişinin sürətindən soyuqdan qaçıb canlarını qurtarmaq istədikləri bilinirdi. Az qala qaça- qaça gedən adamların ayaqlarına diqqətlə baxıb sanki yerimək öyrənmək istəyirdim. Gözümü bu ayaqdan çəkib o birinə zilləyirdim. Düşünürdüm ki, kaş o hərdən bir düşən yağışın damcıları mənim üzümə düşəydi, sazaq yanağımı buzla döndərəydi. Artıq ayaq üstə dura bilmədiyim üçün yatağıma tərəf keçmək istədim .lakin pəncərədən ayrılmaq istəmirdim. Bir-iki addım atıb yenidən çölə boylandım. İrili, xırdalı ağaclar küləyin təsirdən tərpənirdilər.

Bir an mənə elə gəldi ki, onlar da mənə əl edib :Get uzan , hər şey yaxşı olacaq,-deyirlər.

Türkiyədən Azərbaycana dönəndə qışın oğlan cağı idi. Ankarada qar, boran , tufan idi. Çovğunlu havada hava limanına güclə gəldik. Çovğun qarı yerdən sovurub üzümüzə çırpsa da mənə ləzzət edirdi. Həm evimizə dönürdüm , həm də ki,asa ilə olsa da ayaq üstə dayanmışdım. Havanın pisləşdiyinə görə təyyarə vaxtında havaya qalxa bilmədi. Lakin çox da gecikmədi. Dörd saatdan sonra pəncərədən buludların yaratdığı qəribə mənzərəni seyr edirdim. Bakıya çatanda ürəyimin döyüntüsü öz qulağımı deşirdi. Buradan xərəkdə, yarımcan yola düşsəm də indi sağ salamat ayaq üstündə evimizə qayıdırdım.

Bakıda hava qarlı da olsa mülayim idi. Narın- narın yağan qar yerdə qalmayıb əriyib gedirdi. Məni Türkiyədən gətirməyə əmim gəlmiş olsa da , bizi atam-anam və Fidan qarşıladı. Anam məni ayaq üstə görüb ağlayıb özünü öldürürdü. Atam anama bəsdir desə də gözündən axan yaşı gizlədə bilmirdi. Fidan özünü üstümə atıb həmişəki kimi boynumdan sarılanda asa əlimdən düşdü , az qala müvazimətimi itirib yıxılacaqdım. Atamla əmim özünü üstümə atıb məni göydə tutdular. Fidan elə mən özüm də belə bir hal keçirdiyim üçün çox pis olduq. Sanki atamla anamın sevincini üzlərində dondurdum. Bu halı onlara çox yaşatdığımı xatırlayıb, bu gün uşaqlığımın son günüdür,- deyə düşündüm. Özlüyümdə bütün çılğınlığımı burada , bu hava limanında qoyacağımı qət etdim.

Maşınımız blokun ağzında dayananda tək bir arzum var idi. Qonşulardan heç kimlə rastlaşmaq istəmirdim. Hamı maşından düşmüşdü, bir tək mən sağa sola boylanırdım. Qarın yağması artmışdı. Quş başı yağan qar artıq hər yeri ağartmışdı. Qarda ayağımın sürüşəçəyindən qorxsam da heç kimin qolundan tutmağını istəmirdim. Lakin mən bu haqda düşünməyə ma-

cal tapmamış atamla əmim artıq qolumdan yapışmışdılar. Daha etiraz etmədən bloka yaxınlaşıb liftə mindim.

Ertəsi gündən başlayaraq hər gün qohum qonşular yanıma sel kimi axmağa başladılar. Bir gün də olsa boş vaxtım olmurdu. Nə düşünməyə, nə də darıxmağa vaxtım yox idi. Amma bilmirəm kiminsə gəlməyini gözləyib , gəlməməyinə sevinirdim. Səhər yuxudan narahat oyanıb axşam isə rahat yuxuya gedirdim. Axır ki, axırıncı qohum - qonşu gəlib qurtardı . Mənim narahatçılıqla gözlədiyim və gələçəyindən qorxduğum Səma bizə gəlmədi. Yeriməyim günbəgün düzəlsə də çölə çıxmağa utanırdım. Bərpa mərkəzinə getməyim lazım idi. Az - az fiziki hərəkətlər etməli, fizoteropiya qəbul etməli idim. Kimlə isə qarşılaşmaqdan qorxub evdən çölə çıxmırdım. Əslində çətinliklə də olsa yeriyib getməli idim. Atam çox israr edəndə gedə bilmədiyimi bəhanə etdim. O zaman atam mənə taksi danışdı . Hər gün sürücü gəlib məni bərpa mərkəzinə apardı. Məşqlər qurtarandan sonra isə gəlib məni evə qaytardı. Günbəgün deyil saatbasaat sağalırdım. Axsadığım sezildiyi ücün maşınla gedib gəldim. Evə qayıdan kimi universitetə hazırlaşırdım. Əslində bu mənə elə də çətin gəlmədi. Oxuyub təkrarlayan kimi hər şeyi xatırladım. Atam belə çalışdığımı görüb, mənə müəllim də tutdu. Qrup halında hazırlaşan uşaqlarla birlikdə hazırlaşmaq istəmirdim. Müəllimlər bir az məşğul olandan sonra mənim haqqımda danışdıqlarına atamla anam təəccüb etdi. Anamgil bu il universitetə qəbul olacağıma ümid etmədikləri halda müəllimlər əminliklə bir az da ciddi hazırlaşacağım halda imtahanları müvəffəqiyətlə verəçəyimi söyləyirdilər. Onsuz da çox çölə bayıra çıxmadığım üçün gecə gündüz dərs oxuyurdum.

Axır vaxtlar bərpa mərkəzinə gedəndə beşincidə , altıncıda oxuyan bir oğlan mənimlə gedirdi. Bizim binada yaşayırdı. İlk günlər bu uşağın varlığı məni narahat etmirdi. Daha doğrusu ona əhəmiyyət vermirdim. Sonra mən hər aşağı düşən ki-

mi gəlib peyda olmağı , mütləq çantamı götürməyə can atmağı , axıracan məni orada gözləməyi mənim diqqətimi çəkdi. Bir gün ondan soruşdum :

-Sənin dərsin zadın yoxdur, belə boş - boş gəzirsən ?

-Oğlan hədsiz sıx kirpiklərlə əhatə olmuş gözlərini üzümə dikib dedi:

_ Əlbəttə var ,amma mən sənə qulluq etməyi özümə borc bilirəm.

Ayağımı saxlayıb onu birinci dəfə görürəmmiş kimi baxıb dedim:

- Nə ? Nəyə görə belə borcun var mənə?

Dərhal uşağın bir az ağıldan kəm olduğunu düşünsəm də o, ciddi bir görkəmlə dedi:

-Sən mənim bacımı həbsxanadan azad etdirdin . Ona görə özün həbs oldun. Bacım deyir ki, Ayaz oradan pul zad götürməyib . Məni xilas etmək üçün belə etdi. Deyir pulu Elman götürüb . Axı hamı bilir ki, Elman Fərruxun əl tulasıdır. Onun tapşırığı ilə hər şey edir. Amma sən ondan pulu , siyirməni alıb onu ələ verməyəcəyinə söz vermisən.

Dünya başıma fırlandı.Xəcalətimdən yer yarılsa yerə girərdim. Mənim hələ bu hala düşdüyüm yadıma gəlmir. Oğlana nə deyəçəyimi düşünürdüm. Fikirlər başımda bir - birinə qarışmışdı. Amma onu bilirdim ki, ölsəm də düzünü danışmayaçaqdım. Uşaq nələr isə danışırdı ,qulaq asmırdım. O, isə daha da coşmuşdu. Mənə oxşamaq istədiyini deyirdi. Birdən birə düz qarşıma keçib dedi:Ayaz, mənim də dostumu güllələsələr, düşmənin üstünə gedəçəm,sənin kimi dostumun qanını yerdə qoymayacam.

Bu balaca , arıq , sısqa uşağa baxıb : Adın nədir? dedim . O, məyus halda adının Süleyman olduğunu söylədi. Bir az duruxub:Bilirsən, atam mənə üzünü görmədiyi atasının adını qoyub, mən də atamın üzünü görmürəm, darıxıram onu üçün,- dedi. Əlimi uzadıb onun başını sığalladım. Doğrusu bu

uşaq məni mat qoymuşdu. Qəribə oğlan idi. Sanki o kiçik vücudunda böyük bir kişi oturmuşdu. Körpəlik , məsumluq isə sifətində qalmışdı. Əlimi çiyninə vurub: Gedək , dedim. Yol boyu isə onu ovundurmağa çalışdım. Xətrinə dəyməməyə çalışaraq bayaqdan igidlikdən danışırdın, indi isə balasa uşaq kimi atamdan ötəri darıxıram deyirsən ,- deyib ehmalca danladım. Lakin onu danlasam da haqsız olduğumu yaxşı bilirdim. O, hələ çox körpə idi. Hələ lap yeri gəlsə anamı istəyirəm deyib ağlayan vaxtı idi. Həmin gündən sonra bura gələndə onu da özümlə gətirdim. Onunla hər gün bir maraqlı söhbətimiz olurdu. Evdə özündən başqa bir qardaşı da olduğunu bilirdim. Bu gün məşqdən çıxanda qardaşının neçə yaşı olduğunu soruşdum. Ciddi bir görkəmlə: O hələ uşaqdır ,- dedi. Lap yazığım gəldi . Deməli uşağın biri lap balacadır deyə düşündüm. Yazıq köpəyə görəsən kim və necə baxır deyə fikirləşdiyim üçün yenə də təkrar etdim:

- Necə yaşı var ?

Süleyman çox ciddi görkəm alıb dedi:

- Məndən beş dəqiqə kiçikdir.

Gözümdən yaş gələnə qədər güldüm. Bəs deyirsən uşaqdır ?- dedim. O, yenə də :Əlbəttə uşaqdır,-dedi. Mən ondan əvvəl gəlmişəm dünya ya .Gələndə onuda gətir deyib israr etdim.

Əl boyda uşağın sözlərinin təsiri altında qalmışdım. Görəsən bu sözü Səma özündən quraşdırıb, yoxsa doğrudan da belə düşünür ki, mən onu xilas etmək üçün Elmanın günahını boynuma almışam? Deyəsən bu məhəllədə fil qulağında yatan elə bir mən olmuşam . Elmanın Fərruxun tulası olduğunu hamı bilirmiş, təkcə məndən savayı. Dərs oxumalı idim, oxuya bilmirdim . Kitabı açırdım fikrim Süleymanın sözlərinin yanında qalırdı. Artıq neçə gün idi ki, başımdan bu fikirləri zorla qovub kitablara girişirdim. Çünki mütləq universitetə qəbul olmaq istəyirdim. Birdənbirə mənə aydın oldu ki, elə bunu da

Səmaya görə istəyirəm. Ali təhsilli həkim olacaq bir qızın qarşısına bisavad olaraq çıxa bilməzdim. İndi ürəyimdən Elmanı təkrar birdə döymək keçirdi. Hər nə qədər zəif də olsam Elmanın mənim özümə yox heç meyidimə də gücü çatmazdı. Bu fikirdən tez daşındım . Ürəyimdə bir daha ata- anamın sevincini dodağında dondurmayacağıma söz verdiyimi xatırladım. Bir təhər fikirləri başımdan atıb kitablarımı götürdüm.

Bir necə gündən sonra Süleyman gələndə özü ilə qardaşı Sübhəddini də gətirdi. Doğrudan da Sübhəddin uşaq idi. Süleymandan çox fərqlənirdi. Hədsiz zəif, sakit, utancaq idi. Nə qədər sual verdimsə cavab ala bilmədim. Yenə də onun əvəzinə Süleyman danışdı. Biz dünyaya sübh çağı gəlmişik,ona görə atam bunun adını Sübhəddin qoyub – dedi. Sübhəddində bir qorxaqlıq da hiss etdim . Sanki şübhəmi doğrultmaq üçün birdən üzümə baxıb :Bizi yetimlər evinə qoyarlar?- dedi. Sual elə bil qulağıma çatmamış güllə kimi ürəyimi dəlib deşdi. Özümdən aşlı olmayaraq yox sözünü dəfələrlə təkrar etdim. Sübhəddini görəndən sonra bu uşaqları həmişə nəzarətim altında saxlayacağımı düşündüm. İlk əvvəl mən həmişəlik sizin yaxın dostunuzam deyib onlarda bir arxayınlıq yaratmağa çalışsam da Sübhəddinin gözünün dərinlyindəki qorxunun oradan çətin çəkiləçəyinə tam əmin oldum. Bundan sonra bu uşaqların mənə deyil özlərinə güvənmələri üçün onları udmana yazdırmaq qərarına gəldim. Bunun üçün onları uzun müddət təbliğ etdim . İnsan hər zaman özünü müdafiə etməyi bacarmalıdır,- dedim. Elə həmin gün hər ikisini məşqə yazdırdım. Bir aylıq pulu ödəyib sonrakı ayları da özüm ödəyəçəyimi söylədim.

Evə dönəndə ürəyimə bir sakitlik çökmüşdü. Nədənsə düzgün bir iş gördüyümə əmin olmuşdum. Mən gecə -gündüz oxuyur və mütləq bərpa mərkəzindən çıxıb uşaqların məşqinə baxmağa gedirdim.Hər ikisi cevikləşmişdi.Hələ deyim ki, Sübhəddin Süleymandan daha cəld , daha mübariz idi.

Gözümü yumub açınca imtahan vaxtı gəlib çatdı. Anamgil inanmasa da imtahanımı müvəffəqiyyətlə verdim .İqtisad universitetinə qəbul oldum . Atam israr etsə də qiyabi oxumağı seçdim. Evimizə sanki xoşbəxtlik çökmüşdü. Anamgilin bu qədər sevinəçəyinə inana bilmirdim. Bir neçə günə yığışıb bağa köçməyə hazırlaşırdıq. Nədənsə getmək istəmirdim. İçimə bir narahatlıq çökmüşdü. Hələ indiyə qədər Səmanı bir dəfə olsun görməmişdim. Əslində onunla rastlaşmaq istəmirdim. Əlbəttə, bir az blokun qarşısında dayansam mütləq rastlaşardım . Düzdür onlar bizim blokdan iki blok sonrakı blokda yaşayırdılar. Hər halda görmək istəsəm görərdim. Bir vaxtlar universitetə qəbul olum, sonra üz-üzə gələrəm deyə düşünürdüm. Amma indi burdan getmək istəməsəm də onunla rastlaşmaq da istəmirdim. Uzaqdan belə ona oxşayan kimi isə görəndə ürəyim titrəyirdi. Bu qəribə hisslərin arasında bağa köçsək də tez- tez gələçəyimi düşünüb sakitləşdim.

Yayın bir ayı ötsə də havalar qızmaq bilmirdi.Dənizdə demək olar ki, çimən yox idi. Bağ mövsümünün gözəlliyi dəniz idi. Atam həmişə yayın ilk aylarını rayonda keçirməyi sevirdi. Çünki təbiətin oyanmağını seyr etməkdən ləzzət alırdı. Hər il yaz gələndə təbiətin yeni bir möcüzəsini kəşf edirdi. Çöl çəmənin yaşıllaşmasını, güllərin açmasını , ağacların çiçəklənməsini müşahidə etməkdən doymurdu. Bu sirli dünyanın gözə görünməz bir qüvvə tərəfindən idarə olunduğunu deyirdi. Çünki bu dilsiz ağızsız təbiət özünə məxsus bir qanuna uyğunluğa tabe idi. Hər il eyni vaxtda təbiət eyni dəyişiklərə məruz qalırdı. Nə baş verir versin, nə kəşf olunur olsun, fəsillər öz vaxtında gəlir, öz missiyasını yerinə yetirib gedirdi. Sinoptiklər bu il görünməmiş bir baharın və ya yayın gələçəyini bəyan etsə də əslində hər fəsil həmişəki kimi gəlib gedirdi. Yayın ortalarına doğru getdikcə havalar lap qızmağa başlayanda çöl çəmən solmağa başlayırdı .Ormanlar, çəmənlər təravətini itirməyə başlayan kimi , atamın dənizə olan məhəb-

bəti başlayırdı. Yığışıb Bakıya gəlirdik. Amma bu il atam rayona getmək istəmirdi. Mənə elə gəlirdi ki, bu mənə görə idi. Belə ki, az da olsa axsadığım bilinirdi. Mən bunu Səmadan, atam isə öz adamlarından gizlədirdi. Lakin atam əməlli başlı rayonun xiffətini edirdi. Mən rayona getmək istədiyimi söyləsəydim kişi heç vaxt mənim xətrimə dəyməzdi. Mən isə getmək istəmirdim. Axsadığıma görə yox , sadəcə məni Bakıya bağlayan gözəgörünməz bir qüvvə var idi.

Axırı ki, istəsək də istəməksə də bağ mövsümü başladı. Atamın darıxmağı Zirəddinin yanında yalan idi. Mən uşaq olanda Zirəddindən açığım gəlirdi. Anamın sözü başıma batırdı. Anam hər dəfə deyirdi ki, bah elə bil buralar Zirəddinin ata -baba yurdudur ,biz də onun kirayəşinləriyik. Amma böyüdükcə ona olan məhəbbətim artdı. Xəstəxanaya düşəndən sonra isə Zirəddinin mənə olan qayğısını bir daha gördüm. O, hər gün buradan şəhərə yanıma gəlirdi. Öz əlləri ilə zəhmət çəkib baxdıqları çolpalardan Gülərin bişirdiyi şorbanı mütləq mənə yedirtməsə geri dönmürdü. Dəfələrlə gözümü açanda ağladığını görmüşdüm. Yanımda qalmaq lazım olanda nə atamı ,nə anamı yaxın qoymurdu.Mən ağzımı açmasam da: Ayaz mənim qalmağımı istəyir, - deyirdi. O günləri heç vaxt unutmayacam. Çünki həmin an dünyada Zirəddindən başqa keç kim mənə həmin qayğını verə bilməzdi. O, nə istədiyimi üzümə baxanda bilirdi. Susayan kimi ayağa qalxıb əlindəki fincanı dodağıma yaxınlaşdırırdı. Bəzən mənə elə gəlirdi ki, onun ürəyi oxumaq qabiliyyəti var. Elə o vaxtdan bəri bir şeyi qət eləmişdim ki, Zirəddin mənə doğma bir insandır. Anamın sözlərini xatırlayanda isə atama haqq qazandırırdım. Onun bizdə qalmağının xeyirdən başqa heç bir ziyanı yox idi. lap uşaq olduğum vaxtı xatırlayırdım Hansı ki, o zaman Zirəddin yox idi. Havalar qızan kimi bağa gəlirdik . Ot basmış məhləyə heç qapını açıb girmək mümkün olmurdu. Adam boyu qədər qalxmış qanqallar həyətin daş döşəməsini dağıdıb param

parça edirdi.Bir-iki gün heç bir krandan su gəlmirdi. Əksəriyyət vaxt ya matoru, ya su cənini, ya da ki, başqa bir lazımlı ləvazimatı oğurlamış olurdular. Qapıları açıb içəri girəndə hər yer toz torpaq olmağı ilə yanaşı hörümçəklər yuva qurmuş olduğu mənzildən kif qoxusu gəlirdi. Yorğan döşəkdə nəmişlik hiss olunurdu. Demək olar ki , bir həftəyə hələ bəlkə də on günə səliqə sahman yarada bilirdik. Özü də bu işləri tək atam -anam nizamlaya bilmirdi. Mütləq bir - iki usta, bir -iki fəhlə gətirməli olurdular. Darvazanın ağzındakı, həyətdəki bütün lampalar sökülmüş olurdu , hətta bir neçə dəfə gələndə naqillərin kəsilib aparıldığının şahidi olmuşduq. Atam arada bir gəlib getsə də ağacların çoxu quruyurdu .Su qajlarının içərisini ot basıb pis günə qoyurdu. Amma Zirəddin bağda yaşayandan bəri məhləmizdə gül gülü çağırırdı. Doğrudan da Gülər gül sevən idi. Darvazadan içəri keçən kimi cürbəcür rəngbərəng güllər əkmişdi. Bağçada sıra ilə əkilmiş ağacların aşağı hissəsi əhənglənmişdi. Həyət- baca tər -təmiz idi. Bağçanın sol tərəfində dirrik salınmışdı ki, orada bütün tərəvəzlər əkilmişdi, digər bir tərəfində kiçik və çox səliqəli toyuq hini var idi. Dəmir tordan hasarın arasında ən azı iyirmiyə qədər toyuq -cücə var idi. Bu toyuqları atam özü alıb gətirsə də onların birini də bizim ailə üçün kəsilməyinə razı olmurdu. Biz bağa köçəndən sonra o, yenidən toyuq cücə alıb gətirdi. Uzaq başı yumurtadan istifadə edirdik .Eləcə də dirrikdəki tərəvəzdən biz istifadə etmirdik . Atam hər gələndə bazarlıq edirdi. Anam atamın dolu zənbillərinə baxıb deyirdi : Vaqif qorxur ki əlimizi Zirəddinin dirriyinə uzadarıq. Bir vaxtlar anamı haqlı saysam da ağlım kəsdikcə atama haqq verirdim. Çünki təkcə həyat - baca deyil mənzilimiz də həmin qayda üzrə tərtəmiz və səliqəli olurdu. Ayağımızı soyunub gül qoxuyan mənzilimizə daxil olurduq. Amma biz köçüb gələndən sonra Gülər anama çox nadir hallarda kömək edirdi. Hər halda biz gələnə qədər hər yer cənnət kimi olurdu. Bilmirəm nədənsə

bu il bağa gəlmək istəməsəm də bağ mənə ləzzət edirdi. Sanki qapalı bir dünyadan çıxıb azadlığa çıxmışdım. Adicə səhər yeməyini həyətdə oturub yemək mənə qeyri adi xoş gəlirdi. Axşamtərəfi çox böyük çətinliklə cənin üzərinə qalxmaq istəsəm də bacarmadım . Halbuki, bu mənim ən çox sevdiyim əyləncə idi. Oradan dənizə, batmağa hazırlaşan günəşə baxmaq mənə ləzzət edirdi. Sonra isə lap gecənin yarısınadək orada uzanıb ay işığında qəribə , sirli görünən dənizə baxmağı sevirdim. Hələlik bu arzum ürəyimdə qaldı. Bu məhrumiyyət məni bir daha əmin etdi ki, dünyada ən çox əsəb sakitləşdirən vasitə göz işlədikcə uzaqlara lap uzaqlara baxmaq imiş. Ümumiyyətlə, mühiti dəyişmək özü insana bir sakitlik gətirdiyini anladım.

Hərdən bir şəhərə gedib uşaqlara dəyirdim. Əməlli başlı çanlanmışdılar. Axırıncı dəfə Süleymanın dediyi bir söz nədənsə məni narahat edirdi. Əslidə əvvəlcə bu söz mənə bir rahatlıq gətirdi. Lakin get - gedə güşündükcə nədənsə içimə qəribə bir tələtum dolurdu. Həmin gün hava çox isti idi. Heç şəhərə getmək fikrim yox idi. Atam işə gedəndə : Gəl səni də aparım , - dedi. Bərpa mərkəzinə dəyərsən. Həvəsim olmasa da uşaqlardan bir xəbər tutaram deyə düşündüm. Öz həkimimin yanında oldum. O, məni sevindirib: Demək olar ki, tam bərpa olursan, - dedi. Bir neçə yeni idman hərəkətləri etməyi tapşırıq verdi. Oradan çıxıb bir başa bağa getmək istədim. Çünki hava çox isti idi. Adamın nəfəsi kəsilirdi. Mən həkimin yanından çıxanda artıq günorta idi. Uşaqları xeyli gözləməli idim. Onların məşqi günortadan sonra başlayırdı. İdman zalının həyətindəki skamyada yenicə oturmuşdum ki, Süleymanla Sübhəddini gördüm. Uşaqlar da məni görüb qaça - qaça yanıma gəldilər. Məşqlərini necə getdiyini soruşdum . Hər ikisi razı idi. Özlərinə güvən yaranmışdı. Ayrı söz soruşmaq istəmirdim. Amma elə bil ki, nə isə gözləyirdim. Süleyman bir qohumlarının onları tapdığını söy-

lədi. Təəccüblə: Nə qohum?– dedim. O ,böyük həvəslə danışmağa başladı:

- Anamın uzaq qohumudur. Bizim haqqımızda yeni xəbər tutub. Tez -tez gəlir. Gələndə bazarlıq edir .Hamımıza paltar alıb gətirir.

Ürəyim çırpınmağa başladı. Özümü zorla toplayıb , guya tanıyacaqmış kimi :Adı nədir?- dedim. Bu dəfə Süleymandan əvvəl Sübhəddin cavab verib dedi:

- Mənim ondan xoşum gəlmir. İstəmirəm gəlməyini.

Ürəyin çırpıntısı daha da artdı. Üzümü Süleymana tutub sualımı təkrar etdim:

- Adı nədir bu qohumun?

Yenə də Sübhəddin cavab verib : Minadır ,- dedi. Ürəyimə sakitlik çökdü. Bayaqdan bəri qohumun kişi olduğunu düşünürdüm. Amma Sübhədinin onu istəmədiyinə görə çox təəccüb etdim. Mən qohumları çox sevirdim. Kim olur olsun ,lap uzaq qohum da olsa gəlişinə sevinirdim. Bu uşaq niyə belə deyir?- deyə düşünürdüm. Bəlkə qohumsuzluğa adət edib? Ya doğrudan da qadın yaxşı adam deyil. Sübhəddinin gözünü içinə baxıb nə isə anlamaq istədim. Uşaqdan kədər yağırdı. Sanki mənim verəcəyim sualı cavab verirmiş kimi , çiyinlərini dartıb: Pis qadındır -, dedi. O, heç anamı tanımır.Süleyman yenə də qardaşından fərqli olaraq qadını tərifləməyə başladı:

-Niyə ey, nə istəyirsən Mina xaladan ?. Dadlı yeməklər bişirir. Səmaya kömək edib evləri təmizləyir.

Sübhəddin bu dəfə cavab verməsə də hər halından razılaşmadığı bəlli idi. Hər halda qohumun kişi deyil qadın olduğunu biləndən sonra sakitləşdim. Amma uşaqlardan narahat ayrıldım . Evə canana qədər bu fikrin təsiri altında qaldım. Qadından Sübhəddinin niyə xoşu gəlmədiyi haqqında baş sındırırdım, bir yana çıxa bilmirdim.

Günlər ötürdü ,fikrimdən Süleymangilin təzə gələn qohumunu çıxara bilmirdim. Ən çox da o, heç anamı tanımırmış

sözü məni tutmuşdu. Bu necə qohum idi ki, tanımadığı bir adamın uşaqlarına sahib çıxırdı. Nə qədər düşünsəm də belə ola da bilər deyirdim. Amma axırda yenə də Sübhəddinin sözünü xatırlayırdım. Özü də onu bilirdim ki, bu uşaq elə də sadəlöv uşaq deyildi. Əslində Süleyman çoxbilmiş kimi görünsə də Sübhəddin ondan ağıllı idi.

Artıq havalar lap qızmışdı. Çimərlikdə adamın sayı artmışdır. Səhər -səhər hava qızmamış dənizə girməyi daha çox sevirdim. Günortadan sonra isə həvəsim olsa çimərdim. İndi isə yaxşı üzə bilmirdim, yaralarım incidirdi. Həkimin verdiyi idman hərəkətlərinin arasında dənizdə çimək də var idi.

Biz Zirəddinlə evdən çıxanda hamı yatırdı. Dan yeni sökülürdü. Ətraf tam sakitlik idi. Uzaqdan dəniz görünürdü. Biz yaxınlaşdıqca günəş də buludların arasından nazlı - nazlı boylanmağa başlayırdı. Onun şüaları dənizin üstünə düşdükcə dəniz göz qamaşdırırdı. Bizimlə bərabər bir iki adam da görünməyə başladı. Hələ dənizə girmək fikrim olmadığı üçün çatan kimi qumun üstünə uzandım. Qum da sərin idi. Zirəddin özünü suya atdı .Bir neçə dəfə fırlanıb geri döndü. Arxası üstə qumun üstünə uzanıb:Ə , dur , - dedi. Tənbəllik etmə su adama ləzzət edir. Yenicə qalxıb dənizə girmək istəyirdim ki, nəcib bədənli , uca boylu bir qız düz bizim yanımızda dayanıb əlindəki kiçik bağlamanı qumun üstünə qoyub eynəyini də çıxartdı. Onun bizim yanımıza gəlməyi məni əsəbləşdiridi. Düşünürdüm ki , bu boyda çimərlikdə çimməyə yer tapmadı gəlib bizim yanımızda çimir? Ona görə ki nədənsə narahat olurdum. Mənə elə gəlirdi ki, qız suya girən kimi batacaq. Və mən onu xilas edə bilməyəcəm. Zirəddin də ki, hər atdığı addıma fikir verir. Zirəddin arxası üstə uzanandan bəri durmadan danışırdı. O,həmişə belə idi. Biz ikimiz bir yerdə olan kimi rayondan xatirələr danışırdı. Buna adət etmişdim. Amma indi başa düşdüm ki, yazıq çox darıxır. Ona görə də bu xatırələri danışdıqca oraları səyahət edir. Mən ona qulaq asmırdım ,

fikrim gözdən itib lap uzaqlarda nöqtə kimi görünən qızın yanında idi. Doğrudan az qala gözdən itənə qədər uzaqlaşdı. Bir azdan qəribə üzmək tərzi ilə üzüb sahilə yaxınlaşdı. O, çıxıb gedəndən sonra Zirəddinin söhbətlərini dinləməyə başladım. Bayaqdan nədən danışırdı bilmirəm , indi uzaqda balıq tutmaq üçün dənizə qarmaq atan kişini görüb Kür çayında balıq tutmağından danışırdı. Ramiz əmimi xatırlayırdım. Yazıq kişinin başına nə oyunlar açırdım. Gözümü dənizə zilləsəm də İlan kimi qıvrılıb uzaqlara gedən Kür çayını görür , qıjıltı ilə gələn səsini eşidirdim. Əmimin axşamdan dəmir qutuya yığdığı qurdları çatan kimi Kürə tökdüyümü, qarmağı suya salıb bir az sakit oturandan sonra qəsdən suya daş atdığımı xatırlayırdım. Nə qədər şuluq etsəm də əmim məni danlamırdı. Heç kəs məni özü ilə bir yerə aparmaq istəmədiyi halda Ramiz əmim hara getsə məni də aparırdı. Atam : Aparma ,- deyirdi.O, getdiyi yerdə rahat oturub istirahət edə bilməsə də bütün törətdiyim qorxulu hərəkətlərə rəğmən məni də aparırdı. Balıq ovuna gedəndə mənim üzümdən əli boş gəlməli olurdu. Halbuki əmimin yaxşı ovcu olduğunu hamı bilirdi. Zirəddin xəyalında balıq ovundan gəlib qaban ovuna getmişdi. İndi də meşələri , dağları , ormanları təsvir edirdi. Qəribə idi, o danışırdı , amma mən öz aləmimdə idim. Əmimin başına açdığım oyunları düşünürdüm . Birdən birə ürəyim hədsiz dərəcədə əmimi istədi. Yerimdən qalxıb dənizə tərəf getdim. Su soyuq idi, amma ləzzət verirdi. Xeyli çimib açılışdım. Yavaş - yavaş olsa da əməlli başlı üzə bilirdim. Üzə bildiyimə görə çox sevinirdim. Demək doğrudan da sağalırdım. Sudan çıxıb Zirəddinin yanına qayıtdım. Onun üzünə baxıb qəhqəhə ilə gülməyə başladım. Təəccüblə üzümə baxıb :Nə olub , Də ?_ dedi. Mən gülməkdən yaşarmış gözümün yaşını silib dedim:

-Ay allah evini tiksin, buradakı sənin cismindir, ruhun dağlardadır. Bu qədər darıxmaq olar ?

Zirəddin elə kövrəldi ki, az qala hönkür - hönkür ağlamaqdan özünü zorla saxladı. Yerindən sıçrayıb ayağa durdu. Sonra başını çiyninə qoyub məyus halda: Darıxıram , - dedi . Çox darıxıram. Ürəyim atamı istəyir. Rayonumuzu , həyət – bacamızı, küçəmizi istəyirəm. Bütün günü evimizi , qonşuları , qohumları xatırlayıram.

Ona yazığım gəldi. Güldüyüm üçün peşman olmuşdum .Yadıma Sübhəddini danladığım düşdü. Yazıq uşağa : Yekə kişisən, atandan ötəri niyə darıxırsan?- demişdim. Zirəddinin gözünün içinə baxıb:Gəl rayona gedək,- dedim. Onun gözünün içində qəribə parıltı yarandı . Dərhal da məyus - məyus çiyinlərini çəkib: Atamgil məni dindirmir axı ,- dedi. Mən böyük həvəslə dedim:

- Nə bilirsən dindirməyəçək ? Sən bizimlə gedək bizim evə .Atam da bir ram atar sizi barışdırmağa . Barışmasalar da oraları görərsən ürəyin sakitləşər. Zirəddinin üzündə ümid ifadəsi yaransa da susub durmuşdu.

Biz evə dönəndə artıq saat onun yarısı idi. Gün əməlli başlı qalxıb zillənmişdi. Indidən istidən nəfəs almaq olmurdu. Atamın sözü yadıma düşdü :Bakının küləyi olmasa isti adamın nəfəsini kəsər.Doğurdan əsən külək bir az da olsa sərinlik yaradırdı. Məhəllədə hamı oyanmışdı. Atam həyəti sulayıb samovarı qaynatmışdı. O, evdə olan kimi samovarı qaynadırdı. Anam masaya səhər yeməyi düzürdü. Bərk açmışdım. Elə yemək masasında atama:Ata , gəlin heç olmasa bir həftəliyə rayona gedək , - dedim Atam ağzını açmamış anam deyinməyə başladı . Daha bura köçüb yerləşmişik. Kimdir buradan yığışıb rayona gedən, sən Allah, qoyun oturaq oturduğumuz yerdə. Anama təəccüb edirdim, niyə bu il rayona getmək istəmirdi bilmirəm. Atamla anam mübahisə etməyə başladılar. Mən həmişə olduğu kimi anama tərəf danışmayıb israrla: Getsək yaxşı olar,- dedim. Anam qabları yığıb mətbəxə keçəndən sonra atama Zirəddini aparmaq istədiyimi söylədim.

Onun hədsiz darıxdığını , atasıgili görmək istədiyini , ümumiyyətlə, onun haqqında düşündüklərimi danışdım. Sanki atamın əlinə yeni bir iş keçdi. O,öz -özünü danlayır , indiyə qədər bu işlə niyə məşğul olmamışam ,- deyib dururdu. Atam nə olur olsun rayona gedəçəkdi. Yayın sonu da olsa heç olmasa iki üç günlük gedib qayıdacaqdı . İndi isə lap həvəsləndi. Çünki o belə şeyləri çox sevirdi , Zirəddini səsləyib çağırdı. Ə, barışmaq istəyirsən,amma mənə bu barədə söz demirsən?- dedi Zirəddin atamın qarşısında sakitcə dayansa da onun bütün varlığından yalvarmaq yağırdı. Atam onu xeyli danlayandan sonra dedi:

-Vaqif əmi , atamın mənimlə barışmağına inanmıram. Atama -anama bir şey olar. Onlarla küsülü qaldığım üçün özümü heç vaxt bağışlamaram. Günlərlə bu barədə düşünürəm ,axır vaxtlar heç gözümə yuxu da getmir.

Atam ayağa durub:Düz deyirsən,-dedi. Mütləq sizi barışdırmaq lazımdır.Bu işlə mən özüm məşğul olacam. Hazırlaşın , gələn həftə gedirik rayona.

Atamın gələn həftə gedərik deməyi lap xoşuma gəldi. Çünki Süleymangildən xəbər tutmaq istəyirdim. Bir də ki, bu bir həftə ərzində nə olur olsun, lap bütün günü küçədə qalmalı olsam Səmanı görməli idim. Bilmirəm niyə belə düşünürdüm,amma qərarım qəti idi. Axşama qədər məhəldə hamının kefi durulmuşdu. Bir tək anam dünyaya səs vermirdi. Hətta arada mənə elə gəldi ki,ağlayır. Gecə atamla anamın davasını eşıdəndə onun ağladığına tam əmin oldum. O , israrla: Nə qədər ki Ayaz axsayır , mən rayona gedən deyiləm, -deyirdi. Zirəddin qələt edir o, kimdir ki, mən ona görə gül kimi uşağımı rayona aparıb camaatın ağzına söz salaçam. Atam hirsindən partlasa da sözündən dönmürdü. Hələ allahına şükür elə , Ayazın ayağa qalxıb yeriməyinə heç kim inanmırdı.Uzun mübahisədən sonra anam: Onun niyə həbsə düşdüyünü soruşanda nə deyəcəm,- deyib hönkür -hönkür ağladı. Bax bu

sualdan sonra mən də ağlamaq istəyirdim. Çünki atam da susmuşdu. Mənim onlara yazığım gəlirdi. Süleymanın sözlərini xatırladım. Ana, mən Səmanı xilas etmək üçün həbs olunmuşam, oğru deyiləm,- deyib bağırdım. Oğru deyildim amma qalan sözümün yarısı yalan olsa da gerçəyi də var idi. Həmin gün məhkəməyə gəlməsəm Səma həbs olunub gedəcəkdi. Bunu düşünüb sakitləşdim. Atamla anam isə susmuşdu ,ümumiyyətlə danışmırdılar.

Ertəsi gün isə bu barədə danışan olmadı. Anam sakitcə hazırlaşırdı və mənə bunu bildirməyə çalışırdı. Zirəddin başını itirmişdi .Uşaqlara , özünə , Gülərə təzə paltar alırdı.Kimlərə isə hədiyyə alıb çantalara yığırdı. Hər ikisi ,hələ bir dəfə olsun rayonu ya da ki, nənə babasını görməyən körpələr də sevinirdi. Mən düşündüyüm kimi hər gün şəhərə gəlməyə başlamışdım. Uşaqları görürdüm , saatlarla söhbət edirdim. Lakin oğlanlar and iciblərmiş kimi qonaq qadından söz salmırdılar. Səmanı da görə bilmirdim. Ya uşaqlarla ya da ki təkcə səhər açılandan şər qarışana qədər həyətdəki kiçik bağçada otururdum. Lakin Səma adlı qız yox idi. Nəhayət mən onun burada olmadığını düşündüm. Yəqin ki, qonaq qadına birlikdə çıxıb hara isə gedib. Bu fikir məni çox darıxdırdı .Özümə yer tapa bilmirdim. Bağa lap gec saatlarda döndüm.Hava qaralmışdı , az qalırdım ki atama deyəm ki, mən rayona zada getmək istəmirəm. Məhlədə hamının kefi yuxarı idi. Atamla Zirəddin nərd oynayırdı. Anamla Gülərin başı söhbətə elə qarışmışdı ki, mənim gəldiyimdən xəbərləri yox idi. Yemək yeməyə iştaham yox idi. Ona görə də anamgillə salamlaşıb yatmağa getdim. Anam otağıma gəlib :Gəl heç olmasa bir stəkan çay iç ,-desə də qapını örtüb yatağıma uzandım. Uzanmağına uzandım, lakin sübh açılana qədər yerimin içində qıvrıldım. Səhər açılan kimi atamla birlikdə şəhərə gəldim . Kişi mənim narahatlığımı hiss etmişdi. Yol boyu məni suala tutdu, amma nə qədər cəhd etsə də bir şeyə nail ola bilmədi. Evimizdə işim var de-

dim. Atam maşını blokumuzun ağzında saxlayıb məni düşürdü. Evimizə qalxmadım. Düz blokumuzun ağzında dayandım. Bu gün mütləq Süleymgildən Səmanın harada olduğunu soruşaçaqdım. Nə gözləməyə nə də kimdənsə nə isə soruşmağa eytiyaç qalmadı. Səma əlində böyük bir bazar çantası ilə bazardan gəlirdi. Yanındakı ağ bəniz yaraşıqlı qadının da əlində böyük bir zənbil var idi. Ürəyim titrəməyə başladı. Dediyim kimi mən bu qızın haqqında düşünəndə də halım dəyişirdi. Nəinki üzbəüz görmək. Doğrudan da halım pis idi. Oradan uzaqlaşmaq istəsəm də yerimdən tərpənmədim .Anamın sözü yadıma düşdü , axsadığım bilinirdi. Odur ki yerimdən tərpənmədim. Bilmirəm doğrudan belə idi , ya mənə elə gəlirdi ki, Səma insan cildinə girmiş mələkdir. Tək bircə qanadları yox idi. Ağ kətandan geyindiyi don onun ağ bənizinə çox yaraşırdı. Mənim yanıma çatanda qız sıx kirpiklərini qaldırıb ala gözlərini üzümə dikdi. Demək məni uzaqdan tanımışdı. Kirpikləri qəribə tərzdə titrəyirdi. Bir an ayağını saxlayıb salam verdi. Ağ üzü allanıb çəhrayı rəngə düşdü. Ilahi, bu nə gözəllikdir?- deyə düşünürdüm. Səmanın görkəmində bir körpəlik var idi. Zərif incə vücudu qızı orta məktəb tələbəsinə oxşadırdı. Bu an Fərruxu düşünürdüm . Öz özümə dəfələrlə murdar köpək deyə təkrar edirdim. Onun cizgi filmindəki siçana oxşar kök görkəmini , yekə qarnını xatırlayırdım. Məndən uzaqlaşıb öz bloklarının önünə çatan qıza baxıb düyməçiyi gözümün önündə canlandırırdım.

Axşama qədər çıxıb evimizə gedə bilmədim. Sanki məni cazibə qüvvəsi ilə çəkib bura yapışdırmışdılar. Bir daha Səma gözə dəymədi . Onlar evə keçəndən bir az sonra Sübhəddin gəldi. Onu tək görəndə sevindim. Çünki ondan nələrsə öyrənə biləçəyimə ümid edirdim, amma o məni birinci suala tutdu. Burada nə etdiyimi , kimi gözlədiyimi soruşdu. Mən işim var deyib sualdan yayındım , söhbətdən yayınmaq istəmirdim. Bəstə boy , yaraşıqlı qadının haqqında daha nələrsə öy-

rənmək istəyirdim. Qadın pis adama oxşamırdı. Əksinə, xoş təsir bağışlayırdı. Sifətində qəribə bir xoş ,mülayim ifadə var idi. Sübhəddinin onun haqqında olan fikri məni narahat edirdi. Söhbəti idmandan başlayıb sonda qadının yanına gətirdim. Qəribə də olsa oğlan yenə də ağzını burub :Mənim ondan xoşum gəlmir, - dedi. Sübhəddindən bundan başqa söz qoparda bilmədim, uzun müddət danışmadı . Mənə elə gəlirdi ki, nələri isə danışmaq istəyir. Nəhayət çiynini çəkib : Səma ilə Süleyman məni kimi düşünmürlər. Mən Mina xala haqqında pis söz deyəndə hər ikisi hirslənir.

Mən Sübhəddindən ayrılanda o üzümə baxıb təkrar etdi:

- Mənim Mina xaladan xoşum gəlmir.

İki gündən sonra rayona gedirdik . Daha gəlməyəçəkdim. Səma ilə qadını görsəm də narahat gedirdim. Bu qadının məqsədi nə idi? Doğrudanmı təmiz niyyətlə gəlib yetimlərə kömək edirdi? Sübhəddini şübhəyə salan nə idi ki, onu Səma ilə Süleyman görmürdü. Səmanın bacısı ondan çox kiçik olduğunu bilirdim, lakin onu bir dəfə olsun görməmişdim. Uşaqlar onun haqqında bir söz danışmırdılar . Amma Səmanın adı dillərindən düşmürdü.

İki gündən sonra biz öz maşınımızla , Zirəddingil isə avtobusla rayona yola düşdük. Onlar bizdən əvvəl gəlib çatmışdılar. Atam yola çıxanda yol kənarındakı yeməkxanalarda oturmağı sevirdi. Ən azı iki dəfə düşüb təzə dəm çay içir, nahar vaxtı isə bir yerdə oturub nahar edirdi. Bu il də kişi təbiət qoynuna çıxmadığı üçün çöl çəmən ona ləzzət verirdi. Oturduğu yerdən durmaq istəmirdi.Zirəddinin arvad uşaqla avtobus dayanacağında qaldığını görəndə qanı qaraldı . Bu ağlıma gəlməyib , - dedi. Heç olmasa açarı onlara verərdik. Bizim buradakı evin açarları da Ramiz əmimgildə olurdu. Hasarlarımız bitişik idi. Atam öz ata yurdunun bir hissəsində özünə ev tikdirmişdi.Düzdür, biz gələndə demək olar ki evimizə yalnız yatmağa gedirdik .Günümüz əmimgildə keçirdi. Atam deyirdi

ki, hər kəsin öz evi olsa yaxşıdır. Ramizlə mən bu gün varıq sabah yoxuq. O zaman mənim uşaqlarım Ramizin uşaqlarının evinə neçə gələ bilər? Əmim bizim həyət bacanı , bağ bağçanı səliqəli saxlayırdı. Zirəddingilə görə birinci dəfə idi ki, öz evimizin qapısını açıb əşyalarımızı ora tökdük . Başqa vaxt olsa əmimgilə gələr, gecə yarıdan sonra yenidən evimizə daşınardıq.

Zirəddin bizdə cəmi bir gecə qaldı. Atamın cəhdinə ehtiyac qalmamışdı. Halbuki kişi bütün günü az qalırdı ki, nə deyəcəyini , necə deyəcəyini məşq etsin. Atası onun gəldiyini eşidən kimi qardaşını göndərib onu apartdırdı. Atam səni çağırır,- deyəndə onun düşdüyü vəziyyət, gedişi gözümün önündən getmirdi. Qardaşı ilə görüşəndə uçunurdu. Əl ayağı titrəyirdi.

Xəbəri eşidəndə atam çox sevindi. Elə bil üstümdən yük götürüldü -dedi. Rayona gəlişimizdən , içi anam qarışıq, hamımız razı qalmışdıq .Təkcə əmim deyil bütün qohumlar ayrı ayrılıqda mənə qurban kəsdi. Günümüz ziyarətgahlarda , qonaqlıqlarda keçirdi. Əmimin oğlu ilə , qızı da Fidan kimi başıma dolanırdı. Anama məəttəl qalırdım. Niyə gəlmək istəmirdi. Axsadığıma görə qohumlar anam qədər narahat olurdular. Mən indi başa düşdüm ki, insana dar günündə dava dərmanla yanaşı məhəbbət lazımdır. Nəinki lazımdır ,məlhəmdir. Çünki mən məhəbbətin əhatəsində günbəgün deyil saatbasaat sağalırdım.

Ən yaxşı maraqlı günlər də Zirəddingildə oldu. Bizi qonaq cağırmışdılar.Zirəddini görəndə mat qaldım , cəmi bir həftənin işində kökəlmişdi. Hətta mənə elə gəldi ki boyu da uzanıb. Hərəkətlərində bir sərbəstlik yaranmışdı. Bağın ortasında böyük bir qonaqlıq düzəltmişdilər, demək olar ki, toy idi. Musiqiçilər və aşıqlar dəvət etmişdilər. Manqalın tüstüsü aləmi bürümüşdü. Bütün sağlıqlar atama aid idi. Zirəddinin atası atamgilin uzaq qohumu idi. Şaiq kişi atama təşəkkür etmək-

dən doymurdu. Mənim balama və nəvələrimə dar gündə sahib çıxmısan , indi də götürüb gətirib mənim övlad həsrətimə son qoymusan,- deyirdi. Düzdür , atam Zirəddinə çox kömək etmişdi , amma onu bura əslində mən gətirmişdim. Zirəddin elə bil ürəyimi oxuyurdu. Qalxıb ürəyimdən keçənlərin hamısını dedi. Sonrakı badələr mənim şənimə qalxdı. Zirəddinin atasına təəccüb edirdim. Kişi həsrətdən ölürmüş . Nəyə lazım idi bu qədər xiffət etmək? Nə olsun ki Zirəddin öz sevdiyi qızla ailə qurmuşdu. Kişi yedi , içdi , oynadı. Az qala sevincindən ürəyi dayanırdı. Məclis gecə yarısınadək davam etdi. Bir- iki gündən sonra Gülərin atasıgil qonaq çağırdı. Bu qonaqlıq mənə çox maraqlı gəlirdi. Zirəddinin atası ilə Gülərin atasının necə qarşılaşacağı məni düşündürürdü . Bu köhnə rəqiblərin üzbəüz gələcəyi günü gözləyirdim.

Gülərgilin ev eşiyini , qapı - bacalarını görəndən sonra qızın anama niyə qulluq etmədiyini başa düşdüm. O , biz bağa gələnə qədər hər yeri tər təmiz təmizləyirdi , biz ora gələndən sonra əlin ağdan qaraya vurmurdu. Sadəcə anamla qonşuluq işlədirdi. Anam hirslənib deyinsə də atam heç vaxt onu buyurub bu çöpü buradan götür o tərəfə qoy demirdi. Əslində atam Zirəddinə də heç nə demirdi. O, özü atama da anama yardım etməyə çalışırdı. Gülərgilin evləri saray kimi idi. Bizim bağdakı,rayondakı və şəhərdəki evimizi üst- üstə qoysalar Gülərgilin evinin bir tərəfi boyda ancaq olardı. Məhlədə gül gülü çağırırdı bülbül bülbülü. Qızın gülə olan məhəbbətini indi anladım , axı Gülər bizim bağa da çoxlu güllər əkmişdi. Hasarın hündürlüyü məhləni qəsrə bənzədirdi. Buradakı abu hava tamam başqa idi. Hər şey , qulluq , yeməklər, süfrə yüksək səviyyədə idi. Zirəddingildəki kimi çox adam yox idi. Məclis ikinci mərtəbənin eyvanında qurulmuşdu. Eyvan deyəndə ki, bura lazım gəlsə bir toyun adamını yerləşdirmək olardı. Hava çox isti olmasa da göydən hava yelləyən çilçıraqlar asılmışdı. Onlar sürətlə fırlanıb sərinlik ya-

radırdı. Qulluq edənlər ev adamları deyildi. Onları xüsusi olaraq yeməkxanadan gətirmişdilər. Gülər də Zirəddin kim tam dəyişmişdi. Lakin Gülərin dəyişməyi başqa idi. O , gözəl bir paltar geyinmişdi . Çox gözəl görünürdü. Əslində mən Gülərin belə gözəl olduğunu indi görürdüm. Yəqin o, da anasına oxşayır deyə düşünür, maraqla onun anasını tanımaq istəyirdim. Nəhayət tamamı ilə Gülərə oxşamayan gözəl , az qala qızı qədər gənc görünən bir qadının onun anası olduğunu bildim. Mənə elə gəlirdi ki, Gülərin atası cəh-cəlalı ilə öyünür, Şaiqin gözəl sevgilisini əlindən almaqda haqlı olduğunu nümayiş etdirirdi. Şaiq isə, əksinə, sadə və səmimi bir halda oturub nəvələri ilə qurur duyduğunu , xoşbəxt olduğunu söyləyirdi. Qonaqlıq burada da gecənin yarısına qədər davam etdi. Sonda Gülərin atası ayağa durub uşaqlara ev alacağını deyəndə , Şaiq asta - asta ayağa durub cibindən bir top açar çıxartdı sonra üzünü qonaqlara tutub : Mən Zirəddinə ev tikmişəm , onun evi var -,dedi. O , açarları Gülərə uzadıb :Gedib baxa bilərsiniz , - dedi. Şaiq kişi ev tikib satırmış. Lakin axırıncı tikdiyi evə necə dəfə müştəri gəlibsə , bu evi satmağa əlim gəlmir, - deyirmiş. Sən demə ürəyinin dərinliyində onu Zirəddinə vermək haqqında düşünürmüş. Həm də onun oğlu olduğunu və uşağın adının Şaiq olduğunu biləndən sonra bu fikrin üstündə bərk durubmuş. Doğrudan bu təklif hamını mat qoydu. Bu xəbər hamı üçün inanılmaz dərəcədə şok xəbər idi. Buradan yığılıb hamılıqla evə baxmağa getdik . Fərman müəllimin evi qədər böyük olmasa da ev Fərman müəllimi mat qoydu. Gülməyim tuturdu, mənə ləzzət verirdi. Fərman müəllimin bayaqdan bəri aldığı görkəm dəyişmişdi, neçə deyərlər qınına girmişdi. Kişi süst düşmüşdü. Bu əzəmətli evin açarları qızına verilsə də özünü mat qalmış kimi hesab edirdi. Zorla özünü əla alıb : Mən də içini dolduraram , - dedi. Hamıdan bərk şoka düşən Zirəddin olsa da Gülərin uçmağa qanadı yox idi. İki gündən bəri gözlədiyim elə bu idi.

Mən bu iki kişinin bir birinə necə münasibət göstərəcəyini görmək istəyirdim. Mənə elə gəlirdi ki, özünü sadə və səmimi göstərən Şaiq əmi özünü göstərə bilmişdi. Nədənsə mən buna sevinirdim. Vaxtı ilə sevdiyi qızı əlindən verən oğlanın bu gün həmin qızın qarşısına pis gündə çıxmağını istəmirdim. Kefim durulmuşdu. Evə də çox razı qayıtdıq.

Atamın məzuniyyəti qurtarana qədər Bakıya qayıtmadıq. Əvvəla , günlərimiz maraqlı keçirdi. Birdə ki, Zirəddinsiz bağa qayıtmaq istəmirdik. Bunu üçümüz də bilirdik. Lakin dilinə alıb etiraf edən yox idi. Yavaş - yavaş ailəmizdə fəaliyyətini artıran Fidan isə bizdən fərqli olaraq Zirəddinsiz bağa getmək istəmədiyini dedi. Ona bir söz deməsəkdə üçümüzün də qanımız qaraldı. Zirəddini isə ora qaytarmaq qeyri mümkün idi. Heç bəlkə də bağdan əşyalarını da qaytarmaq istəməyəçəkdi. Çünki onun orada köhnə , qırıq sökük qab qaçağı , yorğan döşəyi var idi. Onun da əksəriyyətini anam vermişdi. Burada isə ona saray kimi ev bəzənirdi. Gülərin ata- anası evi zövq ilə bəzəyirdi. Demək olar ki, hər gün gedib baxırdım. Hər dəfə Zirəddin ilə onun mənzilinə gedəndə onun fəxr ilə pilləkənləri qalxıb endiyini gördükcə onlara yazığım gəlirdi. Mənə elə gəlirdi ki, Zirəddin ilə Gülər sürgündə olublar. Biz hər nə qədər özümüzdən razı olsaq da onlar üçün bu həyat çox çətin imiş .Gözümün önünə gəldikcə onlara yazığım gəlirdi.

Bakıya qayıdan da bağda çox darıxdıq. Hətta anam da onlarsız darıxdığını etiraf etdi. Mən onsuz da darıxırdım , fikrim Səmanın yanında qalmışdı. Yığışıb şəhərə dönmək Zirəddinsiz elə çətin oldu ki, hətta mən də kömək etməli oldum. Artıq toyuqları burada qoya bilməzdik . Onları kəsib götürməli olduq. Matoru, rezindən olan su borularını , stol stulları, su bitonlarını və sairə avadanlıqları yığıb zirzəmiyə qoyduq. Hovuzun suyunu boşaltdıq. Hamımız yorulub bezmişdik. Anam atamın üzünə baxıb,: Görəsən gələn yaya qədər Zirəddin qa-

yıdıb bura gəlməz ki? Atam qəhqəhə ilə gülüb :Nə danışırsan , ay qız?- dedi. Zirəddinlə Güləri bura tanka da qoşub gətirmək olmaz . Özün görmədin? Niyə soruşursan?

Şəhərə yığılandan sonra özümə iş axtarmağa başladım. Qiyabiçi olduğum üçün dərslərin başlanmasına hələ iki ay var idi . Sessiya başa çatandan sonra yenə də boş qalacağımı düşünüb ciddi cəhd ilə iş axtarırdım. Atamla anam mənim bu fikrimi bəyənmədilər. Ən çox da anam narahat olurdu. Çünki onlar mənim yeriyəndə çətinlik çəkdiyimi bilirdilər. Düzdür yeriyə bilməyim əslində mənim xoşbəxtliyim idi. Çəmi bir neçə ay bundan əvvəl mənim ayağa dura bilməyimə heç bir ümid yox idi. Buna heç həkimləin özü inanmırdı. İndi yeriyirdim. Axsaq olsam da yeriyirdim. Mən yerişimi düzəltməyə çalışdığım kimi iş axtarmağa da davam edirdim. Təsadüfən qonşumuz Kənanla rastlaşmaq mənim həyatımda böyük dönüş yaratdı. Kənan bankda işləyirdi. Uca boylu , yaraşıqlı , səliqəli geyinməyi sevən ciddi bir oğlan idi. Məhlədə yaxşı hörməti var idi. Demək olar ki , hamı onu sevib hörmətlə yanaşırdı. Mənimlə çox səmimi görüşüb : Səni ayaq üstə gördüyümə çox sevindim , - dedi. Mən təşəkkür edəndən sonra məyus halda bu vəziyyətimdə mənə iş tapmaq çox çətin olduğunu söylədim. Kənan xeyli susandan sonra :Bankda işləyə bilərsən?- dedi. Mən onun üzünə baxıb çiynimi çəkdim. Bir az düşünüb , bacarsam , əlbəttə işləyərəm, dedim. Kənan əlini yaraşıqlı alnına aparıb nə isə fikirləşməyə başladı. Sonra üzümə diqqətlə baxıb:Ayaz , əslində elə sənin əsl yerin oradır,- dedi. Lakin ən azı iki -üç ay maşsız işləyəçəksən. Yəni sınaq müddətini keçməlisən. Mən sənə yardımçı olaram ,bütün işləri öyrədəm. Bizə bankda düzgün və ciddi adamlar lazımdır. Mən sənə inanıram. Bu barədə müdirə deyəcəm və sənə zamin duracam. Onun inam və etibarını qazanmaqla bərabər gərək işi də biləsən .Sevincimdən az qalırdı ürəyim partlasın. Çünki boş- boş gəzməkdən bezmişdim, darıxırdım.

Atam isə mənim işləməyimi istəmədiyi üçün o, mənə iş tapmayacaqdı. Mən hədsiz sevindiyimi bildirdim. Maaşsız işləməyə razı oldum. Və onun bütün tələblərini yerinə yetirməyə çalışacağımı söylədim.

Günü sabahdan işə çıxdım. Doğrudan da işləmək mənə çox tez imiş. Çox otura bilmirdim. Aydın oldu ki mən uzanmağın səbəbinə yaşayırmışam. Hər cəhdlə Kənanın ehdimadını doğrultmağa çalışırdım. Nə olur olsun verilən işlərin öhdəsindən gəlmək istəyirdim. Əziyyət çəkməli olsam da yerimdən durmurdum. Məlum oldu ki, mənim yaxşı bacarığım var imiş . Kənan məndən ilk günlərdən razılıq etməyə başladı. Belə olacağı ağlıma gəlmirdi ,-dedi. Mən səni çətinliklə öyrədəçəyimi düşünürdüm. Bura əsl sənin yerindir. Onun sözləri məni həvəsləndirir, son qüvvəmi toplamaqda yardımçı olurdu. Kollektivdə və müdirin yanında tez hörmət qazandım . Hər kəs mənə çox hörmətlə yanaşıb dinçəlməyimə yardım etmək istəsələr də bunu üzümə vurmurdular. Mən işimə çox alışmışdım. Artıq iki ay tezliklə ötüb keçdi. Amma məni hələlik daimi işə götürmürdülər. Mən isə qətiyyən işdən ayrılmaq istəmirdim. Anamgil əziyyət çəkdiyimi görürdü. Yorğun gəldiyimi , ağrıdığımı hiss edirdilər. Lakin nə qədər israr etsələr də işdən ayrılmayacağımı dedim. Sözümün də üstündə durdum. İşdən maaşa görə ayrılmadım . Əksinə aparıcı qüvvəyə çevrilmişdim. Hətta işləri yüngülləşdirmək məqsədi ilə bir neçə maraqlı planlar irəli sürüb, həmin planın həyata keçməsi üçün yeni üsul işləyib təklif etmişdim. Qəribədir, müdir məni tərifləyir , uğurlarımı , onların bankına gətirdiyim yenilikləri alqışlayır, lakin məni daimi maaşlı işə keçirmək haqqında düşünmürdü. Kənan xəcalət çəkirdi. Mənə nə deməyə söz tapmırdı. Müdirin məni işlə təmin etmədiyinə təəccüb edirdi.

Dərslərim başladı. Qəribə də olsa müdir məni təntənə ilə yola salıb, yolumu gözlədiyini söylədi, amma əmr vermək haqqında danışmadı. Anam məni dərsə yola salanda hönkür -

hönkür ağladı. Atam deyinib :Səidə, vallah ,sən çox naşükür adamsan , - dedi. Niyə sevinmək əvəzinə ağlayırsan? Pilləkənlərdə anamın hıçqırıqlar arasında dediyi sözləri eşidirdi Vaqif , Ayaz axsayır. Yaraşıqlı balamın vücuduna yaraşırmı belə yerimək? Mən isə yerişimi bir tək Səmadan gizlədirdim. Dərsən gələndən sonra onu görmək istəsəm də onun məni, daha doğrusu yerişimi görməsini istəmirdim. Ona görə kənardan da olsa onu görürdüm. Səma günbəgün deyil , saatbasaat gözəlləşirdi. Qız gül kimi açılmışdı, bunun səbəbini tapa bilmirdim. Hərdən açığım da tuturdu. Bir çətən yetimin arasında qalmış qız niyə pardaqlanırdı. Geyimi də yaxşı idi. Zövqlü, həm də açıq rəngli paltarlar geyinirdi. Bilmirəm hansı səbəbdənsə onun görkəmi narahat edirdi. Yuxum ərşə çəkilmişdi. Anam da ki, elə bil and içmişdi, kimdən danışır danışsın Səmagildən bir kəlmə olsun danışmırdı. Süleymangili də görmürdüm. İdmana gəlmirdilər. Pul verməyə getmişdim . Müəllim götürmədi. Dedi ki, onlar artıq gəlmirlər. Təəccüblə : Niyə ?- dedim. Müəllim çiynini dartıb: Vallah bilmirəm, amma Süleymanın sözünə görə dərslərini çatdıra bilmirlər.

Mən bu sözə inanmadım . Nə qədər dərsə hazırlaşsalar da həftədə üç dəfə idmana gəlmək elə də çətin olmazdı. Ən vacibi də onlar idmanı çox sevirdilər. Bir neçə gün dalbadal dərsdən gələndə həyətdəki skamyada oturub Süleymangili gözlədim. Lakin onlardan bir xəbər yox idi. Acmışdım, evə yeməyə getməyə hazırlaşırdım. Elə bu vaxt dalbadal küçəmizə gəlin aparmağa gələn sıralanmış maşınları görüb oturdum. Ətrafdakı uşaqlardan kimin toyu olduğunu soruşsam da heç bir cavab ala bilmədim. Hamı bir - birinin üzünə baxıb çiynini çəkirdi. Maşın kortejinin bizə sarı döndüyünü görəndə bir an beynimdən keçən fikirlər az qaldı ki nəfəsimi kəssin. Ürəyim qısıldı , yer göy başıma fırlandı. Bu toyun Səmanın toyu olduğunu zənn etdim. Qulağım batdı. Sanki qulağıma uğultu , qışqırıq , çay qıjıltısına bənzər hətta bomba səsləri gəldi. İlk

maşın artıq bizim binanın deyil bizimlə üzbəüz binanın qarşısında dayananda da çırpınan ürəyim sakitləşmək bilmirdi. Artıq bütün maşınlar gəlib sıralandı. Musiqiçilər maşından düşüb alətlərini nizamlayıb çalmağa başladılar. Maşından düşənlərin arasından bloka girənlər də oldu, musiqiçiləri yanında dövrə vurub oynamağa başlayanlar da oldu. Xoş musiqi sədaları ətrafa yayılsa da , sakitləşsəm də , kimin toyu olduğunu bilmək istəyirdim. Amma bir söz deyən yox idi . Nəhayət toyun Fərrux müəllimin qızının olduğunu bildim. Çox təəccüb etdim. Ona görə yox ki, qız Fərrux müəllimin qızı idi. O, qardaşından fərqli olaraq çox nataraz bir qız idi, daha doğrusu eybəcər idi. Hədsiz dərəcədə kök olmağı bir yana qalsın sifəti də çirkin idi. Gözünə taxdığı eynəyin şüşəsi az qala barmaq qalınlığında idi. Eynəyin şüşələrinin altından qızın gözləri nöqtə kimi görsənirdi. Məni daha da maraq bürüdü. Acından ölürdüm . Bir az sağa sola boylanıb yuxarı qalxdım . Anam məni görən kimi: Harada qalmısan? – deyib deyinməyə başladı. Mən əlimi yuyub mətbəxə keçdim . Anama deyəçəyim ilk söz Fərrux müəllimin qızının toyudur oldu. Anam sözümə inanmadı. : Neçə yəni toyudur? –dedi. Qəhqəhə ilə gülüb :Ay ana , toyudur də, o nə deməkdir?- dedim. Anam mənə tələm tələsik yemək verib pəncərənin qarşısına getdi. Musiqinin səsi bizə gələrdi. Anam baxıb öz özünə deyinirdi :

- Nə murdar adamdır bu köpək oğlu? Gör bu məhəllədə bir adam bilir ki, bunun evində toydur? .

Bir azdan Ərkinaz da hay küylə gəlib anamın yanında pəncərənin qarşısında dayandı . Bizim evdən heç nə görünmür,-dedi .Qadınlar ağız -ağıza verib deyinirdilər . Ərkinaz da anamın sözlərini təkrarlayıb deyirdi:

- Heç bunun qızının nişanlı olmağından bir xəbəri olan var idi? Qadınlar nə düşünürdülər bilmirəm, məni başqa şey maraqlandırırdı. Pəncərənin qarşısında dayanıb gəlinin görünməyini gözləyirdim. O, eybəcər görünüşlü qızın gəlinlik pal-

tarında neçə görünməyini və bu görünüşlə onu qəbul edən bəyi görmək istəyirdim. Gələn maşınlardan və həyətin ortasında rəqs edən insanların görünüşündən bilinirdi ki, oğlan kasıb ailədəndir. Tək bircə gəlin maşınından başqa qalan maşınlar ucuz maşın idi.

Gözləməkdən gözümün kökü saraldı. Gəlindən - bəydən xəbər ətər yox idi. Birdənbirə özümü düşünüb kədərləndim. Mənə də bəy topaldır, deyəcəklər deyə düşündüm. Tez pəncərədən uzaqlaşıb otağıma çəkildim. İndiyə qədər bu bərədə heç düşünməmişdim. Anamın ağlamağına fikir vermirdim. Yataqdan qalxıb , yeriyə bildiyim üçün allaha şükür edirdim. Bir an bayaqkı toyun Səmanın toyu olduğunu düşünəndə nə günə düşdüyümü xatırladım. Az qalırdı ki ürəyim yatsın, indi isə bu fikri özümdən yavaş- yavaş uzaqlaşdırmaq haqqında fikirləşməyə macal tapmamış aşağıdan dəhşətli qışqırıq səsləri gəldi. Mən yerimdən dik qalxıb anamgil duran pəncərənin qarşısına gəldim. Onlar da aşağıya boylanıb nə baş verdiyini öyrənmək istəyirdilər. Bayaqdan bəri bir neçə dəfə susub yenidən çalmağa başlayan müsiqicilər susub bir kənara çəkilmişdilər. Ərkinaz anamın üzünə baxıb : Ay qız, nə baş verdi?- dedi. Aşağıda nə isə qarışıqlıq idi. Arada bir qışqırıq səsi yenidən eşidilirdi. Artıq mən orada durmayıb aşağı düşdüm. Eşitdiyim xəbərdən donub yerimdə qaldım. Gəlin özünü hamamdan asmışdı. O, oğlan evinin adamları gələn kimi hamama girib qapını arxadan bağlayıbmış . Afaqın qapını açmadığını görən anası narahat olmağa başlayır. Qadın qapını döyməyə başlayır . Nə qədər qapını döysələr də qız qapını açmır. Nəhayət məcbur olub qapını sındırmalı olurlar. Qızı içəridən ölü tapırlar. Oğlan evi çəkilib getdi. Fərruxun ailəsi də qızın cəsədini götürüb rayona getdi. Fərruxun hansı rayondan olduğunu düz əməlli bilən də yox idi. Lap elə bilən olsa da onunla getmək fikrində olan kimsə yox idi. Çünki o, bu məhlədə heç kimin toyuna, yasına ayaq basan adam deyildi. Lakin

məhləyə qəribə bir kədər çökmüşdü. Elə bil heç kim heç nə danışmaq istəmirdi. Danışıqlar, dedi- qodular başlayanda isə heç kim hansı sözün düz olduğunu bilmirdi. Çünki heç kim düzünü bilmirdi. Danışılanların hamısı fərziyə idi. Bəziləri oğlanın çox ağıllı və yaraşıqlı bir oğlan olduğunu deyirdi. Nə dərəcədə düz olduğunu bilmirəm, amma belə danışırdılar ki, Fərrux oğlanın atasını boş bir şeyə görə həbs etdirib. Yaşlı kişi çox xəstə imiş. O ,universitetin yataqxanasında gözətçi işləyirmiş. Yataqxanadakı oğlanlardan biri otağa qız gətirirmiş. Fərrux qocanı gənclərdən pul alıb onları görüşdürürmüş adı ilə həbsə atdırıb. Astma xəstəliyi olan kişinin orada vəziyyəti ağırlaşır. Məcbur olub Fərruxun yanına minnətə gəlməli olurlar. Kişinin onların görüşməsindən xəbəri olmadığını söyləsələr də Fərrux dediyin üstündə durur. O zaman kimsə bunu sona yetirmək üçün gözətçinin universitetdə oxuyan ağıllı kamallı oğluna Fərruxun qızını istəmək qərarına gəlir. Oğlan atasına görə razılaşır . Bu xəbər Fərruxu da sevindirir. Lakin Afaq razılıq vermir . Qız özündən yaşca kiçik olan oğlanın onu istəmədiyini , hətta nifrət etdiyini söyləyir. O,bu sözü oğlan telefonda dostuna söyləyərkən öz qulağı ilə eşitdiyini desə də Fərrux oğlanın atasını azad etdirib toy gününü təyin edir. Yazıq qız durmadan etiraz edir. Son anda isə intihar etməklə özünü bu rəzalətdən xilas edir.

Ayrı səbəblər də danışanlar var idi. Nə danışsalar da heç kim Afaqın adına bir pis söz işlətmədi . Çünki onun artıq - əksik bir hərəkət etdiyini görən olmamışdı. Mən elə buna inanırdım. Və Fərruxun özünə oxşamayan övladlarına təəccüb edirdim. Afaqın xarici görünüşü atasına oxşasa da daxili aləmi çox zəngin imiş. Qız sevilmədiyi bir halda atasını xilas etmək istəyən bir oğlanın qurbanına çevrilmək istəməmişdi.

Çəmi iki üç həftədən sonra Afaqın bir deyil bir neçə variantla söylənilən daşatanı bağlandı. Söz söhbət duman kimi çəkilib məhəllədən getdi. Demək olar ki, az bir zamandan

sonra belə bir qızın varlığı da yaddan çıxdı. Həyat isə öz axarında davam edirdi. Fərruxgil ər -rvad bir müddət gözə görünməsələr də yavaş - yavaş onlar da üzə çıxıb işə getməyə başladılar Sessiyanı bitirən kimi işə çıxdım. İşə daha həvəslə başladım. Müdir məni xoş sifətlə qarşılayıb yeni işlər tapşırdı. İşim daha da ağırlaşdı. Gecə gündüz çalışırdım. Ay başa çatdı , lakin yenə də maaşdan ya da işə qəbul olmaqdan bir söz yox idi. Bu dəfə özüm də məyus oldum. Düşünürdüm ki, daha gəlməyim ,özümə yeni iş axtarım. Amma bankdan ayrıla bilmirdim. Nəhayət məsələyə atam qarışdı. O, ciddi şəkildə: Daha getmə, mən sənə ayrı iş taparam,- dedi. Lakin atam mənə ayrı iş axtarmazdan əvvəl müdirimin yanına gedib, mənim sınaq müddətimi neçə keçirdiyimi soruşub. Kişi mənim tərifimi dağların başına qoyub və susub. Uzun tərəddüddən sonra : Sınaq müddətinin belə uzun çəkməyinə səbəb Ayazın həbsdə olmağıdır, - deyib. Sonda isə: Mən Ayazı əlimdən verən deyiləm, hər şey yaxşı olacaq, siz narahat olmayın ,-söyləyib.

Atam evə dönəndə çox sevinsə də qanı qara olduğu bilinirdi. Mən otaqdan çıxan kimi : Uşağın adına ləkə düşdü,- deyib qanı qaralığının səbəbini bildirdi. Anam yenə də ağlamağa başladı. Mən anamın hər dəfə ağlamağına acığım tutsa da indi onun ağlamağına haqq verirdim. Doğrudan da adıma ləkə düşmüşdü. Özlüyümdə bu ləkəni aldığım kimi təmizləyəçəyəm deyə düşünüb səhər tezdən yenə də işimə getdim. Əmrimi yeni ildə verdilər. Sevincimin həddi - hüdudu yox idi. İçimə bir rahatlıq çökmüşdü. İlk maaşımdan anamla atama hədiyyə aldım.

Səmanı çoxdan görmürdüm. Daha doğrusu görmək istəmirdim. Fərruxun qızının toyundan sonra ağlıma gələn fikir beynimdə özünə yer etmişdi. Hər nə olur olsun o, qızı yadımdan çıxarmağa çalışırdım. Süleymangili də görmürdüm. Görmək istəyirdim . Özüm özümü aldadırdım ki, bu istək sadəcə

uşaqlara görədir. Amma onlara vermək istədiyim suallar məlum idi. Fikrim yenə də qohumun yanında idi. Bütün bu istəklərim istək olaraq qalmaqda idi, çünki mənim qətiyyən vaxtım olmurdu. Gözümü yumub açanda sessiyamın vaxtı çatdı. Dərslər başlayandan bəri iki dəfə Səma ilə qarşılaşmışdım. Demək olar ki, dərsdən eyni vaxt qayıdırdıq. İkisində də qız mənə salam vermişdi. Bilmirəm mən ona cavab vermirdim ya yox , amma onu bilirəm ki, hər dəfə onu görəndə donub yerimdə qalırdım. Mən hələ ömrümdə pis günün , yetimliyin insanı belə gözəlləşdirə biləçəyini eşitməmişdim. Qız həm çox dəyişmişdi. Əvvəlki kimi ürkək, aciz görkəmdə deyildi. Üzündə sakit bir ifadə var idi. Havalar yeni - yeni isinməyə başlasa da açıq çəhrayı rəngli , son dəbli şalvar kofta geyinmişdi . Tünd çəhrayı rəngi olan ayaqqabısı ilə çantası geyiminə çox yaraşırdı. Sarışın saçları ipək kimi kürəyinə dağılmışdı. Valideyn tərəfindən əzizlənib , ərkələnmiş qız təsiri bağışlayan bu qız yetim idi. Bir çətən yetimin arasında qalmışdı. Bunu kim belə zövqlə geyindirmişdi? Bu fikirlər içərisində darıxa - darıxa qalmışdım. Gecələr yerimə qor dolurdu. Nə qədər özümü inandırmağa çalışsam da ki mən o qızla maraqlanmıram, nə geyinir geyinsin, nə edir etsin , bütün bunların mənə dəxili yoxdur, mümkün olmurdu. Şənbə günü onunla yenidən üzbəüz gəldik . Bu dəfə tam əminliklə deyə bilərdim ki, kim isə bu qıza əmməli başlı xərc çəkib bəzəyirdi. Başqa vaxt olsaydı onun bu görkəmindən xoşum gələrdi . İndi də qəhvəyi rəngli paltar geyinmişdi. Paltarın üzərindəki tünd qəhvə rəngli xətləri onun boyunu daha da uca göstərirdi. Tünd qəhvə rəngli ayaqqabıları ilə çantası paltarı çox gözəl göstərirdi. Yenə də salam verib keçdi. Bu dəfə ona cavab verdiyim yadıma gəlirdi. Həmişəki kimi yerimdə dayanıb yerişimi, axsadığımı ondan gizlətmədim. Əksinə , salam verən kimi yeriyib bloka tərəf gəldim . İçəri girəndə anamın mənə ilk sualı:Sənə nə olub?- oldu. Heç nə , - deyib anamın

yanından ötüb hamama keçdim. Hirslənmşdim , bədənim uçunurdu. Buna heç bir haqqım olmadığını yaxşı bilirdim. Əl üzümü yuyub mətbəxə keçdim , anam yemək qızdırıb məni gözləyirdi. Heç bir hissmi gizlətmədən: Ana , bu qonşuların yaman açılışıblar,- dedim. Xeyr ola , Səma gündə bir paltar geyinir. Özü də neçə paltarlar? Bunlar xəzinə tapıblar? Mənə yemək çəkməyə hazırlaşan anam əlindəki qazanı yerə qoyub üzümə baxdı. Sonra dodağının altında mızıldanırmış kimi dedi:

-Sən özündən danış görüm niyə hirslənmisən?

Sonra cavab verəcəyimə inanmadığı üçün sözə başladı:

- Şükür allaha , onların yaxşı bir qohumları gəlib uşaqlara da sahib çıxıb. O gələn gündən bəri hamı arxayın düşüb . Çox imkanlı bir qadındır. Uşaqların bütün problemlərini özü həll edir. Bazarlıq edir , yeməklərini bişirir , paltarlarını yuyur , əyin başlarını alır. Daha onlara nə lazımdır. Vallah mənim də ürəyim arxayındır.

Anama qulaq asırdım , amma ağlım bir şey kəsmirdi. Bu nə qohum idi belə . Sübhəddinin sözünü düşünürdüm . Uşaq deyirdi ki, Mina xala heç anamı tanımırmış. Nə isə, özləri bilər , - dedim. Yeməyimi yeyib otağıma keçdim. İmtahanlar başlayırdı, dərs oxumalı idim.

Yayın əvvəlində Türkiyəyə getməli idim. Axsadığım üçün üçüncü dəfə əməliyyat olunmalı idi. Amma bu əməliyyat həm bahalı , həm də ağır əməliyyat idi. Vaxt yaxınlaşdıqca atamla anam narahat olurdu. İşdə hamı mənim əməliyyata hazırlaşdığımı bildiyi üçün mənə xoş sözlər deyib dualar yağdırdı. Bütün bu xoş münasibətlər ürəyimcə olsa da , atamın sürprizi məni şoka saldı. Simestirin sonuncu günü dərsə getməyə hazırlaşanda atam pəncərəyə yaxınlaşıb məni də ora çağırdı. Gəlib atamın yanında durub onun kimi mən də aşağıya baxmağa başladım. Kişi nəyə baxır, kimi gözləyirdi bilmirdim. Amma sağa sola baxıb elə hey boylanırdım. Atam

birdənbirə üzünü mənə çevirib cibindən çıxartdığı maşın açarını mənə tərəf uzatdı. İlk əvvəl açarların öz maşını açarları olduğunu zənn edib təəccüb etdim. Onun maşınının açarları mənim nəyimə lazımdır?- deyə düşündüm . Lakin açarın prado açarı olduğunu görəndə bir an bayaqdan aşağıda dayanan ağ rəngli pradonu xatırladım. Atam :Al , sənin maşının açarlarıdır,- deyəndə qulağıma inanmadım. Çünki hər dəfə əməliyyata az qala özüm ağırda pul xərclənirdi. Bu dəfə ki əməliyyat isə çox bahalı idi. Özümdən asılı olmayaraq əlimi açarlara sarı uzatdım. Eyni zamanda da :Ata, bəs əməliyyatın pulu nə olacaq ?- dedim. Atam məni qucaqlayıb , xəfifcə kürəyimə vurdu. Açarı götürüb aşağı neçə düşdüyümü bilmirəm. Uşaqlıqdan maşın sürməyi sevirdim. Dəfələrlə təhlükə ilə üzbəüz qalıb atamgili dəli etmişdim. Amma həbsxanadan qayıdan bəri bir dəfə olsun sükan arxasına keçməmişdim. Sanki yenidən nə isə bir qəza törədəçəyimdən qorxurdum. Əməliyyatdan sonra özümə güvənə bilmirdim . Sol ayağım sözümə baxmırdı. Özümü toplayıb zorla yeriyirdim. Ağ rəngli təzə pradonu görüb hər şeyi unutdum. Anamın pəncərədən: Ayaz , qayıdanda sürərsən, düş maşından deməsinə qulaq asmayıb, maşını sürüb aradan çıxdım. Lakin çox da uzağa getmədim. Yaxın ətrafı fırlanıb geriyə döndüm. Anamgili narahat etmək istəmirdim. Maşından düşəndə çətinlik çəkdiyim vecimə də deyildi. Belə əzab çəkdiyimi Səmanın görməsinə də narahat olmadım. Məni hirsləndirən Səmanın şux geyimi idi. Qız yenə də kəklik kimi bəzənmişdi. İki hiss ürəyimə eyni zamanda doldu. Maşına görə hədsiz sevinirdim. Atama dönə - dönə təşəkkür etdim . Anamı isə qucaqlayıb öpdüm. Atam mənim ən çox sevdiyim maşını almışdı. Sevinə bilmirdim. Səmanın halı ürəyimi sıxırdı. Bu qızdan baş açа bilmirdim.

Bir - iki gündən sonra yola düşməli idik. Üzə vurmasaq da hamımız həyəcanlı idik. Düzdür bu günü gözləyirdim . Bu mənim , elə anamın da son ümid yerimiz idi. Demək bu

əməliyyatdan sonra ayağım düzəlməsə əbədi axsayacaqdım .İndiyədək əməliyyatı gözləyirdik .Bəzən ümidim qırılırdı. Nədənsə bu gecə də elə oldum. Yəni bütün ümidim yoxa çıxdı. Yata bilmirdim . Dəfələrlə düşünmüşdüm ki, əgər axsayacaq olsam bu ayaqla Səmanın qarşısına çıxmayacağam. İtmiş ümidimlə və itirdiyim qızın xəyalları ilə sabahı diri gözlü açdım. Demək olar ki bir saat da yatmamışdım. Qapının zəngi məni diksindirdi. Dönüb saata baxdım. Saat səkkiz idi. Təəccüb etdim. Bu vaxt kim ola bilərdi. Anamın qapının ağzında səsi gəlirdi. Birdən Zirəddinin də səsini eşidib yataqdan dik atıldım. Neçə gün idi ki onun xiffətini edirdim. Onsuz əməliyyata neçə gedəcəyimi bilmirdim. Zirəddin mən xəstəxanaya düşən gündən mənim dayağım olmuşdu. Yanımda ondan başqa heç kimin qalmağını istəmirdim. Gəlməyini ağlıma gətirə bilmədiyim üçün bu haqda sual vermirdim. Bir dəfə anam o barədə nə isə demək istədi, atam sözünü ağzında qoydu. Bir göz qırpımında otaqdan çıxıb Zirəddinə sarıldım. Bir azdan otağa yayılan səs - küyə atam da oyanıb gəldi . Zirəddin özü ilə rayon sovqatından başqa rayon abu havası gətirmişdi. Anam evdə olandan və Zirəddinin gətirdiklərindən ibarət gözəl bir səhər yeməyi süfrəsi açmışdı. Yedik , içdik, qohum qonşunu soruşduq. Zirəddin birdən dönüb atamın üzünə baxıb: Nə vaxt yola düşürük,- dedi .Tüklərim biz- biz durdu. Təəccüblə onun üzünə baxıb:Sən də gedəcəksən?- dedim. O, ayağa qalxıb bayaqdan bəri bir kənara qoyduğu kiçik bağlamanı əlinə alıb: Paltarlarımı da yığıb hazır gəlmişəm ,- dedi. Bu dəfə sevincini gizlədə bilməyən anam: Sən getdiyimizi nə bildin ?- deyib sual verdi. Zirəddin anama cavab verməyib bayaqdan ona minnətdarlıq hissi ilə baxan atama :Mənə də bilet ala biləcəksənmi?- dedi. Atamın da ona təəccüblə baxmağına görə anladım ki, Zirəddinin gəlişindən onun da xəbəri yox idi . Bizim getdiyimiz sən haradan öyrəndin? dedim. O, əlini yelləyib mənə cavab vermədi.

Biz yola düşəndə səhər yeni açılırdı. Saat səkkizdə hava limanında olmalı idik . Aşağıya hamıdan əvvəl mən düşmüşdüm. Sürücü artıq blokun ağzında dayanıb gözləyirdi. Düşən kimi boylanmağa başladım. Qəribədir nəyi axtarırdım? Kimi gözləyirdim? Axı səhərin bu vaxtı heç kimi görəsi deyildim. Hələ evdən kimsə çölə çıxmamalıdır. Bəlkə də hamı yatırdı. Lakin birdən təəccübdən donub yerimdə qaldım . Səmanı görürdüm , gözümə inanmasam da görürdüm. O idi. Qıpqırmızı , qolu gödək idman paltarında blokun ağzında dayanmışdı. Həmişəki kimi salamını alıb almadığımı xatırlamıram. Çünki mat-mat ona baxırdım. Hər şey bir an içində baş verdi . Atamgil düşdü, hay küylə maşına minib yola düşdük . Maşın dönənə qədər o tərəfə baxdım. Qız elə bil ki mənə görə düşmüşdü. . Maşın tini dönən kimi üzünü çevirib bloka tərəf getdi. Heç kimi görmür ,heç nə eşitmirdim. Qızın görkəmi gözümün qarşısından getmirdi. O çox gözəl görünsə də hədsiz kədərli idi. İnanmaq istəyirdim ki, Səma mənə görə çıxmışdı. Mən uzaqlaşan kimi geriyə döndü. İnana da bilmirdim. Hospitaldakı qadın yadıma düşdü. Bir vaxtlar o qadının dediyi qızın Səma olduğunu düşünsəm də, sonralar o fikri tamamı ilə başımdan silmişdim. Sevinirdim, elə bu fikrin üzərində dayanacam , deyə düşünürdüm. Çünki elə bil ki daxilimə iki qat deyil ,on qat qüvvə dolmuşu.

Əməliyyatdan sonra iki ay Türkiyədə qaldım. Xəstəxanada on beş gün qalmışdım. Zirəddin xəstəxanada olduğum müddəti mənimlə keçirib geri dönmüşdü. O , rayonda şərab zavodunda işləyirdi. İşdən icazə alıb gəlmişdi. Sonra gah atam , gah anam gəlirdi. Əməliyyat çox ağır əməliyyat olsa da , səkkiz saat çəksə də, deyilənə görə uğurlu alınmışdı. Onu deyim ki, ilk günlərim çox ağır keçdi. Vəziyyətdən çıxa bilmirdim. Ağrılarım hədsiz çox idi. Qalxanda sərbəst yeriyə biləçəyim üçün hər şeyə dözürdüm.

Bakıya yayın son ayında döndüm. Gəlib keçən yaydan xəbərim olmadığı üçün bu ayları ömrümdən saymırdım . Eşitdiyimə

görə hansısa ölkədə insanların ömrünü xoş günlərinə görə hesablayırlar. Pis günlər ömürdən deyil , deyirlər. Hətta deyilənə görə bəzi insanların baş daşlarının üzərinə Yaşamayıb, filan ildə filan ilədək dünyaya gəlib gedib yazırlar.Bir vaxtlar bunu eşidəndə təəccüb etmişdim. İndi düşündüm ki, düz yazırlar. Bu günlərdə yaşamadığım aylarla birlikdə iyirmi bir yaşım tamam olurdu. Anamgil böyük bir təntənə ilə ad günümə hazırlaşırdılar. Çünki məni əl ayağı üstümdə yeni anadan olmuş sayırdılar. Axsamırdım, amma özümə yeni - yeni gəlirdim. Yeriməyimdən hələ həzz ala bilmirdim. Axsamasam da çətinlik çəkirdim.

Ad günüm yaxınlaşana qədər yerişim tam düzəldi. Ağrılarım da azalmışdı. Maşınımı tam sərbəst sürə bilirdim. Bankda qapıdan içəri girən kimi məni alqışlarla qarşılayıb, axşamadan yeriməyimi təntənə ilə qeyd etdilər. Düzü bunu gözləmirdim, çox həyəcanlandım. Sanki axsaq olduğum üçün indi daha çox utanırdım. Anam iş yoldaşlarını da ad gününə dəvət et deyirdi. lakin mən bunu istəmirdim, bu an ürəyimdən hamını dəvət etmək keçdi. Sənin xəstəxanandan gəlişini qeyd etməliyik deyənlərə cavab tapdım. İki gündən sonra sizləri hamılıqla ad günümə dəvət edirəm ,- dedim. Ad günüm çox təntənəli keçdi. Anam demiş ,əməlli başlı toy idi . Tək gəlini çatmırdı. İşçilərimiz yorulana qədər oynadılar. Hətta mən özüm də oynadım.

Ad günümün ertəsi gün yatıb qalmışdım. Az qala işə gecikirdim. Tələsik maşınıma minib getmək istəyirdim ki, Səmanı gördüm . O, da gecikirdi. Qaça-qaça gedib avtobusa mindi. Bilmirəm nədənsə mənə çox qəmgin və kefsiz göründü. Mən onu çox az və uzaqdan gördüyüm üçün özümü inandırmağa çalışırdım ki, düz görməmişəm .Lakin qız gözümün önündən çəkilmirdi. Məni bir şey düşündürürdü. Niyə mən Səmanı şux geyimdə , şən görəndə də məyus olmuşdum. Bu gün də narahat idim. İşdən gec çıxırdım. Nə qədər cəhd etsəm də Səmanı görə bilmirdim. Onların blokunun qa-

bağında tez - tez dayanan maşın məni nədənsə narahat edirdi. Mən bu maşının sahibini tanımırdım. O blokda belə maşını olan kimsə yox idi. İstirahət günü həyətə düşüb onun kim olduğunu öyrənmək istədim. Demək olar ki, axşam tərəfinə qədər gözlədim. Nəhayət həmin maşın gəlib onların blokunun qabağında saxladı . Maşından uça boylu, yaraşıqlı , xarici aktyora oxşayan otuz yaşını keçmiş olan bir oğlanla orta yaşlı, yaraşıqlı bir qadın düşdü. Qadını tanıyanda ürəyim titrəməyə başladı. O, Səmagilin qohumu, Sübhədinin Mina adlandırdığı qadın idi. Deməli bu oğlan Səmagilə gəlirdi. Az qala gecə yarısınadək gözlədim. O,gedəndə saat on bir olardı. Qadın yanında yox idi. Hirsimdən əsirdim. Özümə yer tapa bilmirdim. Evə gələndə anam deyinməyə başladı . Bu vaxta qədər haradasan ?- dedi . Bu gün yemək də yeməmisən. Nəinki yemək, heç su da içməyə halım yox idi. Boğazım tıxanmışdı. Nə edəçəyimi düşünürdüm. Axı mən Səmaya necə deyə bilərdim ki , qohumunuz sizə gəlməsin. Demək olar ki, səhəri diri gözlü açdım. Ertəsi gün işdən gələn kimi yeməyimi yeyib aşağı düşdüm. Adını bilmədiyim həmin oğlan artıq gəlmişdi. Maşın həmin yerdə dayanmışdı. Uşaqlar gözə dəymirdi. Elə bil evə yapışmışdılar. Heç olmasa onlardan nə isə bir şey öyrənə bilərdim.

Günlər ötürdü. Yəni ürəyim partlasa da heç nə edə bilmirdim. O oğlan bəzənib düzənib hər gün gəlirdi. Lakin nədənsə Səma daha çox görünməyə başlamışdı. Hər nə olur olsun qızın qanı qara olduğunu hiss edirdim. Qız arıqlayıb , sap sarı olmuşdu. Onun gözünün altında qara kölgələr əmələ gəlmişdi. Demək olar ki, günlərlə eyni paltarda olurdu. Bilmirəm nədənsə mənə elə gəlirdi ki, o mənə nə isə demək istəyir. Bəzən mənə elə gəlirdi ki bunu mən özümdən uydurram . Bəzən isə bu hiss mənə hakim kəsilirdi. Anama Səmagildən sual verəndə: Şükür, lap yaxşıdırlar-, deyirdi. Uşaqların xalası gəlib oturub. Hər işlərinə yarıyır. Daha bizə nə lazım-

dır? Anamın sözü məni azacıq sakitləşdirsə də, ürəyim narahat idi.

Bir axşam evə dönəndə Süleymanla Sübhəddini gördüm . Uşaqlar da solğun görünürdülər. Özümü onların üstünə atdım. Bir kənara çəkib danışdırmağa çalışdım. Onlar qəribə görkəm almışdı. Bir vaxtlar görkəmlərindən yazıqlıq damırdı. İndi isə sanki hər ikisində qorxaqlıq yaranmışdı. Səksəkə içində ətrafa boylanıb getməyə can atırdılar. Nə qədər cəhd etsəm də onları söhbətə cəlb edə bilmədim. İdmana niyə gəlmədiklərini soruşdum. Süleyman dərs oxuduqlarını desə də , Sübhəddin: Fərid icazə vermir,- dedi. Mən hirsimi zorla boğub :Fərid kimdir? - dedim. Sübhəddin suala cavab verməsə də : Fərid deyir ki başqasının pulu ilə idmana getmək lazım deyil ,- dedi. Söz başıma çatana qədər uşaqlar getdilər.

Heç nə edə bilmirdim. Hər gün Səma ilə danışmaq haqqında düşünürdüm. Amma onun mənim üzümdən həbsə düşdüyünü xatırlayıb susurdum. O hadisə baş verməsəydi mən çoxdan yaxınlaşıb hər şeyi öyrənərdim. Onu dəli kimi sevdiyimi , qısqandığımı söyləyərdim. lakin qızı görən kimi dilim tutulurdu. Gözümün önünə Səmanın müttəhimlər kürsüsündəki o bədbəxt görkəmi gəlirdi. Onun məni bağışlamağına inana bilmirdim. Gecə gündüz allaha yalvarıb, hospitalda mənim başımın üstündə ağlayan qızın Səma olmağını arzulayırdım,amma buna inana bilmirdim.

Narahatçılıq içərisində üzüldüyüm bir vaxtda qəribə bir xəbər eşitdim. Daha doğrusu mənə qəribə gələn xəbər. Belə ki, Səmagilin obyektini Fərid özü işlədirdi. Oradakı kirayəşini çıxartmışdı. Hərlənib fırlanıb oraya getdim. Əvvəlki obyektdən əsər əlamət yox idi. Qonşular fikirləşib qoyduğu adı dəyişmşdilər. Üzərində "Sübh" yazılan trafarenti çıxardıb daha böyük və işıqlarla bəzədilmiş Fərid sözünü yazmışdılar. Bura Kafe, ya da ki bar idi. Təəccüblü orası idi ki, həyəti xeyli böyütmüşdülər. Çoxda böyük olmayan tikilinin qarşısındakı

dəmir toru xeyli irəli çəkib, həyətə taxta arakəsmələr qoyub, stol stul düzmüşdülər. Buralara əməlli başlı əl gəzdirib təmir etmişdilər. Dəmir tordan tutmuş taxta arakəsmələr, stol stula qədər, hər şeyi yaşıl rəngli boya ilə boyamışdılar. Çox sıx düzülmüş bütün masalar adamla dolu idi. Necə deyərlər , iynə atsan yerə düşməzdi.

Evə fikirli qayıtdım. Hər yeri təmir edib, ərazini böyüdüblər , lap yaxşı, bəs adını niyə dəyişiblər. Bu obyekt Sübhəddinin adını daşıyırdı. Fərid kimdir ki öz adını ora yapışdırıb, deyə düşünürdüm. Atam axşam evə gələndə gördüklərimi ona danışdım. Bu dəfə atamın əvəzinə anam cavab verib dedi ki, bizə heç bir dəxili yoxdur. Uşaqların xalası gəlib oturub orada , hər şeyi də özü həll edir. Mina Ərkinaza deyib ki, uşaqlar böyüyür, pul çatdırmaq olmur. Ona görə oğlum obyekti özü işlədir . Yetimləri böyütmək lazımdır. Axır vaxtlar qonşular oradan ayağını çəkiblər. Deyirlər , Mina çox ünsiyyət sevən adam deyil. Qonum qonşunun üzünə baxıb içəri buraxmaq istəmir.

Atam anamı sakit dinləyib :Allah işini avand etsin, nə deyirik?- dedi. Kor nə istər? Iki göz biri əyri , biri düz. Təki uşaqlara yardımçı olsunlar. Bizə daha nə lazımdır?

Doğrudan bu sözlər mənə də aid idi. Yəni ki, o ailə üçün mən heç kim idim. Başımı hər yerə soxmağım düzgün deyildi. Özümü bir təhər sakitləşdirib ,öz işlərimlə məşğul olmağa çalışdım.

Dərslərim başlamışdı. Atam - anam xoşbəxt idi. Tam sağlamlığıma qovuşmuşdum. İdmana getməyə başlamışdım. Anamgil maşın sürməyə başladığım ilk günlər narahat olurdular. Həm maşını sürətlə sürməyi sevdiyim üçün , həm də əməliyyatdan yeni çıxdığım üçün. Sonralar narahatçılığa heç bir səbəb olmağını görüb sakitləşdilər. Mənim işlərim , dərsim, hər şey öz yolunda gedirdi. Demək olar ki, Səmanı çox nadir hallarda görürdüm. Səhər - səhər işə getməmişdən əvvəl onu

gözləyirdim. Çünki mən işdən gec dönürdüm. O zaman da Səma gözə dəymirdi. Səhər də Səmanı görmək üçün gözləyəndə işə gecikməli olurdum,amma yenə də hərdən dayanıb onu gözləyirdim. Çox hədsiz dərəcədə kefsiz olurdu. Elə bil bir az bundan əvvəl gördüyüm o çiçəklənən qız deyildi. O vaxtlar da onun pardaqlanmağına , gözəlləşməyinə təəccüb edib narahat olurdum. İndi isə onun saralıb solmağına təəccüb etmirdim ,amma yenə də narahat olurdum. Günlər beləcə narahatlıq içində ötüb gedirdi.

Bir gün işdən evə dönəndə həyətimizdə təcili yardım və polis maşınlarının yanıb sönən işıqlarını və adamların toplandığını görüb təəccübləndim. Maşını blokumuzun qarşısında saxlayıb, topluma sarı getdim. Nə isə Fəridin kafesində baş vermişdi. Adamları yarıb irəli getmək istədim, amma mümkün olmadı. Nə baş verdiyini bilən yox idi. İçəridən dəhşətli qışqırıq , söyüş səsləri gəlirdi. Nəhayət bir neçə oğlan xərəkdə qana bələnmiş bir oğlanı gətirib təcili yardım maşınına mindirdilər. Bundan sonra bir neçə oğlan da gətirdilər . Həmin oğlanlar da yaralı idilər. Başqa oğlanları da polislər apardı. Onların da bəzilərinin əli - üzü qanlı idi. Maşınlar çəkilib gedəndən sonra adamlar yavaş - yavaş dağılmağa başladı. Burada nə hadisə baş verdiyini öyrənmək istəyirdim. Əslində heç kim nə baş verdiyini bilməsə də bu kafenin tərbiyəsizlik yuvası olduğunu söyləyirdilər. Qoça bir kişi deyinib deyirdi:

- Bu kafe açılan gündən Bakıda bir avara qalmayıb ki, bura gəlməsin. Bura qumarxanadır. Burada uyuşdurucu maddələr satılır.

Kişinin səsinə başqaları da qoşuldu. Hətta balkonlardan baxan qadınlar da deyinirdi. Bağlansın bu tərbiyyəsizxana , - deyib qışqırırdılar.

Mən evə lap gec qalxdım. Amma atamgildə hadisədən xəbərdar idilər. Hətta anam deyirdi ki Fəridi də həbs ediblər. Mən onu orada görməmişdim. Anam bu məlumatı haradan al-

mışdı bilmirəm. Yeməyimi iştahasız yedim. Ürəyim bulanırdı. Mənə elə gəlirdi ki Səma da bu çirkaba batır. Əlimdən heç nə gəlmirdi. Bu ana bala Səmagilin evinə gələn gündən ürəyimi narahatlıq didib ,parçalayırdı. Bunlar mənə çox müəmmalı görünürdü. Bu qadının öz evi yox idimi ki, gəlib bir dəfəlik burada qalırdı? Fərid də burada gecələməsə də gün ərzində iki üç dəfə gəlib saatlarla otururdu. O hadisədən sonra şayiələr məhəlləni başına götürmüşdü. Hərə bir söz danışırdı. Fəridin məşhur qumarbaz olduğunu , qız alveri etdiyini , uyuşdurucu satdığını və daha nələrsə danışırdılar. Bu söhbətlər nə atamı , nə də anamı narahat etmirdi. Sadəcə eşitdikləri bir söhbət kimi danışırdılar. Hal hazırda anamgili Fidanın imtahanından başqa heç nə maraqlandırmırdı. Qız da gecə gündüz oxuyub imtahanlara hazırlaşırdı. Fidan demək olar ki, öz ailəmizə aid olan söz söhbətə qarışan deyildi. Amma bu axşam o da Səmagildən bir xəbər gətirdi. Onun deməyinə görə məktəbdə Səmagilinən üzbəüz yaşayan qonşu qız Səmanın kiçik bacısından ürək yanğısı ilə danışırmış. Fidan söhbətin təsadüfən şahidi olub. Səlimə adlı qız Arzunun günbəgün zəiflədiyini , hər gün ağlamaqdan şişmiş gözlərini gördüyünü deyirmiş. Hətta uşağa yazığı gəldiyini söyləyəndə kövrəlibmiş. Hər halda bu sözlər atamla anamı narahat etməyə başladı. Lakin bütün bu söz söhbətlər atamgili narahat etməyə başlayandan çəmi üç - dörd gündən sonra Fəridi azadlığa buraxdılar. O , gəlib yenidən kafeni açıb işləməyə başladı. Doğrudan da deyilənlər doğru imiş . Kafe açılan kimi məhəlləni səs- küy başına götürməyə başlamışdı. Sərxoş kişilər kafenin həyətinə toplaşıb söyüş söyür, hündürdən danışır, vəhşi bir səslə gülürdülər. Qəribə idi ki, şikayətə zada baxan yox idi. Anam deyinib deyirdi ki, Fərrux işləsə idi hamı bu özbaşınalığı ondan görərdi. Nə oldu , bu təzə gələndə onun tayıdır ki, elə bil anam mənim düşündüklərimi deyirdi. Mən də onu düşünürdüm ki bütün bu qanun pozğuntularını hamı Fərruxdan

görərdi. Halbuki o artıq altı aya yaxın idi ki, işdən çıxmışdı. Daha doğrusu, o işləyə biləcək halda deyildi. Qızının ölümündən sonra hədsiz dərəcədə kökəlmişdi. Yüksək şəkəri olduğu üçün gözləri tutulmuşdu. Gözlərində qara bir eynək evin qarşısındakı skamyada otururdu. Onsuz da ona heç kimin salam vermək fikri yox idi. Gözü görmədiyi üçün isə hamı onun yanından səsini çıxartmadan ötüb gedirdi.

Fəridin darğalığı uzun çəkməsə də altı yeddi ay bildiyini etdi. Artıq bir həftə olardı ki kafe bağlanmışdı. Səs- küy kəsilib məhəlləyə sakitlik çökmüşdü. Deyilənə görə yenə də bıçaqlanma hadisəsi olmuşdu. Kafe bağlanan gündən Fərid, demək olar ki, gecə gündüz Səmagildə olurdu. Maşın qapının ağzında dururdu. Bağrım partlayırdı , özümə yer tapa bilmirdim. Nə edəçəyimi düşünür, lakin bir yol tapa bilmirdim .İşdə də fikirli olduğum üçün işimi zorla görürdüm. İşim daha da çətinləşmişdi. Artıq baş mütəxəssis idim. Bu gün işim çox olduğu üçün işdən sonra qalıb işlərimi işləyib evə çox gec döndüm. Ürəyim sıxılırdı. Elə bil ki məni nə isə bir xəbər gözləyirdi. Dalanımıza burulanda Sübhəddini gördüm. Onu görən kimi maşını saxlamaq istəyirdim ki, o özü maşına əl edib saxla işarəsi verdi. Maşını bir kənara verib saxladım. Uşağı az qala zorla tanıdım. Arıqlayıb daha da cılız olmuşdu. Saralmış sifətindən kədər yağırdı .Əvvəl maşından düşmək istədim. Lakin Sübhəddin özünü maşının içinə elə atdı ki, sanki harasa qaçıb gizlənmək istəyirdi. Mən sakit dayanıb təəccüblə ona baxırdım. Araya uzun bir sükut çökdü. Uşağın üzündəki təlaş onu danışmağa qoymurdu. Ağzını açmaq istəyir, lakin dərhal da nəfəsi tıxanırdı. Nəhayət sükutu mən pozub dedim:

- Nə olub, niyə belə narahatsan?

O yenə də mızıldanıb özünü əla aldı və dedi:

- Mina xala ilə Fərid bizi uşaq evinə vermək istəyir.

Mən bu günü gözləyirdim. Onun üzünə baxıb dedim:

- Bəs Səma nə deyir?

- Bu sualdan sonra Sübhəddinin dili açıldı. Nəfəsi təngiyə- təngiyə dedi:

- Bacım gecə gündüz ağlayır. O, bizi vermək istəmir. Arzu uşaq evinə getməkdən çox qorxur. Mina xala deyir ki, qonşulara zada şikayət etməyin . Onlar kimdir ? Sizin ixtiyarınız bizdədir. Mən sizin yeganə qohumunuzam. Onlar bir tək Səmanın yanında sakit dururlar. Onu da mən yaxşı bilirəm, ondan lap zəhlələri gedir, yalandan özlərini elə aparırlar.

Bütün ehtimallarım doğru çıxırdı. Mən onlara heç vaxt inanmamışdım. Sübhəddin danışdıqca tüklərim biz - biz dururdu. Bir tək Səmadan Fəridin zəhləsi getməyinə inana bilmədiyim üçün soruşdum:

- Nə bilirsən ki, Səmadan zəhlələri gedir?

O , dedi:

- Ona nifrət edirlər. İkisi olanda Fərid ona ifritə deyir.

Təəccüblə dedim:

- Niyə?

- Bilmirəm? Fərid deyir ki, obyekti mənim adıma keçirmək lazımdır. Bacım isə razılıq vermir. Onun sözünə görə öz adına olmadığına görə çox çətinlik çəkir. Mina xala da deyir o qızı ələ al. Bizə bir o lazımdır. Bu balacaları buradan rədd edəçəm .Səma onlara deyir ki, gedin biz özümüz dolanarıq . Gündə bir dəfə acıq edib qışqır bağır salıb gedəcəyini ,bizi başlı başına yiyəsiz qoyacağını söyləyir. Amma getmir.

Mən yenə soruşdum:

- Bu sözləri sizin yanınızda danışırlar?

-Oğlan təəccüblə üzümə baxıb dedi: Hansı sözləri?

Mən dedim:

- Yəni deyirsən Mina xala Fəridə deyir sən Səmanı ələ al, qalan uşaqları mən buradan rədd edəçəm.

Sübhəddin dedi:

- Yox, bu sözləri ikisi olanda danışırlar. Elə bilirdilər ki, mən yatıram.

Yazıq uşaq susmaq bilmirdi. Mənim üzümə ümidlə baxıb dalbadal sual verirdi. Onu tam dinləyəndən sonra indiyədək ürəyimə dolan şübhələrin düzgün olduğuna əmin oldum. Amma nə edəçəyimi düşünürdüm. Atam qətiyyətlə bizim işimiz deyil,- deyirdi. Yəni ki, uşaqlar hallarından razı görsənirlər, və heç kimə heç nə demirlər. Bunu fikirləşib Sübhədinə sual verdim:

- Sənin sözlərini Səma təsdiq edəçəkmi?

O, cavab verməyib çiynin çəkdi. Elə bil bu sualı gözləyirmiş kimi maşından düşüb , qapını ehmalca çırpıb getdi. Mən bu balaca oğlanın arxasınca baxa - baxa qalmışdım. Gedəndə küskün bir görkəmlə getdi. Düşünürdüm , yəqin ki ona inanmadığımı zənn edib küsüb getmişdi. Uzaqlaşana qədər arxasınca baxdım. Hədsiz məyus idi. Sanki qol qanadı qırılmışdı. Demək olar ki ,iti addımla sürünürdü. Mən belə şeyi birinci dəfə idi müşahidə edirdim. Onun məyusluğu mənə keçdi. Maşınımı sürüb oradan uzaqlaşa bilmirdim, fikir məni götürmüşdü.

Evə gələndə anam deyinməyə başlayıb , səhərdən süfrəyə oturmayıb səni gözləyirik ,- dedi. Harada qalmısan? Təzə yarpaqdan bişən dolmanı çox sevsəm də yemək boğazımdan keçmirdi. Anam təzə tər yaz qoxulu göyərtiləri qabağıma qoyub:Niyə belə iştahasız yeyirsən?- dedi. Sübhədinin Mina xala deyir qızı ələ al sözü qulağımda səslənirdi. Səmanı qısqanırdım. Bu hiss məni didib parçalayırdı. Eyni zamanda uşaqlara yazığım gəlirdi. Bu barədə atamgilə demək fikrim yox idim . Çünki atam qətiyyən bu barədə eşitmək istəmirdi. Özləri bilər ,- deyirdi. Biz o uşaqlara bacardığımız köməyi etdik.Onları öz qohumlarından çox sevə bilmərik. Lakin mən sakit duran deyildim. Fəridin dərisini boğazından çıxarmaq haqqında düşünürdüm. Buna görə Səmanı görməli idim. Gecəni çox pis yatdım. Səhər yemək yeməyə iştaham olmadığı üçün bir stəkan çay içib işə getdim. Nahara da çıxmayıb bütün işlərimi

yekunlaşdırdım. Müdirdən icazə alıb evə tez döndüm. Evə qalxmamış Səmagilin blokunun qarşısına getdim. Bir az kənarda dayanıb nə edəçəyimi düşünürdüm , elə bu vaxt Fərid gəlib maşından düşdü. Maşından düşüb pilləkənləri qaça -qaça yuxarı qaldı . Mən əlimdəki siqareti yerə atıb onun arxasınca yuxarı qalxdım. Lakin səsdən anladım ki, o qapını döyür , amma açmırlar. Çünki Fəridin qısıq səsi gəlirdi. O: Süleyman, aç qapını, bilirəm ki evdəsiniz ,- deyib tez - tez təkrar edirdi. Mən yuxarı qalxmayıb bir mərtəbə aşağıda dayandım. Fərid az qala iyirmi dəqiqə qapını çaldı. O , dodağının altından nə isə mızıldaya- mızıldaya liftə mindi. Mən o düşüb gedəndən sonra aşağı düşdüm . Səmagilin evdə olmadığına inanmırdım. Onların belə ailəliklə getmək yeri olmadığını bilirdim .Amma hər halda durub gözlədim, nə gələn var idi, nə də ki, evdən bayıra çıxan . Nəhayət şər qarışanda evə tərəf gələndə Səmagilin obyektinin təzə çəkilmiş hasarının yerlə yeksan edildiyini gördüm. Təəccüblənib mən də ora getdim. Burada nə baş verib?- deyə sual verdim Hərə bir söz söyləsə də məlum oldu ki, hasara alınmış bu ərazinin heç bir sənədi yoxdur. Belə çıxırdı ki, Fərid obyektin dörd yanındakı sahəni qeyri qanuni hasara alıbmış. Məsələdən xəbərdar olandan sonra evə qalxdım. Yeməyimi yeni yeyib qanaq otağına keçmişdim ki, Ərkinaz xala hay küylə içəri girdi. Bu qadını nə atam , nə də ki mən xoşlamırdıq. Lakin onu da deyim ki, Ərkinaz xala əslində hamının harayına çatan biri idi. Bu qadın elə bil ki, özünü başqasına həsr etmək üçün yaranmışdı. Atam qaşqabağını töksə də Ərkinaz xalanı dinləməli oldu. O elə bir başa atama müraciyət edib dedi:

- Vaqif , gördün yetimlərin başına gələni?

Atam eynəyini çıxardıb onun üzünə baxıb dedi:

- Nə olub?

Ərkinaz xala başladı nə başladı:

- Ay qardaş, bu Turabgilin evinə gəlib girənlərin o ailə ilə heç bir qohumluq əlaqəsi yox imiş. Bu ana bala məşhur fırıldaqçı imiş.

Anam dözməyib sual verdi:

-Necə yəni qohum deyilmiş, o qadın uşaqların xalası deyil?

Ərkinaz xala yerini rahatlayıb başdan başladı:

- Yox ay qız, bir qulaq asın də. Zivərin üç yaşı olanda atası rayonların birinə baş arxitektor vəzifəsinə gedir. Elə həmin rayonda da ailəliklə məhv olurlar. Belə ki, gedəndən dörd beş ay sonra kişi , yəni Zivərin atası, Mədəd müəllim, bağça müəlliminə aşıq olur, yəni ki, bu Minanın anası Ofeliyaya . Mina da elə Zivərlə yaşıd imiş. Mədədlə Ofeliyanın eşq maçərası dillərə dastan olur. Zivərin anası bu hadisədən xəbər tutanda intihar edib özünü asır. Xəbər Ofeliyanın da ailəsinə də çatır. Onlar da Ofeliyanın uşağı əlindən alıb evdən qovurlar. Azadlığa çıxan aşiq ilə məşuq ailə qurur. Lakin qan üstə qurulmuş bu ailənin ömrü çox qısa olur. Mədəd avtomobil qəzasında həyatını itirir. Ofeliya da Zivəri uşaq evinə verir. Əri başqası ilə ailə qurandan sonra öz qızı Minanı alıb gətirir . Zivərgilin top dağıtmaz evində öz qızı Minanı böyüdür. Zivər isə uşaq evində böyüyür. Sonra da Turabla ailə qurur. Bir sözlə , bunların heç bir qohumluq əlaqəsi yox imiş. Heç Zivərlə Mina bir - birini üzünü də görməyib. Sadəcə Minanın əyyaş , qumarbaz oğlu borca düşəndən sonra Zivərini atası evini satıb, məskənləşmək üçün yeni yer tapıblar.

Atamla anam mat qalmışdı. Ən çox da atamın təəccübdən sözü bitmişdir. O, başını bulaya - bulaya qalmışdı. Ərkinaz xala əsl mətləbə keçəndə hamımız mat qaldıq. Onun sözündən məlum oldu ki, bu ana balanın əsas məqsədi obyekti ələ keçirib, uşaqlarının üçünü də uşaq evinə verməkdir. Ən pisi də odur ki, iki dəfə evlənib boşanmış və hazırda bir

qadınla yaşayan Fərid Səma ilə ailə qurmaq fikrinə düşüb. Elə bil ki, başımdan bir vedrə su tökdülər. Sübhəddinin sözü qulağımda səsləndi: "Sən qızı ələ al" Fəridin ailə qurmaq niyyəti də təmiz deyildi. Atamın üzündə yaranan ifadədən bilinirdi ki, hirslənib . Mən sevinirdim. Ərkinaz xaladan xoşum gəlməsə də ondan çox razı qalmışdım. Ona minnətdar idim. Bu gündən əgər Ərkinaz xalanın dediyi sözlər öz təsdiqini tapsa atam nə olur olsun o ana balanı evdən rədd edəçəkdi. Obyektlə bağlı məsələləri mən həll edə bilməzdim. Atam bu məsələyə çox ciddi yanaşırdı. Sadəcə o doğma xalaya inanıb etibar etmişdi. Ərkinaz xala sözünü bitirən kimi atam ona sual verdi:

-Sənin bu söylədiklərin düzdürmü? Doğrudanmı Mina Zivərin bacısı deyil?

Ərkinaz xala dedi:

_ Vaqif, allaha and olsun, bütün bunları mənə onların ailəsini yaxından tanıyan bir nəfər danışıb.

Atam ayağa durub: And içməyə eytiyac yoxdur,- dedi. Mən hər şeyi özüm öyrənəcəm .Ərkinaz xala getdi. Atamla anam uzun müddət bu barədə danışdılar. Mən onları dinləmirdim , içimə rahatlıq çökmüşdü, artıq rahat idim. Tək işim Fəridlə idi. Onun cəzasını mən verəçəkdim. Məni heç kim saxlaya bilməzdi. Səhərin açılmağını gözləyirdim.

Ertəsi gün ilk görüşüm Səma ilə oldu. Düzdür, Səmadan ayrılıb evə dönəndən sonra çox düşündüm . Sualı düzgün qoymamışdım. Amma hər halda düzgün cavabı almışdım. Mən dayanacaqda maşını saxlayıb gözləyirdim. Səma avtobusdan düşən kimi ona tərəf gedib onu səslədim. Qız dayanıb arxaya döndü. Məni görən kimi qıpqırmızı qızardı. Sonra özünü ələ alıb : Salam , - dedi. Qızın düz gözünün içinə baxıb dedim: Mən hospitalda yatanda oraya gələn sən idin? Səma əvvəl hədsiz dərəcədə narahat oldu. Lakin çox da düşünmədən: Yox ,- dedi. Mən bu cavabı qətiyyən gözləmirdim.

Mütləq hə cavabı alacağıma inanırdım. Və bu cavabdan sonra nələr edəçəyimi düşünmüşdüm. Elə bildim ki, üzümə sillə dəydi. Əslində bu cavabı sillə ilə deyil , güllə ilə bomba ilə müqayisə etmək olardı. Nə ilə müqayisə etsəm də özümü toplayıb dedim:

- Sən Fəridin sizə gəlməyini isməyirsən?

Qız üzümə baxıb suala sualla cavab verdi:

- Nədir ki?

Haradansa ağlıma gələn ilk sözü dedim:

- Qonşular şikayət edir. Deyirlər o qapınızı az qalır ki sındırsın . Siz isə qapını açmırsınız.

Səma əvvəl susub sonra dedi:

- Mən onun gəlməyini istəmirəm.

Mən dedim:

- Bəs xalan haradadır?
- O, mənim xalam deyil .

Axırıncı sözü deyən Səma üzünü çevirib getdi. Bir an ayaq saxlayıb arxaya döndü və dedi:

- Onların heç birinin gəlməyini istəmirəm.

Maşına oturub düşünürdüm. Bilmirdim sevinəm , yoxsa kədərlənəm. Nədənsə mənə elə gəldi ki, Səma yalan danışırdı. Axı verdiyim suala heç təəccüb etmədi. Sanki hospitalda olanları gün kimi bilirdi. Amma hər halda yox dedi. Bir -iki gün yox sözünün təsiri altında qaldım. Atamgil əmməli başlı fəaliyyətə başlamışdı. Düzdür, kafe onsuz da bağlanmışdı. Hasarını dağıdıb həyətdəki masaları bir birinin üstünə yığmışdılar. Həmin hasarlanan torpaq sahəsinin heç bir sənədi olmadığı bir yana qalsın, Fərid obyekti öz adına çevirmək üçün xeyli iş görüb, saxta sənədlər hazırlayıbmış. Atam həmin qonşuların iştirakı ilə hər şeyi yenidən bərpa edib , sənədləri qaydaya saldı. Ərkinaz xaladan ismarınc etdi ki, öz xoşları ilə uşaqlardan əl çəkib rədd olsunlar. Mən bu işə də qatışsam pis olacaq . Atamın dediyinə görə Fərid ilk günlər qonşuları hədə-

ləyib , kimlərin isə adını çəkirmiş. Qonşuların bu işlərə qarışmağa heç bir hüququ olmadığı deyirmiş və Səmagilin qapısını döyüb içəri girməyə cəhd edirmiş. Əsl qiyamət Mina dönəndə başladı. O, qonşulara hücum çəkib: Hansı hüquqla bizim ailə məsələmizə qarışırsınız?- dedi. Bir sözlə, anam demiş , donuzu darıdan zopa ilə çıxartdıq. Ən çətini də mənim üstümə düşdü. Fəridi yaxşıca çırpmalı oldum. İşdən yeni dönüb maşını həyətdə saxlamışdım ki, Fəridin maşını Səmagilin blokunun qarşısında saxladığını gördüm. Sürətlə gəlib maşını at kimi şaha qaldırmasaydı mən onu gorməyəcəkdim. Maşının səsinə ayağımı saxlayıb geri döndüm. Fərid maşından düşüb dəli kimi bloka girdi. Mən bloka girəndə o , liftlə yuxarı qalxdı. Pilləkənləri iki qalxıb onunla bərabər qapının ağzına çatdım. O , mənə əhəmiyyət vermədən qapını döyürdü. Ona çatıb : Kimi istəyirsən ? - dedim . Dodağının altından pis bir söyüş söyüb qapını döyməyinə davam etdi. Əlimi atıb boğazından yapışdım .Onun nə isə bir qüvvəsi olduğunu zənn edirdim. Hər halda mən uzun zaman xəstəxanada olmuşdum. Halbuki, Fəridi yun çırpan kimi çırpdım. Bayaqdan qapını açmayan Səmagil dayanıb bizə baxırdılar. Fərid mənə söyüş söyür və hədələyirdi. Kimsən sən?–deyirdi. Sürüyüb onu yerdən qaldırdım, sinəsindən tutub divara söykədim Bəs sən kimsən,əclaf?- dedim. Bir də ayağın buralar dəyməsin.O, əlimdən çıxıb liftlə deyil pilləkənlərlə qaça-qaça düşüb getdi. Düşə - düşə söyüş söyürdü. Səmanın qapının qarşısında olduğunu bilirdim , lakin o tərəfə baxmadan düşüb getdim. Evdə heç kimə bu barədə heç nə danışmadım .Ertəsi gün məlumat anamgilə çatmışdı. Anam ağlayıb özünü öldürürdü. Yenə də dava edirsən? Səni biz nə çətinliklə həyata qaytardıq. Az qala şikəst olmuşdun,- deyirdi. Anama cavab vermədim, çünki həmişəki halıma qayıtdığım üçün sevinirdim. Yenə də qolumda həmin gücü, bədənimdə həmin çevikliyi, canımda həmin təpər his etmişdim. Bu o demək deyildi ki yenə uşaqlığımdakı

kimi dava etmək fikrində idim, sadəcə hərdən bir özümü zəif hiss edəndə məyus olurdum.

Atam məni çağırıb:Sən bu işə qarışma , - dedi. Mən özüm hər şeyi həll edəçəm

Doğrudan da hər şeyi özü həll etdi , obyekti əvvəlki halına salıb kirayə verdi. Minagili birdəfəlik evdən çıxartdı. Bir daha oralara hərlənməmək üçün dillərindən kağız aldı. Araya tam sakitlik çökdü. Bir neçə gün sonra Süleymanı gördüm. Böyük kişi kimi mənə və atama təşəkkür edirdi. Amma bizimlə bərabər Fəridə də dua edirdi. Çox təəccüblə :Fəridə niyə dua edirsən ?-dedim. O, uzun bir sükutdan sonra dedi:

- Ayaz, biz Minanı çox sevmişdik. Ona hamımız inanırdıq .Əgər Fərid sərxoş olub o sözləri deməsəydi onların əsl üzlərini bilməyəçəkdik. Fəridə çox güvənirdim. Atamı anamı itirəndən sonra qohumlarımın varlığı məni sevindirirdi. Axır vaxtlar Fərid çox sərxoş olurdu. Gələn kimi Mina xalaya bu yetimləri buradan rədd et deməyə başlamışdı . İlk günlər bu sözləri adi sərxoş adamın sözləri kimi qəbul edirdik. Sonra Səma narahat olmağa başladı. O, Fəriddən qorxurdu. Bütün gecəni ağlayırdı.

Süleyman çox sözlər danışdı. Dəhşətə gəlmişdim. Ürəyimdə Ərkinaz xalaya minnətdarlıq edirdim. Yaxşı ki, heç vaxt gözünü uşaqlardan ayırmamışdı. Süleymandan ayrılanda nə lazım olsa mənə de,- dedim.

Evimizdə toy bayram idi. Fidan və Ramiz əmimin qızı Günəş ali məktəbə qəbul olmuşdu. Hamımız sevinirdik . Mən Fidanı hədsiz sevdiyim üçün hamıdan çox sevinirdim. Günəş daha yüksək bal toplamışdı. Qızlar qəbul olmuşdu , amma hələlik kimin haraya düşməyi məlum deyildi. Onun cavabı on gündən sonra çıxmalı idi. Atamın on gün gözləməyə hövsələsi çatmadığı üçün anamı da götürüb sevincini bölmək üçün rayona , Ramiz əmimin yanına getdi. Sən qızların sənədlərini alandan sonra onları da götürüb gələrsən, - dedi.

Rayona getməyimiz on gün yox ,yarım ay çəkdi. Gecikmə qızlara görə deyildi. Mən məzuniyyətə çıxa bilmirdim Bankda işlər ağır idi. İşdən gec və yorğun gəlirdim. Onu bilirdim ki, əgər Günəş burada olmasa, tək Fidanla mən qalsam , acından ölməli olardıq. Düşünürdüm ki, Ramiz əmim bu qızın adını haqlı olaraq Günəş qoyub. Qız elə bil evimizə günəş doğmuşdu. O, elə balaca olanda həm xarici görünüşünə görə, həm xüsusiyyətinə görə qızdan çox oğlana oxşayırdı. Əmim əksər vaxt Günəşin sacını keçəl qırxdırırdı. Anam deyinəndə əmim gülə - gülə :Əşşi böyüyüb qız olanda saçını uzadarıq, hələlik bu uşaq oğlandır,- deyirdi. Doğrudan da elə idi. Həmişə mənim yardımçım olurdu. Haraya desəm gedir, nə desəm edirdi. Üstəlik heç vaxt məni satmırdı. İndi isə o qızdan kobudluqdan əsər əlamət yox idi. Qara, gombul , keçəl qızın yerində uca boylu , uzun saclı sarışın bir qız var idi. Köklüklə keçəlliyi başa düşürdüm. Arıqlamışdı , saçını da uzatmışdı , bəs bu sarışınlıq nə idi. Sualıma cavabı zorla da olsa tapdım. O vaxtlar Günəş çöllərdə günəşin altında gəzməkdən , ağacların başında gəzməkdən qara imiş. indi isə gecə gündüz evdə oturub dərs oxuyub. Belə olmasa yüksək bal toplaya bilməzdi. Bu qızın beş barmağında beş mərifət var imiş. Anam gedən gündən evi əlinə almışdı. Yemək bişirirdi, çay dəmləyirdi. Bütün bunlar bir yana bu vaxta qədər bizim ev belə hay küy görməmişdi. Bilmirəm nə danışırdı, nəyə gülürdü, amma onu bilirəm ki, Fidanla mən qızın təsirinə düşmüşdük, bizi o idarə edirdi. Hər səhər mən işə gedəndə Günəş məndən əvvəl oyanıb çay dəmləyir, masaya yeməklər düzürdü. Köynəyimi ütüləyib asır, havaya baxıb ona görə gödəkcə filan qoyurdu. Mən qıza mat qalmışdım , heç olmasa bir az anamla bir yerdə yaşamış olsa evin qayda qanunu öyrənmiş olardı. Halbuki bizim evə birinci dəfə idi ki gəlirdi. Lap uşaq olanda gəlmişdi. Bilmirəm bəlkə bu tapşırıqları anam vermişdi. Günəş Fidanla yaşıd idi. Fidanın əlindən

heç nə gəlmirdi. Heç mağazaya gedib nə isə almağı da bacarmırdı. Amma Günəş gələndən bəri işdən gələndə hər şeyi yerində tapırdım. Günəş özümüz gedib almışıq deyirdi. Üstəlik səhər işə gedənəcən o qədər danışıb gülürdü ki, əhvalım düzəlirdi. Yoxsa Səmanın yox sözünü gecə gündüz düşünürdüm. Bu cavab mənə qəribə gəlirdi. Çünki qız verilən suala təəccüb etmədi. Demədi nə hospital, nə ağlamaq?. Elə bir başa yox , - dedi. Bəs niyə qızarmışdı? Düşünüb bir yana çıxa bilmirdim.

Həftəsonu qızları da götürüb dəniz kənarına getməyə hazırlaşırdım. Həm onları təbrik etmək istəyirdim, həm də Günəşin mənə etdiyi qulluğa görə minnətdarlığımı bildirmək istəyirdim. Fikrimi qızlara deyəndə hər ikisi sevindi. Düzü Fidanın da şad olmağına təəccüb etdim. Çünki bu qız çox da bayır bacanı sevən deyildi. Hər halda dərhal hazırlaşmağa getdilər. Onları gözləməyə hövsələm çatmadığım üçün aşağı düşdüm. Bəlkə Səmanı da görəçəyimə ümid edirdim. Nə qədər gözləsəm də Səmagil tərədən görünən yox idi. Onu gözlədiyim üçün qızların gec düşməyinə əsəbləşmirdim. Nəhayət qızlar göründü. Onları görəndə donub yerimdə qaldım. Günəş ağ rəngli qısa bir don geyinmişdi. Qısa deyəndə don çox qısa idi. Hündür daban yay ayaqqabısı tordan idi. Qızın yaraşıqlı uzun ayaqlarına qəribə cəzbedici görkəm verirdi. Uzun sarı saclarını az qala qısa donu ilə bərabər dururdu. Çiyninə keçirdiyi ağ çanta qulağına taxdığı ağ sırğalara çox yaraşırdı. Bilmirəm niyə bərk hirsləndim. Fidan mənim çiçəyim , az qala bağça uşağına oxşayırdı. Göy güllü , beli büzməli don , alçaq , sadə yay ayaqqabısı geyinmişdi. Qıvrım saclarını boynunun arxasında sac sancağı ilə sancaqlamışdı. Hirsimdən əllərim əsdi.Bu nə geyimdir? Deyə düşündüm . Əmim hara baxırmış.

Mən düşünənə qədər qızlar maşına mindilər. Nə qədər özümü toplasam da Günəşə bir söz deyə bilmədim.O, yenə

hay-küylə danışırdı. O qədər danışdı ki, hirsim soyudu. Yay girməyinə baxmayaq havada sərinlik var idi. Güzgüdən baxıb ? Qızlar, çöldə otursaq sizə soyuq olmaz ki?- dedim. Onlar ikisi də bir ağızdan yox,- dedi. Maşını dəniz kənarındakı restoranlardan birinə sürdüm. Özüm düşüb hər tərəfə baxandan sonra qızlara düşün,-dedim. Havada külək olduğu üçün dənizə yaxın olan küləfirəngidə oturmaq istəmədim. Dalğaların səs -küyü aləmi başına götürmüşdü. Nisbətən aralıda yerləşən küləfirənginin birində oturduq. Ümumiyyətlə adam çox az idi. Bizdən bir az aralıda iki körpə uşaqlı gənc ailə, dənizə yaxın yerdə dörd kişi və lap uzaqda oğlanla bir qız oturmuşdu. Yenicə yemək sifariş etmişdim ki, gənc bir oğlan bizim oturduğumuz çardağın dörd tərəfində hərlənməyə basladı . Əslində mən bu oğlanı maşını restoranın həyətinə sürən dəqiqədən görmüşdüm . Yəni biz tərəfə çox boylandığı gözümdən yayınmamışdı,özümü o yerə qoymaq istəmədim. İndi isə o,demək olar ki, çardağın başına dolanırdı. Hirsimdən ölürdüm, əllərim əsirdi,onu deyim ki, bunu tək mən deyil , qızlar , hətta Fidan da hiss etmişdi. Nəhayət: Nədir qaqaş, sənə nə lazımdır?-dedim. Oğlan yekəxana bir tərzdə: Cardaqların sayını artırırıq , ona görə ölçülərini götürürəm,- dedi. Öz -özümə kişinin işi var imiş , əbəs yerdən əsəbləşirəm , deyə düşünüb təzə-təzə bişib gəlmiş qutablardan götürüb iştaha ilə yeməyə başladım. Oğlan bir az da fırlanıb uzaqlaşdı. O, gedən kimi Günəş danışıb gülməyə başladı. Dediyim kimi bu qızın qeyri adi qabiliyyəti var idi. Doyunca bizi güldürdü. Əməllicə istirahət edirdik. Getdikcə külək də sakitləşdi. Qızları götürüb dənizin kənarı ilə o tərəf bu tərəfə yerimək istəyirdim. Sonra qayıdıb çay içmək fikrim var idi. Fikrimi qızlara söyləmək istəyəndə bayaqkı oğlan yenidən peyda oldu. Indi əlində metrə var idi. Göz altı Günəşə baxa -baxa çardağın taxtalarını ölçürdü. Gah bu tərəfi ,gah da o biri tərəfi ölçür,yenə də başımıza fırlanırdı. Ayağa nə zaman qalxdığım yadımda deyil. Bir onu xatırla-

yıram ki, qızlar bərk qışqırırdılar. Bu heyvanı it kimi döydüm. Restoranın güvənliyi ,polislər tökülüb gəldilər. Oğlanı mənim əlimdən zorla qoparıb hər ikimizi içəri apardılar. Maşının açarlarını qızlara verib:Gedin maşında oturun,- dedim. Fidan ağlayırdı. Mənim sənədlərimə baxan kimi polislər soyadımı tanıdılar. Oğlan restoranın sahibinin oğlu imiş .Polislər mənim kimliyim haqqında kişiyə bildirəndə o, oğlunun əvəzinə üzr istədi. Mən başa düşmürəm ,- dedim . Sənin oğlun o boyda boş çardaqları qoyub niyə biz oturan çardağı ölçür? Niyə müştərini narahat edirsiniz ? Restoranın sahibi dönə- dönə üzr istədi. Hirsimdən bədənim əsdiyi üçün maşına minib bir az oturdum. Istirahətimin pozulduğu üçün qanım qaralmışdı, həm də hirslənmişdim. Günəşə heç nə deyə bilmədim. Burada onun günahı yox idi.

Bir neçə gündən sonra qızları götürüb rayona getdik. Günəş bu dəfə sadə geyinmişdi. Nə geyinir geyinsin qız doğrudan da gözəl qız idi. Mən onu uşaqlıqdan çox sevirdim. Az qala Fidan qədər, çünki Günəş həm də mənim dostum idi. Ona görə ona nəyi isə irad tutmağa üzüm gəlmirdi. Bəzən mənə elə gəlirdi ki, bu qız mənim dostum , oğlana bənzəyən Günəş deyil , kimdirsə tam başqa bir adamdır. Qızları yolda restorana düşürmək istədim. Günəş qətiyyətlə istəmədiyini ,- dedi. Fidan həmişəki kimi dodağının altından mızıldanıb : Siz neçə istəyirsiniz elə də olsun,- dedi. Bilirdim ki, Günəş mənim yenə də kiminlə isə dalaşaçağımdan qorxub belə deyir. Elə ona görə də tərəddüd etmədən qarşıdakı restoranda saxlayıb: Düşün,- dedim. Buranı dava dalsız keçirib yola düşdük. Rayona çatanda şər qarışmışdı. Maşını bir başa əmimgilin həyətinə sürdüm. Bilirdim ki, atamgildə orada olacaq . Yanılmamışdım , nəinki atamgil , Arif əmimgildə orada idi. Həyətdəki böyük çardağın altında oturmuşdular. Biz yemək istəməsək də atamgilə bir bəhanə lazım idi ki, yenidən yeyib içmək məclisi qursunlar. Yorulsam da içəri keçmək istəmirdim.

Hava çox gözəl idi, oturduqca ləzzət verirdi. Bağçadan xoş bir sərinlik gəlirdi. Rayona gəlmək istəmirdim. İndi isə xoş hava , bu isti mühit, əmilərimin xoş münasibəti canıma sarı yağ kimi yayılırdı. Gecənin yarısına qədər həyətdə oturduq . Biz içəri keçəndə havada əməlli başlı sərinlik var idi. Ertəsi gündən başlayıb Ramiz əmim bir həftə dalbadal qonaqlıq verdi. Bir gün süfrəni Günəşin şəninə açırdı, bir gün Fidanın . Hər gün bir bulağın ütünə gedirdik. Dünənki bulaq səfərimiz lap maraqlı idi. Atamgil nişan qoyub silah atırdılar. Ən təəccüblüsü o idi ki, Günəş hamıya qalıb gəldi. Arif əmim hamıdan çox ona pərəstişkarlıq edirdi. Qızın sərrast atışı kişiyə ləzzət edirdi. Belə qız yetişdirdiyi üçün Ramiz əmimi tərifləyirdi. Mən Günəşə sadəcə təəccüb edirdim. lakin Arif əmimin xoşuna gəlsə də oğlanlarının Günəşə açığı tutduğu aydın bilinirdi.

Tez qayıtmalı olduğum üçün Zirəddingilə də dəyib qayıtmağa hazırlaşırdım . Düzünü deyim ki, fikrim Səmanın yanında olmasa heç getmək istəməzdim. Nədənsə Fəridə görə narahat olurdum . Onun ara sakitləşən kimi geri qayıdaçağından qorxurdum . Həm də məzuniyyəti çəmi on günlük vermişdilər. Qayıtmalı idim.

Zirəddin məni görəndə küsdüyünü söylədi. Bir həftədir gəlmisən mən yadına düşmürəm. Üzür istədim düz söylədiyini ,-dedim. Onun evinə, məhləsinə baxıb mat qalmışdım. Sanki cənnətin bir guşəsi idi. Güllərin rəngi ,ətri adamı məst edirdi. Bir an mənə elə gəldi ki, rayonumuzda deyil , hansısa beşulduz oteldəyəm. Güləri demək olar ki, başqa yerdə görsəm tanımazdım. Geyimin , xoş güzəranın insanı bu qədər dəyişəcəyinə inana bilmirdim. Uşaqlar özlərini üstümə atdılar. Mən onları doğrudan çox sevirdim. Yaxınlıq insanı doğmalaşdırır. Bu uşaqlar da mənə Zirəddin qədər doğma idilər. Yeməyə qalmasam da xeyli oturub söhbət etdik. Onlar xoşbəxt idilər, atama minnətdarlıq etməyi də yadlarından çıxarmırdılar. Zi-

rəddin başını bulayıb bir manatsız getmişdim, - deyirdi. Gülər bir şeyi Zirəddin başqasını xatırlayırdı. Bəzi xatirələrə doyunca gülür, bəzi xatirələr isə onları kövrəldirdi. Məndə onlarla bərabər -həmin illərə döndüm və oradan xoş əhval ruhiyə ilə geri döndüm. İki üç gündən sonra atamgil qaldı mən şəhərə qayıtdım. Bu gur işıqlı, isti məhəbbətli, sazlı sözlü dədə - baba , yurd -yuva xatirəli ocaqdan ayrılmaq istəmirdim. Atamgil bir yerə yığışanda lap ayrı aləm olurdular. Babalarından danışa- danışa yeddinci balarının yanına çatırdılar. Bir dəfə atama sual verdim ki, sizin babalarınızın heç pis işləri olmayıb, hamısını tərifləyirsiniz. Kişi dərin bir sükuta getdi. Nəhayət dillənib dedi: Biz özümüzə yaxşılardan nümunə götürməyə çalışırıq. Yaxşılardan danışıb , yaxşılığı yaşatmaq istəyirik. Siz də övladlarınıza bizim səhvlərimizdən danışmayın. O söz mənə təəccüblü gəlsə də atama haqq qazandırırdım. İnsan ata babasının düzgün əqidəli , təmiz vicdanlı, əhdə sadiq, vətənpərvər, torpağa bağlı , xalq sevgisi qazanmış bir kökdən olduğunu biləndə , özündə həmin keyfiyətləri saxlamaq istəyir.

Getmək istəməsəm də səhər tezdən yola düşdüm. Anammənim tək qayıtmağımı istəmirdi, narahat olurdu .Qızları mənə qoşaçağından qorxub israrla tək gedəçəyimi söylədim. Yolda maşını saxlamadan bir başa məhləmizə sürdüm. Fikrim Səmanın yanında idi. Fəridin yenidən peyda olacağını düşünüb darıxırdım. Hətta hərdən onun yaraşıqlı sifətini xatırlayıb lap qısqanırdım. Maşını blokun qarşısında saxlayıb boylanmağa başladım. Heç kim gözə dəymirdi. Onlardan çölə çıxan olmasa Ərkinaz xaladan soruşmaq qərarına gəlib sakitləşdim. Atam soruşur deyəcəkdim. Allahdan olan kimi Süleyman həyətə düşdü. Məni görən kimi gəlib görüşdü. Onu ətraflı suala tutdum. Oğlanın dediyinə görə o gündən sonra nə Minanı nə də ki, Fəridi görməyiblər. Süleyman razılıq etdi . Rahat yaşayırıq , özümüz özümüzü idarə edirik. Daha hər şeyə

öyrəşmişik .Onunla danışıb rahatlandım. Yorğun olduğum üçün çox dayanmayıb evimizə qalxdım.
Bu bir ayı tək necə qaldım onu bir allah bilir. Sən demə mən çox fərsiz imişəm, indiyə qədər tək qalmadığım üçün bu qədər bacarıqsız olduğumu bilmirdim. Yemək bişirə bilmirdim. Ona görə işdən gələndə bir yerdə oturub yeyirdim, ya da ki, hazır bir şeylər alıb gətirirdim Acından ölsəm də sonuncu tikəni yeməyib boşqabda qoyurdum ki, boşqabı yumayıb soyuducuya qoyum. Köynəkləri maşına qoyub yusam da ütüləyə bilmirdim. Birtəhər bir qanı ac,-bir qarnı tox bir ayı yola verdim. Anamgili gələndə Günəşi də gətirmişdilər . Qızı görəndə təəccüb etdim, çünki Arif əmim israrla Günəşin onlarda qalmağını tələb edirdi. Atamgil onunla mübahisə etmədilər. Doğrusu Günəşi nə qədər çox sevsəm də bizdə qalmağını nədənsə istəmirdim. İçimi bir narahatlıq bürüyürdü. Narahat olsam da olmasam da Günəş bizdə qaldı. Onun bizdə qalması atamla anam üçün sanki əsl günəş doğmuşdur. Bizim illər boyu sükut bürüyən evimizi səs - küy başına götürmüşdü. Anamgil onun bu qədər sərbəst olmağını görmür, bütün günü razılıq edirdilər. Fidan dərsini oxuyub zorla çatdırırdı. Günəş isə dərslərini də oxuyub çatdırır, anama da kömək əlini uzadırdı. Əslində kömək əlini deyil işin hamısını o görürdü. Anam mat qalmışdı, deyirdi ki, mən onunla bacara bilmirəm. Qızın on barmağında on mərifət var idi .Qəribə orasında idi ki, mən hər səhər işə gedəndə az qalırdım ki Günəşlə dava edim. Özümü zorla ələ alırdım. Onun geyimi məni əsəbləşdirirdi. Fidan yazığın bir lenti çatmırdı ki, orta məktəb tələbəsinə oxşamasın. Mən bir dəfə də olsun ona irad tutmaq fikrində olmurdum. Günəş isə modelə oxşayırdı. Bir görən bir dəfə də dönüb baxmaq istəyirdi.

Bu səhər anamın qızları gülə - gülə yola saldığını görüb daha da hirsləndim. Günəş mavi rəngli yubka kofta geyinmişdi. Sinəsində və yubkanın ətəyində ağ və qızılı rəngli haşiyələnmiş

dənizçi işarəsi var idi. Ayağındakı ayaqqabı və götürdüyü çanta geyiminə çox yaraşırdı. Qəsdən ayağımı saxlayıb onun qapıdan çıxmağını gözlədim. O qapıdan çıxar -çıxmaz ağzımın acısını anama tökdüm:

- Ana , bu necə geyimdir Günəş geyinir? Əmimgil bunu şişirdib özbaşına böyüdüblər. Heç olmasa sən de də. Dərsə gedir , yoxsa moda göstərməyə? Mən başa düşmürəm bu belə paltarları haradan alıb , niyə Fidanın elə geyimləri yoxdur?

Anam nədənsə razı halda gülümsündü, sonra dedi:

- Bala, mən Günəşə nə deməliyəm? Ona hər nə geyinsə elə yaraşır. Gözəl vücudu ,uça boyu var. Həmin paltarı Fidana geyindir gör ona neçə yaraşır? Günəşə deyim sən niyə yaraşıqlısan? Qaldı ki, əmingil onu çox gözəl böyüdüb. Heyran olmuşam , qız deyil , qızıldır.

Elə bil ki, anamın əlinə danışmağa məqam keçmişdi. Qadın susmaq bilmirdi. Nəhayət əlimi yelləyib qapıdan çıxdım. Anamın sözündə həqiqət var idi. Paltar nə qısa nə də ki, dar deyildi, adi yubka kofta idi. Amma anamda qəribə bir şey hiss etdim . Sanki mənim sözümdən xoşu gəlmişdi . Var qüvvəsi ilə Günəşi tərifləyir və gözəlliyini təsvir etməyə çalışırdı. Nə isə, onsuz da neçə gün idi ki qanım qara idi. Mütləq Səma ilə danışmaq istəyirdim. Amma onun yox deməyi də gözümün önündən çəkilmirdi. Gecələr yata bilməyib özlüyümdə nə olsun yox dedi, deyə düşünürdüm. Axı doğrudan da yəqin hospitalda olan o deyilmiş, yalandan hə deməli deyildi ki, deyirdim. Amma səhər açılan kimi qızın yox deməyi yenidən gözümün önündə canlanırdı və mənə elə gəlirdi ki, mən onu sevdiyimi bəyan etsəm yenə də həmin tərzdə yox!- deyəcək Və hər dəfə də onun müttəhimlər kürsüsündə oturduğu o, aciz, çarəsiz, yazıq görkəmi gözümün önünə gəlirdi. Həmin görkəmi xatırlayan kimi onun məni bağışlayacağına ümid etmirdim. Ümidimi itirəndə az qala ağlımı da itirirdim.

Maşını bankın qarşısında saxlayıb anamı düşünürdüm. Nədənsə qadının danışığı mənə qəribə gəldi .Az qalırdı ki, əllərini gözümə soxsun. Mən anamı tanıyırdım. Məni heç vaxt heç kimin ayağına verməzdi. Bu qadında nə hal idi? Uzun zaman sükanın arxasında oturub fikrə getdim. Bir şey anlamayınça , yaxşı ki, anam Günəşi belə sevir deyə düşündüm. Yoxsa aləm bir- birinə qarışardı.

Qrup rəhbəri təyin olmuşdum. Evdə mənim təzə işimi sevinclə qarşıladılar. Atamla - anam heç vaxt olmadıqları qədər xoşbəxt idilər. Hər halda bu mənim işimə görə deyildi. lakin səbəbini anlamırdım . Onların xoşbəxt olduqlarını görməmək mümkün deyildi. Hər axşam evə gələndə Günəşin dəmlədiyi təzə çaydan içə -içə qızı neçə dinlədiklərinə təəccüb edirdim. Sanki qız bunları ovsunlamışdı. Amma orasını da qeyd edim ki , az sonra mən də təsir altına düşürdüm. Bir tək Fidan bizə qoşulmurdu.

Qrup rəhbəri keçəndən bəri işlərim lap çoxalmışdı. İşdən gec gəlirdim. Dəfələrlə işdən gələndən sonra Səmanı görməyə cəhd etsəm də mümkün olmurdu. İstirahət günü bankın işçiləri ilə birlikdə futbol oynamağa getmişdik. Bunu demək olar ki, hər istirahət günü edirdik. Əksəriyyət vaxt bizim bank qalib gəlsə də bu dəfə çox gülünc bir hesabla məğlub olmuşduq . Hesabı nəinki kimə isə deməyə, öz- özümə təkrar etməyə utanırdım. Qayıdıb həyətdə dayandım. Nədənsə yuxarı çıxmaq istəmirdim . Mənə elə gəlirdi ki uduzduğumu hamı biləcək . Bu elə belə həvəskar bir oyun olmağına baxmayaraq narahat olurdum. Çünki hər dəfə evə dönəndə qələbəmizdən danışmağı sevdiyimi hamı bilirdi.Bilirdim ki, evə girən kimi atam hesabı soruşacaq. Məncə bu oyunun bu hesabla bitməyində ən çox günah məndə idi. Çünki heç nəyə həvəsim yox idi. Elə bil qol qanadım sınmışdı. Aşağıda çox qalası olmadım. Aradan bir az keçmiş Səmanı bacısı da qucağında blokun ağzında təşvişlə sağa - sola boylandığını gördüm. Arzu

hönkür-hönkür ağlayırdı. Əvvəl bir az duruxdum. Sonra Səmanın tələşını görüb özümdən asılı olmayaq onlara yaxınlaşdım. Səma məni bayaqdan görürmüş , çünki mən onlara yaxınlaşan kimi: Arzu hamamda yıxılıb, -dedi. . Bayaqdan ağlayır, bilmirəm nə edim? Yaxınlaşıb qızı onun qucağından alıb gəl həkimə aparaq - dedim. Səma artıq sual vermədən maşına oturdu. Maşını yaxınlıqdakı xəstəxanaya sürdüm. Arzu yol bu o qədər qışqırıb ağladı ki, həyəcandan suya batmışdım. Qız ağladıqca Səmanın gözündən yaş tökülürdü.

Bir saatdan sonra geriyə dönürdük. Amma mən hirsimdən partlayırdım. Özümü zorla əla alırdım. Arzunun ayağı qırılıbmış. Uşağın ayağını gipsə qoydurduq. Yaşıq qız sakitləşmişdi. Məni əsəbləşdirən həkim idi. Bu gənc oğlan özünü Səmanın üstünə salıb çox xoş qarşıladı. Heç bizi pul ödəməyə də qoymadı. Səma mənim hirsləndiyimi hiss edib narahat olurdu. Həkim özünü elə aparırdı ki, guya Səma onun ən yaxın adamı idi. Gah düşündüm ki bəlkə qohumlarıdır. Dərhal da onların heç bir qohumu olmadığını xatırladım. Evə çatıb Arzunu qucağıma alıb liftə apardım. Birlikdə liftə girdik. Birinci dəfə Səmanın ağlamaqdan qızarmış gözlərinə baxdım. Bütün kinim, hirsim hamısı soyudu. Üzümə dünyanın ən məsum gözəli baxırdı. Liftdən Arzu da qucağımda çıxıb qapıya yaxınlaşdım. Səma qabağa keçib qapının zəngini çaldı. Uşaqlar qapını açana qədər Səma üzümə baxıb : Ayaz , həkim bizim müəllimimizdir- dedi. Mənə bir əlaçı tələbə kimi hörməti var. Mənə elə gəldi ki, yanan bir ocağın üstünə bir vedrə su tökdülər. Həm də Səmanın özünü mənim qarşımda müdafiə etməyi xoşuma gəldi. Səmagilin mənzilinə daxil olanda mat qaldım. Mən Turab müəllimin yaxşı yaşadığını bilirdim. Amma onların belə gözəl mənzilləri olmağına inanmazdım. Bura əsil muzey idi. Bahalı klassik mebellər, xalçalar, çilçıraqlar, pərdələr, divarlardan asılmış iri rəsm tabloları hamısı böyük zövqlə seçilmişdi. Arzunu zaldakı divanın üstü-

nə uzatdım . Divarda ilk gözümə sataşan böyük tablo oldu. Hansısa məhşur rəssamın maraqlı məzmunu olan bu rəsmi damarımda qanımı dondurdu. Rəsmdə varlı bir tacirin gənc və gözəl qızını yaşlı bir qraf ilə evləndirmək istəməyindən bəhs edir. Rəssam qızın sifətindəki məsumluğu , dəhşəti o qədər gözəl göstərə bilmişdi ki, Fərruxun Səmaya göz dikməyi yadıma düşdü. Çoxdan idi ki Fərruxu xatırlamırdım. Demək olar ki yadımdan çıxartmışdım. Heç nifrət də etmirdim. Hətta həyətdəki skamyada tək tənha oturduğunu görəndə yazığım da gəlirdi. Oğlunu -qızını xatırlayırdım,indi bədənimə istilik gəldi, əllərimin titrədiyini kimsə hiss etməsin deyə tez geri dönüb qapıya tərəf getdim. Səma mənə oturmaq təklif etmədi. Bu mənim xətrimə dəymirdi , əksinə xoşuma gəlirdi. Qapının ağzında Süleyman: Ayaz, əllərini yu, üstünü çırp, sonra gedərsən- deyib mənə hamamın qapısını göstərdi. Əyilib üst başıma və əllərimə baxdım . Arzunun ayaqqabıları üstümü bulamışdı. Əllərim də isə gipsin qalıqları var idi. Qapının ağzında dayanan Səma Süleymanın sözünü təsdiq edib əlini yu gedərsən ,-dedi . Bir an tərətdüd etsəm də hamama keçdim. Hamam da otaqlar kimi çox bahalı təmir olunmuşdu. Böyük güzgünün qarşısında dayanıb əllərimi yudum və üst başımı yaxşıca təmizləyib çıxarkən tavandan daman su damcılarını gördüm. Süleymandan bu nə sudur ?- deyə soruşdum. Oğlan mat - mat üzümə baxıb çiynini çəkdi. Mən hələ də qapının arasında dayanan Səmaya bu nə sudur ?- dedim. Qız da eyni ilə Süleyman kimi çiynini çəkdi. Əvvəl geri dönüb baxmaq istədim ,amma nədənsə sabah usta gətirərəm baxar,- dedim. Mənə bir söz deyən olmadı. Onlarla vidalaşmadan qapıdan çıxdım.

Evə çatanda anamgilə Səmagildən heç nə danışmadım. Anamın hüzurunu pozmaq istəmirdim. Qadın xoşbəxtliyindən uçurdu. Bu nə şadlıq idi ?- anlamırdım. Onun başı Günəşlə söhbətə elə qarışmışdı ki, məni çox sorğu suala tutub harada

olduğumu soruşmadı. Çörəyimi yeyib otağıma keçdim. Keçdim, amma yata bilmədim. Səhərə qədər yerimin içində qıvrıldım. Səma gözümün önündən bir an da çəkilmirdi .Qız mənə möcüzə kimi gəlirdi. Mən indiyə qədər belə məsum çöhrəsi olan qız görməmişdim. İnsan nə qədər mülayim görünərdi. Adama elə gəlirdi ki, Səmanı heç vaxt hisləndirmək olmaz. Ən çox da həkim yadımdan çıxmırdı. Onun qıza olan baxışı , münasibəti hər şeyi aydın bəlli edirdi. Səma həkimin ona münasibətindən xəbərdar idi. Çünki qız onu görən kimi qıpqırmızı qızardı. Həkim də əldən ayaqdan gedirdi. Fikirləşdikcə darıxırdım . Mütləq Səmaya onu sevdiyimi bildirmək istəyirdim. Bir şey mənə az da olsa ümid verirdi. Həkimə hirsləndiyimi başa düşən Səma narahat olurdu. Halbuki mənim ona nə isə deməyə, və ya irad tutmağa heç bir haqqım yox idi. Qız isə mənə həkimin onun müəllimi olduğunu söylədi. Bununla mənim sakitləşdiyimə əmin olub rahatlandı. Düşündükcə yuxum qaçırdı. Nə qədər düşünsəm də sonda sevgimi Səmaya demək qərarını verə bilmədim. Çünki onun yox deməyi mənim üçün dəhşətli bir söz idi. Heç cürə özümü həmin sözü eşitməyə hazırlaya bilmirdim, səhər açılana qədər fikirləşdim. Nəhayət yox cavabını eşitməyə hazır olmadığım üçün hələlik Səmaya sevgimi bəyan etməkdən vaz keçdim.

Ertəsi gün işdən evə bir az tez döndüm. Yeməyimi yeyib qabaqcadan danışdığım ustanı götürüb Səmagilə getdim . Mənə elə gəldi ki, qız bizi gözləyirmiş. Səma qıpqırmızı qolu gödək idman paltarı geyinmişdi. Sarı uzun saclarını bir az nizamsız şəkildə başının ortasında toplamışdı. Oradan, buradan nizamsız şəkildə üzünə tökülən sacları bu görkəmdə çox gözəl görünürdü. Usta ilə birlikdə hamama keçdik. Məlum oldu ki hamamın üstünə qoyulan su cəni deşilib , özü də bir yox , bir neçə yerdən su damırdı. Düşünürdüm ki, cəni dəyişmək lazımdır. Lakin usta cəni təmir etmək mümkün olduğunu söylədi. Cəni düşürmək üçün ustaya kömək etmək istəyirdim,

su başımdan tökülüb üst başımı batırdı. Süleyman dəsmal gətirdi. Saçımı qurulasam da paltarım tamam islanmışdı. Səma qapının ağzına gəlib : Ayaz, sən get paltarını dəyiş, narahat olma, - dedi. Mən onun sözünə əhəmiyyət vermədən ustaya kömək etməyi davam etdim. Biz təmir olunmuş cəni yerinə yerləşdirəndə artıq hava qaralmışdı. Ustanı yola salıb qapıdan çıxanda Səma ilə göz - gözə gəldik. Səma bir anın içində qipqırmızı qızardı. .Gözünü məndən yayındırıb yerə dikdi, sonra duruxa- duruxa təşəkkür etdi. Axırıncı sözü ürəyimi yerindən oynatdı. köynəyin su olub , sənə soyuq olacaq sözünü ürəyimdə durmadan təkrar edirdim. liftə girməyib pilləkənləri qaça-qaça düşdüm.

Elə çatıb ehmalca otağıma keçib köynəyimi dəyişmək istəyirdim, alınmadı. Anam mənim Səmagildə olduğumu öyrənibmiş. Hətta dünən Arzunu həkimə apardığım haqqında da məlumatı var idi. Arvad az qalırdı ki məni döysün. Qəribədir, uşaqlıqdan törətdiyim bütün hərəkətlərə susan , demək olar ki, göz yuman anam indi var səsi ilə bağırırdı:

- Sənin nə işin var onların evində? Söz - söhbətdən qorxmursan? O, qız bir dəfə sənin həyatını az qala məhv etmişdi. Yenə də onun ətrafında dolanırsan? Keçən dəfə də mən sənin onu tanımadığına inanmamışdım. İndi də sənə deyirəm, o ailədən kənar dur.

Anam susmaq bilmədən Səmanın keçən dəfə az qala mənim həyatımı məhv edəçəyindən danışırdı. Mən anama təəccüb edirdim. Kim kimin həyatını az qala məhv etmişdi? Anam nə danışırdı? Ağzından çıxan sözü qulağı duyurdumu? Yəni o bilə-bilə ki, Səma mənim üzümdən həbsə düşmüşdü.Mən bunu anamgilə dəfələrlə anlatmışdım. Anamın danışığına fikir vermədən hamama girib yuyundum. Çimib çıxandan sonra anamın həmin mövzuda qaldığını görüb hirssləndim.Heç vaxt anama cavab qaytarmazdım, nə qədər deyinsə də sadəcə qulaq asardım. Çünki əksəriyyət vaxt anam haqlı olurdu. İndi bu danış-

dığı haqsızlığa dözə bilmədim. Zala keçib deyinən anamın sözünü kəsib dedim:

- Ana , kim kimi bədbəxt edib müttəhimlər kürsüsündə oturmuşdu. Səma məni, yoxsa mən Səmanı?

Sözümü bitirib anamın cavabını gözləmədən otağım keçdim. Qulağım anamda idi. Amma anamın daha səsi gəlmədi. Atam nə isə alçaqdan deyirdi, onu da eşidə bilmirdim. Ürəyimə bir narahatlıq çökdü. Atamla anamın Səmaya qarşı olan münasibəti mənə gün kimi aydın oldu. Anam hirsindən partlayırdı. Atam isə az qalırdı ki, ayağa durub anamı alqışlasın. Özünü zorla toplayırdı. Bu mənə ikinci dərd oldu. Demək Səma razılıq versə də onu bu evdə istəyən yox idi .Düşündükcə dəhşətə gəlirdim. Atamgillə qarşı qarşıya gəlmək istəmirdim. Amma mənə Səmasız bu dünyanın heç bir marağı yox idi. Bütün fikirlərim ,arzularım, hamısı o qızın üzərində qurulmuşdu. Düşünürdüm , əgər onunla rastlaşmasaydım dünya yenə də mənə mənasızmı görünəçəkdi. Anamı bir təhər yola gətirmək olardı , əgər atam mənim tərəfimdə olsa , kişinin isə münasibəti göz qabağında idi. El bil ürəyimi məngənəyə qoyub sıxırdılar. Dünəndən bəri yuxusuz olsam da yuxum qaçdı. Səhər işə gedəndə atam mənə tək bir söz dedi : Ayaz, oğlum, sənin ayağın bir də oralara dəyməsin. Atam gedəndən sonra anam nisbətən alçaqdan və sakit bir tərzdə özünü təmkinli aparmağa çalışaraq dedi:

-Camaatın qızının adına söz çıxartma .Yetim uşaqdır, yəqin ki, onunla da ailə qurmaq istəyən tapılacaq.

Anama cavab verməsəm də düşünürdüm ki, bir daha ora ayağım dəyməsin . Səmaya yazığım gəlirdi. Mənə görə adına söz gələçəyinə görə narahat olurdum. Bir də anam sözünü elə dedi ki, yəni Səma ilə ailə qurmaq istəyən bir axmaq tapılacaq demək istədiyi aydın bilinirdi.

Bu günki söhbətdən ağlım onu kəsdi ki, qabaqda mənim pis günlər gözləyir. Lakin nə qədər düşünsəm də tək bir qə-

rarım var idi. İki dünya bir olsa da Səma mənim olmalı idi. O gündən sonra evimizdə bir hüzn yaşanmağa başladı. Anamda əvvəlki nəşə qalmamışdı. Artıq mən də atamgilin məqsədini anlamışdım. Anam üstü örtülü olsa da Günəşlə məni evləndirmək fikrini mənə anlatmağa cəhd edirdi. Mən buna inanmaq istəmirdim. Özümü başa düşməməzliyə vursam da hər şey aydın idi. Hirsimdən ürəyim partlayırdı. Onlar açıq danışmırdı ki mən cavablarını verə biləydim.

Bu gün istirahət günü olduğu üçün az qala günortaya qədər yatmışdım. Yuxudan oyanıb zala keçəndə anamgili görmədim. Fidanla Günəş hərəsi bir kresloda oturub telefona baxırdı. Məni görən kimi Günəş ayağa qalxıb masaya çay çörək düzməyə başladı. Fidan da telefonu kənara qoyub masaya yaxın oturdu. Söhbəti Fidan başladı ,amma məni Günəş hövsələdən çıxartdı. Fidan Arzunun ayağının qırılmağını xəbər aldı. Onun uşağa yazığı gəlir, mənim onlara yardım etdiyim üçün dua edirdi. Günəş özünə çay süzüb masaya yaxın oturan kimi istehzalı bir tərzdə dedi:

-Əlbəttə, yaxşı edib kömək edirsən, yetim uşaqlardı. Səidə xala da gülməli söz danışır.

Təəccüblə ona baxıb dedim:

-Nə danışır?

Qəribə bir tərzdə ağzını burub dedi:

- Gülməli deyil bəs nədir? Sənə deyir Səmagilə getmə , qızın adına söz çıxar, sonra onu alan olmaz.Guya hansı ağılsız oğlandır gəlib həbsxanada yatan qızı alan? Sənin də yazığın gəlir kömək edirsən , arvad da boş boşuna hirslənir.

Sonra ayağa durub düz gözümün içinə baxıb sözünü təkrar etdi:

- Kimdir ey həbsxanada yatan qızı almaq istəyən?

Bütün bədənim əsdi. Yeməyimi masada qoyub ayağa durdum. Günəşlə üzbəüz dayanıb dedim:

- Mən. Əgər Səma mənə gəlməyi qəbul etsə ,mən həbsxanada yatan qızı alacam.

Günəş kətan kimi ağardı. Mənə elə gəldi ki Günəş bu cavabı qətiyyən gözləmirdi. Fidan isə həmişəki kimi mənə hörmət və məhəbbətlə baxırdı. Sanki mənim bu sözümlə fəxr edirdi.

Otaqda dayanmayıb aşağı düşdüm. Günəşin sözü mənə çox pis təsir etmişdi. Özümə gələ bilmirdim, elə bil ki bədənimə istiot cəkmişdilər, dərim yanırdı. Özümə nifrət edib lənət yağdırırdım. Bütün gün ərzində ac susuz gəzdim . Boğazım tıxanmışdı. Sanki dünyaları yemişdim. Evə dönəndə gec idi. Atam yatmışdı. Anam mənə heç nə demədi. Təəccüb edirdim. Günəş mənim sözümü ona demədiyinə inanmırdım. Anam masaya yemək düzüb tam başqa şeylərdən danışdı.

Təəccüb etsəm də nə atam , nə də anam bir dəfə də olsun Səma haqqında danışmadılar. Günəşi də gözə soxmağı ləğv etmişdilər. Daha lazımlı lazımsız qızı tərif etmirdilər. Bir müddət sakitlik oldu. Ürəyimdə anamgilin mənim seçimimlə razılaşdığını düşündüm. Halbuki onlar qüvvə toplayıb hücuma hazırlaşırmışlar. Çünki daha Günəşi deyil , onun elçilərini tərif etməyə başlamışdılar. Günəşin də elçisinin sayı yox idi. Bilmirəm düz idi ya yalan , amma anamın sözünə görə bütün Bakının əhalisinin yarısı Günəşə elçi düşmüşdür. Mən susurdum. Atam isə anam tərifə başlayanda mənim eşidəçəyim bir tərzdə: Kim olur olsun , qız istəmirsə məcbur etməyin,- deyirdi. Günəş mənimlə tam ehtiyyatla davranırdı. Artıq əksik söz danışmırdı. Amma mən bacarınca ondan uşaq olmağa çalışırdım. Bir müddət sakitlik oldu. Dərslər başlayandan bəri Səmanı , demək olar ki , hər gün görürdüm. Onun sakit halını, mülayim çöhrəsini gördükcə məhəbbətim birə beş artırdı. Dərsdən gəlib həyətdə dururdum . Məndən beş on dəqiqə sonra Səma gəlirdi. Onu həsrətlə gözləyirdim. Lakin hər dəfə qız bloka girəndə düşünürdüm ki,

görəsən Səma mənə salam verəndə ona cavab verdimmi? Onun salam verməyini dəqiq xatırlayırdım ,lakin özümü unudurdum. . .
Anamı narahatlıq bürümüşdü. Arvad hirsindən partlayırdı. Dərsdən gələndən sonra yuxarı qalx deməyə üzü gəlməsə də , nələrə isə deyinirdi. Günəşin elcilərini gözümə soxmağa ehtiyac yox idi. Hər şeyi görürdüm. Yadlar bir yana qohumlar bizə ayaq acmışdı. Hamısının da məqsədi aydın idi. Bir sözlə, qızı bir necə yerdən istəyən var idi. Demək olar ki hər axşam anamla atamın söhbətinin şahidi olurdum. Mənə elə gəlirdi ki, onlar bu söhbətləri mənə eşitdirmək üçün edirdilər. Bu axşam eşitdiyim sözlər məni lap təəccübləndirdi. Anamgil mənə Günəşi tərifləməklə yanaşı mənim Səmaya olan münasibətimi də bilirlərmiş. Anam yana- yana : Mən belə qızı əlimdən verə bilmərəm,- deyirdi. Ayazın nə vaxt ağlı olub ki , indi də olsun , belə gözəl qızı qoyub dağa daşa düşən deyiləm. Mən oğlumun ürəyinə bələdəm ,o qıza yazığı gəlir, vəssalam.Qızın bunun üzündən bədbəxt olduğunu zənn edir. Demirdi ki, mən Səmanı tanımırdım. İndi nə oldu?

Donub yerimdə qaldım. Atamın nə deyəcəyini gözləyirdim. O isə tərslikdən dillənmirdı. Anam isə susmaq bilmədən deyinirdi. Nəhayət atam uzun sükutdan sonra dillənib dedi:

- Səidə, mən səndən çox istəyirəm ki Ayaz Günəşlə ailə qursun , amma bilirəm, o fikrindən dönən deyil. İstəyir Səmanı əvvəldən tanısın, istəyir sonradan tanısın , bunun heç bir mənası yoxdur. Ayaz Səmanı sevir. Mən bunu görürəm. Heç nə deyən deyiləm . Allah Ayazı bizə yenidən qaytardı. Allahıma şükür edirəm. Bir də ki, insafın olsun , Səma da pis qız deyil.

Atamın sözləri məni həm məyus etdi , həm də sevindirdi. Mənim başa düşdüyümə görə Səma heç atamın da ürəyindən deyil, sadəcə mənim secimimə hörmətlə yanaşırdı. Bir də ona görə sevindim ki, Səmaya qarşı pis fikirdə deyil. Butün

bu sözlərə yenə bir təhər dözürdüm. Anamın axırıncı sözü məni dəli etdi . O, yenə durmadan həmin sözləri təkrar edirdi. Sözünü bitirəndə isə dedi:

- Vaqif , bu qıza yazığım gəlir. Onun gözü Ayazdadır. Heç kimə gözünün ucu ilə baxmır. Bütün elcilərə düşünmədən yox deyir.

Atamın nə dediyini eşitmədim. Lakin o da nələrsə deyirdi. Bilmirəm qulaqlarım batmışdı , ya atam çox alçaqdan danışırdı. Gecə səhərəcən yata bilmədim. Günəşin halı məni narahat edirdi. Düşündükcə halım pis olurdu. Bundan sonra ümumiyyətlə onunla qarşılaşmamağa çalışdım.

Ayın sonunda Arzunun ayağının sarığı açılmalı idi. Fikrim orada qalmışdı. Səmanı həkimə qısqanırdım. Anama daha onlara getməyəçəyimə söz versəm də vaxt yaxınlaşdıqca Səmanın yenə də həkimlə qarılaşacağını düşünüb dəli olurdum. Həkimin qızı görəndə əldən ayaqdan getməyini unuda bilmirdim. Bir vaxtlar uşaqlığımı arxada qoyacağımı düşünsəm də indi həkimi balaca vaxtlarımda olduğu kimi döymək istəyirdim.

Axır ki, həmin gün gəlib çıxanda heç kimə qulaq asa bilmədim . Daha doğrusu mənə heç kim heç nə demirdi. Sadəcə özüm anamın sözünü xatırlayıb onlara getmək istəmirdim. Ancaq özümlə bacara bilmədim. Bir az həyətdə gözlədim. Onların ğözə dəymədiyini görüb bir başa xəstəxanaya getdim. Dəhlizi az qala qaça - qaça keçib Bəhruz həkimin otağına girdim. Həkim Səmanın qarşısında dayanıb əl qolunu ölçə - ölçə nə isə danışırdı. Arzunu əməliyyat masasında oturtmuşdu. O, başını qaldırıb məni görəndə: Cavan oğlan, qapını döymək lazımdır , -dedi. Onu dinləmədən içəri keçdim. Səmanın narahat görkəmi məni daha da əsəbləşdirdi. Guya onların çoxdan burada olduğunu bilirmiş kimi dedim:

- Bəhruz həkim, siz mühazirəni dərsdə oxuyarsınız , indi isə sarığını açmaq lazımdır.

Sözümü bitirər bitirməz Arzunu qucağıma alıb qapıdan çıxdım. Arxaya baxmırdım, maşına çatıb qabaq qapını açıb qızı orada oturtdum. Səma maşına mənimlə bərabər çatmışdı. Dönüb üzünə baxdım. O, qıpqırmızı qızarmışdı. Sıx kirpiklərinin arasında yaş oynayırdı. Qapını açıb : Otur, -dedim. Maşına minib səsini çıxartmadı. Heç birimiz danışmırdıq. Hara gedəçəyimi özüm də bilmirdim. Güzgüdə ona baxırdım . Yaxşı ki Səma mənə baxmırdı. O, iri ala gözlərini pəncərədən çölə zilləmişdi. Bayaqdan kirpiklərinin dibində səyrişən yaş indi gözünün içinə dağılıb üzü aşağı diyirlənməyə yer axtarırdı.

Nəhayət yadıma özəl bir xəstəxananı salıb maşını ora sürdüm. Qızları maşından düşürməmiş özüm düşüb həkim tapıb danışdım. Sonra yenə də Səmaya bir söz demədən Arzunu qucağıma alıb içəri apardım. Həkim sarğını açandan sonra sümüyün necə bitişməyini öyrənmək üçün bizi rentgenə göndərdi. Rentgen otağı bir necə mərtəbə aşağıda yerləşirdi. Hirsimdən Səma tərəfə baxmırdım . Amma onun da arxamızla gəldiyini hiss edirdim. Növbəmizi gözləyir və düşünürdüm. Axı mən kiməm? Nəyə görə özümü elə aparıram ki, guya ki mənim bu qıza nə isə bir söz deməyə hüququm çatır Birdənbirə Səmaya yazığım gəldi. Bəlkə məndən qorxur. Axı onun kimi kimsəsi yoxdur. Dəhşətli dərəcədə qanım qaraldı. Qızın görkəminə baxdıqca ürəyim göynəyirdi. Çox çarəsiz kimi görünürdü. Anamın sözü yadıma düşdü. Ayazın sadəcə o qıza yazığı gəlir Bizim növbəmiz çatmışdı. Arzunun ayağı yaxşı bitişmişdi. Mən Bəhruz həkimə tərif söyləmək istəmirdim. Maşına minəndə Səmanın könlünü almaq üçün nələr isə demək istədim bacarmadım.Çünki Bəhruzu xatırlayanda əsəbləşirdim. Evə çatanda yuxarı qalxmadım . Süleyman ilə Sübhəddin həyətdə idi. Onlar gəlib Arzunun qoluna girib kömək etdilər.

Anamgil Fidanın ad gününə hazırlaşırdılar. Anam gündə bir qərara gəlirdi. Gah məclisi evdə keçirmək istəyirdi. Gah

da ki, restoran tutmaq haqqında düşünürdü. Bizim evdə bəlkə də birinci dəfə idi ki, Fidana ad günü keçirirdilər. Anamgilin ən çox əzizləyib ad günü keçirdiyi uşaq mən idim. Mən də Fidanın ad gününü təntənəli keçməsini istəyirdim. Qız çox sakit və səssiz idi. Mənə elə gəlirdi ki atamgilin başını elə qatmışdım ki, yazıq qızcığaza diqqət yetirə bilməmişdilər. Mənim də dəstəyimlə anam yaxşı bir restoran tutdurdu.Qonaqların hamısı qohumlar idi. Evdə Günəşdən qaça bilirdim, burada mümkün olmadı. Onun tərəfinə baxmağa qorxurdum. Belə ki, qətiyyən Günəşin xətrinə dəyib incitmək istəmirdim. O , mənim ən sevimli uşaqlıq dostum idi. Arif əmimin oğlanlarından da, Günəşin öz qardaşından da onu çox istəyirdim. Çünki məndən kiçik olsa da oğlanların risk etmədiyi bütün işlərə mənimlə bərabər bir tək Günəş girişirdi. Ağacların ən son budağına birlikdə qalxırdıq. Dağların başına ikimizdən tez qalxan olmurdu. Su qızmamış çayda yalnız ikimiz çimə bilirdik. Ən çox göbələyi mən toplasam da Günəş məndən geri qalmırdı. Ramiz əmim qalan oğlanları başına yığıb gülməkdən ölürdü ki, siz Ayazla deyil, heç Günəşlə bacara bilmirsiniz. Ən əsası isə həmişə mənim tərəfimdə olurdu. Düşündükcə qanım qaralırdı. Anam qonqları elə oturtdu ki, Günəş mənimlə üzbəüz düşdü. Cöhrəyi rəngli paltar geyinmiş qız hədsiz gözəl görünürdü. Mən qıza təəccüb edirdim. İnsanda oğlan xüsusiyyətləri ola- ola necə qız kimi gözəl görünə bilər. Həm də elə bil geyim üzrə məktəb birirmişdi. Bilmirəm ,anam demiş, paltarlar ona belə yaraşırdı, yoxsa hər şeyi zövqlə seçirdi. Doğrudanda qız işıq saçırdı. Bütün məclisin, hətta kənar masalarda oturanların, hamısının gözü onda idi. Günəşin kefi yox idi. Çox məyus görünürdü. Anamın sözü yadıma düşdü. .”Günəşin gözü Ayazdadır, heç kimə gözünün ucu ilə baxmır”. Bir bəhanə ilə yerimi dəyişdim. Arif əmimgilin yanına keçdim. Ay allah, axı bu fikir Günəşin başına haradan düşüb ?- deyə düşünürdüm. Lakin özümə verdiyim suala özüm

də cavab verməli oldum. Sevgi insanın başına girəndə insanın xəbəri olmur. Hansı yolla , necə girisə girir. Mən əvvəl Səmadan zəhləm getdiyini düşünürdüm. Onun haqqında düşündükcə, halım pisləşə - pisləşə , gözümü açanda gördüm ki qız bütün varlığı ilə köçüb ürəyimə .

Məclis qızışmışdı , yeyib içib oynayanlar bir – birinə qarışmışdı. Günəşin keyi açılmırdı. Mən tərəfə gözünün ucu ilə də baxmırdı. Bir an anamın səhv etdiyini düşünüb sevindim. Qətiyyətlə bu sözün üstündə durdum. Və bundan sonra əhvalım düzəldi. Yeyib içənlərə qarışdım. O vaxtdan , hospitala düşən gündən bəri , birinci dəfə rəqs etdim. Tam özümdən razı halda kənar stolların birində oturub rəqs edənlərə , ən çox da Fidana baxırdım. Tanımayan olsa elə düşünərdi ki qız yeddinci , uzaq başı səkkizinci sinifdə oxuyur. Halbuki Günəşlə yaşıd idilər. Günəş artıq əsl günəş kimi şəfəq saçırdı. Anamın yanıldığını düşünəndən sonra uzun müddətdən bəri birinci dəfə Günəşlə də xoş rəftar edib, nələrsə danışdım. Lakin özümün özümü aldatmağım uzun çəkmədi. Arxamda səs duyub geri çevrildim. Günəş idi . lap mənimlə yan- yana olmasa da azacıq arxada olan stulda oturmuşdu. Boylanıb ətrafa baxdım, heç kəs yox idi. Hamı ortada rəqs edirdi. Lap başdakı masada iki - üç kişi qalmışdı ki, ortaya çıxmamış . Onlar da elə sərxoş idilər ki, ətrafda özlərindən başqa kimsəni gözləri görmürdü. Qışqıra - qışqıra sağlıq deyib bir - birinə tərif söyləyirdilər. Arxaya çevrilib səmimiyyətlə cavab verdim. Günəş qəribə görünürdü. Sanki özü burada , ruhu göylərdə idi. Zarafat edib dedim:

- Deyəsən atamla ,əmimgil içib sən sərxoş olmusan?

O, mənim sualıma cavab verməyib dedi:

- Ayaz, yadındadır bizi ilk dəfə dəniz qırağına apardığın?

Bir an söhbətin nədən getdiyini anlamasam da həmin günü xatırlayıb dedim:

- Yadıma salma , əsəbləşirəm.

Günəş yenə də sərxoş adamlar kimi dedi:

- Amma mənim həmin günü xatırlamaqdan xoşum gəlir.

Təəccüblə dedim:

- Anamın sözü olmasın, niyə pis şeylərdən xoşun gəlir?

O, həmin tərzdə dedi:

- Sənə oxşayıram.

Artıq Günəşə əsəbləşirdim. Zorla gülümsünüb dedim:

- Mənə? Mən pis nəyi bəyənmişəm?

Günəş oturduğu stoldan ayağa durub dedi:

- Həbsxanada yatan qızı.

O sözünü deyən kimi rəqs edənlərin yanına getdi. Hədsiz hirsləndim. Elə bil başıma bir vedrə su tökdülər . Doğrudan da , bu söz mənə çox pis təsir edirdi. Nə edəçiyimi bilmirdim. Söz ürəyimə güllə kimi dəymişdi. Günəşin sifətindəki ifadə gözümün önündən çəkilmirdi. O , Səmadan sanki iyrənirmiş kimi danışırdı. Məclisin axırına kimi zorla oturdum. Fidanın xətrinə dəymək istəmirdim. Günəş məni hirsləndirdiyini başa düşürdü. Ona görə əhvalı lap düzəlmişdi. Mənim yanımdan gedəndən sonra məclis qurtarana qədər oynadı.

Ertəsi gün işdə də fikirli idim. Məni ən çox məyus edən ağlıma gələn yeni fikir idi. Bilmirəm haradansa beynimə düşmüşdü ki, hospitalda yanıma gəlib , başımın üstündə göz yaşı tökən Günəş imiş. Yəqin anam da elə buna görə deyir ki, qızın gözü Ayazdadır. Hər nə qədər basımım üstündə göz yaşı tökənin Səma olduğunu zənn edəndə ürəyim titrəyib xoş hal olurdumsa , bu qızın Günəş olduğunu düşündükcə halım pisləşirdi, daha doğrusu ürəyim bulanırdı. Axşama qədər fikir içində cabaladım. Daxilimdən bir səs gəlirdi ki heç vaxt Günəşin səsi sənə təsir edib , sənə oyada bilməzdi. O səs tam başqa idi . Mən o səsi eşitməmişdim. Araşdırmağa çalışırdım, amma tanımırdım. Lakin daxilimdən gələn səs qalırdı bir yanda, o qızın Günəş olduğuna əminliklə inanırdım.

Sadəcə xəstə və halsız olduğum üçün Günəşi tanıya bilməmişdim. Səmanın :" Yox , mən deyildim",- cavabına inanmamışdım. Ürəyimin dərinliyində olan azacıq ümid də öldü. Doğrudan da Səmanın məndən qorxduğunu düşündüm. Ona görə də mənim qarşımda elə səssiz süst bir vəziyyətdə dayanır. Qıza daha da yazığım gəldi.

Həmin gün işdə necə işlədim, nə işlədim özüm də bilmədim. Evə qayıdanda anamın kefi kök olmağından bir şey anlamasam da, nədənsə onun bu halı məni narahat edirdi. Yemək yeyib otağıma keçdim. Günəş gözə görünmürdü. Onu nə görmək , nə də ki, səsini duymaq istəmirdim. Mənə elə gəlirdi ki ağzını açan kimi yeni bir söz tapıb Səmanı təhqir edəcək.

Otağıma keçib uzandım və az qala səhərə qədər düşünüb qərara gəldim ki, həyətimizdə deyil, universitetə gedib orada Səma ilə danışım. Lap hospitala gələn o olmasa da onu sevdiyimi qıza deyim. Hərçənd ki hospitala gələn o olmadığını düşünəndə halım pis olurdu. Hər halda, bu fikir məni sakitləşdirdi. Uyğun bir vaxt seçib universitetə gedəçəyimi düşündüm. Səmanın mənə nifrət etdiyini və ya məndən qorxduğunu aydınlaşdırmaq qərarına gəldim.

Günlər ötürdü, lakin qərarımı həyata keçirə bilmirdim. Hər gün guya çox ciddi bir səbəb tapıb getmirdim .Əslində isə əsl səbəb son ümidimin ölməyini istəməməyim idi.

İki gün bundan əvvəl , işdən evə qayıdanda , Sübhədini yenə dalanda gördüm. O, keçən dəfə ki kimi maşına əl etdi. Maşın dayanan kimi hoppanıb qabaq oturacaqda oturdu. Xeyli susub durdu. Bilirdim ki, nə isə demək istəyir, deyə bilmir. Onu darıxdırmaq istəmədim. Dərsindən, idmandan suallar verməyə başladım. Heç bir sualıma cavab vermədən gözünü döyüb üzümə baxmağa başladı. Hər ikimiz susduq. O , nəhayət dillənib dedi:

- Səma Süleymanla dalaşıb, ağlayır.

Çox təəccüb edib dedim:

- Niyə? Nəyin üstündə dava edirlər?

Sübhəddin dedi:

- Süleyman Fəridlə görüşür , evə pul gətirir. Bacım deyir Fərid onu pis yola çəkir. Tezliklə həbs olacaq.

Nədənsə bu hadisəni gözləyirdim.Özü də Sübhədinin deyil ,elə Süleymanın onun əl altısına çevriləcəyinə inanırdım. Dəhşətə gəlmişdim. Uşağın uyuşdurucu aludəçisi olmağından qorxurdum. Sübhəddini ətraflı danışdırsam da tam bir şey öyrənə bilmədim.Mat qalmışdım. Nə deyəçəimi bilmirdim. Sözün düzü inanmağım da gəlmirdi. Belə sərrast uşağın yoldan çıxmağı mənə qəribə görünüdü. Ən vacibi Sübhəddinə xəbərdarlıq etdiyi üçün sağ ol , - dedim . Sonra isə onu arxayınlaşdırıb, yola saldım . Bu işlə özüm məşğul olmalı idim. Amma necə , özüm də bilmirdim. Uşağın yazıq , aciz görkəmi gözümün önündən getmirdi. O , maşından düşəndə: Məni sənin yanına bacım göndərdi, -dedi. Deməli Səma mənə güvənirdi. Bu söz mənə hədsiz ruh verdi. Evə gəlib yemək yeyən kimi aşağı düşdüm Məhəllədə gedən hadisələrdən xəbərim yox idi . Mən elə uşaqlıqdan şuluq olsam da , əslində qaranlıq işlər haqqında heç nə bilmirdim. Bu barədə kimdən məlumat öyrənəçəyim haqqında düşünürdüm . Ağlıma ilk gələn Elman oldu. Onu döyən gündən bəri bir dəfə də olsun görməmişdim. Əslində görmək də istəmirdim. İndi isə onu tapmağa məcbur idim. Beş on dəqiqədən sonra Elmanın buralardan çoxdan çıxıb getdiyini öyrəndim. Nə isə bir işlər çeviribmiş, ələ keçməmək üçün aradan çıxıb. O gedən də gedib. Sən demə baş qoşsan bir saatın içində hər şeyi öyrənmək olarmış. Məhəlləmizdə nələr baş verirmiş. Qara işlər çevirənlər , qumar oynayanlar , qadın alveri ilə məşğul olanlar və .s. Fərid gələndən bu işlərin hamısında canlanma əmələ gəlibmiş. Fərid fəaliyyətini günbəgün artırırmış , deməli atam onu məhəllədən qovmasa idi o burada sağ baş gora aparmayacaq-

mış. Kafesinə yeni - yeni gənclər cəlb edibmiş. Bütün bunları öyrənsəm də Süleymanın adını ağzıma almaq istəmədim. Uşağın adının dillərə düşməyini istəmirdim. Ürəyimdə bu xəbərin yalan olacağına ümid edirdim. Nəhayət özümə lap yaxın bildiyim bir oğlanın yanında təzəcə xəbər tutduğum söhbətləri təzələdim. Dediyim kimi, məndən başqa hamı hər şeydən xəbərdar idi. İlham isə lap sirr dağarcığı imiş. Xəbəri olmadığı ailə yox idi. Bu qədər məlumatı haradan almışdı. Həm də ki, başqalarının həyat tərzi bunun nəyinə lazım idi ? Birdənbirə , yaxşı ki Fərid yetimləri də toruna salmayıb , dedim. İlham üzümə diqqətlə baxıb, yox, Süleymandan yeni gəncləri tora salmaq üçün istifadə edirdi. Özümü etinasız aparıb söhbətin sonunu gözlədim. Mənə məlum olan o oldu ki, Sühhəddin haqlı imiş. Sonra Fərid hələlik onu çox gözə soxmur. Lap vacib olanda çağırıb ondan istifadə edir,- dedi.

Qanım qarardı , demək Süleyman lap məşhurlaşmasa da artıq gündəmdə idi. Düşünürdüm ki, onu yanıma çağırım , lakin boynuna bir şey alacağına inanmadım . Çünki elə bir dəqiq şey bilmirdim. Hər halda , necə deyərlər , ip ucu əldə etmişdim. Onu boş buraxmayacaqdım.

Evə lap gec gəldim. Atam artıq yatmışdı , anamla Günəş kinoya baxırdı. Onlar birlikdə serial izləməyi sevirdi. Sonra bütün gün ərzində həmin serialı müzakirə edib , qəhrəmanların taleyi ilə yaşayırdılar. Ad günündən sonra demək olar ki, Günəşi görməmişdim. Amma axır vaxtlar bir şey hiss etmişdim , anamla qızın kefi ala buludda idi. Çox təəccüb edirdim. lap tutaq ki, anam Günəşə ümid vermişdi. Bu ümidə anam özü inanırdımı ki, belə sevinirdi. Bir də ki, Günəş indi qəribə olmuşdu. Bir vaxtlar mən içəri girən kimi mənə nə isə qulluq göstərməyə , söhbət eləməyə çalışırdı. Bir sözlə, məni özünə cəlb etmək istəyirdi. Amma indi elə onun bütün hərəkətləri səmimi idi. Lazım gəlsə nə isə edir, başqa vaxt isə gedib öz işi ilə məşğul olurdu. Bu məni sevindirdi. Evə gə-

ləndə gərginlikdən , sıxıntıdan bezirdim. Zəngi çalmaqdan zəhləm gedirdi. Çünki Günəşin əlindən zalda otura bilmirdim. Bütün gün işləyib yorulsam da axşam anamgillə oturub keçmişdən, gəlmişdən, qohumdan , qonşudan danışmaq istəyirdim . Məcburi otağıma keçib zindan həyatı yaşayırdım. Bu axşam isə tam başqa idi. Günəş salamımı alandan sonra mən tərəfə gözünün üçü ilə də baxmadı. Kino qurtaran kimi otağına keçib dərsim var,- dedi. Mən anamla oturub ləzzətlə söhbət etdik. Hətta bir azdan atam da oyanıb gəldi. Kişinin də rəngi ruhu xoşuma gəldi. O ,da nədənsə çox razı idi. Bu məsələdən bir şey anlamasam da bu hal həftələr idi ki, davam edirdi. Yəni Günəş kefi duru halda salamını verib yoxa çıxırdı. Mənim həbsxana həyatım sona yetmişdi. Bir vaxtlar şuluq uşaqlıq həyatım, sonralar , Fərrux müəllimin üzündən törətdiyim əməl , ən nəhayət uzun müddət xəstəxanalarda olmağım atamgillə birgə oturmağa imkan vermirdi. Amma axır vaxtlar demək olar ki, hər axşam gecə yarısına qədər birgə otururduq. Ən vacibi də o idi ki, anam məni sıxışdırmırdı. Halbuki bir vaxtlar əlinə məqam keçən kimi Günəşdən danışırdı. Günəşi mən də çox sevirəm və bəyənirəm . O mənim ən çox sevdiyim əmimin tərifəlayiq qızı idi. Amma bütün bunları mənə başqa məqsədlə demək lazım deyildi. Hər nə isə , indi tam sakitlik idi. Evdə elə bir mühit yaranmışdı ki, mənə elə gəlirdi ,bu fikir hamının başından çıxıb. Bir sözlə, evimizdə xoşbəxt idim. Hətta axşamlar Günəşin otaqdan çıxıb bizə qoşulmağını istəyirdim.

Bu arada mən Süleymanla məşğul olub, onu izlədirdim. Bir uşağa pul verib onun hara getdiyini, nə işlə məşğul olduğunu mənə xəbər verməyini istəmişdim. Uşaq hər gün bir xəbərlə gəlsə də ortada şübhə doğuracaq bir şey yox idi. O dərsə və idmana gedib evə dönürdü , heç həyətdə də çox görünmürdü. Hər halda mən onu izləyirdim. Cəmi iki üç dəfə Səma ilə üz- üzə gəlmişdim. Onda nə isə bir dəyişiklik hiss etdim. Hədsiz qanı qara idi. Gül kimi solmuşdu. Düzdür, mənə onun bu görkəmi çox

xoş gəlirdi. Səma hüzünlü bir görkəm alanda məhkəmədəki halı gözümün önünə gəlirdi. Və o vaxtkı kimi ürəyim yerindən oynayırdı. Səma elə kefsiz idi ki, bu müddətdə birinci dəfə mənə salam vermədi . Sanki məndən küsmüşdü. Nə qədər düşündümsə bir şey anlaya bilmədim. Bəlkə Süleymandan narahatdır deyə düşünürdüm. Sessiyanı qurtaran kimi Səma ilə açıq danışmaq fikrində idim. Məni bağışlamazsa onu ürəyimdən siləcəyimi düşünürdüm Bunu ancaq düşünürdüm. Silməyi bacaracağımı isə ağlıma sığışdıra bilmirdim.

Bu arada yeni xəbər yayıldı Fərid həbs olmuşdu. Anam eşidən kimi :" Su sənəyi suda sınar ", - dedi. Deyilənə görə insanın pis gününə sevinmək günahdır. Mən sidqi ürəkdən sevinirdim. Allah nəyin günah olduğunu özü bilir. Cəmiyyətə zərər gətirən, yeniyetməni uçuruma sürükləyən əxlaqsız birinin həbs olunmağına sevindiyim üçün özümü qınamırdım. Fərid dəfələrlə həbs olunmuşdu . Amma ən çoxu altı ay müddətinə . İndi isə uzun illər istirahət etməli olacaqdı. Çünki birlikdə yaşadıqları qadını amansızcasına qətlə yetirmişdi. Haqqında cürbəcür şaiyə gəzirdi. Bəzilər Fəridin bu hadisəni pula görə törətdiyini söyləsə də, əksəriyyət qadının pul qazanmaq məqsədi ilə yeni tapıb gətirdiyi qızla Fəridin münasibət qurduğuna görə dava düşdüyünü deyirdi. O , qadına on iki bıçaq zərbəsi vurmuşdu. Əslində elə o qadın da öləsi idi. Heç olmasıa ölümü ilə insanları bir axmaqdan xilas etmişdi. Elə həmin gün Süleymanla görüşdüm. Əlimdə heç bir sübutum olmasa da bir başa qətiyyətlə: Sən pis işlərlə məşğul olursan - dedim. O, üzümə elə baxdı ki, az qaldım mən səhv edirəm deyəm. Ancaq gözlədiyimin əksinə sakit bir tərzdə dedi:

-Fərid məni hərdən bir hara isə göndərirdi. Qarşılığında isə pul verirdi. Elə bizə gələn vaxtlar da mənə pul verirdi. Mən də pulun əvəzində nə isə etmək istəyirdim.

Hirslənib ayağa qalxıb dedim:

- Sən o pula görə nə iş gördüyündən xəbərdar idin? Həm başqasına uyuşdurucu daşıyıbsan həm də özün çirkaba, zindana

sürüklənmisən. Böyük oğlansan, Fəridin necə adam olduğunu , nələr etdiyini eşitmirsən ki, onunla əlaqə qurub ona xidmət edirsən?

Süleyman çox məyus halda dedi:

- Mən pul qazanmaq istəyirəm.

Təəccüblə dedim :

-Sizin pulunuz sizə yetmir? Ayda filan qədər pul alırsınız . Elə ailələr var o pulun dörddə biri ilə dolanır.

Süleyman mənə bir necə bəhanələr gətirib , özünü evin kişi hesab etdiyini , bununla bacı , qardaşına yardım etmək istədiyini danışdı. Və söz arasında bunların Fəridin nəsihəti olduğunu da dedi. Amma axır vaxtlar səhv etdiyini , pula şirnikib uçurum ağzında olduğunu özü də gördüyünü etiraf etdi. Hətta Fərid ona gələcəkdə daha ürəkli və riskli olmaq üçün yardım edəcəyini deyibmiş. Qoy bir az keçsin , səndən elə bir qəhrəman yetişdiräçəm ki, nəinki məhəllənizdə, heç bu boyda Bakıda sənin qabağına çıxa biləcək bir oğlan olmayacaq , deyə qızışdırırmış.

Süleymana uzun uzadı nəsihət etdim , yüngül tərzdə danladım. Və bu işin sonunun mütləq zindan və ya ölüm olduğunu desəm də , mənə bir şey aydın oldu ki, Fərid həbs olunmasa Süleymanı bu yoldan döndərmək mümkün olmayaçaqdı. Səmanın mənə güvənməyi boşa gedəçəkdi. O, təlimini elə vermişdi ki, az qala mən qulaq asıb , ona haqq verəçəkdim. Onunla çox səmimi görüşüb ayrıldım , amma Süleymanı gözdən qoymamağı qət etdim. Çünki necə deyərlər, uşaq hazır kadr idi. Tək bir addım lazım idi ki, yenə həmin yola düşsün.

Bir necə gündən sonra evimizdəki sevincin səbəbini öyrəndim. Dediyim kimi mənə hər şeyi ən axırda öyrənirəm. Heç vaxt bu xasiyyətimə açığım tutmasa da indi ürəyim dayanırdı. İstirahət günü idi. Yuxudan gec oyanmışdım . Atamla bağa getməli idim. Atam bağa təzə şitillər əkmək istəyirdi.

Atamın da işləməyə elə də sərişẗəsi olmadığı üçün , məndən şitilləri əkməyi xahiş etmişdi. Zirəddindən sonra bağa iki üç dəfə adam qoymuşduq . lakin heç biri düz əmməli bir şeyə yaramamışdı. Allahın suyunu açıb ağaclara su vermirdilər. İndi hal hazırda bağda kimsə qalmırdı. Atam o vaxtdan bəri ilk dəfə idi ki , məni fiziki işə buyururdu. Sağaldığıma sevindirdim. Odur ki , yaxşı əhval ruhiyə ilə səhər yeməyinə başladım . Anam da ki, az qalırdı qanaq taxıb uçsun. Yeməyimi yeyib atamı gözləmək üçün zalda oturub televizora baxırdım. Anamın nə isə demək istədiyini hiss edib dedim:

- Ana , nə olub? Bilmirəm, nədənsə mənə elə gəlir ki, sevinirsən.

Anam himə bənd imiş kimi açıldı nə açıldı:

- Əlbəttə sevinirəm , niyə sevinməyim? Həmişə narahat olurdum, deyirdim ki, Səmanı həbsxanada yatdığı üçün alan olmayacaq . Yazıq yetim uşaq bədbəxt olacaq. Şükür allaha, bir aya yaxındır ki, yaxşı bir ailənin oğlu əl çəkmir. Elçini elçi dalınca göndərir.

Dünya başıma fırlandı . Nəfəsim tıxandı. Anam danışırdı , mən heç nə eşitmirdim. Mənə elə gəlirdi ki, arvad ağzını açıb yumur və əcaib bir görkəmi var. Özümü zorla toplayıb dedim:

- Nə elçi? Kimdir ki, oğlan Səmanı haradan tanıyır?

Anam dedi:

- Oğlan həkimdir. Həm də tibb universitetində dərs deyir. Səmanın müəllimidir.

Elə bil boğazıma tıxac tıxanmışdı. Gözümün önünə Bəhruz gəlirdi. Anam məni fikirdən ayırıb dedi:

- Adı da Bəhruzdur. Öyrənmişik , yaxşı ailədir. Oğlan da lap əla oğlandır.

Öz səsimi özüm tanımaya - tanımaya dedim:

- Bəs qız nə deyir?

Anamın cavab vermək əvəzinə çiçəyi çırtladı. Özündən razı halda dedi:

- Nə deyəçək?. Allahına şükür etsin . Kim idi dustaq-xanada yatmış qızı alan?

Düzdür , sualı vermişdim , amma qulağımda çaylar axırdı, şəlalə şırıldayırdı, göy guruldayırdı, qatar durmadan fit çalırdı. Atamın içəri girdiyindən xəbərim olmamışdı. Kişinin üzünə baxanda bir nigaranlıq hiss etdim. Həm rəngi avazımışdı, həm də çox gərgin görünürdü. İndi anamgilin bu axır günlərdəki sevincinin səbəbi mənə aydın oldu. Demək onlar elə düşünürlər ki, mənim Səmaya yazığım gəldiyi üçün onunla maraqlanıram. Və beləliklə anamla Günəşdə də arxayınçılıq yaranıb. Məni də ona görə sakit buraxıblar. Atam mənim üzümə baxıb bağa getməkdən vaz keçdiyini söylədi. Həvəsim yoxdur ,-dedi. Sonra bir adam tapıb göndərərəm. Dərhal ayağa qalxıb:" Gedək " ,- dedim. Çünki evdə qalıb anamın söhbətlərini eşitmək istəmirdi. Burada hirsləniləçək , nifrət ediləçək tək bir adam var idi. O, da mən idim. Bu qədər vaxtda bir dəfə ona yaxınlaşıb sevgimi bəyan etmədim. Bir xoş sözlər demədim. Ürəyimdən keçənləri , hisslərimi ona acmadım. Nədənsə mənə elə gəlirdi ki, o məni aldatmışdı. .Axı mən onun ürəyini oxuyurdum , düşünürdüm ki Səma da məni sevir. Lakin bu fikrimlə razılaşmırdım. Əgər elə idi isə niyə həmişə müəmma qarşında qalırdım.

Bağa çatana qədər nə mən, nə də ki atam kəlmə kəsib danışmadı. Onu da deyim ki, kişinin qanı məndən də qara idi. Bağda etməyə söhbət tapdıq. Birgə ağaclara yer seçdik. Onları əkəndən sonra bağa, həyətə yüngülvarı əl gəzdirib geriyə döndük.

Ertəsi gün işə gedəndə Səma ilə rastlaşdım. Aman allah, qız tanınmaz dərəcədə arıqlamışdı. Çox solğun görünürdü. Demək rəngində qan yox idi. Salamlaşdıq . Maşını sürüb oradan uzaqlaşsam da mənə elə gəldi ki , qız nə isə demək istə-

yir. Düzdür, bu fikrə dəfələrlə gəlmişdim. Amma indi mütləq Səma ilə görüşməli idim. Yoxsa bunu bütün ömrüm boyu özümə bağışlamazdım. Özü də bunu tezliklə etməlim idim. Bəhruzun adamları gəlib ondan " Hə" sözünü alsalar mənim artıq onunla görüşməyim yersiz olardı. Odur ki, işdən gələn kimi onunla sabaha görüş vəd edəçəkdim. İşdə başım gicəllənirdi. Sabaha qədər necə dözəçəyimi düşünürdüm. İşdən bir az tez döndüm , Çünki işləyə bilmirdim. Özümü pis hiss etdiyimi deyib evə tez döndüm, yemək yeyib aşağı düşməli idim. Evə gələndə tanımadığım iki qadını görəndə ağlıma ilk gələn Günəş oldu. Belə ki , bu qadınların ona görə gəldiklərini zənn etdim. Anamla Günəş əldən ayaqdan gedirdilər . Masaya təzə ağ süfrə salıb, üstünü mürəbbələr və başqa şirin çörəklərlə doldurmuşdular. Paltarımı dəyişib mətbəxə keçdim. Günəş gəlib mənim üçün yemək isitdi. Qadınların kim olduğunu soruşmaq istədim, amma qızın utanacağını düşünüb susdum. Lakin Günəş susmadı , qız kəklik kimi qaqqıldayıb:" Səmanın elciləri ",- dedi. Qızın nəyə qaqqıldadığını başa düşmədim. Amma o gülüş mənə güllə kimi dəydi. Yeməyimi zorla yeyib aşağı düşdüm. Bir başa Səmagilə qalxacaqdım. Süleymanı güdmək üçün pul verdiyim oğlanla rastlaşdım . O məni görəndə qaça - qaça gəldi. Gələn kimi tövşüyünü alıb, " Ayaz , o uşaq indi də Fəridin ətrafında olan adamların yanına gedir", -dedi. Ayağımı saxlayıb təəccüblə dedim:

-Onlar kimdir, nə vaxt getmişdi?

Oğlan bildiklərini danışıb getdi. Ona getməmişdən əvvəl işini davam etməyi tapşırıb pul verdim. Oğlanı əvvəl görəndə hirslənmişdim. İndi isə sevinirdim. Səmagilə qalxmaq üçün əlimə bəhanə keçmişdi. Və belə etdim. Bir başa onlara qalxıb qapını döydüm . Qapını Arzu açdı. Onu görən kimi deyinməyə başladım ." Sən niyə qapını açırsan ?" Arzu gözünü döyüb üzümə baxırdı ki, qapıda Səma göründü. Səmanı görən kimi Arzu dedi:

-Bacım gözlükdən baxıb , gələn Ayazdır, aç qapını,- dedi. Mən də ona görə açdım. Arzunun sözünü eşidəndə Səma qıpqırmızı qızardı. Amma məni içəri dəvət etməyi də unutmadı. Keçib divanda oturdum. Haradan başlayacğımı düşünürdüm. Bayaqdan Səma tərəfə baxmamışdım. Başımı qaldırıb onun üzünə baxanda mat qaldım. Qızın ağlamaqdan gözləri göbələk kimi olmuşdu. Onun kətan kimi ağarmış sifətini görəndə hər şey yadımdan cıxdı. Bura niyə gəlidiyimi , nəyə görə gəldiyimi unutdum. "Niyə ağlamısan? "- dedim. Qız uzaqlara baxıb çiynini çəkdi. Bir an çaşıb qalsam da birdən ağlıma Süleymandan danışmaq gəldi. Elə də etdim , Süleymanın Fəridin adamları ilə görüşdüyünü dedim. Və Səmaya məsləhət etdim ki, onu qorxut , guya polisdən gəlib onu axtardıqlarını söylə ,- dedim. Bu məsləhət Səmanın xoşuna gəldi. Razılıq etdi. Amma Səmanın fikri harada idi bilmirəm. Bir onu bilirəm ki, qız yenə də ağlamaq istəyirdi. Yenə onun sözünü kəsib dedim:

- Niyə ağlamısan?

Səma dillənmədi . Ayağa qalxıb getməyə hazırlaşdım. Səmaya görə qanım çox qaralmışdı. Özümü zorla ala alıb səhər institutun qarşında onu gözləyəçəyimi dedim . O, ağlamaqdan süzülən gözlərini üzümə dikib:" Xeyr olsun ? "- dedi. Deməyə söz tapmadığım üçün səhər Süleymanın haqqında danışaçağam, sözümüz olacaq. Mən ayaqqabılarımı geyinirdim ,Səma isə əllərini sinəsində çarpazlayıb mənə baxırdı. Qız çox zəif bir səslə dedi:

- Ayaz, o vaxt hospitala gələn mən idim.

Dünya başıma fırlandı. Başımın tükləri biz - biz durdu. Qapıdan çıxanda Səmanın düz gözünü içinə baxıb: Bəs niyə mənə yalan dedin,- deyib, cavabını almamış , sabah institutun həyətində görüşərik,- dedim.

Bilmirdim sevinim yoxsa kədərlənim. Ayaz, hospitala gələn mən idim. sözünü dönə - dönə təkrar edirdim. Bir an dayanıb Səmanı gözümün önünə gətirirdim. Və bu cümləni onun ağzından eşidirdim. O axşam yemək yeməyib otağıma keçdim . Səhərin açıl-

mağını gözləyirdim. Səhər işdən icazə alıb institutun həyətinə gəldim. Vədə verdiyim zamana hələ bir saata qədər vaxt qalırdı. Amma Səma artıq orada idi. Qanı çox qara idi. Qızın yenə də ağlamış olduğu acıq aşkar bilinirdi. Salam kəlamsız : Axı niyə ağlamısan ? - dedim. Nədir dərdin ? Elçilin də gəlir ,nişana hazırlaşırsan. Bu nişanı sənin razılığınla etmirlər?

Mən danışırdım, Səmanın gözündən yaş axırdı. Özünü zorla toplayıb hıçqırıqlar içində zorla dilləndi:

- Nə edim , Ayaz , mənə dedilər allahına şükür et ki, elə bir həkim oğlan sənin kimi zindanda yatan bir qızla ailə qurmaq istəyir. Səninlə heç kim ailə qurmaz .Mən istədiyim adam mənimlə ailə qurmazsa nə etməliyəm?

Bu sözün kim tərəfindən deyildiyi mənə məlum idi. Anam belə deyib , qızı Bəhruza getməyə razı salıbmış. Səmadan Bəhruza getmək üçün razılıq alandan sonra isə sevincək olubmuş. Yəni doğurdanmı anam mənim bədbəxtliyim üçün bu qədər zəhmət çəkirmiş? Səmanın qarşımda durduğu yadımdan çıxmışdı. Fikrim anamın yanında idi. Düşüncədən ayrılıb dedim:

- Bəs mənə niyə yalan dedin? Mən sənin hospitalda olduğuna inanırdım. Bunu bütün varlığımla hiss edirdim. Daha doğrusu, o qızın sən olmağını arzulayırdım. Mən deyildim deməklə bütün arzularımı parça - parça etdin. Halbuki, məni həyata qaytarıb, bu həyata bağlayanın sən olmağını istəyirəm.

Səma ağlamağını kəsib dedi:

- Sənin bunu istəməyini bilsəm mütləq deyərdim.

Dedim:

-Mən belə istəyirəm. O qızın sən olmağını istəyirəm.

Səma dedi:

- Sən ayılana kimi hər gün gəlirdim. Anangildən gizlənsəm də onlar mənim --gəldiyimi bilirdilər .

Səmanın titrəyən əllərindən tutub dedim:

-Bəhruzun elçilərinin gəlməyini istəyirsən?

Səma yaşarmış gözlərini üzümə tikib:Yox, yox , yox , - dedi. Mən bu dünyada səndən başqa heç kimi istəmirəm. Neçə ki, həmin gün məni xilas etdin. O gündən sonra sənin xəyalınla yaşayıram.

Mən hər şeyin düzünü Səmaya danışdım. Onu ilk dəfə məhkəmə zalında gördüyümü, Fərruxun toruna düşdüyümü danışdım. Lakin Səma sözündən dönmədi . Bəhruzu istəmirəm, -dedi. Evə Səma ilə birlikdə gəldik . Maşından düşəndə Bəhruzun adamlarını qovaçam dedim . O, yenə də gözləri yaşarmış halda gülümsündü. Səmanı maşından düşürdüyümü heç kimdən danmaq fikrim olmadığı üçün onunla bir - iki kəlmə də söhbət edib sonra ayrıldım. Bilirdim ki, on dəqiqədən sonra xəbər anama çatacaq. Söhbəti onun başlamağını istəyirdim.

Düşündüyüm kimi xəbərin anama çatmağına on dəqiqə deyil, cəmi beş dəqiqə lazım oldu. O , heç ayaqqabılarımı soyunmağa aman vermədi. Mən xoşbəxt idim. Sevincimin həddi hüdudu yox idi. Anamın sözlərinə də hirsənmirdim. Çünki ürəyim sevinclə dolu idi. Orada artıq heç nəyə yer yox idi. Acmışdım , mətbəxə keçib yemək istədim. Anamın yemək vaxtı mənə heç nə deməyəçəyini bilirdim. Sözümü deyəçəkdim . Sadəcə sevincimi yaşayırdım. Yeməyimi ləzzətlə yedim . Mənə elə gəlirdi ki, heç vaxt belə dadlı yemək yeməmişəm. Sonra otağıma keçib yerimə uzandım. Atamın işdən gəlməyini gözləyirdim. Yerimə uzanan kimi gözümə yuxu getdi. Sanki qış yuxusuna getmişdim , ayıla bilmirdim . Halbuki atam gələn kimi bu məsələni açmaq istəyirdim. Bir təhər ayılıb zala keçdim. Atamgilin qanıqara olduğunu dərhal sezdim. Mən ağzıma açana qədər anam ağzını açdı nə açdı:

-Sən başqasının sözlüsünü maşınına niyə mindirirsən? Bir dəfə o qızı uçuruma yuvarladın bu sənə bəs etmədi. Bilmirsən ki, bu həftə onun nişanıdır? Bəhruz həkim eşidər, biabırçılıq olar , bayaqdan bəri heç bir söz vecimə olmasa da Bəhruz sözünü eşidəndə cin başıma vurdu. Elə bil bütün hiss-

lərim atama keçdi. Kişi yumruğunu masaya vurub elə bağırdı ki, özüm diksindim. Atamın qışqırığından sonra otaqda bir adam qalmadı . Əvvəlcə Fidanla Günəş , sonra da anam otaqdan çıxdı. Onlar gedəndən sonra otağa sükut çökdü. Az sonra atam tam sakit tərzdə elə bil ki, bayaqdan bağırıb o səsi çıxaran o deyildi dedi:

-Ayaz, sənin Səmadan xoşun gəlir?

Mən atamın üzünə baxmadan dedim:

- Ata , mən bu gün öyrəndim ki, xəstəxanaya gələn qız Səma imiş. Atam çox təəccüblə dedi:

-Bunu sənə kim deyib? Qız gəldiyini haradan bilirsən?. Axı qız gələn vaxtı komada idin.

Dedim:

-Ata , mən komada olsam da o qızı hiss edirdim. Səsini , ağlamağını duyurdum. Onun yalvarışlarına görə gözümü açmağa can atırdım. O səs məni qaranlıq bir quyunun dibindən çıxartdı. Ayılanda bütün bunları yuxuda gördüyümü düşündüm. Lakin o səsi yadımdan çıxara bilmirdim. Hətta səsin sahibini xatırlamaq istəyəndə gözümün önündə Səma canlanırdı. Mən onu unuda bilmirdim. Nəhayət bir gün ondan soruşdum. O isə mənə yox , mən deyildim , deyə cavab verdi. Bu cavab məni məyus etdi.

Atam sözümün arxasını deməyə qoymadı. Hər gün gəlirdi,- dedi. Düzdür məndən gizlənirdi, lakin tibb bacıları mənə xəbər verirdi. Atam məni arxasını danışmağa qoymayıb : Sən narahat olma,- dedi.

Atama güvənirdim. İçimə rahatlıq çökmüşdü. Atam verdiyi sözə əməl etdi, anam bir də o haqda söz danışmadı. Tək bir dəfə işdən gələndə təsadüfən onların söhbətinin şahidi oldum. Anam ağlaya - ağlaya deyirdi: Vaqif, dörd yetimi mənim uşağımın boğazından asmağa neçə razı olursan? Atam hirslənmək əvəzinə gülməyə başladı. Sonra isə: Demək sənin dərdin bu imiş,- dedi. Buna zərər yoxdur, elə bilirdim Səma-

nı istəmirsən. Mənim içəri girdiyimi hiss edib susdular. Anam özünü şən apardı. Elə bil bayaqdan göz yaşı tökən o deyildi.

Ən çətini Bəhruzun elcilərini qaytarmaq oldu. Oğlan qətiyyən əl çəkmək istəmirdi. Gündə bir adam göndərirdi. İstəyindən dönmək fikri yox idi. Onların minnətçilərinə mən hirslənsəm də , atamın xoşuna gəlirdi. Anama deyirdi ki, Bəhruz Səmanın müəllimidir , onun necə qız olduğunu bildiyi üçün ondan əl çəkmək istəmir.

Nəhayət ondan da qurtulduq . Evimizdə nişan söhbətləri başlamışdı. Atam Səmagildə məclis açmaq istəyirdi. Anama : Bazarlıq edim, get onlarda süfrə aç,- deyirdi. Anam isə nişan mərasiminin restoranda olmağını istəyirdi. Özü də atam bu işin tezliklə olmasını istəyirdi. Çünki mənim Səma ilə gizli - gizli görüşdüyümü bilirdi. O uşağın adını ləkələmə deyirdi. Sonda yenə də atam deyən oldu. Anam bütün hazırlıqları Səmagildə görməyə başladı . Ən vacibi də o oldu ki, arvadın kefi durulmuşdu. Onlardan gələndə dili ağzına sığmırdı. Yaxşı qızdır,- deyirdi.

Nişan günü çatana yaxın Günəş anamın minnətinə qulaq asmadan yığışıb Arif əmimgilə getdi. Nişanda iştirak etmək üçün isə gəlmədi. Ramiz əmimgil gəlmişdi. Qonşular qız tərəfdən iştirak edirdilər. Anam Səmanı qəşəng bəzəmişdi, çox gözəl görünürdü. Geyindiyi qırmızı paltar ona çox gözəl yaraşırdı. Saçlarını qadın salonunda darayıb qırmızı çiçəklər düzmüşdülər. Bunların hamısını anam etdirmişdi. Anamın Səmaya göstərdiyi qayğıya təəccüb etsəm də, atama minnətdar idim. Səmanın gözəlliyinə sevinc qarışmışdı . Sən demə sevinc elə gözəlliyə bərabər imiş. Qız nur saçırdı. Nişan mərasimi yaxşı keçdi , pis keçdi bilmirəm , biz xoşbəxt idik. Mənə elə gəlirdi ki, yuxudayam , komadayam lakin bir qız məni səsləyir. O, qızı hiss edirdim , duyurdum, ayılmağa can atırdım. Və ayıldım , bunun yuxu deyil həqiqət olduğunu gördüm. Mən həmin gözəlin barmağına üzük taxırdım.

Nişanla toyumuzun arası elə də uzun çəkmədi. Atam uzatmağın nə mənası var dedi. Kişi mənə düz Səmagilin blokunda ev aldı. Təsadüfən onlardan bir mərtəbə yuxarıda mənzil satılırdı. Yeni təmirdən çıxmış üç otaqlı mənzil çox xoşuma gəldi. Evi alandan bir iki gün sonra anam çox təəccüblə atama Vaqif, bu Turab əməlli başlı pul qazanırmış, - dedi . Atamla anamın üzünə baxıb nə demək istədiyini öyrənmək istəyirdik ki, anam atamın qarşısına əmanət kitabçası qoyub bunu ona Səma veridiyini söylədi. Səma anasının həmişə sənin cehiz pulunu ayrıca qoymuşuq sözünü eşidirmiş . Lakin o pulun harada olduğunu bilmirmiş . Sənədlərin arasında isə əmanət kitabçası olduğundan da xəbərsiz imiş. O, pula görə hər yeri axtardığını söyləyirmiş. Atam kitabçanı əlinə alıb böyük məbləğdə pul olduğunu görüb dedi:

- Səidə, bu pulu Səmaya qaytar. Mən evi aldığım kimi içini də bəzəyəçəm . Qız bu pulu lazım gələndə uşaqlara xərcləyər. Anam bilirdi ki, atam nə deyir onu da edir , odur ki, pulu Səmaya qaytardı. Daha doğrusu, əmanət kitabçasını. Toyumuz bol məhsullu, barlı bərəkətli qızılı payız fəslinə düşdü. Bir vaxtlar həbsxanadan azad olanda da payız idi. Neçə ki, onda gözümdə hər şey gözəl görünmüşdü İndi də dünya cənnətə dönmüşdü. Xoşbəxt idim. Toydan çəmi bir gün əvvəl həyətdə Fərrux müəllimi gördüm. Bilmirəm nədənsə məni iki hiss bürüdü. Ona hər nə qədər nifrət edirdilmsə içimdə ona qarşı bir minnətdarlıq var idi. Mən Səma ilə onun sayəsində tanış olmuşdum. Səmaya görə , daha doğrusu onu tanıdığıma görə , Fərruxu bağışlamaq istəyirdim . Onsuz da bədbəxt oğlu pis gündə idi. Hədsiz kökəlmişdi. Ayaqları şişib kərən kimi olmuşdu. Mənə elə gəlirdi ki, gözləri heç nə görmür. Gözündə həmişəki

kimi qara eynək var idi. Bu eynək daha tünd rəngli idi. Gözü görünmürdü. Anam demiş , Fərrux murdar gözlərini gizlətmişdi. Üzünü əlindəki asanın başına söykəyib oturmuşu

.Elə bil son günlərini yaşayırdı. Nə isə ürəyim bulandı. Oradan uzaqlaşıb onu unutmağa calışdım. Ömrümün xoş gününü Fərruxun murdar xatirəsi ilə murdarlamaq istəmədim.

Günəş nişanda gəlməsə də toya gəlmişdi. Onun tərəfinə baxa bilmirdim. Bəlkə də qohumların arasında ən çox sevdiyim bir adama nifrət edirdim deməzdim, amma acığım gəlirdi. Çünki axır vaxtlar onun üzündən nələr yaşadım bir allah bilir. Nə onun xətrinə dəymək istəmirdim, nə də ki, kiminsə bu münasibəti bilməyini istəmirdim. Atamın sayəsində arzuma qovuşdum. Gözümlə atamı axtardım . Əmilərimlə çiyin çiyinə oynayırdı , xoşbəxt idi. Anam da oynayırdı , onun xoşbəxt olub olmadığını başa düşmürdüm. Özünü şən göstərirdi. Mənim isə uçmağa qanadım yox idi. Vallah, bu məhəbbət mənlik deyildi , göydən gəlirdi. Nə qədər çalışsam da Səmadan başqa heç kimin haqqında düşünə bilmədim. Səma isə çox sakit görünürdü.

Toydan çəmi bir həftə sonra , anamın dediyi kimi , çox uşaqlı ataya çevrildim. Uşaqların böyüyü Səma idi. Mən bu qızın evi necə idarə etməyinə təəccüb edirdim. İşi gücü , səliqə sahmanı yerində idi . Sadəcə o, da uşaq kimi idi. Bu qayğıkeş atalıq hissi məni bezdirmirdi. Əksinə , elə bil böyüyüb sanballaşmışdım. İlk günlər bir az Süleymanla çətinliyimiz oldu. Nə mənada o , mənə çox hörmətlə yanaşa da nə isə vurnuxduğunu hiss edirdim ona görə də onu izlətdirməyə davam etdim. Onu yoluna qoymaq çox uzun çəkmədi. Süleyman tam sakitləşib, evə yığışdı. Əslində bu yetimləri Ayazın boğazından asma deyən anam , doğrudan da onların məni narahat etməyini istəmirdi. Demək olar ki, hər şeyi öz üzərinə götürmüşdü. Süleymanı bəlkə də o yoluna qoydu. Süleyman pis uşaq deyildi . Onu Fərid tam başqa cür tovlayıb yolundan çıxarmışdı. Guya o evin kişisi idi. Heç bir çətinlikdən qorxmadan pul qazanmaq istəyirdi. Anam gecə gündüz ona dərs dedi. Bizim bu çətinliyimiz çəmi doqquz ay çəkdi . Əkiz qız-

larımız dünyaya gələndən sonra əsas oğlanlar , elə Arzunun özü də uşaq baxıcısına çevrildi. Demək olar ki, uşaqdan xəbərimiz olmurdu. Anam hər dəfə onlara dua edəndə atam deyirdi:Yazıq uşaqlardan əl çəkmirdin ki, oğlumun boğazından asılaçaqlar. Atalar deyib: əl-əli yuyar, əl də qayıdıb üzü yuyar. O, uşaqların Ayaza heç bir ziyanı yoxdur, əksinə , həmişə ona dayaq olacaqlar. Hərdən bir uşaqlara acığım tuturdu. Çünki qızlar məni yox , onları istəyirdi. İşdən yorğun gəlib onları az da olsa oynatmaq istəyəndə ağlayıb Sübhəddinə getmək istəyirdilər.

İllər ötdü. Süleymanı pul qazanmaq yolundan qaytara bilmədik. Atam nə qədər cəhd etsə də dərs oxumağa meyl göstərmədi. Lakin pulu əyri yolla deyil , halal zəhmətlə qazandı. İlk günlər xırda xuruş maşın hissələri alıb satmağa başladı , get - gedə daha böyük və qiymətli avtomobil hissələri alıb satdı. Əlinə azacıq maya salıb atamın yanına gəlib məsləhət istədi. Atam onların öz obyektlərinin müştərisini çıxarıb ona maşın hissələri mağazası açmağa kömək etdi. Səma atasının əmanət kitabçasından çıxarıb pul verdi. Süleyman alverində elə uğur qazandı ki, bir ildən sonra Səmadan aldığı pulu geri qaytardı . Mən özümü tutmuşam , uşaqlara xərçləyərsən -dedi. Sübhəddin tam ayrı yol tutdu. O , kompyuter üzrə müvəffəqiyyət qazandı. Məşhur proqramçı idi. Yaxşı maaş alırdı. Arzu əksəriyyət vaxt anamın yanında olurdu. Anam onu az qala Fidan qədər sevirdi.

Bu gün işdən çox keyi duru qayıdırdım . Heç gözləmədiyim halda məni baş idarəyə çağırıb xeyli tərif edəndən sonra filial müdiri təyin etmişdilər. Çox sevinirdim. Maşını bir başa xəstəxanaya sürüb xəbəri birinci Səmaya verdim. İşin sonuna hələ xeyli qalmağına baxmayaraq Səma də xələtini soyunub mənimlə gəldi. Birlikdə anamgilə qalxıb sevincimi onlarla paylaşmaq istəyirdim. Atamın sevinəcəyini düşündükcə tələsirdim. Həyətimizə girəndə üzbəüz binanın blokundan beş

altı nəfərin xərəklə bir nəfəri təcili yardım maşınına mindirdiklərini görüb maşını saxlayıb düşdüm. Nə baş verdiyini soruşub, Fərruxun dünyasını dəyişdiyini eşitdim. Nədənsə qanım bərk qaraldı . Həm də yaşlı qadının sözünü düşünürdüm. Fərrux rəhmətə gedib deyil, sadəcə Fərrux dünyasını dəyişib, dedi. Mənə elə gəldi ki, qadın qəsdən belə deyirdi. Çünki hamı bilirdi ki, adamın rəhmətdə heç bir işi yox idi. Səmanın yanına döndüm , Fərruxun adını çəkmədən bir kişinin öldüyünü dedim. Biz bu müddət ərzində bir dəfə olsun Fərruxun adını çəkməmişdik. Arzu qızları həyətdə gəzdirirdi. Onları da götürüb yuxarı qalxdım. Anam bizi görən kimi: Fərrux öldü ,-dedi . Səmanın qızardığını görüb cəhənnəmə ölsün demək istədim ,lakin üstündən vaz keçib filial müdiri təyin olduğumu söylədim.

Günəş çox gec ailə qurdu. Hətta allahın Fidanı ondan əvvəl ərə getmişdi. Səma bu xəbəri mənə verəndə sevincimin həddi hüdudu olmadı. Mütləq bizim də rayona toya gedəcəyimizi dedim. Rayonun yaxşı vaxtı idi. Necə il idi ki oraları görmürdüm. Lap burnumun ucu göynəyirdi. Həm də sevincək olmuşdum. Deyilənə görə Günəş yaxşı bir ailənin oğlu ilə ailə qururdu. Oğlanın atası atamgilin qohumu olmaqla yanaşı çox təmiz ,yaxşı adamlar idi.

Atamgil bizdən bir həftə əvvəl Yaqutla Firuzəni götürüb getmişdilər. Səma Arzuya sən mənimlə gedərsən desə də , həmişəki kimi o , da anamla getdi. Səma ilə mən şənbə günü yola düşdük . Toy istirahət günü idi. Şəhərdən çıxıb birdən birə təbiətin qoynuna düşmək ləzzət verirdi. Yamyaşıl talaların sinəsindəki qıpqırmızı lalələklərə baxmaqla doymaq olurdu. Elə laləli tala görəndə maşını saxlayıb düşürdüm. Əsən zərif mehin titrətdiyi çiçəklər adamın ruhunu sığallayırdı. Quşların səsi bir birinə qarışmışdı. Az qalırdım qışqırıb deyim :"Ey , bir - bir oxuyun".

Toydan qayıdanda nəşəm pozulmuşdu. Günəşi görüb qanım qaralmışdı. Rayona sevinə - sevin getmişdim . Uşaqlıq dostumu , əsil bacımı yenidən qazanmaq üçün getmişdim . lakin mümkün olmadı. Günəşi toydan əvvəl görmədim. Təbrik edib xoşbəxtlik arzulamaq istəyirdi. Toyxanada yaxınlaşmaq istəyirdim ki, gözüm bayaqdan fikri qonaqlarda olan qıza sataşdı. İlahi , Günəşin gözündən kin yağırdı. Bir an mənə elə gəldi ki, qızın gözündən iki ox çıxıb ürəyimə dəydi. Elə bil ki əllərini uzadıb məni arxaya tərəf itələyirdi. Bir təhər özümü toplayıb ona yaxınlaşdım. Bəyə əl uzadıb tanış oldum. Günəşə başımla salam dedim. Onsuz da mən tərəfə baxmayan qız gözündə halqalanmış yaşı gizlətmək üçün Yaqutu qucağına alıb başını onun sinəsində gizlətdi. Çox pis oldum. Axı mən ona həmişə qardaşım deyirdim. Hamı mənim bu sözümə gülürdü. Qardaşlarımın arasında ən çox güvəndiyim Günəşdir deyirdim.

Yol boyu heç nəyi , nə qıpqırmızı lələliyi, nə də ki, çiçəkli yamacları görmürdüm. Allahdan Günəşə xoşbəxtlik arzulayırdım . Bu axmaq fikir başına haradan düşüb deyə deyinirdim. Birinci dəfə bu hissinə görə Günəşə yazığım gəldi. Axı qəfil aşiq olmaq cağrılmamış qonaq kimi idi. Qəlbinə nə vaxt , neçə girdiyini özün də bilmirsən. Mən Səmanı başımdan çıxara bilərdimmi görəsən ?- deyə düşünürdüm.

Səma nələrsə danışırdı. Günəşin gözəlliyindən, belə gözəl qızın gec ailə qurmağından, bəyin də yaraşıqlı oğlan olmağından və daha nələrdən. Mən heç nə eşitmirdim. Elə bil ki, ən qiymətli sərvətimi itirmişdim.

Atamgil hələ gələn həftə qayıdacaqdılar . Səma ilə mən işdən qala bilməzdik Uşaqlar da onlarla qaldılar. Bütün yol boyu məyus olsam da Bakıya çatana yaxın özümü zorla əla aldım. Hər halda Günəşin xoşbəxt olacağına ümid edərək sakitləşdim.

Balaca Vaqifin dünyaya gəlməyi anamın başının qarışıq vaxtına düşmüşdü. Atam öz adını böyük həvəslə nəvəsinə vermişdi. Kişinin sevincinin həddi hüdudu yox idi. Anam isə bir aya

yaxın idi ki, Süleymanla Sübhədiinin elciliyində idi. Belə ki, oğlanların ikisi də ailə qurmaq fikrində idilər. İkisinin də sevib seçdiyi qız var idi. Anam isə arayıb araşdırıb qızların haqqında məlumat toplayırdı. Tam arayıb öyrənəndən sonra da ikisinin də evinə ayaq açıb elciliyə deyil , tanışlığa gəlmişəm demişdi. Ona görə də anamın başı qarışıq idi. Onlar da anamı çağırıb sorğu sual edirdlər . Anam evə dönəndən sonra danışmaqdan doymurdu. Hər ikisinə halal olsun,- deyirdi. Elə qızlar tapıb seviblər ki, ayağıma dəmir carıq geyinib ,əlimə dəmir asa alıb şəhərin başından düşüb ayağından çıxsam belə ailə, belə qız tapa bilməzdim. Anam onların əsl kökündən , güzəranından danışdıqca atam əsəbləşib : Ay qız, bəsdir də,- deyirdi. Hələ bir uşağın qayğısına qal , qoy heç olmasa bir iki aylıq olsun , sonra başla də bu araşdırma işlərinə.

Anam heç bir işini yarımçıq qoymadı. Vaqiflə də baxırdı ,elciliyini də edirdi.

Uşaqlar toylarını birlikdə etmək qərarını vermişdi. Bu onların öz fikri idi. Atam nə qədər israr etsə də, hər kəsin öz toy payı var desə də, heç biri razılıq vermədi. Bu onların əkizliyində irəli gəlirdi , ya da ki, həyat belə gətirmişdi, bilmirəm , axır ki toylarını bir yerdə etmək qərarına gəldik.

Vaqif artıq altı aylıq idi. Mən həyatımdan çox razı idim. Vaqifin dünyaya gəlməyi məni daha da xoşbəxt etmişdi. Mənə elə gəlirdi ki onu qızlardan çox sevirəm. Bilmirəm bu belə idi ya yox , amma belə bir söz deyirlər ki, ilk uşaq insanın son oyuncağı, ilk nəvə isə ilk övladıdır. Doğrudan da qızlar dünyaya gələndə atamla anam o qədər sevinirdi ki, mən qızlara onların övladı dünyaya gəlmiş kimi baxırdım.

Səma da xoşbəxt idi, çünki təkcə mənim sevgim deyil , atam anamın qayğısının əhatəsində idi. Mənim onunla ailə qurmağıma mane olan anam indi Səmanı hamımızdan çox istəyirdi. Bir də ki, bu illər ərzində mən ona inandıra bilmədim ki, o pulu siyirmə qarışıq mən aparmışdım. Nə inanmırdı , nə də inan-

maq istəmirdi. O vaxtdan necə başına batırmışdısa eləcə də qalmışdı. Onun bildiyinə görə oğurluğu Elman etmişdi. Mən sadəcə ondan siyirmə ilə pulu alıb Səmanı xilas etmişdim. İllər sonra buna mən özüm də inanmağa başlamışdım. Bu olmayan həqiqət mənim çox xoşuma gəlirdi. İçimə bir sakitlik gətirirdi. Gələcəkdə bu hadisə uşaqlarıma belə çatacağı üçün sevinirdim.

Axır günlər evimizdə möhkəm hazırlıq gedirdi. Uşaqların toyu yaxınlaşırdı. Bu işlərdə mənim fəaliyyətim çox az idi. Çünki vaxtım olmurdu. Əsas banka müdir təyin olmuşdum. Süleymana söz vermişdim Ki, istirahət günü aldığı mənzilə baxmağa gedəcəm. , o şəhərin yaxşı yerində yeni tikilən binadan mənzil almışdı. Anam ilə Səma baxmışdı. Səma çox sevinirdi, amma mənim də mütləq baxmağımı istəyirdi. Bu gün , dediyim kimi , mənzilə baxmağa getməli idim. Yuxudan oyananda Səmanı səslədim , səs səmir gəlmirdi. Qalxıb otaqları gəzdim , heç kim yox idi. Yəqin ki anamgilə ya da ki, öz evlərinə getmişdi. Mətbəxə keçib çaydanı ocağın üstünə qoydum , elə bu vaxt qapının zəngi çalındı. Əvvəl Səmanın gəldiyini zənn etdim , sonra o olsa özü qapını açardı , deyə düşünüb qapıya tərəf getdim. Qapının arxasında tanımadığım gənc bir gəlin dayanmışdı. Hamilə olduğu aydın bilinməsə onun az yaşlı qız olduğunu düşünərdim. Təəccüblə ona baxıb səhv gəldiyini zənn etdim. Lakin o , məni görən kimi :Ayaz qardaş,- dedi ,

Mənim Səma bacıya sözüm var.

Yenə də təəccüblə dedim:

- Nə söz? Səma yoxdur , gələndə gələrsən.

Qapını örtmək istədim , lakin qız az qala əlini uzadıb qapını örtməyə qoymadı. Nədənsə xəfifcə titrədi. Sonra kimdənsə qorxurmuş kimi sağa - sola boylandı. Qızın hərəkətləri məni daha da narahat etdi. Qollarımı sinəmdə çarpazlayıb sakitcə :Səni dinləyirəm - dedim. O, səsi əsə - əsə dedi:

- Ayaz qardaş , mən Səma bacigilnən üzbəüz mənzilə gəlin gəlmişəm . O, ailədən heç kimi tanımıram .Onların haqqında

qaynanamgildən eşitmişəm. Amma artıq bir aydır ki, hər gecə yuxumda Səma bacının anasını görürəm. Yəni o qadın deyir Səmanın anasıyam.

Qızın başında nə isə bir xarablıq olduğunu düşündüm. Hamilə və uçunan görkəminə baxıb yazığım gəldi. Nə deyəçəyimi düşünürdüm. Qız mənim ürəyimi oxuyurmuş kimi dedi:

- Bu sözü evdə deməyə qorxuram , mənə lağ edirlər. Başın xarabdır deyirlər. Amma o qadın məndən əl çəkmir . Hər gecə yuxuma gəlir, get bu sözü Səmaya de , deyir. Yuxumdan çəkiləndə də deməsən sabah yenə gələçəm deyir.

Qız yenə də ətrafa boylandı. Təəccübüm iki qat artdı. Qızın həyəcanı mənə keçdi. Boğuq və hirsli bir səslə dedim:

- Səmaya nə de deyir axı anası?

Qız hirsləndiyimi başa düşüb qızardı. Həyəcanının daha da artdığını hiss etdim. Canını qurtarmağa çalışırmış kimi dedi:

- O deyir mənim oğlanlarımın toyudur. Mənim son hədiyyəmi onlara çatdır.

Başımın tükləri biz - biz durdu , qarşımdakı qız mənə qəribə göründü. Bayaq dəliyə oxşatmışdım . İndi də cadugərə bənzətdim. O isə sözünün arxasını da deyib yoxa çəkildi.

Heç vaxt möcüzəyə , dini inanclara inanmırdım. Bunu məni tanıyanların hamısı bilirdi. Belə söhbətlərə qulaq da asmırdım. Mən bir Allahımı tanıyırdım. Qız çoxdan getmişdi , qapının arasında bayaqkı vəziyyətdə durmuşdum . Qızın sözlərinə inanmasam da artıq sözün sehrinə düşmüşdüm.

Çay zad içməyə marağım qalmamışdı . Qulağıma qızın səsi gəlirdi:

- Səmaya de ki, güllü üzlü yastığın içində uşaqların adına qızıl alıb saxlamışam , onu götürsün. Son hədiyyəmi balalarıma çatdırsın.

Qayıdıb yerimə uzandım . Yenə deyirəm , onun sözünə inanmırdım. Lakin bir ananın övladlarının toyu olacağını hiss etməyi mənə qəribə gəlirdi. Səma gələnə qədər o barədə düşün-

düm Bu nəticəyə gəldim ki, bu qız bura gəlin gələndən bu ailənin haqqında müxtəlif sözlər eşidib. Yəqin ki, vaxtı ilə onların yaxşı yaşadıqlarını , filanı da eşidib ona görə belə yuxular görür.

Səma günorta gəldi. Yemək yeyib Süleymanın evinə baxmağa getdim. Doğrudan da çox gözəl ev idi. Yaxşı da təmir etdirmişdi. Dönə - dönə afərin,- dedim.

İlk günlər qızın yuxusu haqqında danışmaq istəmədim. Səmanın narahat olub, ağlayacağını düşündüm. Amma indi də mən o qızın gününə düşmüşdüm. Elə bil ki kimsə silkələyib bu sözü Səmaya de deyirdi. Bir necə gün də vurnuxub nəhayət qızın gəlişini, yuxusunu Səmaya danışdım. Səma kətan kimi ağardı . Təəccüblə üzümə baxıb: O qız bizim güllü yastığımız olduğunu nə bilir? - dedi. Nə olsun ki, hamının güllü yastığı ola bilər,- dedim. Bir müddət ikimiz də susub durduq . Birdən Səma oturduğu yerdən qalxıb yataq otağına keçdi. Yerindən duranda özü də o yastıq məndədir , gələndə özümlə gətirmişəm,- dedi . Qəhqəhə ilə gülüb , yəqin qonşular yastığı gətirdiyini görüb içində qızıl olduğunu zənn ediblər, deyə düşündüm . Səma əlində qırmızı güllü bir yastıqla otağa gəldi. Siyirmədən qayçını götürəndə daha da gülməyə başladım. Qız isə elə söküb tökürdü. Birdən əli ilana dəymiş kimi dik sıçradı . Əlindəki yastığı da , qayçını da bir kənara atıb: Bura da nə isə var , - dedi. Gülüşüm dodağımda qaldı. Səma yastığı kənara qoyub üzümə baxırdı. Öz özümə çiynimi çəkə- çəkə əyilib yerdən yastığı götürdüm . Əvvəlcə əlimi çöl tərəfdən üzünə çəkdim. Qəribə də olsa künclərdə deyil , düz ortada nə isə bərk bir şey var idi. Əlimi Səma kəsdiyi yerdən içəri saldım. Yastığın düz ortasında əmməli başlı bir şey var idi. İndi qayçını mən əlimə aldım . Nəhayət yastığın ortasından bir dənə də balasa yastıq çıxdı. O yastığı da kəsib tökdüm. Oradan çox da böyük olmayan bağlama tapdım. Bağlama əlimdə donub yerimdə qalmışdım. Bunun nə olduğundan çox qızın yuxusuna mat qalmışdım. Bağlamanı aç-

dım. İçərisindəki bir kom qızıl əlimdən yerə töküldü. Mən Səmadan bərk təəccüb etdim. Hər ikimiz donub qalmışdıq . Səma yerdən oturub qızılları ətəyinə tökdü. Hər şeydən iki dənə idi, yaxşıca çəkisi olan zəncirlər ,həmin modeldə olan bir cüt bilərzik. Qiymətli daşlardan olan sırğa üzük dəsti və iki dənə dəbdə olan saat. Səma özünə gələ bilmirdi. Kətan kimi ağarmışdı. Məni heç nə belə təəccübləndirə bilməzdi. O qız mənim öz qarşıma çıxıb yuxusunu danışmasaydı , başqasına inanmazdım. Axşam tərəfi anamgil gəlmişdi. Bu inanılmaz xəbərin haqqında maraqla danışırdılar. Səma sanki hər şeyi olduğu üçün çatdırmaq istədiyi üçün kəsilib doğranmış yastığı , onun icərisindəki kiçik yastığı o tərəf bu tərəfə çevirə-cevirə anamgilə göstərirdi. Söhbətə qarışmasam da bütün həyatım gözümün önündən kino lenti kimi keçirdi. Səma ilə mənim aramda heç bir məhəbbət olmadığı bir vaxtda haqqımızda böyük bir məhəbbət dastanı yarandığını , xəstəxanada olarkən Səmanı gözü yumulu hiss etdiyimi, anamın mənim Səma ilə ailə qurmağımı istəmədiyini, indi isə Səma və onun körpələri ilə şirin - şirin danışıb gülməyini ,hamısını gözümün önünə gətirib mən inansam da , inanmasam da dünya möcüzələrlə , sirlərlə dolu olduğunu düşünürdüm. Bu dünyanın başdan başa sirlərdən ibarət olduğuna indi inanırdım. Səməd Vurğunun Komsomol poemasından bir misrasını xatırlayırdım.

Bir yandan boşalır , bir yandan dolur.
Sirrini vermir sirdaşa dünya.

Və elə ona görə də sirlərlə dolu bu dünyanın gələcək surprizlərini gözləməyə başladım.

HEKAYƏLƏR

RAFİQİN SƏFƏRİ

Böyüyüb boya başa çatdığım ailə elə ailə idi ki, gözümü açandan bəri demək olar ki, bütün ölkələri gəzmişdim. Lakin hara getsək də qayıdanda babamla nənəm bir söz işlədərdi. ." Gəzməyə qərib ölkə , ölməyə vətən yaxşıdır." Qəribədir, onlar bütün ölkələrin adət ənənələrini , yaxşısını - pisini bilir, amma nə olur olsun sonda vətənimizi tərifləyir, ən yaxşı qiyməti öz ölkəmizə verirdilər. Dünyanın ən hündür şəlaləsini , sıx meşəsini , uça dağını, sərin bulağını , coşqun çayını təsvir edib, axırda ən gözəl şəlalənin , meşənin, dağın , çayın Azərbaycanda olduğunu söyləyirdilər. Mən valideynlərimin, babamla nənəmin savadına, dünya görüşünə , məntiqinə bələd olmasam onların bu sözlərinə təəccüb etməzdim. Axı niyə hər yeri tanıya - tanıya, bilə - bilə belə danışırdılar , bilmərəm. Mən demirəm ki, Azərbaycanın gözəl təbiəti , cənnəti xatırladan mənzərəsi, dənizi , gölü , çayı yoxdur ,amma bütün dünyanın daha da gözəl yerlər var idi.

Beləcə böyüyüb universiteti qurtardım. Heç vaxt bu mövzuya qayıtmağı sevmirdim. Çünki onları fikrindən döndərmək mümkün deyildi. Bütün ölkələri az qala şəhər - şəhər, küçə - küçə tanıyan babamla nənəm yenə Azərbaycanın bütün dünyanın ən gözəl guşəsi olduğunu söyləyirdilər.

Yaxın günlərdə Avropa ölkələrinə səfərim var idi. Artıq babam həyatda deyildi .Nənəm məni böyük həvəslə səfərə hazırlaşdırır , arada bir :" Bax, Rafiq, -deyirdi, rəhmətlik baban bilirsən də nə deyirdi."

Mən babamın adını daşıyırdım. Bununla qürur duyurdum. Hər addım atanda babamın bu hərəkətimi bəyənəçəyinə əmin olmaq istəyirdim. Lakin bununla yanaşı məni hər kəs öz

müstəqil fikri olan biri kimi tanıyırdı. İndi də nənəmi qucaqlayıb dedim :

- O fikirlər babamın fikri idi. Görək bu Rafiq hansı fikirlərlə geriyə dönur.

Nənəmin gözləri dolub, uzaqlara baxdı. Mən nənəmi yaxşı tanıyırdım. O, nə olur olsun , müstəqil fikirlərə üstünlük verirdi. Bəzən mən səhv olsam da mütləq mənim fikirlərimə hörmətlə yanaşırdı. Nənəmi öpüb qapıdan çıxdım. İlk səfərim Berlinə idi. Orada bir neçə gün qalıb Amsterdama getməli idim. Lakin bu səfəri bir başa etmək mümkün olmadığı üçün Burusseldən keçməli oldum. Bu şəhərə çatanda günorta idi. Bir az şəhərin maraqlı yerlərini gəzdim. Ən məşhur yerlərdə şəkil çəkdirdim. Biletim gecə saat dörddə idi. Ona görə otelə getmək fikrindən vaz keçib gəzmək qərarına gəldim. Hər yerə nənəmin -babamın da gözü ilə baxırdım. Bu ağıllı , dünya görmüş insanların fikrini anlamaq istəyirdim. Axşam tərəfi bərk yoruldum və açdım. Kafelərin, barların birində oturub yemək yeyib su içmək istəyirdim . Susuzluqdan ciyərim yanırdı. Lakin hava qaralan kimi şəhərdə adam seyrəlməyə başladı. Mən hansı tərəfə gedəcəyimi düşünənə qədər . kafelər , barlar, bir sözlə hər yer bağlandı. Demək olar ki, şəhərə ölü sükut çökdü. Avropanın ortasında qarşılaşdığım bu mənzərəyə təəccüb etdim. Yəqin ki, onlar buna haqq qazandırardılar. Yatıb dincəlməli olduqlarını söyləyərdilər. Sabah tezdən şəhərdə qaynar həyat çağlayaçaqdı. Hər halda indiki vəziyyətə görə ürəyim sıxıldı. Ən vacibi isə aç və susuz idim. Gecə klublarına getmək istəmirdim . Çünki oralar da çox səs-küylü olurdu. Mən yorğun olduğum üçün sakit bir yer gəzirdim. Nəhayət bir taksi şoferi tapıb , məni bu hədsiz zəif işıqlı , səssiz yerdən gur işıqlı , həyat qaynayan bir yerə aparmağı xahiş etdim. Şofer gülümsəyib: İstədiyiniz yer çox da uzaqda deyil , - dedi. Bu körpünü keçib sağa dönən kimi orada olaçayıq. Sakitləşib oturdum. Lakin çəmi on beş dəqiqədən sonra sürü-

cü catdığımızı bildirdi. O , məni düşürəndə yenə də qəribə bir tərzdə gülümsündü. Mən küçə ilə gedir sürücünün gülməyinin səbəbini axtarırdım. Eyni zaman da küçədəki böyük vitirinlərə təəccüb edirdim. Düzdür , bura işıqlı və səs küylü idi. Amma buradakı işıqlarda da bir qəribəlik var idi. Yəni əsasən qırmızı və yaşıl olan neon lampaları çox tünd rəngdə idi . Bu bir yana mən küçə ilə irəliləyir və yolun kənarındakı sanki akvariumda oturmuş yarıçılpaq qadınları görüb təəccüb edirdim. Gözümü yayındırıb irəliləməyə çalışsam da qarşıda da həmin mənzərə ilə rastlaşırdım. Tez-tez oturuş vəziyyətini dəyişən bu qadınlar qəribə hərəkətlərlə məni içəriyə səsləyirdilər. Bir az da irəlilədə şüşədən olan qapıların biri açıldı və məni içəriyə dəvət etdilər. Mən etiraz edib daha sürətlə yeriməyə başladım. Qəflətən məni daha çox təəccübləndirən bir yazıya rast gəldim. Böyük işıqlı hərflərlə Hacı Məhəmmədin dönəri yazılmışdı. Aman allah , bu yazı məni özünə böyük bir cazibə qüvvəsi ilə çəkdi. Mən ora çatana qədər hələ uzaqdan iri hərflərlə yazılmış yeməklərin siyahısını oxuyurdum. Orada mənim istədiyim yeməklərin , ən əsası da kartof qızartmasının adı yazılmışdı. Ora çox tez çatdım . Çünki aclıq nəfəsimi kəsirdi , susuzluqdan dil -dodağım qurumuşdu. Görkəmindən əcnəbiyə oxşamayan alçaq boylu , daz başlı kök kişidən ingilis dilində yemək istədim. O başını bulayıb fransızca danışmağımı tələb etdi. Mən bu dili bilmədiyim üçün italyanca müraciət etdim. O , yenə də başa düşmədiyini anladıb fransızca danış , - dedi. Kişini başa sala bilmədiyim üçün narahat oldum. Onu mütləq başa salıb, ət yemədiyimi söyləməli idim. O, isə bircə kəlmə söz bilirdi. Fransız dilində danışın. Aman allah , mən acından ölürdüm. Əllərimi kənara acıb:Ay allah , mən bunu hansı dildə başa salım?- dedim. Gombulun sanki gözlərində işıq yandı. O,daxılın dalından çıxıb üstümə cumdu. Əlbəttə,, öz dilimizdə,- dedi. Bir an onun nə dedyini anlamadığım üçün bir də sual verdim. Ingiliscə : Nə deyirsiniz?- de-

dim. Böyük çılğınlıqla: Azərbaycan dilində ,öz dilimizdə danış , qardaş ,- dedi. Azərbaycan dilində eşitdiyim bu sözlər mənə ləzzət etdi. Öz dilimizdə yemək sifariş etdim. Hər ikimiz sevinirdik. Məhəmməd əldən ayaqdan gedib əlinə gələni süfrəyə düzürdü. Mən yediyim müddətdə başımdan aşağı suallar yağdırırdı , hansı rayondan olduğumu və Bakının Papanin adlandırılan məhəlləsini soruşdu. Mənim cavablarımdan həzz alırdı. Sanki gözümə baxıb orada məhəllənin adamlarını görürdü. Kimi isə tanıyanda kişinin sevincinin həddi hüdudu olmurdu. Sonra kök bədənini cəldliklə hərləyib yerindən qalxdı . Kimlərə isə zəng edib çağırdı. Yaxşı bir qonağım var , - dedi. Aradan on dəqqiqə keçməmiş içəriyə , yaşca məndən böyük olan , qırx - qırx beş yaş aralarında olan dörd nəfər gəldi. Onlar mənimlə elə görüşdülər ki, az qala onları tanıdığımı düşünürdüm. Oturan kimi suallara başladılar. İçərilərində ən uça boylusu olan göy göz kişi heç kimə aman vermirdi. Bütün məhəllələri, küçələri , az qala dalanları soruşurdu. Sovetskinin sökülməyə başladığını eşidəndə kişinin elə bil başına bir qaynar qazan su tökdülər. O, durmadan təkrara edirdi : Niyə sökürlər axı? Mən bu sualın üstündən ötüb ,Bakının gözəlləşdiyindən danışdım. Onlar isə köhnə məhəllələri Kubinkanı, Papanini , Sovetskini , Basini xəbər alırdılar. Ağzıma elə maraqla baxırdılar ki, mən bacarınca təsvir etdiyim hər yeri gözümün önünə dəqiq gətirməyə çalışırdım. Onlar yeni yerlər haqqında heç nə eşitmək istəmirdilər , ayaqları dəyən yerləri xatırlamaq istəyirdilər. Xatırladıqca kövrəlirdilər. Adi kiçik bir dalanı elə xatırlayirdilar ki, guya bir ağac və ya bir qəzet köşkü yaddan çıxsa dünya dağılacaqdı.

Nəhayət , xatırlama mərasimini bitirib məni şəhəri gəzməyə apardılar. Əslində onlar mənə şəhəri göstərməyə cəhd etsələr də əsl məqsədləri yaddlarından çıxıb qalan , onları maraqlandıran suallara cavab almaq idi. Təyyarənin uçmaq vaxtına lap az qalanda məni qaytarıb yenidən Hacı Məhəmmədin

dönər xanasına gətirdilər. Çünki çantamı orada qoymuşdum. Səmimi görüşüb ayrıldıq. Getməyə hazırlaşıb Məhəmməddən ona olan borcumu xəbər aldım. O , əlini lopa bığlarında gəzdirib, sonra əlini fırladıb otağı göstərdi :Sən bayaqdan oturduğun bu məkan Azərbaycanın bir parçası idi, - dedi. Özün bilirsən ki, bizdə qonaq pul ödəmir. Pulu Aydın ödəyib Aydın onların hansı olduğunu anlaşdıramağa çalışaraq qapıdan çıxdım . Bir neçə gün də Amsterdamda qaldım . Bütün gəzməli yerləri gəzdim. Gözəlliklərdən həzz aldım . İndi isə təyyarədən aşağı baxırdım. Topa - topa buludların arasından babamın xəyalını gözümün önündə çanlandırmağa çalışırdım . Öz özümə dönə - dönə sən düz deyirsən , baba , -deyib təkrar edirdim. Bu səyahətimin ən gözəl yeri , Məhəmməd demiş, Azərbaycanın bir parçası olan o məkan idi ki, orada istilik, məhəbbət , qayğı və hörmət var idi. Evə çatan kimi nənəmə ilk sözüm bu oldu. Nənə , sən düz deyirsən , Azərbaycan dünyanın hər yerindən gözəldir.

İNTİHAR

Ceyhun bu il universiteti qurtarırdı. Orta məktəbi kimi , ali məktəbi də əla qiymətlərlə başa vururdu. Amma ürəyində heç bir hiss yox idi. Kədərlənməsə də sevinə də bilmirdi. Heç rayona getməyə də həvəsi yox idi . Halbuki uşaqlar böyük həvəslə Nahidin toyuna getməyə hazırlaşırdı. Onlar universitetə qəbul olan ili Nahidgildə olmuşdular. Uzun müddət orada keçirdikləri xoş günləri unuda bilmirdilər. Həvəsi olmasa da uşaqlardan ayrılmaq istəmirdi. Çünki bilirdi ki, getməsə təkcə Nahid deyil ,uşaqların hamısı inciyəcəkdi. Uşaqlar Ceyhunun zarafatlarını çox sevirdi. Universitetin uzun enli dəhlizində dayanıb pəncərədən çölə baxırdı. Həyətdə uşaqlar qaynaşırdı. Ceyhun havaların qızdığını indicə

anladı. Çünki hamı nazik paltarda idi. O , isə qış boyu necə geyinirdisə elə həmin şalvar , köynək və gödəkcə idi. Nə qışda havanın soyuq olduğunu hiss etməmişdi , nə də ki, indi havanın qızdığından xəbəri yox idi. Bir an ona elə gəldi ki, çöldə altmış dərəcə istilik olsa yenə də bu gödəkcə ilə gəzərdi. Bütün hisslərinin öldüyünə təəccüb etmirdi. Bir vaxtlar başını dərslər və imtahanlar qatırdı. Hal hazırda ona elə gəlirdi ki, universitetin pəncərəsindən bir başa boşluğa atılıb havadan asılı qalacaq . Nədənsə boşluq da onu özünə çəkirdi. Havada uçmaq istəyirdi. Oğlanı fikirdən Süsənin səsi ayırdı. Qızın nəşəsi yerində idi. İçəridən gülə- gülə cıxıb , yenə də gülürdü. Ceyhun çevrilib ona baxdı. Qızın nəyə güldüyünü anlamaq istəyirdi, Lakin onun danışdığı sözlər başına çatmırdı. Ona elə gəlirdi ki, söz qızın ağzından çıxır və ona çatmaq əvəzinə havada uçur. Ceyhun Süsəni sevirdi. Ona görə bu dünyada bu qız kimi gözəl , incə , ağıllı , şirin qız yox idi. Birdən birə ürəyindən bir hiss keçdi. Elə indi bu saat Süsənə sual vermək istədi. Demək istəyirdi mən səni sevirəm , sən də məni sevərsənmi? Qızın gözünün içinə baxırdı. Nə dediyini isə başa düşmürdü. Hətta onu da bilmirdi ki, artıq sual veribmi? Qızın üzünə baxıb cürbəcür cavablar uydururdu. Birdən birə Süsənin səsindən diksinib sanki yuxudan ayıldı. Qız onun qolundan tutub silkələyirdi:" Eşitmirsən? Səhərdən danışıram cavab vermirsən? Elə bil ayaq üstə yatırsan . Nə olub?" Özünü ələ alıb gülümsədi. Qız sualını təkrar etdi:

- Toya gedəcəksən?

Qətiyyətlə: Hə, - deyib oradan uzaqlaşdı.

İki gündən sonra kirayələdikləri kiçik avtobusla rayona toya gedirdilər. Ceyhunun əlacı olsaydı həmin bu maşınla , bu uşaqlarla hara desən gedərdi. Maşından heç düşməzdi. Bu toplumdan ayrılanda dərd onu didib parçalayırdı. Burada isə ayrı aləm var idi. Uşaqlar danışıb gülürdülər. Onu söhbətə cəlb edə bilməsələr də heç olmasa bu onları dinləyirdi. Or-

talıq get-gedə qızışırdı . Uşaqlar gülməkdən qəşş edirdilər. Ən çox da Şahinin qızlardan birinin şalını belinə bağlayıb qadın rəqqasələr kimi oynamağı ləzzət edirdi. Bir azdan musiqini dəyişib hamı oynamağa başladı. Ceyhundan başqa da iki iç nəfər oynamırdı. Ceyhun nəinki oynamırdı , o artıq çoxdan burada deyildi. Bütün varlığı ilə evlərinə dönmüşdü. Anasının ağlamağı gözünün önündən çəkilmirdi. Çəkilmirdi deyəndə axır vaxtlar bunu hər gün görürdü. Lakin bu axırıncı dava onu yandırırdı. Ceyhun ailələrinin xoşbəxt olduğu illəri xatırlayırdı. Onların da sakit və xoş günləri var idi. Atası səhər işə gedir , axşam evə dönəndə anası onun gəlişini məhəbbətlə gözləyirdi. Birlikdə yeyib içib şənlənirdilər . İştirahət və bayram günlərində gəzməyə gedirdilər. Demək olar ki, ata - anası ayda iki üç dəfə toya və ya başqa şənliyə gedirdilər. Birlikdə bazar dükanı gəzib evə , ailəyə nə lazımdırsa alırdılar. Qırılıb tökülən yerləri təmir elətdiridilər. Evdə köhnələn hər şeyi təzələyirdilər. İki üç il bundan əvvəl hər şey dəyişməyə başladı. İlk günlər atası evə gec gəlməyə başladı. Get gedə istirahət və bayram günlərində gəzməyi azaltmağa başladılar. Sonra isə bir dəfəlik ləğv etdilər. Çünki o günlərdə atası evdə olmurdu. Hər dəfə yeni bir işi çıxdığı üçün hara isə getməli olduğunu söyləyirdi. Bütün bayramları onsuz keçirməli olurdular. Əslində bayram günləri onlar üçün matəmə çevrilirdi. Sonralar toylara atası heç vaxt anası ilə getmədi,bəhanə gətirib tək çağrıldığını deyirdi. Evdə hər şey qırılıb dağılıb köhnəlməyə başladı . Heç nəyə baxan yox idi. Ata -anası bütün günü dalaşırdı. Davalar dözülməz hal almışdı. Uşaqların dərsinə , yeməyinə, geyiminə fikir verən yox idi. Günlər bir birindən pis gəlirdi. Atası günbəgün yadlaşırdı. Heç nə vecinə deyildi . Nə qızların ağlamağı , nə Ceyhunun hədsiz dərəcədə kefsiz olmağı onu narahat etmirdi. Bir həftə bundan əvvəlki hadisə oğlanı dəhşətə gətirmişdi. Səhər yuxudan ata anasının növbəti davasına oyanmışdı. O, hər gün ümidlə ata

anasının əvvəlki günlərə qayıtmağını gözlədiyi halda atası var səsi ilə bağırıb : Mən bir dəfəlik boşanıram,- deyirdi. Ceyhun universiteti qurtarır daha yekə kişidir. Atasının sözü qədər anasının sözü onu yandırırdı. Nəyimə lazımdır Ceyhunun universitet qurtarmağı .

Avtobus Nahidgilin qapısının önündə dayanmışdı. Uşaqlar yenə də nəyə isə gülürdülər. Bir an Ceyhuna elə gəldi ki, uşaqlar onun düşündüklərini eşidib ona gülürlər. Hamı düşmüşdü , bir tək Ceyhun arxa oturacaqda oturub fikrə getmişdi. Nahid gəlməsə o hələ də oturduğu yerdən qalxmaq istəmirdi.

Bu gün Nahidgildə ciyər axşamı idi. Rayonlarda belə bir adət var idi. Toydan bir gün əvvəl ən yaxın adamlar yeyib içib oynayırdı. Bu mərasimin adı "ciyər axşamı" idi. Lakin bu əsl toy idi. Həyətdəki böyük çardağın altı adamla dolu idi. Ceyhun çox təəccüb edirdi. Burada bir toyun adamı var idi, eyni zamanda bir sərbəstlik var idi. Məclis ancaq yaxın adamlardan ibarət olduğu üçün əsl kef məclisini xatırladırdı. Aman allah , Ceyhunu Nahidgilin ailəsi mat qoymuşdu. Onu ata -anası qollarını bir- birinə keçirib uşaqlarının əhatəsində oynayırdılar . Hər ikisi Nahidi bağrına basıb öpürdü. Xalalar , bibilər əyinlərində xələt , əllərində kəfgir qaçıb rəqs edənlərə qoşulurdu. Ceyhun artıq evlərində dava dalaş başlayan gündən bəri evlərində bir qohum görməmişdi. Nə ata tərəf , nə də anısıgildən bir kimsə qapılarını açmırdı. Halbuki Ceyhunun uşaqlığı əmilərinin , dayılarının , xala və bibilərinin məhəbbətinin əhatəsində keçmişdi. O ,Nahidin yerində özünü, onu qucaqlayanların yerində bibilərini , xalalarını görürdü.

Bayaqdan oynayıb yorulmuş uşaqlar oturmağa gələndə Ceyhunu danladılar. Nə olub, niyə yasa batmısan? Söz oğlana güllə kimi dəydi. Gələn dəfə uşaqlara qoşulub ayağa durdu. Nahidi çox istəyirdi. Ona xoşbəxtlik arzulayırdı. Amma oynaya

bilmirdi , ürəyindən daş asılmışdı. O daşı sürüyə bilmirdi. Hara baxırdısa gözüyaşlı anasını görürdü. Səsi qulağına gəlirdi. Axı niyə mənim atam bizimlə maraqlanmır, bizim taleyimiz onu narahat etmir, deyə düşünürdü. Nahidin atası da onun atası kimi yol idarəsinin rəisi idi. Evləri , məhlələri cənnəti xatırladırdı . Hara baxırdısa gözünü oxşayırdı. Onların evləri isə xarabalığa bənzəyirdi. Atası gözünün qırağı ilə evə baxmırdı . Olan qalan köhnə əşyaları da vurub qırmışdı. Kül qabı atmaqdan divarlar , mebellər deşik- deşik olmuşdu.

Bu təntənəli mərasim gecə yarısı sona yetdi. Uşaqları qohumlar evlərinə apardı. Ceyhunu Nahidin anası heç yerə getməyə qoymadı . İkinci mərtəbədə lap başdakı otaqda ona yer açdı. Bu uşaq kefsiz görünür, narahatam, - dedi. Gecəni Ceyhun daş kimi yatdı. Səhər onu yuxudan çardağın altından səsləri gələn uşaqlar oyatdı. Qalxıb pəncərədən onlara baxırdı. Hər kəs danışıb gülürdü. Masanın baş tərəfinə buğlanan samovar qoyulmuşdu. Masanın üstündə barmaq basmağa yer yox idi. Ceyhunun iştahası yox idi. Əksinə, ürəyi bulanırdı. Uşaqlara baxıb nəyə güldüklərini düşünürdü. Ona elə gəlirdi ki gülməli heç nə yoxdur. Axır vaxtlar nə vaxt gülməyini xatırlamırdı. Hərdən içindən gəlməsə də kiminsə xətrinə gülümsəyirdi. Tələsik geyinib aşağı düşdü. Masaya otursa da bir fincan çayı zorla içdi.

Günortadan azca keçən kimi gəlin gətirməyə hazırlaşdıqlarını görəndə Ceyhun təəccüb etdi. lakin qız evində anladı ki, burada bir adət də var ki, bəyə və onun dostlarına süfrə açırlar .Yenidən yeyib içmək mərasimi başladı. Masanın üstündəki nazı nemətlərə baxıb heç nə yeyə bilmirdi. Sadəcə özünü yeyirmiş kimi göstərirdi. Yenə də gülənlərə təəccüb edib, onların xətrinə gülümsəyirdi.

Toy çox gözəl keçdi. Axşamkından fərqli olaraq indi hamı bəzəkli idi. Hətta Ceyhun axşam gördükləri adamların çoxunu tanımadı. Axşamkı məclis ona ləzzət etsə də, bu

günki təntənəyə də heyran qalırdı. Məclisdə bir sanbal var idi. Rəqs edənlər , yallı gedənlər məclisi tez qızışdırdılar. Bəylə gəlin oynayırdı. Uşaqlar onları dövrəyə almışdı. Ceyhun gəlinə baxırdı. Gözəl qızdı , xoşbəxt olsunlar , deyə düşünürdü. Sonra Nahidi qucaqlayıb qulağına xoşbəxt ol , -dedi. Bir dəfə qol qaldırıb o , da oynadı. Ürəyi sıxılırdı çölə çıxmaq istəyirdi. Nahidə bir də yaxınlaşıb qulağına :Süsənə deyərsən ki, Ceyhun səni çox sevirdi - deyib qapıdan çıxdı. Bir taksiyə oturub maşını Kür çayının kənarına sürdürdü. Taksinin pulunu verib söyüd ağacının dibində oturdu. Ayin işığında söyüdün budaqlarının suya düşən kölgəsi oynaşırdı. Azacıq əsən budaqları sağa -sola yellədirdi. Ceyhun suya baxırdı. Orada Süsənlə onun toyu idi. Onlar ortada oynayırdı , atası -anası , qohumları onları əhatə etmişdilər. Atası qolunu anasının qoluna keçirib bacıları ilə oynayırdı. Külək artdıqca söyüdün budaqları daha bərk yellənirdi. Və o zaman Ceyhuna elə gəlirdi ki qonaqlar daha sürətlə oynayır. O, gözünü sudan ayırmaq istəmirdi. Çünki dərhal o mehriban ailədən ayrılır , əsl həqiqət gözünün önündə canlanırdı ki, orada nə ailə var idi , nə də mehribanlıq. Halbuki , bir vaxtlar o ailə var idi , onun isti ocağı, dolu bucağı , tükənməz sevgisi var idi. O ocağı sarı qız dağıtdı. Bir vaxtlar atasının maşınında gördüyü boyalı qız. Ceyhun gözünü sudan çəkdi. Reallıqla üz-üzə qaldı . Səhər evlərinə dönməli idi. Bir neçə gündən sonra məhkəmə olmalı idi. Ceyhun anasının halını düşünəndə dəhşətə gəldi . Sevil ailəsinin dağılmağını təsvir etmirdi. Qohumlarla , rəfiqələri ilə danışanda yalan sözdür deyirdi. Zahid məndən heç vaxt ayrılmaz. O uşaqlarını atıb getməz. Zahid isə artıq ayrılmaq üçün məhkəməyə müraciət etmişdi. Özü də getməyə hazırlaşırdı . Bunu kim bilməsə də Ceyhun bilirdi. O yavaş- yavaş əşyalarını aparırdı. Hətta qarajdan da maşın hissələrini daşıyıb aparmışdı. Sevil buna inanmasa da Zahid onu və uşaqları atıb gedirdi.

Ceyhun yenidən suya baxdı. Orada yenə toy idi. Sürətlə axan Kür çayının üzərində , ay işığında oynaşan kölgələrdə yenə ata - analarını , qohumları görürdü. Onlar yallı gedirdi. O , suya diqqətlə baxıb atası ilə anasının arasına girmək istəyən sarı qızı gördü. Qız onlara çatırdı ,atasının əlini anasının əlindən qoparmağa çalışırdı. Ceyhun var səsi ilə yox deyib suya atıldı. Ertəsi gün onun cəsədini çox da uzaqda olmayan bir cəngəllikdən tapdılar. Uşaqlar səhərə gəldikləri avtobusla , o isə atasının tutduğu maşınla qayıtdı. Onun cəsədini maşına mindirəndə Nahid hamıdan çox ağlayan Süsənə yaxınlaşıb : Ceyhun səni sevirdi- dedi.

OĞRU

Hər il yayda rayondakı evimizə gedirdik . Lakin iş elə gətirdi ki, iki il dalbadal gedə bilmədik . Belə ki , tətili başqa ölkələrdə keçirməli olduq . Dünya cənnətə dönsə yenə öz rayonumuzdan, evimizdən ötəri darıxmışdıq . Ona görə bu il havalar qızan kimi yığışıb rayondakı evimizə getdik. Evimizə axşamtərəfi çatıb , məhləyə girəndə təəccüb etdik. Gəlmədiyimiz bu iki il ərzində məhləni ot basmışdı. Ağaclar o qədər böyümüşdü ki, məhlə meşəni xatırladırdı. Aslan qonşudan bir fəhlə tapıb gətirdi. Heç olmasa evin qarşısındakı otları yolub təmizlədi . Qanqallar az qala adam boyu qədər qalxıb çiçəkləmişdi. Pilləkənləri bir təhər yuxarı qalxıb qapıları açdıq. Otaqların çox böyük olduğunu sanki indi görürdüm. Şəhərdəki evdən sonra bura qəsri xatırladırdı. Pəncərələrin qabağında əkilən ağaclar böyüyüb qol budaq atıb otaqlara qəribə bir kölgə salmışdı. Otaqları bir - bir gəzməyə başladıq . Hər yerdə eyni hal ilə qarşıladıq. Ağacların yarpaqlarının arasından çöl görünmürdü. Birinci gün toz - torpağı bir az təmizləyib, əşyalarımızı yerləşdirdik. Ertəsi gün İki qadın gətirib hər yeri təmizlədib pəncərələri sildirdim. Pərdələri dəyişib

dolabdakı təmiz pərdələri asdırdım. Ev səliqəyə düşdükcə gözəlləşirdi. Böyük açıq eyvanda oturub bu evin vaxtı ilə olan səs küylü vaxtını xatırlayırdım. Bir vaxtlar bu pilləkənlərlə uşaqlar yuxarı aşağı qaçıb bağırışırdılar, həyətdə kimlərsə nərd oynayır, Məsmə arvad məhlənin bir tərəfində yorğan döşək salırdı. Cardağın altında söhbət edən qadınların səs - küyü məhləni başına götürürdü. İndi isə tam sakitlik idi. Samovarı qaynadıb şənlik yaratmaq istədim. Ətrafına toplaşan olmadığı üçün bir şey alınmadı. Axşamdan bir az televizor izləyib yatmağa keçdik. Gecənin bir vaxtı qulağıma qəribə səs gəldi . Ayıldım, narın - narın yağış yağırdı . Hərdən şimşək çaxıb otağımızı işiqlandırırdı. Dünəndən bizə məlum olmuşdu ki, gecələr işıqlar sönür. Ona görə yanımdakı dolabın üstünə batareya qoymuşdum. Batareyanı yandırıb oturdum. Bayaqkı səs yenidən gəldi , lap aydın eşidildi. Kimsə pianinonu dınqıldadırdı. Piano, qapısı biz yatan otağa açılan böyük dəhlizdə yerləşirdi. Çox təəccüb etdim . Nə Aslan , nə də mən piano calan deyildik. Ona görə ona yaxın gedib qapağını açdığımız yadıma gəlmirdi. Piano calan isə durmadan dınqıldadırdı. Sanki bu başdan başlayıb o başadək dilləri basabasa gedir və bir də təkrar edirdi. Qorxa -qorxa Aslan tərəfə baxdım . Səsə o, da oyanıbmış. Barmağını dodağının üstünə qoyub sus işarəsi verdi. Sonra cəldliklə yerindən qalxıb qapının dalını bağladı. Ehmalca dolabdakı ov tüfəngini götürüb hazır vəziyyətə gətirdi. Səs isə kəsmək bilmədən davam edirdi. Təəccüblə: Oğru niyə piano çalır?- dedim. O , yenə də sus işarəsini verib qapıya lap yaxınlaşdı. Pıçıltı ilə: Bizim oyaq olmağımızı bilmək istəyir , - dedi. Bir şey anlamasam da inanmağa məcbur oldum. Yağış artmışdı , şırhaşırla yağırdı. Müsiqiçimiz daha bərk dınqıldatmağa başlamışdı. Aslan hirslənib rəzəni açıb qapını itələdi. Onu görəndə iri qara pişik pianonun üstündən hoppanıb miyoldaya - miyoldaya dəhlizdən qaçıb zala keçdi. Qapını açıb pişiyi çölə qovub gül-

məyə başladıq. Sən demə təmizliyə gələn qadın tozunu təmizləmək üçün pianonun qapağını açıb , sonra da açıq qoyubmuş. Amma hər dəfə bu hadisəni danışıb güləndə bərk qorxduğumu da xatırlayıb məyus olurdum.

TƏSDİQ OLUNMUŞ YALAN

Sərdar uzun illərdən bəri Oktay müəllimin yanında sürücü işləyirdi. Kişinin işini bir idarədən başqa idarəyə keçirəndə mütləq Sərdarı da özü ilə aparırdı. Hələ vaxt olurdu ki, Oktay müəllim işsiz qalırdı. Həmin vaxt Sərdar da bağındakı meyvədən zaddan satıb bir təhər dolanıb, Oktay müəllimin yeni iş tapmağını gözləyirdi. Bu işə hər kəs təəccüb etsə də olan bu idi. Hamıya təəccüblü gələn o idi ki, Oktay müəllimlə Sərdar bir - birindən tam fərqli adamlar idi. Oktay müəllim cılğın, tez hirslənən , hövsələsiz adam idi. Sərdar isə onun əksinə sakit , səbirli, ağzıbütöv, etibarlı bir adam idi. Qəribəsi o idi ki, Oktay müəllim onunla çox hörmətlə davranırdı. Ya Sərdar özünə söz dedirtmirdi, ya da ki, Oktay ona hörmətlə yanaşırdı. Ən vacibi isə Oktay müəllim ona çox güvənib etibar edirdi.

On beş günə yaxın idi ki, Sərdarın atası rəhmətə getmişdi. Atasının qəfil ölümü onu sarsıtmışdı. Heç cür özünə gələ bilmirdi .Oktay müəllimin xətrinə işə gəlsə də özündə sözündə olmurdu. Atası ona tək atalıq etməmişdi . Onunla həm yaxın dost , həm də güvəniləcək qardaş kimi idi.

Oktay müəllimin evində isə iki gün idi ki dava gedirdi. O iki gün bundan əvvəl evə gecə yarı dönmüşdü. Köynəyində dodaq boyasının ləkələri olmağı ilə yanaşı , sərxoş halda, Gülnaz xanıma başqa bir qadının adını deyib müraciət etmişdi. Vəssalam , elə o dəqiqədən bəri Gülnaz xanım susmaq bilmədən dava edirdi. O dodaq boyasına batmış köynə-

yi Oktayın gözünə soxub: Nara kimdir? - deyib dururdu. Kişi isə qətiyyətlə Nara adlı birini tanımadığını, köynəyini isə sousla buladığını təkrarlayırdı. Hər səhər Oktay işə getməmişdən əvvəl dava başlayır, arxası kişinin işdən dönməyinə qalırdı. Oktayın andının - amanının heç bir xeyri olmurdu. Gülnaz günlər ötdükcə sakitləşmək əvəzinə daha da qızışırdı. Hələ indi paltarlarını da toplayıb , boşanıram deyirdi. Bu durumdan uşaqlar da əziyyət çəkib, gül kimi saralmışdı. Oktay vəziyyəti düzəltmək üçün çarə axtarırdı. İlk ağlına gələn Sərdar oldu. Gülnazın ona inam və etibarı olduğu üçün onu çağırıb dedi:

- Sərdar , sən atanın goru, bu Gülnaza düzünü de , mən Nara adlı birini tanıyıram?

Sərdar başını qaldırıb Oqtay müəllimin üzünə baxdı. Sonra əlini atası ölən gündən bəri qırxılmadığı üçün tük basmış saqqalında gəzdirib sakit bir tərzdə dedi:

- Atamın goru haqqı tanıyırsan.

Gözünü Sərdarın ağzına dikmiş olan Oktayla Gülnaz hər ikisi birdən diksinib: Nə? - deyə qışqırdılar.

Sərdar halını pozmadan: Oktay müəllim, atamın öldüyünün heç qırx günü tamam olmayıb ,bağışla , onun goruna yalandan and içə bilmərəm, deyib oradan uzaqlaşdı. Oktay ilə Gülnaz bir an susub qəhqəhə ilə gülməyə başladılar . Elə bu gülüşdə onların barışmağına səbəb oldu.

MEMAR

Səlim universitet bitirəndən yaxşı işlərdə işləyirdi. Həm iş yerlərində, həm də xalq arasında yaxşı hörməti var idi. O , yaxşı insan olmaqla yanaşı həm də çox zarafatcıl adam idi. Bacarınca dava dalaşdan, söz söhbətdən kənar olmağa çalışardı. Ona görə də ən mürəkkəb davalı bir məsələni zarafata salıb üstündən ötərdi. Bir də onun bir xüsusiyyəti var idi. Halallıqla , zəhmətlə qazandığı pulu yeyib içməyə xərcləyirdi . Masa arxasına da tək keçməyi sevməzdi. Qohumu , qonşunu , dostu başına yığıb kef məclisi açardı. Hər kəs də onun yanında oturmaqdan həzz aldığı üçün, onun məclisində olmaq üçün can atırdı . Demək olar ki, Səlimin gəncliyi beləcə ötdü. Və bir vaxt gözünü açıb gördü ki, oğlu -qızı böyüyüb.Qazandıqları isə kef məclislərində yeyilib içilib qurtarıb. Uşaqlar çətinliklərlə üzbəüz qalıb .Qızlar böyüyüb,qapını elcilər döyməyə başlayıb . Onlara cehiz verib, toy edib yola salmaq lazım idi. Oğlanlar qız sevirdi. Onlara qızıl alıb nişan aparmaq, sonra da toy edib ev-eşik yiyəsi etmək lazım idi. Səlim balalarını çox sevirdi. Onların hər işini yerli yerində görmək istəyirdi. Qızlarının ər evinə cehizsiz getməyinə razı ola bilməzdi. Nə də ki, oğlanlarının ailə quracağı qızın qarşısında gözü kölgəli olmağını istəmirdi. Leylinin axır vaxtlar ona verdiyi xəbərlər sanki kişini silkələyib yuxudan oyatmışdı. Uşaqların böyüdüyü indi görürmüş kimi uşaqlara yenidən nəzər salırdı. Onlar baxıb Leylinin haqlı olduğunu anladı . Doğurdan da baba olmaq vaxtının çatdığına əmin olub , düşünməyə başladı . İlk əvvəl yeyib içməyi , qonaqlıqları azaltdı. Ayıq başla problemləri dinləyəndə qarşıda onu böyük çətinliklər gözlədiyini görüb, baş sındırmağa başladı. Gecə gündüz nə edəçəyini düşündü. Onun ətrafına yığılıb müftə yeyib içənləri dərd götürmüşdü. Səlimin məclisləri olmasa qarınlarını harada dolduraçaqlarını , boğazlarını harada otaracaqlanı

düşünüb narahat olurdular. Nəhayət dostlardan biri Səlimə halal yolla çox pul qazanmaq üçün yol göstərib dedi:

- Ay qardaş ,sən yaxşı memarsan. Əlindən hər iş gəlir. Baş daşı düzəldənlər pula pul demirlər. Demirsən ki, halal pul? Burada haram heç nə yoxdur, zəhmət çəkib daşların üzərinə şəkil çəkib pulunu da alacaqsan.

Səlimin əvvəlcə təklif xoşuna gəlmədi. Lakin bir neçə gündən sonra düşünüb daşınıb bu işi əlinə almaq qərarına gəldi. Onu bu sənətdə tanıyan olmadığı üçün tanışlardan ona müştəri tapmağı xahiş etdi. Aradan az bir zaman keçməmiş dağ kəndlərinin birindən bir oğlan gəlib atası üçün daş sifariş etdi. Səlim başında böyük , el arasında motal papaq deyilən bir papaq olan qoca çirkin kişinin şəklini daşa döyməyə başladı. İşini asan və tezliklə yerinə yetirib özündən razı halda müştərinin gəlməyini gözlədi. Axşam ürəklə qonşunun toyuna getdi. Yaxşıca yeyib içib həmişəki adətindən fərqli olaraq ertədən yatdı. Gecə yarıdan sonra yuxudan oyanıb su içmək üçün həyətə düşdü. Pilləkənlərin başında ilk gözünə sataşan cardağın altında dayanan qoca papaqlı kişi oldu. Səlim Sərxoş halda haradansa tanıdığı kişini səslədi:

- Ay kişi, nə gəzirsən orada ? Səninlə deyiləm, ay kişi ,nə edirsən mənim həyətimdə?

Səlim nə qədər bağırdısa motal papaq kişi yerindən tərpənmədən ağzında da lopa bığları dayanıb Səlimə baxırdı. Səlimin cin başına vurdu. Hirsindən dil dodağı əsdi. Bir göz qırpımında içəri keçib ov tüfəngini götürüb gülləni tüfəngin ağzına verib tətiyi çəkdi. Güllə daşa dəymiş kimi bir səs çıxarsa da deyəsən qocanın sifətinin bir tərəfi parçalandı , amma yenə də məqrur bir görkəmlə yerində dayanmışdı. Səlim çox təəccüb etdi. Sonra özü zorla ayaq üstə durduğu üçün : Cəhənnəmə dur yerində,- deyib su vedrəsinin üstündəki qulplu , dəmir qabı doldurub doyunca su içib ,yatmağa getdi. Səhər yuxundan hamıdan tez oyanıb gecəki hadisəni zorla xa-

tırladı. Yenə təəccüb etdi, yerindən dik atılıb həyətə düşdü. Pilləkənin başına çatan kimi gözü bir tərəfini güllə parçalamış olan daşa sataşıb məsələnin nə yerdə olduğunu anlayıb məyus oldu. Başı bərk ağrıyırdı, elə bil başından daş asılmışdı. Həyətdəki taxtın üstündə oturub fikrə getmişdi. Elə bu zaman daşı sifariş edən oğlanın özü deyil, böyük qardaşı daşı aparmağa gəldi. Kişinin həm də yeni sifarişi var idi. Qayınatasına daş sifariş etdirmək istəyirdi. Ona görə əvvəlcə sifarişini edib , sonra daşını aparmaq fikrində idi. Həmin məqsədlə cibindən qayınatasının şəklini çıxarıb masanın üstünə qoydu. Ağzını açıb danışmaq istəyirdi ki, Səlim daşa dönmüş başını qaldırıb kişinin üzünə baxıb dedi:

- Yox qardaş , qadan alım, mən daha sifariş götürmürəm . Sonra əlini daşa uzadıb: Bu köpək oğlu bu gecə məni qorxudub, dəli edib, - dedi.

Kişi təəccüblə donub Səlimin göstərdiyi səmtə baxdı . Atasını bir tərəfi parçalınmış daşına görüb gözləri böyümüş halda dedi:

- Atam?

Səlim qarşısındakı kişinin sifarişçinin qardaşı olduğunu anlayıb pərt oldu. Daşı parçaladığı yetmir hələ üstəlik də oğlunun yanında kişiyə söydüyü üçün iki qat peşman oldu. Oğlandan dönə -dönə üzür istədi. Və doğrudan da o gündən sonra baş daşı düzəltməyi bir dəfəlik ləğv etdi. Bu onun ilk və son sifarişi idi.

-